AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XXII cild

## DASTANLAR

### XII kitab

BAKI – 2011

***AMEA Folklor İnstitutu***
***Elmi Şurasının qərarı ilə çap olunur***

**REDAKSİYA HEYƏTİ**

**Hüseyn İsmayılov,** filologiya elmləri doktoru, prof. **(sədr);**
**İsrafil Abbaslı,** filologiya elmləri doktoru, professor;
**Teymur Bünyadov,** akademik;
**Tofiq Hacıyev,** AMEA-nın müxbir üzvü;
**Məhərrəm Cəfərli,** filologiya elmləri doktoru, professor;
**Paşa Əfəndiyev,** filologiya elmləri doktoru, professor;
**Oruc Əliyev,** filologiya elmləri namizədi;
**Qara Namazov,** filologiya elmləri doktoru, professor;
**Azad Nəbiyev,** AMEA-nın müxbir üzvü;
**Əziz Ələkbərli,** filologiya elmləri namizədi;
**Ağaverdi Xəlil,** filologiya elmləri namizədi;
**Seyfəddin Rzasoy,** filologiya elmləri namizədi **(məsul katib).**

**TƏRTİB EDƏN: f.e.d. prof. Hüseyn İSMAYILOV**

**Azərbaycan folkloru külliyyatı, XXII cild, Dastanlar (XII kitab), Bakı,** "Nurlan" nəşriyyatı, 2011, - səh.

Azərbaycan folkloru külliyyatının bu cildində 5 cildlik "Azərbaycan dastanları" kitabının görkəmli folklorşünaslar M.H.Təhmasib və Ə.Axundovun tərtib etdiyi 3-cü cildindəki və AMEA Folklor İnstitutunun Folklor arxivindəki mətnlərdən istifadə olunmuşdur.

**4603000000**
**A ---------------- Qrifli nəşr**
**N-098-2011**

**©Folklor İnstitutu, 2011**

# *ŞAH İSMAYIL*

## USTADNAMƏ

Üç yaşından beş yaşına varanda,
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda,
Arıdan saçılmış bala bənzərsən.

On dördündə sevda yenər başına,
On beşində yavan girər duşuna,
Çünki yetdin iyirmi dörd yaşına,
Boz, bulanıq axan selə bənzərsən.

Otuzunda kəklik kimi səkərsən,
İyidlik eyləyib qanlar tökərsən,
Qırxında sən əl haramdan çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən.

Əllisində əlif qəddin çəkilir,
Altmışında ön dişlərin tökülür,
Yetmişində qəddin, belin bükülür,
Karvanı kəsilmiş yola bənzərsən.

Səksənində sinir yenər dizinə,
Doxsanında qubar qonar gözünə,
Koroğlu der: çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, dostların könlü tox olsun.

Hökuməti-Zöhhak, ol Rüstəmi-Zal,
Oxun qara daşa çaldı da getdi.

Üzü qara iblis xəyal eylədi,
Tanrı qəzəbini aldı da getdi.

Yetmiş iki dildən eylədi əzbər,
Quşlar dili ilə apardı xəbər,
Söylə, hanı o Süleyman peyğəmbər?
Əlindən qamçını saldı da getdi.

Yunis çəkdi o tanrının cəbrini,
Gəmiyə qoydular Nuhi-nəbini,
Endi, gəşd eylədi dərya dibini,
Bir müddət balıqda qaldı da getdi.

Ay ilə gün bir-birilə ötüşüb,
Müşgül işi dua ilə bitişib,
Ərizün indi növbət sənə yetişib,
Çoxlar bu dünyaya gəldi də getdi.

Ustadlar ustadnaməni iki deməyib, üç deyərlər, biz də deyək üç olsun.

Dinləyin, ağalar, tərif eləyim,
Heç yaza çıxmasın qışı namərdin,
Kor olsun gözləri, batsın oylağı,
Alaqarğa olsun quşu namərdin.

Ovcunun içində yeyər çörəyi,
Qapıdan çağırsan titrər ürəyi,
Qurusun meyvəsi, bağı, tənəyi,
Heç aşa dəyməsin dişi namərdin.

İstəməz yanında yarı, yoldaşı,
Heç gəlməz evinə qohum-qardaşı,

Nagah gəlsə salar talaşı,
Açılmaz qabağı, qaşı namərdin.

Canım qurban olsun mərd oğlu mərdə,
Mərifət dilində, kamalı sərdə.
Nagah bir qulluğun düşsə namərdə,
Çal qabana dönər başı namərdin.

Axşam olur, molla verir azanı,
Heç qaynamaz ocağında qazanı,
Qanarmısız bu sözləri yazanı?
Bundan beş-betərdi işi namərdin.

Mən adımı bildirmirəm ellərə,
Namərd düşsün cəlay-vətən çöllərə.
Qazandığı nemət getsin yellərə,
Qalmasın daş üstə daşı namərdin.

Ustadlar nağıl eləyirlər ki, Qəndəhar şəhərində Ədil adlı bir padşah var idi. Ədil padşah o qədər varlı, dövlətli idi ki, dəryalar mürəkkəb olsa idi, meşələr qələm, onun dövlətini hesablamaq olmazdı. Ədil padşah bir gün başını qırxdırmaq üçün bir dəllək çağırtdı. Dəllək naşı idi, padşahın başını qırxıb, tükünü qabaq tərəfdən döşünə tökdü. Padşah başının tükünü ağarmış görəndə bir yanıqlı ah çəkdi. Bildi ki, ömrünün, gününün keçmiş vaxtıdı. O saat vəziri çağırtdırdı. Elə ki, vəzir gəldi, padşah üzünü ona tutub dedi:

- Ay vəzir, özün mənim dövlətimin, malımın həddindən aşdığını yaxşı bilirsən. Günüm keçib, başım gora titrəyir. Mən öləndən sonra bu mal-dövlətə sahib olub çırağımı yandıran bir evladım yoxdu. De görüm, bu barədə tədbirin nədi?

Vəzir dedi:

- Təsəddüqün olum, sən mal-dövlətini üç qısım elə. İki qısmını fağır-füğaraya payla, bəlkə evladın ola.

Ədil padşah dövlətini üç qısım elədi. İki qısmını fağır-füğaraya payladı.

Bundan xeyli keçdi. Bir gün padşahın qapısına bir dərviş gəldi, padşah ona pay verdi. Dərviş payı almayıb dedi:

- Biz pay alan dərvişlərdən deyilik, pay verən dərvişlərdənik.

Dərviş bu sözdən sonra cibindən bir alma çıxardıb, padşaha verib dedi:

- Bu almanı soy, qabığını qulunluğundan doğmayan Qəmərnişan madyana ver; özünü də iki qısım elə, bir qısmını sən ye, bir qısmını da arvadın yesin. Çox keçməz ki, bir oğlun olar. Oğlunun adını Şah İsmayıl qoy. Qəmərnişan madyanın da bir qulunu olar, onun da adını Qəmərday qoy. Şah İsmayılı o Qəmərdaydan savayı heç bir at gəzdirə bilməz. Şah İsmayılın başına çox qəza-qədər gələr, axırda mətləbinə çatar, tacı-taxtına sahib olar.

Ədil padşah dərvişdən almanı aldı, arvadının yanına gəldi. Almanı soydu, qabığını Qəmərnişan madyana verdi, özünü də iki qısım elədi, birini arvadı, birini də özü yedi. Aylar keçdi, Ədil padşahın bir oğlu oldu. Qulunu Qəmərday adlandırdılar. Qəmərdayı tövləyə bağlayıb, muğayat olmağa başladılar.

Ədil padşah oğlunu dayaya verdi. Şah İsmayıl yeddi-səkkiz yaşına çatdı. Ədil padşah o zamanın adətilə oğlunu yaman gözdən saxlamaq üçün zirzəmidə ona məxsus bir otaq qurdurdu. Bir molla ona burada dərs verməyə başladı. Günlər keçdi, aylar dolandı, Şah İsmayıl böyüyüb on beş yaşına çatdı. Elə idi ki, zirzəmidə yaxşı xörəklərdən yeyib, yeddiyaşar buğaya dönmüşdü, əlinə keçəni vururdu, qırırdı.

Şah İsmayılın bu nadincliyinə görə, aşpaz ona həmişə sümüksüz xörək verərdi. Bir gün molla ilə aşpaz şəhərə çıxmışdılar. Şah İsmayılın yemək vaxtı idi. Xörəyi aşpazın şəyirdi hazırladı, sümüyünü çıxartmamış apardı. Şah İsmayıla verdi. Şah İsmayıl xörəyi yediyi vaxt sümük əlinə keçdi. Şah İsmayıl ha çalışdı sümüyü qıra bilmədi. Dedi, yəqin bu da ət ağacıdı. Sümüyü bərk salveyladı. Sümük əlindən güllə kimi çıxdı, dəyib şüşəni sındırdı, zirzəmiyə gün düşdü. Şah İsmayıl ta uşaqlıqdan bəri işıqlı dünyaya çıxmamışdı. Ayı, günü görməmişdi. O elə bildi ki, içəri düşən gün pəhlivandı, onunla güləşməyə gəlir. Ha çalışdı, günü tuta bilmədi. Üzü üstə yıxıldı, günün şüaları onun üstünə düşdü. Əlini uzatdı, əlinə gəlmədi. Şah İsmayıl gün ilə o qədər əlləşdi ki, lap qan-tərə batdı. Bu vaxt molla şəhərdən qayıtdı. Halı belə görüb tez əmmaməsini götürüb, gün düşən yerə basdı. Şah İsmayıl ha vaxtdan bəri tutmağa çalışdığı gün yox oldu, dedi:

- Ay molla əmi, o mənimlə güləşən pəhlivanı neynədin?

Molla dedi:

- Ay bala, o quş idi, uçdu getdi. Sən onu tuta bilməzdin.

Şah İsmayıl dedi:

- Molla əmi, and olsun babamın taxtına, düzünü deməsən, səni çəkib ortadan cıraram, de görüm o nə idi?

Molla gördü bu hır-zır qanmır, bir az da oyan-buyan danışsa dəli inək balasını ayaqlayan kimi onu ayaqlayacaq.

Canının qorxusundan dedi:

- Ay bala, hər yer bura kimi qaranlıq zirzəmi deyil. İşıqlı dünya var, yaxşı ay var, gün var, yaxşı gəzməli yerlər var.

Şah İsmayıl dedi:

- Molla əmi, bə elə şeylər var, məni niyə zirzəmiyə

salıb, ömrümü, günümü çürüdürsünüz? İndi ki, o dediyin yerlərə getmək olar, onda get atama deyinən oğlun işıqlı dünyaya çıxmaq istəyir.

Molla Ədil padşahın yanına gəldi. Əhvalatı ona söylədi. Ədil padşah, gözünün ağı-qarası bir oğlu varıdı, sözünü yerə salmadı. Şah İsmayılı zirzəmidən çıxartdı, özü ilə bərabər əyanların məclisinə apardı.

Bir gün Şah İsmayıl vəzir ilə Qəndəhar şəhərinə gəzməyə çıxmışdı. Şəhərdə bir dəstə atlı, yaraqlı adam gördü, onların nəçi olduğunu vəzirdən xəbər aldı.

Vəzir dedi:

- Bunlar xoş səfalı, güllü-gülzarlı yaylaqlardan şikar eləyib gəlirlər.

Şah İsmayılın könlü atlandı, səfalı yaylaqlardan şikar eləmək həvəsinə düşdü.

Dedi:

- Vəzir, get atamdan izn al, biz də şikara çıxaq.

Vəzir şahın hüzuruna gəldi. Oğlunun şikara getmək istədiyini söylədi. Şah dedi:

- Vəzir, izn verməyə ürəyim gəlmir. Amma gözümün ağı-qarası bir oğlumdu, qəlbini də sındıra bilmirəm. Əvvəl ona pəhlivanlıq məşqini öyrətdir, sonra özünlə şikara apar. Gözdə-qulaqda ol, özgə padşahın torpağına keçməsin.

Vəzir Şah İsmayılın yanına qayıtdı, atasının dediklərini ona dedi. Şah İsmayıl az zamanda şikar məşqini öyrəndi. Tövlədə bəslənmiş Qəmərdayı mindi, vəzir, vəkil, bir xeyli də atlı ilə şikara çıxdı. O qədər gəldilər ki, axırda Ədil padşahın torpağından çıxdılar. Bu vaxt vəzir dedi:

- Şahzadə, bura özgə padşahın torpağıdı. Başımızda qoşun azdı; şəhərə qayıdaq, çoxlu qoşun götürüb, sonra şikara çıxaq.

Şah İsmayıl əlacsız vəzirin dediyinə razı oldu. Şəhərə

qayıtdılar. Bir neçə gündən sonra yenə Şah İsmayıl atasından şikara getməyə izn aldı. Carçılar şəhərə düşdü. Şah İsmayılın uzaq şikar səfərinə getdiyini hamıya xəbər verdilər. Şəhər əhlindən özünə gümanı gələn atlanıb Şah İsmayılın başına toplandı. Şah İsmayıl vəzir, vəkil, qoşun ilə atlanıb, şikara çıxdı. Dağlarda, düzlərdə ov ovlaya-ovlaya o qədər getdilər ki, yenə özgə padşahın torpağına addadılar. Vəzir irəli yeriyib dedi:

- Şahzadə, bura özgə padşahın torpağıdı. Bizdən torpaqbasdı alarlar.

Şah İsmayıl dedi:

- Onu qılınc bilər, sürün gedək!

Bəli getdilər, getdilər, axırda güllü, çiçəkli bir dağa yetişdilər. Dağda şikar elədikləri vaxt şahzadə birdən bir ceyrana rast gəldi. Ceyranın ipəkdən çulu var idi. Çulun hər tərəfindən qızıl qumrovlar asılmışdı. Şah İsmayıl ceyranı diri tutmaq istədi. Üzünü qoşuna tutub dedi:

- Bu ceyranı hər tərəfdən ortaya alın, bəlkə diri tuta bildik. And olsun babamın tacına, ceyran hər kimin tərəfindən qaçsa onun boynunu vurduracağam.

Qoşun ceyranı üzük qaşı kimi araya aldı.

Bunlar burda qalsınlar sizə kimdən xəbər danışım, Gülzardan. Gülzar türkmanlı Mahmud paşanın qızı idi. Gözəlliyi ilə bütün Türkmanda məşhur idi. Çox padşahlar, paşalar, xanlar onu istəmişdisə də atası verməmişdi. Gülzar istəməyə-istəməyə öz əmisi oğlu Heydər bəyə adaxlanmışdı. Toy vaxtına da az qalmışdı.

Günlərin bir günündə Gülzar başında qırx kəniz seyrə çıxmışdı. Səfalı yaylaqları gəzə-gəzə gəlib çıxdılar haman dağa. Dağın ətəyində çadır qurub kənizləri yerbəyer elədi, sonra ceyran donuna düşüb, dağı dolanırdı ki, Şah İsmayıla rast gəldi. Gülzar dağdan enib, çadırına gəlmək istədi, gördü

dörd yanı atlı qoşun bürüyüb, heç bir yana çıxmaq mümkün deyil. Əlacı hər yandan kəsilib, süzgün-süzgün atlılara baxmağa başladı. Birdən gözü Şah İsmayıla sataşdı. Gördü, bu on yeddi, on səkkiz yaşına yenicə girmiş, qara qaş, qara göz bir cavandı. Bir könüldən, min könülə ona aşiq oldu. Dalınca gəlsin deyə, əl-ayağını yığışdırıb, sona kəklik kimi Şah İsmayılın başının üstündən sıçradı, qaça-qaça gedib öz çadırına girdi.

Şah İsmayıl adamlarına dedi:

- İndi ki, bu ceyran məni hamıdan fağır tapdı, mən də onun dalınca tək gedəcəyəm. Heç kəs mənimlə gəlməsin.

Şah İsmayıl bu sözdən sonra Qəmərdaya bir acı qamçı çəkib, ceyranın dalınca tərpəndi. Qəmərday yeldən yeyin, sudan iti gedirdi. Şah İsmayıl aman verməyib, Gülzar ilə daban basaraq obaya yetişdi. Baxdı ki, bura doludu qızla. Dedi:

- Qızlar, mənim şikarım ceyran buraya gəldi. Onu neylədiniz?

Kənizlərin içindən kənizbaşı qarı irəli durub dedi:

- Yazıq xanımımı dağdan bura kimi qovlayıb, bağrın yardığından utanmırsan, hələ ceyranımı neylədiniz də deyirsən?!

Şah İsmayılın hələ işdən xəbəri yox idi. O elə bilirdi ki, şikarı doğrudan da dağ ceyranıdı. Öz-özünə dedi: Gəl kənizbaşı qarıya qovalaya-qovalaya nə qədər zəhmət çəkdiyini de, bəlkə insafa gəlib davasız, şavasız, ceyranı verə.

Aldı Şah İsmayıl, görək nə dedi:

> Mən ovçuyam, öz ovumu ovlaram,[1]
> Alacağam, nənə, ceyran mənimdi.
> Yeddi bələn aşırıban qovladım,
> Alacağam, nənə, ceyran mənimdi.

Aldı qarı cavabında:

Mən ceyranı yeddi ildi saxlaram,
Kərəm eylə, oğlan, ceyran mənimdi.
Gündə üç yol çörək verib yoxlaram,
Kərəm eylə, oğlan, ceyran mənimdi.

Aldı Şah İsmayıl:

Mən ovçuyam, buraxmaram bu ovu,
Etdim o heyvana çox haqqı-sayı,
Əbəs ki, yormadım mən Qəmərdayı?
Alacağam, nənə, ceyran mənimdi.

Aldı qarı:

Qızıl qumroy düzdürmüşəm ətəkdən,
Ceyranımı çullamışam ipəkdən,
Bəzəmişəm əlvan-əlvan çiçəkdən,
Kərəm eylə, oğlan, ceyran mənimdi.

Aldı Şah İsmayıl:

Şah İsmayıl heç danışmaz ləcinən,
İşim yoxdu marazatnan, bicinən,
Verməsən də alacağam gücünən,
Alacağam, nənə, ceyran mənimdi.

Aldı qarı:

Mən qarıyam bu qürbətdə qalaram,
Dərd əlindən saralaram, solaram,
Təsəllimi bu ceyrandan alaram,
Kərəm eylə, oğlan, ceyran mənimdi.

Şah İsmayıl gördü ki, onlar ceyranı xoşluqla vermək

istəmirlər. Zorlayıb çadıra girmək istədi. Gülzar çadırda Şah İsmayılın dediklərini eşidirdi. Məhəbbəti birə min artmışdı. Özünə yeddi qələm ilə zinət verib, on dörd gecəlik ay kimi şəfəqləndi, onun qabağına çıxdı. Şah İsmayıl başdan-ayağa, ayaqdan-başa ala-şala bəzənmiş, yanaqları qızılgül qönçəsi, dodaqları qan piyaləsi kimi qızı görəndə ürəkdən ona vuruldu. Özünü saxlaya bilmədi, bihuş olub, atdan yerə yıxıldı.

Gülzar Şah İsmayılın birdən atdan yıxıldığını görəndə yanındakı Banı kənizə dedi:

- Ay qız, görəsən bu yazığı kim vurdu?

Gülzarın bu sualına bütün qızlar gülüşdülər. Banı sazı döşünə basıb dedi:

- Qulaq as, deyim kim vurdu.

Aldı Banı, görək nə dedi:

Görcəyin oğlanı atından saldı,
Çıxıbdı yaxandan, bax, məmələrin.
Əcəlsiz, azarsız canını aldın,
Qaytar tez yerinə tax məmələrin.

Qaşların cəlladdı, gözlərin sirdi,
Dodağın qaymaqdı, dişlərin dürdü,
Yanağın almadı, ləbin bülurdu,
Salıbdı aləmə şox məmələrin.

Banı kəmərini qurşayıb beldən,
İrəngin artıqdı qonçadan, güldən,
Sən istəsən o oğlanı dirildən,
Oyçala, ağzına sıx məmələrin.

Gülzar işi çoxdan duymuşdu. Amma qızlar bilməsin deyə üzə salmırdı, Banıya dedi:

- Ay qız, hayıfdı, o cavanın üzünə su səp, bəlkə ayıla.

Banı Şah İsmayılın üzünə su səpdi. Şah İsmayıl ayıldı, aldı, görək nə dedi:

Qaçırdım, ceyrana çata bilmədim,[2]
Göründü gözümə nuri-didarı.
Çapdım Qəmərdayı, yetə bilmədim,
Düşübdü canıma atəşi, narı.

Əlvan əlin gördüm, gülgəz yanağın,
Zərnişan dəstində sədəf dırnağın,
Almaya, heyvaya bənzətdim bağın,
Açıldı, göründü sədri-mərməri.

Qırxlar məclisində əzildi gilə,
Oxudu lal dilim, döndü bülbülə,
Xuda, sən kömək et Şah İsmayilə,
Bəlkə ala bilə bu Gülzarı.

Gülzarın könlü Şah İsmayılda idi. Amma istəmirdi ki, dağdan ona qoşulub qaçsın. Bilirdi ki, Şah İsmayıl vuran-tutan bir qoçaq oğlandı. Haraya getsə dalınca gəlib onu tapacaq. Şah İsmayıl sözünü bitirər-bitirməz Gülzar sarvanlara hökm elədi getməyə hazırlaşsınlar. Şah İsmayıl Gülzarın getməyini görüb, aldı, görək nə dedi:

Ala gözlü, nazlı ceyran,
Səndən ayrıla bilmərəm!
Xallarına oldum heyran,
Səndən ayrıla bilmərəm!

Aldı Gülzar cavabında:

Qəndəhardan gələn oğlan,

Sən get, oğlan, mən səninəm!
Məni dərdə salan oğlan,
Sən get, oğlan, mən səninəm!

Aldı Şah İsmayıl:

Səhərin dan ulduzusan,
Aşığın şirin sözünən,
Bilmirəm kimin qızısan,
Səndən ayrıla bilmərəm!

Aldı Gülzar:

Səhərin dan ulduzuyam,
Aşıqların söhbət-sazıyam;
Mahmud paşanın qızıyam,
Sən get, oğlan, mən səninəm!

Aldı Şah İsmayıl:

Şah İsmayıl yana-yana,
Yandı bağrım döndü qana,
Mən gəldim, sənə qurban,
Səndən ayrıla bilmərəm!

Aldı Gülzar:

Gülzaram, oldum dəli,
İlqar edən verər əli.
Özgələrə deməm bəli,
Sən get, oğlan, mən səninəm!

Şah İsmayıl Gülzarın ona meyli olduğunu bildi. Məhəbbəti daha da artdı, coşdu, aldı, görək nə dedi:

Aldı Şah İsmayıl:

Bir ceyranı qova-qova gətirdim,
İtirdim burada bir şikar, yeri!
Gözəllər yığılıb xəndan etdilər,
Oldular ceyrana haşakar, yeri!

Aldı Gülzar:

İtirdin ceyranı, tapdın maralı,
Yalqızsanmı, yoldaşın da var, yeri!
Səni saldım yanar-yanmaz odlara,
Qalx, çək bundan belə ahu zar, yeri!

Aldı Şah İsmayıl:

Həmişə çəkərəm bu ahu zarı,
Salıban könlümə yanan qubarı,
Aç yaxan, görünsün Savalan qarı,
Sataşsın gözümə qoşa nar, yeri!

Aldı Gülzar:

Oğlan, sən dəlisən, yoxsa divana?
Gedib ərz eylərəm ədalət xana;
Bir bülbül ki, gəlib girsə gülşana,
Almazmı bağbandan ixtiyar, yeri?!

Aldı Şah İsmayıl:

Qız, ayıb olmasa, de nədir adın?
Qıya baxdın, sınıq könlüm budadın;
Nişanlısan, yoxsa varmı namzadın?
Dolanıbmı ətrafında sar, yeri?!

Aldı Gülzar:

Mən gələndə evimizdə toyudu,
O toylar da mən gözəlin loyudu.
Sona kəklik tülək tərlan oyudu,
Dolanmayıb ətrafımda sar, yeri!

Aldı Şah İsmayıl:

Bülbül kimi ayrılmışam gülümdən,
Tərk olmuşam vətənimdən, elimdən,
Şah İsmayıl, ikimizin dilindən,
Gəl qoyaq arada bir ilqar, yeri!

Aldı Gülzar:

Ellərimiz vardı işvəli, nazlı,
Göllərimiz vardı ördəkli, qazlı,
Babam türkmanlıdı, anam şirazlı,
Öz adım Gülzar, al xabar, yeri!

Hər iki sevgili sözünü tamam elədi. Arada əhd-peyman qoyuldu. Üzüklərini bir-birinə nişana verdilər. Gülzar Şah İsmayıl ilə halallaşıb ayrılanda dedi:

- Altı ay səni gözləyəcəyəm, gəldin, səninəm, gəlmədin, atam toyumu eləyib, əmim oğlu Heydər bəyə verəsidi.

Gülzar Şah İsmayıldan ayrılıb kəcavəyə əyləşdi. Sarbanlar kəcavəni çəkdi. Gülzarı Türkmana gətirdilər.

Gülzar Türkmanda Şah İsmayılın yolunu gözləməkdə olsun, sizə Şah İsmayıldan danışım. Şah İsmayıl Gülzardan ayrılıb, Qəmərdaya mindi, üz qoydu qoşuna tərəf getməyə.

Çox getdi, az getdi, bir müddətdən sonra qoşuna yetişdi. Vəzir, vəkil, qoşun Şah İsmayılı məlul görüb, əl-ayağa düşdülər, dedilər:

- Şahzadə, niyə belə məlulsan? Harada idin?

Aldı Şah İsmayıl, görək nə dedi:

Ay həzarat, ay camaat,
Görün nələrdən ayrıldım.
Alma yanaq, ayna qabaq,
Dili şəkərdən ayrıldım.

Yar oduna qalanmadım,
Dilbərdən kamım almadım.
Bir gecə mehman olmadım,
Gül üzlü yardan ayrıldım.

Şah İsmayıl eylər dilək,
Həsrət qoydu bizi fələk,
Sərv boylu, huri, mələk,
Mən Gülzardan ayrıldım.

Vəzir, vəkil Şah İsmayılın Gülzara aşiq olduğunu bilib dedilər:

- Şahzadə, vətənimizə gedək, əvvələn el adəti üzrə elçi göndərib, qızı istəyək. Nə vaxt xoşluqla olmasa, onda qoşun çəkərik, zornan alıb gətirərik.

Şah İsmayıl onların sözünə razı oldu. Qoşun ilə bərabər qayıdıb Qəndəhara gəldi.

Ədil şah oğlunu yanına çağırıb dedi:

- Oğul, şikarın necə keçdi? Yaxşı gəzdin, dolandınmı?

Aldı Şah İsmayıl, görək nə dedi:

Canım ata, gözüm ata,
Şah, dərdimi necə deyim?

Ağ saqqalın nura bata,
Şah, dərdimi necə deyim?

Səhərin dan yıldızıdı,
Aşığın söhbət-sazıdı,
Mahmud paşanın qızıdı.
Şah, dərdimi necə deyim?

Şah İsmayıl, bağça-bardı,
Çəkdicəyim ahu zardı,
Yarın adı Gülüzardı;
Şah, dərdimi necə deyim?

Ədil şah dedi:

- Oğul, Qəndəhar şəhərində Gülzar kimi bir gözəl olsa, alsan, bu sevdadan əl çəkərsənmi?

Şah İsmayıl dedi:

- Şah baba, hərgah Qəndəharda Gülzar kimi gözəl olsa, könlüm onu sevsə, alıb qalaram. Səni, anamın gözünü yaşlı qoyub getmərəm.

Ədil padşah bu sözdən şad oldu. Car çəkdirdi. Bütün Qəndəhar şəhərində olan gözəl qızlar güllü bağa yığışdılar. Ədil padşah, Şah İsmayıl, vəzir, vəkil güllü bağa qızları görməyə gəldilər. Şah İsmayıl qızlara ha göz gəzdirdi, Gülzara bənzəyən bir gözəl görə bilmədi. Aldı, görək nə dedi:

Hurilər, pərilər yığılıb bağa,
Heç birisi Gülüzara bənzəməz.
İşvələri, qəmzələri, nazları,
Heç birisi Gülüzara bənzəməz.
Kimi al geyinib, kimi qırmızı,
Kim gül döşürür, kimi nərgizi,
Hamıdan göyçək vəzirin qızı,

Heç birisi Gülüzara bənzəməz.

Kimi al geyinib, kimi turabı,
Kimisi üzünə çəkib niqabı,
Deyil bunlar Şah İsmayılın babı,
Heç birisi Gülüzara bənzəməz.

Şah İsmayıl qızların heç birisini bəyənmədi. Hamısı xamdamaq evlərinə dağıldı. Ədil padşah Şah İsmayılın qızlardan heç birini bəyənmədiyinə çox qəzəbləndi, dedi:

- Öz günahın öz boynuna, hayana gedirsən get! Mən bir qızdan ötrü Türkmana qoşun çəkib dava eləyə bilmərəm!

Şah İsmayıl atasından bu sözü eşidib barigahdan çıxdı, Qəmərdayın ziltənkini bərkitdi, belinə qalxdı, sürüb anasının yanına gəldi, ondan getmək üçün rüsxət istədi. Şah İsmayılın anası Səlmə xanım oğlunun belə uzaq getmək istədiyini eşidib, gözlərindən yaş tökdü, dedi:

- Ay oğul, belə uzaq səfərə gedirsən, bəs köməyin hanı?

Aldı Şah İsmayıl, görək nə dedi:

Ana, südün halal eylə,
Gözlərindən tökmə abı.
Qorxma, səfərdən dönərəm;
Ayrılığa gətir tabı.

Gedirəm, yolum iraxdı,
Bülbül ötər səhər vaxtı,
Boş qalmasın babam taxtı,
Yıxılmasın o mehrabı.
Qəmərdayı mindim yola,
Ərənlər də mənlə ola...
Köməkçi Şah İsmayıla,

Mən oldum xak-turabı.

Şah İsmayıl anası ilə halallaşıb yola düşdü. O qədər at sürdü ki, axırda Gülzarla ilk tapışdığı dağa yetişdi. Sevgilisi yadına düşdü, aldı, görək nə dedi:

Mübtəlayam bir beymürvət gözələ,
İllərətən mən də hayanım indi.
Getdim gördüm köç eləyib yurdundan,
Nazlı dilbər, yarəb, hayanım indi.

Məcnun kimi məsgən saldım bu dağa,
Bülbül oldum qondum dağa, budağa,
Fərhad kimi sığal verdim bu dağa;
Züleyxatək mən də hayanım indi.

Şah İsmayıl, günlər keçdi vətəndən,
Ağıl başdan getdi, ruh da bədəndən,
Yusif kimi ayrı düşdüm Kənandan,
Misirdə alışmış ha yanım indi.

Şah İsmayıl göy çəmənli dağla könlünün ilk sevgilisini yad eləyəndən sonra yenə yoluna davam elədi. İldırım kimi at sürüb gedirdi bir də yoldan xeyli kənarda, başı ərşə çəkilmiş bir saray gördü. Atın başını döndərib saraya gəldi.

Bu saray yeddi qardaşın sarayı idi. Yeddi qardaş davaya getmişdi. Sarayda təkcə bacıları Rəmdar Pəri qalmışdı. Saray çox möhkəm idi. Heç bir tərəfdən də qapısı yox idi. Şah İsmayıl sarayın dörd tərəfini ha gəzdi, içəri girməyə yol tapmadı. Aldı, görək nə dedi:

Hərləndim, yoxdu qapısı,[3]
Saray, səndən yol istərəm.
Uca yapılıb barısı,

Saray, səndən yol istərəm.

Üst tərəfin qarlı dağdı,
Alt tərəfin bağçadı, bağdı,
İçin hasar, bənd otaqdı,
Saray, səndən yol istərəm.

Sədəfli sazı yendirrəm,
Sinəmin üstə mindirrəm,
Tilsim də olsa sındırram,
Saray, səndən yol istərəm.

Gün çıxar, sənə yayılı,
Yatan quşların ayılı,
İncitmə Şah İsmayılı,
Saray, səndən yol istərəm.

Şah İsmayılın sözünə cavab verən olmadı. Gürzü çəkib barıya vurdu, bir tərəfdən yol açdı, saraya girdi. Altı otaq keçdi, yeddinci otaqda bir qız gördü. Salam verdi, qızın adını soruşdu.

Qız dedi:

- Adım Rəmdar Pəridi.

Şah İsmayıl gördü Rəmdar Pəri çox qəmgindi. Elə bil ki, könlündə bir arzusu var, amma arzuya çatmağa heç bir gümanı yoxdu. Aldı, görək Pəriyə nə dedi:

Başına döndüyüm Pəri,
Nə var könlündə, könlündə?
Yolunda qoyaram səri,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Eşq oduna alışmaram,
Küsülüyəm, barışmaram,
Dindirsən də danışmaram,
Bu var könlümdə, könlümdə.

Aldı Şah İsmayıl:

Yar otağa qədəm basa,
Söhbətinə qulaq asa,
Ağ üzündən bir cüt busa,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Gecə ayaz, gündüz bulud,
Mərd igidin damənin tut,
Oğlan, könlündəkin unut,
Bu var könlümdə, könlümdə.

Aldı Şah İsmayıl:

Mən istərəm burda qalam,
Qollarım boynuna salam,
Qız, səndən kamımı alam,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Dəryada gəzən balıqdı,
Mətləblər verən xalıqdı,
Sən deyən yerlər qoruqdu,
Bu var könlümdə, könlümdə.

Aldı Şah İsmayıl:

Şah İsmayılam, hazaram,
Dərdinə dərman yazaram,
İndi qoruğu pozaram,
Nə var könlündə, könlündə?

Aldı Rəmdar Pəri:

Pəriyəm, qanlar ağlaram,
Zülfüm gərdəndə bağlaram,
Qoruğu sənə saxlaram,
Bu var könlümdə, könlümdə.

Sözlərini tamam elədilər. Şah İsmayıl dedi:

- Rəmdar Pəri, söylə görüm nə üçün sarayda yalqızsan? Nə üçün belə məlul, müşkül oturmusan?

Qız dedi:

- Şahzadə, mən hind xanlarından Nəcəf xanın qızı Rəmdar Pəriyəm. Rəml atıb gələcəyi, keçmişi bilirəm. Özümün də yeddi qardaşım var. Hind şahının oğlu məni istədi. O, bütpərəst olduğundan qardaşlarım məni ona vermədilər. İndi Hind padşahının oğlu qoşun çəkib, məni zor ilə almaq üçün davaya gəlib. Qardaşlarım ölməyə razıdırlar, məni ona verməyə razı deyillər. Ona görə də, Hind padşahının oğlunun davasına gediblər. Qardaşlarım bir tərəfdədi, Hind padşahı da qoşunla bir tərəfdədi. Bu saat mən baxtıqaranın üstündə qılınc qırğınıdı.

Şah İsmayıl Rəmdar Pəridən bu sözü eşidib, qeyrəti cuşa gəldi, Qəmərdayın belinə qalxdı, özünü meydana yetirdi. Gördü yeddi qardaş bir yanda, Hind padşahının oğlu da

qoşun ilə bir yanda səf çəkiblər.

Öz-özünə dedi: «Mən atımı düz meydanın ortasına sürüb salam verəcəyəm. Hankı tərəf salamımı alsa, o tərəfə kömək edəcəyəm»

Şah İsmayıl bu fikirnən Qəmərdayı düz meydanın ortasına sürüb dedi:

Haqq-tala yaradıb cümlə aləmi,
Mədəd allah, səndən mənə bir imdad!
Yeriyib ortaya, verdim salamı,
Mədəd allah, səndən mənə bir imdad!

Yeddi qardaş Şah İsmayılın salamını aldılar.

Aldı Şah İsmayıl:

Yaradan yaradıb havada quşu,
Bərqərar eləyib dağ ilə daşı,
Xudam, özün saxla yeddi qardaşı,
Mədəd allah, səndən mənə bir imdad!

Şah İsmayıl yön çevirsə düşmana,
Kişnər Qəmərdayı, girər meydana,
Çəkər misri qılınc, boyanar qana,
Mədəd allah, səndən mənə bir imdad!

Şah İsmayıl sözün tamam eləyib yeddi qardaşla özünü bütpərəstlərin qoşununa vurdu. Bir yandan Şah İsmayıl, bir yandan Qəmərday, bir yandan yeddi qardaş düşmanı qılıncdan keçirdilər. Bütpərəstlərin qırılanı qırıldı, qalanı da qaçıb getdi.

Bu tərəfdən yeddi qardaş Şah İsmayılın əlinə-ayağına düşüb onu saraya gətirdilər. Şah İsmayılın bu yaxşılığından

necə çıxmaq üçün fikir eləyirdilər ki, kiçik qardaş dedi:

- Ay qardaşlar, mən bir söz deyim, görün, yaxşı olsa hamımız razı olaq.

Dedilər:

- De görək. Yaxşı olsa razı olarıq.

Kiçik qardaş dedi:

- Biz buna mal, dövlət verməklə razı eləyə bilmərik. Bunun sirindən-sifətindən şahzədəlik yağır, pul-mal tamahında deyil. Yaxşısı budu ki, elə bacımız Rəmdar Pərini buna verək.

Kiçik qardaşın məsləhətinə qardaşlar razı oldular. Şah İsmayılın, Rəmdar Pərinin razılığını bilib onları əl-ələ tapşırdılar. Axşam araya gəldi, yatası vaxt Şah İsmayıl ilə Rəmdar Pərinin yeri bir salındı. Şah İsmayıl misri qılıncı siyirib, qız ilə öz arasına qoydu, yatdı. Bir axşam belə, beş axşam belə keçdi, yeddi qardaşlar gördülər ki, bacılarının rəngi saralır, səbəbini xəbər aldılar. Pəri qardaşlarının cavabında gözünün yaşını töküb dedi:

- Yaman günümün yarağı qardaşlar, budu bir aydı ki, məni Şah İsmayıla veribsiniz. Həmişə yatan vaxtda qılıncı sıyırıb araya qoyur. Nə mənə yaxın gəlir, nə dindirir, nə də danışdırır.

Yeddi qardaş Şah İsmayılın yanına gəlib bacıları ilə belə rəftar eləməyinin səbəbini soruşdular. Şah İsmayıl dedi:

- Mən Türkmana, Gülzarın dalınca gedirəm. Bəlkə getdim, qayıtmadım. Onda sizin bacınızın yanında üzüqara olaram. İndiyə kimi Rəmdar Pəri ilə bacı-qardaş kimi dolanmışam. Əgər gedib sağ-salamat Gülzarı gətirə bilsəm, onda sizin bacınızı da alaram.

Şah İsmayıl Rəmdar Pəri ilə, yeddi qardaşla halallaşıb Türkmana getmək istədi. Qardaşlar dedilər:

- Şahzadə, indi ki, gedirsən, get! Yaxşı yol! Muradına çatasan! Amma Türkmana iki yol gedir. O yolun biri ilə üç aya, o biri ilə on günə getmək olar. Üç aylıq yol sələmət, on günlük yol məlamətdi. Çünki o yolu ƏrəbZəngi adlı bir pəhlivan kəsib. Gələnin, gedənin malını, dövlətini soyub, özünü də öldürür. Leşindən hasar, başından minarə tikdirir. Bizdən eşitsən, üç aylıq yol ilə gedərsən.

Şah İsmayıl dedi:

- Qurddan qorxan qoyun saxlamaz. Mən ölümümü gözümün qabağına alıb Türkmana qılınc zoruna qız gətirməyə gedirəm. Siz məni ƏrəbZəngi ilə qorxudursunuz. Mən yüz elələrindən qorxmaram. Hamısını misri qılıncdan keçirərəm. Gülzar ilə bağladığım peymanın vaxtına az qalır. On günlük yol ilə getməliyəm.

Şah İsmayıl yeddi qardaşdan ayrılıb, atını sürdü ki, bir də geri baxanda Rəmdar Pərini gördü. Qəmərdayın cilovunu çəkib, əyləndi, aldı, görək nə dedi:

Yarım yenə çıxıb gülşən seyrinə,
Ətrafında bağça necə, bağ necə?
Seyrağıbın tənə-tənə sözləri,
Sinəm üstə düyün necə, dağ necə?

Əlinə yaxıbdı əlvan xınasın,
Guşuna taxıbdı qızıl tanasın,
Həvəslənib sıxam turunc məməsin,
Qanı qaça, yeri qala ağ necə?

Şah İsmayıl bu yolların naşısı,
Yaman olar nazlı yarın acısı,
Pəri xanım yeddi qardaş bacısı,
Ayrı düşsə məşuqundan sağ, necə?

Şah İsmayıl sözünü tamam elədi. Rəmdar Pəriyə ürəkdirək verdi, könlünü aldı, yoluna davam elədi. Bir yandan Rəmdar Pəridən ayrılığı, o biri yandan sevgilisi Gülzarın həsrəti Şah İsmayılı dəli-divana eləmişdi. Qəmərdaya acı qamçı çəkib, yeldən yeyin, sudan iti gedirdi. Yola bələd deyildi deyin, elə hey gedirdi, amma heç bilmirdi ki, hara gedir. Belə-belə səkkiz gün at sürdü, doqquzuncu gün ƏrəbZənginin qalasına çatdı. ƏrəbZəngi yolun qırağında dayanmışdı. Şah İsmayılı görüb dedi:

- Allah səni mənə yaxşı yetirdi. Hasarımın başa gəlməyinə bir baş lazım idi, minaramın başa gəlməyinə bir leş. İndi başını kəsib hasara qoyaram, leşini də minaraya.

Şah İsmayıl ƏrəbZənginin cavabında dedi:

- Ay ƏrəbZəngi, yeməmişdən gəyirmə. Hələ nə mən sənin gücünü görmüşəm, nə də sən mənim gücümü. Nə bilək, kim kimi basacaq?

ƏrəbZəngi qəzəblənib dedi:

Yenə qafil ov çıxdı qarşıma,[4]
Hürküb ovçusundan, baş verib gedər!
Qorxusundan dodaqları çatlayar,
Ağlayıb, gözündən yaş verib gedər!

Aldı Şah İsmayıl:

Qəndəhardan gəldim murad almağa,
Yol ver, ərəb, yol ver, incitmə məni!
Mən gəlmədim bu diyarda qalmağa.
Yol ver, ərəb, yol ver, incitmə məni!

Aldı ƏrəbZəngi:

Çoxları adlayıb o yandan bəri,
İgidlər əlimdən çəkiblər zarı,
Kəllədən minara, leşdən hasarı,
Buraya gələnlər baş verib gedər!

Aldı Şah İsmayıl:

Qaradı qaşların, Kəbə meracı,
Çəkərəm, yıxaram hasarı, burcu,
Kəsərəm başını, yoxdu əlacı,
Yol ver, ərəb, yol ver, incitmə məni!

Aldı ƏrəbZəngi:

Oğlan, mey içmisən, yoxsa da bəngi?
Qorxudan saralıb üzünün rəngi,
Hələ eşitmədin ƏrəbZəngi?
Çox sənin kimilər baş verib gedər!

Aldı Şah İsmayıl:

Bir sən gəl bax qaynağıma, coşuma,
Əl vura bilməzsən tərlan quşuma,
Bax Şah İsmayılın tər savaşına,
Yol ver, ərəb, yol ver, incitmə məni!

Şah İsmayıl istədi oradan davasız-şavasız keçib getsin, ƏrəbZəngi yol vermədi, nərə çəkib davaya girişdi. Qılınca əl atdılar, qılıncdan murad hasil olmadı. Əmuda, nizəyə, kəməndə əl atdılar, yenə murad hasil olmadı.

Axşam oldu, davanı sabaha qoydular. ƏrəbZəngi Şah İsmayıla dedi:

- Ay pəhlivan, indi sən burada qəribsən, gəl gedək bu

axşam mənim qonağım ol. Sabah açılsın, meydana çıxarıq. Allah ya sənə verər, ya da mənə.

Şah İsmayıl ƏrəbZənginin sözünə razı oldu. Onunla bərabər qalaya getdi. Gördü ƏrəbZənginin böyük cəlalı var. ƏrəbZəngi Şah İsmayıla yemək verdi. Yatmağa yer verdi. Özü də çörək yeyib, yataq otağına getdi. Dava paltarını çıxartdı, yatağa girdi, şirin yuxuya getdi.

Şah İsmayılın canına qorxu düşmüşdü. Nə boğazına çörək gedirdi, nə gözünə yuxu. Deyirdi: mən sabah bu pəhlivanın əlində necə olacağam? Çox güclü pəhlivandı. Bir də onunla meydana girsəm yəqin ki, salamat qurtara bilməyəcəyəm, muradım gözümdə qalacaqdır.

Fikir, xəyal Şah İsmayılı elə çulğamışdı ki, yuxusu bir əppək olub qalxmışdı göyə, nə qədər əlləşirdi, yata bilmirdi.

Qərəz, o yana çevrilirdi, bu yana çevrilirdi, gördü yox, yata bilməyəcək, durdu ayağa ki, bir az gedib dolansın, bəlkə fikri dağıla.

Qalaça çox böyük idi. Hər tərəfə yol var idi. Şah İsmayıl hər tərəfi gəzdi, dolaşdı, axırda gəlib rəngbərəng xalılarla bəzənmiş bir otağa çıxdı. Nə gördü? Bu bəzəkli otaqda bir qız yatıb ki, elə bil qüdrətin kərəmi cuşa gəlib, gözəllik paylayanda ilk qələmi bu qıza çəkib. Şah İsmayıl qıza, otağa tamaşa eləyirdi, bir də gözü yuxarıdan asılmış Ərəbzəngi libasına sataşdı. Qaldı mat-məəttəl ki, bu nə sirdi. Bu qız niyə belə paltar geyinib, gəlib-gedənlə vuruşur?

Şah İsmayıl bu fikirlə gecəni sabah elədi. Amma fikrini heç bir yana çıxarda bilmədi. Bəli, sabah açıldı. Şah İsmayıl geyimli, gecimli meydana gəldi. Nərə çəkib Ərəbzəngini istədi.

ƏrəbZəngi nərə səsinə oyandı; polad paltarla başdan geyindi, ayaqdan qıfıllandı, ayaqdan geyindi, başdan

qıfıllandı, Şah İsmayılın meydanına gəldi. Hər iki pəhlivan güştü tutub güləşməyə başladılar.

ƏrəbZənginin gözləri qızmışdı. Ac şir kimi ona tərəf yönəldi. Şah İsmayılı götürüb yerə vurdu. Xəncərini çəkib sinəsinə çökdü. Şah İsmayıl dedi:

- Ay pəhlivan, bizlərdə qaydadı, pəhlivan pəhlivanı birinci dəfə yıxanda öldürməz.

ƏrəbZənginin Şah İsmayıla yazığı gəldi. Onu öldürmədi, buraxdı.

Bu dəfə də ƏrəbZəngi Şah İsmayılı yıxdı. Şah İsmayıl dedi:

- Pəhlivan, ərənlər üç deyib. Bu dəfə də məni öldürmə, üçüncü dəfə yıxsan öldürərsən.

ƏrəbZəngi yenə onu bağışladı. Təzədən güləşməyə başladılar. Şirin güləşmə zamanı Şah İsmayıl əlini Ərəbzənginin polad geyiminin altına saldı, döşlərindən tutub, elə sıxdı ki, ƏrəbZənginin qolları boşaldı, çevrilib yerə yıxıldı. Nə qədər əlləşdisə, Şah İsmayılın əlindən çıxıb qalxa bilmədi. Axırda dedi:

- Pəhlivan, namərdlik eləməsəydin məni yıxa bilməzdin. Mənim sənin cavanlığına yazığım gəldi, öldürmədim. İndi fürsət sənin əlinə keçib, istəyirsən öldür, istəyirsən öldürmə. Mən sənə yalvarmayacağam. Mən qız, sən oğlan.

Şah İsmayıl dedi:

- Ərəb, mən sənin qız olduğunu gecədən bilirəm. İki dəfə məni yıxdın öldürmədin, doğrudan da mərdsən. İndi sən gəl məni öz sirrindən agah elə görüm, sən kimsən? Belə gün keçirməyinin səbəbi nədi?

ƏrəbZəngi dedi:

- Mən ərəbistanlı Mahmud paşanın qızıyam. Atam öləndən sonra mən qardaşım Əhmədin umuduna qaldım. Əhmədin işi-peşəsi başında qırx haramı xalqı çalıb-çapıb,

mal-dövlət yığmaq idi. Əhməd başındakı haramılar ilə hər gün bir yerdə qalıb, keyf eləyərdi. Bir axşam da başındakı haramılarla öz evimizə gəldi ki:

- Bacı, bu axşam sən evdən çıx, bir başqa yerə get, biz burada bir balaca məclis keçirəcəyik. Mən razı olub qonşumuzun evinə getdim. Elə ki, qaranlıq düşdü, bir də gördüm ki, hər haramı, budu, özü ilə bərabər bir də bir qız gətirib, qapıda atdan düşürür, bizim evə aparır. Bir az da keçdi, bir məclis başladı, allah göstərməsin. Doğrusu, namusum qəbul eləmədi. Tez özümü aşpaz Namaza yetirib, şəraba bihuşdarı qatdırdım. Elə ki, içib bihuş oldular, hamısını öldürdüm, sonra da köçüb bu qalaya gəldim. O vaxtdan bu qalada oluram. Özüm də əhd eləmişəm ki, harda kişi tapsam, mərdü-mərdana güləşəcəyəm, yıxdım, öldürəcəyəm, yıxıldım, məni yıxana ərə gedəcəyəm.

Şah İsmayıl Ərəbzəngini ayağa qaldırıb dedi:

- Sənə bu qeyrət halal olsun! Bu gündən sən mənimsən, mən də sənin!

Şah İsmayıl bir müddət qalada qaldı. Öz əhvalatını da açıb ƏrəbZəngiyə danışdı. ƏrəbZəngi işi bilib ona kömək eləməyə başladı. Türkmana getmək üçün tədarük gördü, qalasını başındakı yoldaşlara tapşırdı, özü göy polada qütəvvər olub Şah İsmayıl ilə Türkmana yola düşdü. Az getdilər, çox getdilər, gəlib Türkman elinə yetişdilər. Gecə qonaq qalmaq üçün Türfənsə adlı bir qarının qapısına gəldilər.

Aldı Şah İsmayıl, görək qarıya nə dedi:

Başına döndüyüm, ay qarı nənə,
Sizin yerdə qərib mehman olarmı?
Nə müddətdi mən divana olmuşam,
Davasız dərdimə dərman olarmı?

Aldı Türfənsə qarı:

Başına döndüyüm gül üzlü cavan,
O nə sözdü qərib qonaq olarmı?
Əhli-şəhər müsəlmanlıq deyilmi?
Mehmanı qapıdan qovmaq olarmı?

Aldı Şah İsmayıl:

Baharda bağçalar verdiyi bardı,
Dərdindən çəkdiyim bu ahu zardı,
Mahmud paşa qızı o Gülzardı,
Sizin yerdə belə ceyran olarmı?

Aldı Türfənsə qarı:

Qərib olan kəsdə axtara eli,
Bülbül olan buraxarmı heç gülü?
Gülzar deyənin kəsilir dili,
Bizim yerdə onu demək olarmı?

Aldı Şah İsmayıl:

Şah İsmayıl neyləyibdi, neyləsin?
Xəncər alıb bağrın başın teyləsin.
Dərdi-dilin indi sənə söyləsin,
Sizdən bizə ülfət qılan olarmı?

Aldı Türfənsə qarı:

Türfənsə qarıdı bu işi bilən,
Çarəsiz dərdlərə dərman eyləyən,
Bircə mənəm ora gedibən gələn,
Elə yerə gedib-gələn olarmı?

Şah İsmayıl Türfənsə qarıdan əhvalatı söz ilə xəbər aldığı kimi ƏrəbZəngi də dilnən dedi:

- Ay qarı nənə, imanın kamil olsun, bir de görüm Mahmud paşanın qızı Gülzar xanımı tanıyırsanmı? Ondan xəbərin varmı?

ƏrəbZəngi bu sözü deyib qarıya bir ovuc qızıl verdi. Qarı qızılı görüb, gözləri sağsağan gözlərinə döndü, dedi:

- Bala, Gülzarı yaxşı tanıyıram. Özü də əmisi oğluna nişanlıdı. Otuz doqquz gündü toyudu; sabah köçürəcəklər.

Şah İsmayıl qarıdan bu sözü eşidib, ona iki ovuc da qızıl verib dedi:

- Qarı nənə, mənim bir üzüyüm var, onu Gülzara yetirə bilərsənmi?

Qarı dedi:

- Yetirə bilərəm.

Şah İsmayıl üzüyü qarıya verdi. Qarı üzüyü alıb Gülzarın yanına yollandı.

Gülzarın Şah İsmayıl ilə bağladığı peyman tamam olurdu. Amma hələ Şah İsmayıl gəlməmişdi. Gülzar ah-zar çəkib ağlayırdı. Məşşatəyə başını bəzətmirdi. Yanına da heç kəsi buraxmırdı. Qarı ha elədi kənizlər onu Gülzarın yanına buraxmadılar. Qarı axırda üzüyü aynadan Gülzara göstərdi. Gülzar üzüyü görən kimi tanıdı, kənizlərə dedi:

- Ay qızlar, o mənim süd anamdı, buraxın gəlsin.

Kənizlər qarını buraxdılar. Qarı Gülzarın yanına gəldi. Gülzar dedi:

- Ay nənə, imanına qurban olum, bir de görüm bu üzüyü verən oğlan haradadı?

Qarı dedi:

- Muştuluğumu verməsən deməərəm.

Gülzarın boynunda babasının yeddi illk bac-xaracı ilə

başa gəlmiş bir boyunbağı var idi. O, boyunbağını çıxardıb qarıya muştuluq verdi. Qarı muştuluğunu alandan sonra Şah İsmayılın onun evində olmasını söylədi. Gülzar dedi:

- Ay nənə, Şah İsmayıla de, Gülzar deyir ki, mən atamın gülşən bağına çıxacağam; aşıq paltarı geyinsin, bağa gəlsin.

Qarı baş üstə deyib, oradan çıxdı, evinə gəldi, Gülzarın tapşırığını Şah İsmayıla yetirdi. Şah İsmayıl aşıq paltarı geyinib ƏrəbZəngi ilə atlandı, gülşən bağına yola düşdü.

Gülzar xanım məşşatəyə başını bəzətdi, qırx kəniz ilə gülşən bağına çıxdı. Kənizlərə dedi:

- Qızlar, buralarda aşıq görsəniz, tutun mənim yanıma gətirin.

Bu tərəfdən Şah İsmayıl ilə ƏrəbZəngi gəlib gülşən bağının qapısına çıxdılar. ƏrəbZəngi ilə Şah İsmayıl belə məsləhət elədilər ki, ƏrəbZəngi bir yanda atları saxlasın, Şah İsmayıl da Gülzarın yanına getsin, danışsın, Gülzarı götürüb gəlsin. ƏrəbZəngi atları saxladı. Şah İsmayıl bağın qapısına gəldi. Qızlar onu çiyni çömçəli görüb, tutub Gülzarın yanına apardılar. Gülzar qaş-göz ilə Şah İsmayıla xoş gəldin elədi, dedi:

- Aşıq, bir neçə xanə könül açan söz oxu.

Şah İsmayıl sazı sinəsinə basıb, sözə başladı, dedi:

Şükür cəlalına, min bir adına,
Yarı görüm üzü gülsün sabahdan,
Aylar, illər həsrətini çəkdiyim,
Bu gizli dərdimi bilsin sabahdan.

Gülzar xanım saz əvəzinə yasəmən saçlarından üç tel ayırıb, basdı sinəsinə, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Nişanəm səndədi, yar, safa gəldin!
Yanıb atəşinə büryan olduğum,
Nişanəm səndədi, yar, safa gəldin!

Aldı Şah İsmayıl:

Əllərində yüsür təsbeh yüz dənə,
Qorxum budu, göz görməyə, üz dönə,
Bir iyid ki, ilqarından tez dönə,
Mövlam ona qənim olsun sabahdan!

Aldı Gülzar:

Səndən ayrı danışmadım, gülmədim,
Bu canımdan bezdim, ölə bilmədim.
Haçan ilqar verdin, mən də gəlmədim?
Nişanəm səndədi, yar, safa gəldin!

Aldı Şah İsmayıl:

Şah İsmayıl təzə gördü, bil, səni,
Cənnəti-rizvana yetirdin məni,
O adna axşamı, çarşənbə günü,
Nazlı dilbər qarşı gəlsin sabahdan.

Aldı Gülzar:

Gülzaram, sənə qurban olum mən,
Heyva kimi saralıban solum mən,
İkram ilə pişivaza gəlim mən,
Nişanəm səndədi, yar, safa gəldin!

Bu iki sevgili sözünü tamam elər-eləməz ƏrəbZəngi ac qurd kimi pusqudan çıxdı. Kənizlərin hərəsi bir yana dağıldı. ƏrəbZəngi dedi:

- Ay qoçaxlarım, səsinizi toyunuza saxlayın! İndi Mahmud paşanın qoşunu yetişər. Yolçu yolda gərək!

Şah İsmayıl Qəmərdayın belinə qalxdı, Gülzarı da tərkinə aldı. ƏrəbZəngi də öz atına mindi, Qəndəhara çatdılar. Atdan düşüb, dincəlməyə başladılar.

O biri tərəfdən kənizlər Mahmud paşanın yanına gedib xanımlarının qaçırıldığını söylədilər. Mahmud paşa qoşunla atlanıb onların dalınca düşdü. Gəlib-gəlib çəmənlikdə onlara yetişdilər. ƏrəbZəngi baxdı ki, Şah İsmayıl bir tərəfdə yuxuya gedib, Gülzar da bir tərəfdə. Əvvəlcə Şah İsmayılı oyatmaq istədi. Sonra qayıdıb oyatmadı, özü təkcə davaya girişdi. Qoşunu pencər kimi qırdı, yerə tökdü. Ölən öldü, qalanlar qaçıb dağıldılar. Ərəbzəngi geri qayıdıb, aldı, görək Şah İsmayılı nə cür oyatdı:

Movc veribən Türkmandan yeridi,[5]
Oyan, Şah İsmayıl, gör nələr oldu!
Mən qurbanam sevgilimin telinə,
Oyan, Şah İsmayıl, gör nələr oldu!

Çapar getdi, gələr indi həbəşi,
Onlar da bizimlə tutar savaşı,
Dərəyə, təpəyə doldurar leşi,
Oyan, Şah İsmayıl, gör nələr oldu!

Çapar getdi, gələr indi firəngi,
Onlar da bizimlə tutarlar cəngi,
Qırar hamısını ƏrəbiZəngi,
Oyan, Şah İsmayıl, gör nələr oldu!

Şah İsmayıl ƏrəbZənginin səsinə oyandı. Gördü hər yanda leş-leşə söykənib, baş-başa. Daha bilmədi ki, Ərəbzəngiyə nə desin. Səssiz-sədasız atı mindi. Onlar da atlanıb düşdülər yola. Gecə-gündüzə salıb ƏrəbZənginin qalasına çatdılar. Qalada bir neçə gün qalıb, sonra yenə də yola düşdülər. Getdilər, getdilər Rəmdar Pəriyə yetişdilər. Aldı Şah İsmayıl, görək nə dedi:

Ay qız, sənin uca boyun,
Görülməyin çağı gəldi.
Qara telin dal gərdəndə,
Hörülməyin çağı gəldi.

Qəddin əlif, boyun uca,
Aşıq gərək boyun quca,
Qız, məmən dönüb turunca,
Dərilməyin çağı gəldi.

Şah İsmayıl deyər: xuda!
Əzəl dərsim əlif-nida.
Yolunda bu canım fəda
Verilməyin çağı gəldi.

Bir neçə gün də burda qaldılar, sonra Rəmdar Pərini götürüb Qəndəhara yola düşdülər. Mənzil eyliyə-eyliyə gəlib Qəndəhara yetişdilər. Şah İsmayıl şəhərin bir tərəfində çadır qurdurdu, atasına muştuluqçu göndərdi.

Şah İsmayılın səfəri uzun sürmüşdü deyin anası onun həsrətini çəkməkdən naxoşlayıb ölmüşdü. Ədil şah da Şah İsmayılı ölmüş bilirdi. Bir də xəbər gəldi ki, bəs Şah İsmayıl üç gözəl ilə, budu, gəlib çıxıb. Şah durub oğlunun görüşünə gəldi.

Bəli, görüşdülər, öpüşdülər, amma Ədil şah altdan-altdan qızlara baxdı, nəzərdən keçirdi, Gülzar çox xoşuna gəldi, ona yetişmək üçün oğlunu öldürmək fikrinə düşdü. Evinə qayıtdı, barigahın qabağında bir dərin quyu qazdırdı, içinə nizə, ox doldurdu, üstünə də gəbə saldırdı, oğlunu qonaq çağırdı. Şah İsmayılın bu işdən xəbəri yox idi. Atalıq haqq-sayından keçə bilməyib getmək istəyəndə qızlar dedilər:

- Gəl sən bizi eşit! Bu qonaqlığa getmə! Getsən də qoy ƏrəbZəngi də səninlə getsin, biz sənin atanın fikrini başqa təhər görürük.

Şah İsmayıl dedi:

- Necə ola bilər ki, atam məni qonaq çağırsın, mən getməyim? Siz mənim atamı pis tanıyırsınız.

Rəmdar Pəri rəml atıb dedi:

- Gedişin yaxşıdı, amma gəlişin pis görünür. Al bu üzüyü, barmağına tax, bu tulanı da özünlə apar; tula haradan getsə, sən də oradan get, harada otursa, sən də orada otur. Üzüyü qabağına gətirilən xörəyə sal, nə vaxt yaşıllansa yemə.

Şah İsmayıl üzüyü götürdü, tulanı da yanına saldı, Gülzarı, Rəmdar Pərini ƏrəbZəngiyə tapşırdı, getməyə başladı. Bargahın qapısında tula yoldan çıxdı, Şah İsmayıl da onun dalınca gedib atasının hüzuruna çatdı. Şah İsmayıla xörək gətirdilər. O, üzüyü xörəyə saldı, xörək yaşıllaşdı. Şah İsmayıl xörəyi yemədi.

Ədil Şah oğluna dedi:

- Oğul, çox şükür ki, bu qədər zəhmətdən sonra Gülzarı gətirə bildin. Eşitmişəm yollarda çox pəhlivanlara rast gəlmisən, çoxlarını yıxmısan. Gərək gücünü atanın qabağında da göstərəsən. De görüm, sənin nəyə gücün çatmır ki, mən onda səni sınaqdan keçirim.

Şah İsmayıl dedi:

- Mənim yeddi boyun cüt qayışına gücüm çatmaz.

Ədil şah əmr elədi, yeddi boyun cüt qayışı gətirdilər. Şah İsmayılın qollarını bağladılar. Şah İsmayıl elə zor verdi ki, qayış parça-parça oldu, yerə töküldü.

Ədil şah dedi:

- Bəs deyirdin gücün çatmaz? Parça-parça elədin ki?.. De görüm, doğrudan nəyə gücün çatmaz?

Şah İsmayıl dedi:

- Yeddi qulac sicimə gücüm çatmaz.

Ədil şah hökm elədi, Şah İsmayılın qollarını yeddi qulac sicimlə bağladılar. Şah İsmayıl elə zor verdi ki, sicim qırıq-qırıq oldu. Ədil şah dedi:

- Demək sənin gücün çatmayan şey yoxdu.

Şah İsmayıl dedi:

- Xeyir, var. Öz yay-oxumun kirişinə mənim gücüm çatmaz.

Ədil şah yay-ox kirişilə Şah İsmayılın qollarını bağlatdırdı. Şah İsmayıl zorunu qollarına toplayıb nə qədər güc verdisə kirişi qıra bilmədi. Kiriş kəsə-kəsə sümüyə dayandı. Ədil şah cəllad çağırdı, dedi:

- Vur bunun boynunu!

Cəllad şahın hökmü ilə Şah İsmayılın boynunu vurmaq istədi. Vəzir dedi:

- Ey böyük şah, bir qızdan ötrü öz əlinlə öz çırağını keçirmə!

Ədil şah cəllada dedi:

- İndi ki, vəzir onun boynunun vurulmağına razı deyil, onda gözlərini çıxart, apar zülmət quyusuna tulla.

Cəllad Şah İsmayılın gözlərini çıxartmaq istədi.

Aldı Şah İsmayıl, görək nə dedi:

Uca dağlar başı duman, çiskindi,[6]
Amandı, şah baba, zay etmə məni!

Bülbül çəkər gülün ahu zarını,
Amandı, şah baba, zay etmə məni!

Mən çox igitlərlə eylədim cəngi,
Ayağım apardı polad üzəngi,
Hələ ölməyibdi ƏrəbZəngi,
Amandı, şah baba, zay etmə məni!

Yəqin bil ki, Şah İsmayıl özüdü,
İnanmayın seyrağıbın sözüdü,
Ərin yaraşığı iki gözüdü,
Amandı, şah baba, zay etmə məni!

Ədil şah Şah İsmayılın yalvarmağına qulaq asmadı. Cəllada «hökmümü yerinə yetir!» dedi. Cəllad Şah İsmayılın gözlərini çıxardıb ovcuna qoydu. Özünü də aparıb zülmət quyusuna saldı. Şah İsmayıl zülmət quyusunda qalsın, sizə Ədil padşahdan danışım.

Ədil şah qoşun göndərdi ki, gedib Gülzarı gətirsinlər. ƏrəbZəngi işi belə görəndə özünü vurdu qoşuna, qatım-qatım qatladı, tamam qırdı. Ədil şah yenə qoşun göndərdi, ƏrəbZəngi onları da qırdı. İndi Ədil şah qoşun göndərməkdə olsun, ƏrəbZəngi də qırmaqda, danışım xoca Əzizdən.

Xoca Əziz məşhur sövdəgər idi. Haradansa sövdəgərlikdən gəlirdi, güzarı Şah İsmayıl olan zülmət quyusunun yanından düşdü. Xoca Əziz yaman susamışdı. Su çıxardıb içmək üçün quyuya dolça salladı. Şah İsmayıl iki əlilə dolçanın ipindən bərk-bərk yapışdı. Xoca Əziz dolçanı çəkdi çıxartdı, gördü su əvəzinə bir kor oğlan çıxdı. Xoca Əziz onun Şah İsmayıl olduğunu bildi. Ədil padşahın qorxusundan quyunun başındaca qoyub getdi. Şah İsmayıl tapdana-tapdana bir ağacın dibinə gəlib oturdu. Elə bu

zaman üç göyərçin gəlib, ağacın başına qondu. Göyərçinlərin biri quş dilində dedi:

- Bu nə gözəl oğlandı, yazığın, hayıf ki, gözləri kordu.

O biri göyərçin dedi:

- Bu, Ədil padşahın oğludu. Atası bunun gətirdiyi Gülzara aşiq olub. Gülzara çatmaq üçün bunun gözlərini çıxartdırıb.

O biri göyərçin dedi:

- Gəl onun gözünü sağaldaq.

Göyərçinlər dedilər:

- Ay Şah İsmayıl, yatıbsan oyan, oyaqsan eşit! Gözlərini yerinə qoy, biz atdığımız lələyi də üstlərinə çək, gözlərin sağalar.

Göyərçinlər bir lələy atıb, uçub getdilər. Şah İsmayıl gözlərini yerinə qoydu, lələyi çəkdi, gözləri sappasağ oldu. Ayağa durub, Qəndəhara tərəf getməyin binasını qoydu. Bir az getmişdi ki, bir qocaya rast gəldi. Gördü qoca ağlaya-ağlaya cüt çəkir. Şah İsmayıl ondan soruşdu.

- Qoca, nə üçün ağlayırsan?

Qoca dedi:

- Ədil şahın Şah İsmayıl adlı bir oğlu varıdı. O oğlan üç gözəl gətirmişdi. Ədil şah o gözəllərdən Gülzara aşiq olub, oğlunun gözlərini oydurub zülmət quyusuna atdırdı. Sonra Gülzarı gətirmək üçün qoşun göndərdi. Ərəbzəngi qoşunları qırdı. İndi Ədil şah Qəndəhar əhlindən gündə bir adam onun meydanına göndərir, ƏrəbZəngi öldürür. Sabah da şah mənim oğlumu ƏrəbZənginin meydanına göndərəcək. Odu ki, ağlayıram.

Aldı Şah İsmayıl, görək nə dedi:

Başına döndüyüm, ay misgin qoca,
Sən ağlama, sabah meydan mənimdi.
Nə gündüzüm gündüz, nə gecəm gecə,

Sən ağlama, sabah meydan mənimdi.

Düşmanın ağlasın, dostların gülsün,
Sənə zülm eyləyən əcrini bilsin!
Söylə, Ədil şaha xəbərdar olsun,
Sən ağlama, sabah meydan mənimdi.

Dərin-dərin dəryalara dalaram,
Şirin canım eşq oduna salaram,
İsmayılam, qisasımı alaram,
Sən ağlama, sabah meydan mənimdi.

Şah İsmayıl sözlə də dedi ki:

- Qoca, sən sabah get, Ədil şaha de ki, oğlum deyir Şah İsmayılın geyimini, atını mənə versin, gedim ƏrəbZəngini öldürüm. O, Şah İsmayılın atını, geyimini verər, gətirərsən, mən sənin oğlunun əvəzinə ƏrəbZənginin meydanına gedərəm.

Qoca Şah İsmayılın sözünə razı oldu. Onu götürüb evinə gəldi. Sabahı Ədil şahın yanına getdi, dedi:

- Mənim oğlum deyir Şah İsmayılın atını, geyimini mənə versin, gedim ƏrəbZəngini öldürüm.

Ədil şah Şah İsmayılın atını, geyimini qocaya verdi. Qoca da gətirdi Şah İsmayıla verdi. Şah İsmayıl geyinib Qəmərdayın belinə mindi, ildırım kimi Ədil şahın qabağına sürdü. Ədil şah Gülzarın eşqindən elə havalanmışdı ki, oğlunu tanımadı, dedi:

- Qoçağım, tez ƏrəbZəngini öldür, başını mənə gətir!

Şah İsmayıl atı ƏrəbZənginin meydanına sürdü. ƏrəbZəngi görən kimi Şah İsmayılı tanıdı. Görüşdülər, ikisi də bir yerdə atları Ədil şahın üstünə sürdülər. Ədil şah işi belə görüb qaçmaq istədi. ƏrəbZəngi aman verməyib onu

ata-babasının yanına göndərdi. Camaat Ədil şahın zülmündən xilas olduqlarına görə çox şad oldular. Şah İsmayılı özlərinə şah seçdilər.

Şah İsmayıl düz qırx gün, qırx gecə toy eləyib məclis keçirtdi.

Deyirlər ki, ustad bir aşıq gəlib Şah İsmayılın toyunu bu duvaqqapma ilə başa verdi:

Nagəhdan gördü gözüm,
Sən təki insanı, pəri!
Hurisən, məlakəsən,
Cənnətin qılmanı, pəri!
Yaralar məlhəmisən,
Dərdlərin dərmanı, pəri!
Gözəllər sərdarısan.
Məhbubların xanı, pəri!
Şah kimi taxta çıxıb,
Elərsən divanı, pəri!

Divanına gələrəm,
İzzət, ikram qılaram,
Xidmətində qalaram.
Qul qurbanın olaram,
Əgər qəbul eləsən,
Qol boynuna salaram.
Qolum boynunda,
Əlim qoynunda
Çiynim çiynində,
Eşqin beynimdə;
Sarmaşıq köynək kimi,
Durum sənin əynində;
Əyninə al məni gəl,

Qat bu cana canı, pəri!

Gəl qataq canı cana,
Xatırıma dəyməginən.
Sındırıb şad könlümü,
Dal qəddimi əyməginən.
Gəlmişəm ayağına,
Çox özünü öyməginən.
Sevərsən bir tanrını,
Mən yazığa qıymaginən.
Ver mənim muradımı,
Qiyamətə qoymaginən.
Qiyamətdir qaşların,
Güləbatın saçların,
İnci, sədəf dişlərin.
Xub fincandı döşlərin,
Bu biçara başıma
Çox ağırdı daşların.
Ağır daş atma,
Nazını satma,
İşi uzatma,
Xalqı oyatma,
Qanıma bais olub,
Vəbala batma.
İki dostun arasına,
Salmagınan qanı, pəri!

Qan salma aralığa,
Nə eşqi pərvanəsən.
Bəxtəvər yaranmısan,
Bu dünyada bir dənəsən.
Sərraflar qədrin bilir,

Cəvahirsən, dürdanəsən.
Al-əlvan xınalayıb,
Tök telini gərdənə sən.
Gərdən göyçək, tel nazik,
Quçmaq üçün bel nazik,
Barmaq şimşək, əl nazik.
Xoş danışan dil nazik,
Çox qəmlidir ürəyim.
Bircə danış, gül nazik.
Nazik şaxsan,
Kağızdan ağsan,
Ağca buxaqsan
Qaymaq dodaqsan
Maşallah, göz dəyməsin,
Sən əcəb yumuşaqsan,
Bircə məni eylə qonaq,
Sevindir mehmanı, pəri!...

...Yəqin bil ki, kərəm kanı,
Mən yanıram atəşinə.
Mayılam camalına,
Həm gözünə, həm qaşına,
Yıxılım ayağına,
Durub dolanıb başına,
Həm sənə qurban olum,
Həm də sənin yoldaşına.
Yoldaşın pərvazdı gəlin,
Yerişi qazdı gəlin,
Bu necə əndazdı gəlin,
Baxışın şahbazdı gəlin.
Doğmusan şəmsü-qəmər
Gül dildarın yazdı gəlin.

Ey bahar yazım,
Durna avazım,
Əlimdə sazım,
Eşit niyazım,
Aç qoynunu qucaxlaşaq,
Demək nə lazım.
Oynatsın Molla Cuma
Şamamatək səni, Pəri.

# *ŞAH İSMAYIL*

***YAZIYA ALIB: ƏLİ TƏBRİZİ***

***ƏRƏB ƏLİFBASINDAN ÇEVRİLİB. R.Q.q.***

## ŞAH İSMAYIL SƏFƏVİ

Azərbaycanın böyük və tarixi Ərdəbil şəhərində Şeyx Səfiəddin silsiləsindən Sultan Heydər adlı bir böyük şəxsiyyət var idi. Sultan Heydər çox şücaətli və igit bir kişi idi. Bütün İran və Azərbaycan ilə özgələr arasında olan cəng və vuruşmalarda böyük rəşadətlər göstərmişdi. Buna görə Azərbaycanda çox etibar sahibi və tərədarlı idi. Sultan Heydər neçə vuruşmalarda yaralanıb və az qalmışdı ki, daha dünyadan getsin və buna görə həmişə qəmli və qüssəli idi. Əvdə çox vaxt tək olanda ayinəyə baxıb və üzündə ağarmış tükləri görən kimi qüssəsi çoxalırdı. Amma bir gün dəllək onun üzünü qırxıb və ayinəni əlinə verəndə Sultan Heydər baxıb gördi ki, üzündə daha qara tük çox azdır. Buna görə yenə də qüssəsi çoxalıb və ürəgi sıxıldı. Nəhayət, bir gün Sultan Heydər səhər namazın qılıb yerinə oturduğu zaman öz arvadı Xanım Sultanı* öz qabağında görən kimi dərindən bir ah çəkdi.

Xanım Sultan ərinin bu ah çəkməgindən çox təəccüb edib və soruşdi:

– Əfəndim Heydər! Nə üçün ah çəkirsən? Həmd olsun, hər nə istəsən varımız və dünyanın ən gözəl və birinci nemət və varı bizdədir.

Bəs bu halda nə üçün bu yalançı dünyanı öz əziz canıza zindan edirsiz?

Sultan Heydər yenə də bir söz deməyib dərindən bir ah çəkib və gözlərindən damcı-damcı parlaq yaşlar damdı.

Xanım Sultan ərinin bu halın görməkdən çox narahat olub və yenə də onu ovudmağa başladı.

---------------

*Xanım Sultanın əsl adı Marta. Ya Ələmşah və Uzun Həsənin qızı idi.

– Əzizlərim, Heydər! Nə üçün qəmli və qüssəli olubsan? Yoxsa bir gizlin dərdin varmı? Aya ola bilir ki, mən sənə məhrəm olam və bu dərdinə çarə edəm?

Sultan Heydər bu sözi eşidən kimi başını aşağı salıb bir yavaş səs ilə dedi:

– Haqq siz ilədir. Dünyanın hər nemət və cəlalından bizdə də var və məxsusən bütün bu vəfalı və həqq tanıyan və igit ölkə daşlar bizə böyük iftixardırlar. Amma bunla belə nər yarar ki, Əli və İbrahimdən başqa mən öləndən sonra dünya üzündə məndən bir nişanə qalmayacaq. Daha ah çəkib ağlamağın bundan ötrü idi.

Xanım Sultan bir az fikir edib sözü anladı. Sonra ərini dilə tutmaq üçün dedi:

– Bu dünyada heç dərd yoxdur ki, dərmanı olmasın. Hər dərd varsa, ona görə də dərmanı var və hər kəs hər dərdin dərmanın axtarsa biləxərə tapar. Bəs yenə də bu cürə saralıb solmaq  artıqdır.

Sultan Heydər arvadının bu sözlərindən bir az fikir edəndən sonra əmr verdi ki, mənim vəzirimi bura çağırın. Daha vəzir gəlib və yeddi yerdə baş əyib və təzim edəndən sonra sultanın hüzurunda duran kimi Sultan Heydər əmr verdi:

–İndi bazara gedib, iki cüt dərviş paltarı alıb gətir.

Vəzir yenə dalı-dalı qayıdıb bazara yollandı. Daha o qədər çəkmədi ki, bazardan paltarları alıb gətirdi. Sultan Heydər paltarları görən kimi dedi:

– Haydı, indi bu dərviş paltarlarının birin sən gey və birin də mən geyim, sonra birlikdə gəzməgə çıxaq və görək Allah qabağımıza nə gətirir.

Daha Sultan Heydər qabaqda və vəzir dalda öz gözəl atlarına minib yollandılar.

Günəş başlarının üstə nur saçırdı. Yolda ağac və kölgə

çox az var idi. Atlar tərləyib, hərdən çəkirdilər. Bir müddət gedəndən sonra Günəş daha da qızmışdı. Sultan Heydər və vəzir istidən susuzlamışdılar və bir çeşmə dalıca gəzirdilər. İndi neçə saat idi ki, yol gedirdilər, buna görə yorulub taqətdən düşmüşdülər. Amma o qədər çəkmədi ki, bir sərin bulaq başına çatdılar. Sultan Heydər bulağın sərin və saf suyun görən kimi sevinib güldü. Sonra vəzirinə dedi:

– Atdan düş, bu gözəl sudan bir qədər içək və əl-üzümüzü yuyub dincələk.

Vəzir Sultanın əmrinə itaət edib, atlarından düşüb, heyvanları bir yanda bağlayıb, sonra bulağın başında fərş salıb dincəlməgə başladılar.

Bir az istirahət edəndən sonra Sultan Heydər namazın qılıb yerə oturduğu zaman yanında bir qoca, vəli nurani dərvişi gördi. Dərviş babanın haradan gəlib və orada durduğundan çox təəccüb edib heyran qaldı. Sonra dərvişin üzünə baxıb dedi:

– Dərviş baba, sən kimsən? Və haradan gəlib və hara gedirsən?

Dərviş baba onun sözünün qabağında gülümsəyib dedi:

– Sultanım sağ olsun, biz bir səyyah kişilərik ki, dünyanı dolanırıq və Xorasan əhliyik.

Sultan Heydər duyub heyrət içində qaldı və sonra təəccüb ilə soruşdu:

– Dərviş baba, sən mənim Sultan olduğumu haradan bildin?

Dərviş baba bir də təəccüb edib və gülümsək halda dedi:

– Biz Allahın inayət və kərəmi ilə bilirik ki, siz Sultan və yanızdakı da sizin vəzirizdir.

Sultan Heydər daha da mat qalıb, üzün vəzirə dön-

dərib dedi:

– Vəzir, sən nə anlayırsan? Doğrusu, bu kişi kimdir?

Vəzir də sultanın qabağında əllərin qoynuna qoyub dedi:

– Sultanım sağ olsun, mən də məəttəl qalmışam ki, bu kişi kimdir? Hər halda bəllidir ki, bu dərviş baba bir alim və bilici insandır və mümkündür ki, bizə murad verməkdə kömək eləsin.

Sultan Heydər murad sözün eşidən kimi dərviş babanın yaxasın tutub dedi:

– Ha, dərviş baba, indi ki, mənim sultan olduğumu bilirsən, yəqin ki, ürəkdə gizlin dərdimin dərmanın da tədbirləyib düşünərsən. Tez ol, mənim dərdimin dərmanın buyur!

Dərviş gördü ki, sultan onu asanlıq ilə buraxmayacaq, buna görə bir də baş endirib dedi:

– Sultan sağ olsun, dərman verən Allahdır və hər nə gəlirsə Allahdan gəlir. Bizlər bir fəqir kişilərik və bizim əlimizdən bir şey gəlməz.

Sultan Heydər dərvişin sözlərindən razı olmayıb, onun yaxasın daha da bərk tutub dedi:

– Yox, yox, dərviş baba, mənə hər nə gəlirsə, səndən gələcək. Ta mənim muradımı vermiyəsən, səni bu asanlıq ilə buraxmaram.

Dərviş baba işi belə görən kimi başa düşdi ki, gərək hər nə vardır, söyləsin. Bu idi ki, naçar qalıb əlin cibinə salıb bir qızıl alma çıxardıb sultana verdi və sonra ona dedi:

– Bu qızıl almanı al, gecə namazını qılandan sonra onun qabuqların soyub yarısını özün və yarısını da xanımın sultana yedirt. Allahın izni ilə doqquz aya dolandan sonra bir oğlan uşağız dünyaya gələr. Unutma, almanın qabuqların da təvilədə öz gözəl Qeysərağa verəcəksən və

sənin uşağın dünyaya gələn zamanda Qeysəraq da bir bala doğacaq. Daha sənə bir sözüm yox. Fəqət yadında saxla ki, mən gəlmiyincə uşağın adın qoymuyasan.

Sultan Heydər dərvişin əlin öpdi və almanı aldı və sonra dərvişə pul verməк üçün əlin cibinə salmaq istədi. Vəli birdən-birə dönüb baxan kimi gördi ki, dərviş qeyb olub.

Sultan Heydər bu işə heyran qalıb və fikir eliyə-eliyə evinə döndi və gecə namazın qılandan sonra qızıl almanı soyub və öz arvadı Xanım Sultan ilə yedilər, qabuqların da xas axırda olan Qeysərağa verdilər.

Daha doqquz ay və doqquz gün qurtardı və bir gün Sultan Heydərə xəbər verdilər ki, Allah sənə bir oğlan uşağı verib.

Sultan Heydər bu uşağın olduğundan çox sevinib və bütün şəhərin fəqir və füqərasına ovuc-ovuc pul payladı və çox kimsələri bargaha dəvət edib yaxşı-yaxşı yeməlilər və içməlilər onlara verdi.

Uşaq dünyaya gələn kimi Qeysəraq at da bir gözəl və parlaq bala doğdu.

Daha Sultan Heydər münəccimlərə əmr elədi ki, uşağın taleyinə baxsınlar. Buna görə bütün münəccimlər toplaşıb o zamanın adətinə görə rəmlə baxdılar və bir azdan sonra üzlərin sultana tutub dedilər:

– Qibleyi-aləm sağ olsun, rəmllər belə göstərir ki, bu uşaq çox igit və qoçaq və düşüncəli cavan olacaq. Fəqət lazımdır ki, yeddi yaşına kimi çox müvazibət olsun. Çünki qabaqda bir qorxu görünür.

Sultan Heydər uşağın taleyinə yaxşı baxmağı bir də əmr elədi və buna görə münəccimlər bir də rəmlə baxmağa başladılar və yenə dedilər ki, əvvəlki kimi görünür. Buna görə Sultan daha bir söz demədi.

## ADQOYMA

Günlər, aylar, illər dolandı və biləxərə ged-gedə şahzadə günü-gündən böyüyüb yeddi yaşına girdigi halda hələ adı qoyulmamışdı? Bu idi ki, uşaqlar onu görəndə bir-birlərinə göstərib və deyirdilər ki, adsız şahzadəyə bax. Şahzadə uşaqların bu sözlərindən çox tutulub qəmli olurdu və qüssəsinin çoxluğundan damcı-damcı yaşlar suratlarına axıb və ağlaya-ağlaya anasının yanına gəlib belə deyirdi:

– Anacan! Bəs mənim adım yoxdur? Bəs mənim adım nə vaxt qoyacaqsın?

Ana oğlunu bu cürə qəmli və gözləri yaşlı görən kimi ürəkdən darıxırdı və az qalırdı ki, hököldəyib ağlasın. Daha özün saxlaşdıra bilməyib belə deyirdi:

– Oğlum, sənin anan bir iş yiyəsi degil. Yaxşısı budur ki, bu sualı atandan eyliyəsən?

Buna görə şahzadə məyus olub bir söz demirdi. Ta bu ki, bir gün uşaqların əlindən cana gəlib atasının yanına gedib və bu sualı elədi atası da oğlunu qucağına basıb və belə dedi:

– Oğlum, sən bir dərvişin himmətinin səmərəsisən, ta o gəlməyincə sən adsız qalacaqsan?

Buna görə də dövrədə oturanlar, yəni vəzirlər və vəkillər sözə gəlib dedilər:

– Aman, sultanımız, şahzadəyə bir ad qoymaq gərək. Bir dərviş sözünə bu qədər bel bağlamaq olurmu?

Sultan Heydər onların sözünün qabağında bir az sakit qalıb və daha bir söz demədi.

## XACƏ DANYAL

Uşaq yeddi yaşını qurtarmışdı. Sultan Heydər yenə də münəccimlərə əmr elədi ki, onun taleyinə baxsınlar. Daha münəccimlər rəmlə baxıb, bir azdan sonra dedilər:

– Sultanımız sağ olsun, şahzadə böyüyüncə gərəkdir ki, gərək bir yerdə yaşasın ki, pis əxlaqlar görməsin.

Sultan Heydər münəccimlərin bu sözündən çox təəccüb edib və bilmirdi ki, nə eləsin. Bu idi ki, bu barədə bir alim və bilici adamı lazım gördü daha bir az fikir edəndən sonra bir yol tapdı. Buna görə Xacə Danyal adlı bir bilici və dünyagörmüş şəxsi bargaha dəvət elədi.

Xacə Danyal bargaha gəlib və Sultan Heydərə təzim edəndən sonra Sultan Heydər ona yer göstərdi və o da əgləşdi. Bir qədər yeyib-içəndən sonra Sultan Heydər mətləbi Xacə Danyala dedi və Xacə Danyal da bir az fikir edib tədbir tökəndən sonra Sultan Heydərə belə dedi:

– Sultan sağ olsun! Əmr veriz bir gözəl saray tikilsin və oraya günəş düşməsin. Mən də şahzadəni bu sarayda tərbiyə edib və dərs ögrədim.

Bu söz Sultan Heydərin xoşuna gəlib və bir gözəl və əmin sarayın tikilsin əmr etdi. Daha saray bir az müddət zamanında gözəl-gövçək düzəldi və Xacə Danyal uşağı yaxşı tərbiyə etmək üçün gecə və gündüz çalışırdı. Həmişə səhər tezdən hənüz günəş öz gözəl və parlaq nurunu aləmə saçmamış, yəni onda ki, dan yaş ətirli qızıl güllərin ətrafa dağıdır və xoruzlar son banlamağlarını qurtarırdı. Xacə Danyal yerindən durmamış uşaq adət etdiginə görə uşaq tezdən yerindən qalxıb birbaşa vərzeş etməgə başlayırdı, ta öz ustadı yuxudan durmamış dan yelinin qabağında gözəl və ətli-canlı bədəni isti tər içində bulanırdı.

Biləxərə, ustad Xacə Danyal yerindən durub və uşa-

ğı bu cürə cabük və düşüncəli görəndə ürəkdən şad olub və onun səadətli gələcəyinə iman tapır və inanmırdı ki çəkdigi zəhmətlər və əməklər hədər olmayacaqdır. Onlar bütün gecə və gündüz çalışırdılar. Məsələn, uşaq bir tərəfdən dərs və elm oxuyurdu və bir yandan da qılınc vurmaq, qalxan tutmaq, kəmənd atmaq, at minib çapmaq və habelə hər cürə vuruşmaq işlərində ustad olmaqda rəşadətlər və igidliklər göstərirdi. Belə ki, on yaşına dolduğu halda on beş illik dərslər və cəngi vuruşma işlərin ögrəndi, daha hər kəs zahirdə ona baxsaydı inanardı ki, bu uşaq degil, bəlkə bir igit pəhləvandır: Boyu uca, qolları yoğun, beli nazik, üzü ağ, ayaqları kiçik, barmaqları iri, gözləri parlaq, əxlaqı sevməli, danışığı diri və aydın ürəyi saf və mehriban, dodaqları gülümsəli, alnı açıq və bütün tərpəşəğaği bəgənilən bir igit olmuşdu. Daha saatlar, günlər, aylar, illər dolanıb bu Azərbaycanın gələcək qəhrəman oğlunu becərməkdə idi. Bəs demək olar ki, bizim igit və iftixarlı qəhrəmanımız on beş yaşına dolmuşdu və bu müddətdə yer altındakı saraydan başqa bir yer görməmişdi. Daha bir gün yeməgin içindən uzmana kimi görmədigi bir şey çıxdı. O şey bir tikə sümük idi.

Xacə Danyal qulluqçulara əmr eləmişdi ki, yemək içində bir sümük tikəsi qoysunlar. Bu idi ki, şahzadə bu şeyi görməkdən çox heyran qaldı. Sonra onu götürüb pəncərədən eşigə tulladı və sümük pəncərənin camını sındırdı. Bu moqe birdən-birə günəş içəri düşdü.

Uşaq bu dəfə indiyə kimi görmədigi şeyi, yəni, günəşi görməkdən az qaldı ki, qorxsun, vəli sonra cürət edib günəşi tutmaq istədi. Amma hər nə çalışdı ki, günəşi tutsun, tuta bilmədi. Buna görə çox çalışandan sonra tərləyib, bədənindən su kimi tər axırdı. Düz bu zaman Xacə Danyal içəri girdi və təəccüb ilə şahzadəni qan-tər içində

gördü ki, günəşi tutmaq istəyirdi. Buna görə onun bu cürə dünyadan xəbərsiz olduğuna ürəgi yandı. Bu idi ki, onu dilə tutmaq üçün dedi:

– Şahzadə, bu gördüyün iş nədir?

Şahzadə öz ustadına ədəb ilə belə cavab verdi.

– Əziz ustadım! Axır, bəs mən haçana kimi azadlıq üzünə həsrət qalacağam?

Sonra başın aşağı salıb bir söz demədi. Xacə Danyal ürəgi yandığına görə şahzadənin birilə gəzməgə çıxmağına razı oldu. Buna görə şahzadə gəzməgə lazım olan yaraq, yasaq və qılınc götürüb və ata minib yola düşməgə hazır oldu. Bu əsnada qabaqdan bir yaraqlı və yasaqlı igit gözəl bir ata minmiş gəlirdi və yanında bir ala tazı ləhləyə-ləhləyə quyruğun bulayırdı. Şahzadə dedi:

– Əziz ustadım, bu atlı kimdir və yanındakı küçük nədir?

Xacə Danyal dedi:

– O bir igit cavan və yanındakı da onun ov tazısıdır.

Şahzadə igit cavan gəlməsin eşidən kimi çəkməli ayaqların atın qaburqalarına vurub, onun qabağına çıxmaq istədi. Xacə Danyal şahzadənin bu rəftarını görən kimi verdiyi icazədən peşiman oldu. Buna görə tələsə-tələsə dedi:

– Şahzadəm, nə edirsən? Buyurun gedək.

Vəli şahzadə Xacə Danyalın bu təklifinə razı olmayıbdısa da ancaq naçar qalıb dedi:

– Əziz ustadım, gedərəm, vəli bu şərt ilə ki, atam mənə də bu cürə at, qılınc, qalxan, qamçı, tazı alsın.

Xacə Danyal şahzadənin şüurundan xoşhal olub güldü, vəli gördü ki, onu bu asanlıq ilə yola gətirmək olmayacaq. Buna görə bütün mətləbi Sultan Heydərə yetirməgi şahzadəyə qovul verdi.

Xacə Danyal daha şahzadənin təqazasın Sultan Heydərə andırdı və Sultan Heydər şahzadənin on beş yaşına girdikdən çox sevinib və onun xahişinə qulaq verib və bütün onların hamısını şahzadəyə mərhəmət elədi və sonra hamı vəzifələri yanına çağırıb dedi:

– Möhtərəm vəzirlər! Daha güman edirəm ki, şahzadənin ad qoymaq günü çatıb və anlaşıldığına görə ova çıxmaq istəyir.

Vəzirlər Sultan Heydərə təzim edib və onun məsləhətinə razı oldular və buna görə ad qoymaq üçün tədarüklər başlandı.

## CAVAN ŞAH İSMAYIL

Şahzadə üçün ad qoymaq məclisi quruldu. Bütün vəzirlər və vəkillər və ayrı ölkələrin nümayəndələri və hamı təbəqələrdən, habelə qızılbaş sərdarları bu adqoymaq məclisinə dəvət olunmuşdu. Hamı cürə yemək və içmək və şərbət oxumaq və çalmaq büsatı düzülmüşdü və hamı tələsirdi ki, şahzadəyə bir gözəl ad qoyulsun. Amma Sultan Heydər hələ dözürdü. Çünki zahirdə göründiginə görə bir şəxsi gözləyirdi. Amma o qədər çəkmədi ki, Sultan Heydərin intizarı başa çatdı. Birdən-birə qapı açıldı, dərviş baba əsasın ölçə-ölçə içəri girdi. Sultan Heydər hamının hüzurunda dərviş babanın ayağına durub və ona yer göstərdi. Daha bir azdan sonra çalğıçılar və oynayanlar ortaya gəlib şadlıq başladılar. Dərviş baba Sultan Heydərə dedi:

– Sən sözün üstə durdun və mən də əhdə vəfa edib buraya gəldim. İndi şahzadənin adı İsmayıl və onun ilə birlikdə doğan atın balasının adı da Qəmər at qoyulsun.

Dərviş baba bu sözləri söyləyəndən sonra gözdən qayib oldu və Sultan Heydərin yanında olanlar bu işdən çox təəccüb edib və sonra dərvişi tutmaq istədisələr də ancaq bir iş görə bilmədilər. Çünki onlar hələ tamaşa etməkdə idilər ki, dərviş baba oradan getmişdi.

O gündən neçə gün keçdi və şahzadə bir igit cavan, yəni İsmayıl Səfəvi adlanan tapıldı. Buna görə ova çıxdı. Ağ atı minib, iti qılıncı bağlayıb, kəməndi salıb, qılıncı asıb, çəkmələrini geyib yoldaşları ilə yola düşdülər. Dərədən aşıb təpədən çıxdılar, uca dağlar yendilər. Daha hər kəs bir yana dağıldı. Şahzadə İsmayılın da yolu bir bulaq başına düşdü. Yorulduğuna görə o, bulağın başında oturdu və birdən-birə gözü qabağındakı ala dağa düşdü. Bu dağ başdan-başa dumanlıq idi, göz-gözü görmürdü. Şahzadə İsmayıl yoldaşları ilə qərar qoymuşdu ki, bir-birlərini itirsələr filan çeşmənin başında gözləsinlər.

Şahzadə İsmayıl bir az istirahət edib və dincələndən sonra yenə də ata minib dağa sarı üz qoydu. Az gedib, düz gedib və bir qədər yol gedəndən sonra dağın ətəgində bir gözəl ceyranı gördü. Fourən* tez ceyranı kəməndə salmaq üçün əl-ayağa düşdü. Ceyran da bunu görən kimi daha yeyin qaçmağa başladı. Şahzadə də atını dört nala salıb ceyranı qovmağa başladı. Ceyran qaçdı, şahzadə qovdu və şahzadə qovdu, ceyran qaçdı. Daha ceyran nəfəsdən düşüb, bir çadıra pənah apardı. Şahzadə İsmayıl ceyran girən çadırın dövrəsinə baxıb, orada çoxlu çadırlar gördü. Daha bir az orada durub tamaşa edərkən çadırın içindən bir gözəl saçlı qara qaş-göz qız çıxdı. Şahzadə İsmayıl təəccübdən az qaldı çığırsın. Çünki bir baxışda o, gözəl pəriyə aşiq oldu. Bu iki cavan bir-birlərinə dərin-dərin aşiqanə baxan

-----------------

*Fourən – tez, tələm-tələsik

dan sonra, min canü könül ilə vuruldular. Qızın rəngi qaçdı və şahzadənin də dizləri titrədi, və az qaldı ki, atdan düşsün. Hər iki sevgili neçə dəqiqə bir-birlərinə nəzər salandan sonra qız taqət gətirməyib heyran duran cavan şahzadəyə tərəf gəlib durdu. Amma birdən-birə çadırdan bir qoca qarı çıxdı və qızı bu sağ səslədi:

– Ay qıza, ay qızacıq, ahay qız, gəl ha... Harda qaldın?

– Canım nənə, buracıqda bir cavan yıxılıb və kömək üçün möhtacdır. İndi gəl onu yola salıb, sovab edək. Daha yubanma, tez gəl, indi babam gələr, halım yaman olar.

Qoca qarı yaxına gəlib gördü ki, qızın gözləri elə bu cavan oğlandadır və ondan ayrılmaq istəmir. Buna görə onların arasında bir gizlin dərdin və yanar eşqin vücudin düşündi. Qarının öz cavanlıq zamanı yadına düşdü və gözləri sulandı, daha mane olmadı. Qız keçən gecə yuxuda bu igit cavanı görüb aşiq olmuşdu. Bu idi ki, o gündən bəri bir gecə gözünə yuxu keçmirdi və gündüzü də ondan çətin olmuşdu. Qoca qarı qız ilə oğlanı bir yerdə gördükdən sonra bunların dərdinə çox yandı. Çünki özü cavanlıqda aşiq olub və eşq odundan xəbəri var idi və bilirdi ki, eşq alovu hamı alovdan yanğılı və yandırandır. Buna görə qızın yanına gəlib dedi:

– Mən sizin bir-birizə vurulduğuza inandım. İndi bu oğlan səndən ayrılıb getsin və sən də tez ayağa qalx və ürəkdən onun üzündən öp və ayrıl.

Qız tez qoca qarının sözündən sevinib, fourən yerindən durub bir isti əlaqə və qızğın məhəbbət ilə şahzadənin üzündən odlu bir öpüş götürdü.

Şahzadə ki, qızı əvvəl görəndə əqli çaşmışdı və hələ özünü tapmamışdı və yavaş-yavaş özünə gəlirdi, bu dəfə gözünün qabağında inanmadığı işi gördi. Qız onun üzündən öpdü və bu öpüş şahzadəni daha da gic edib heyrətə

saldı. Əgər eşqi bir idi, min oldi. Buna görə aldi sazi bağrına görək nə söylədi:

Sənə qurban olum, gözi sürməli,
Bunda sora daim səni görməli.
Əbrişəm geyimli, gümüş dügməli,
Bir də öpüş ver, qurbanın olum.

Atam Heydər, özüm Şah İsmayiləm.
Allah bilir, fəqət sənə mayiləm.
Boynundan asılan bir həmayiləm,
Bir də öpüş ver, qurbanın olum.

Bu dəfə qız aldı, görək nə söylədi:

Qadasın aldığım, ay Şah İsmayıl,
Yüz yol səndən artıq mən oldum mayıl.
Allaha baxarsan, ol mənə hayıl,
Qəbul eylə sənin cananın olum.

Ey igit baxışlı qəhrəman yarım,
Ey ümidim, günüm, ey ruzigarım,
Səndən başqa yoxdu dünyada varım,
Sən olma, mən sənin qurbanım olum.

Bu iki sevgili bir-birləri ilə bu cürə dilləşərkən qoca qarı ortaya girib şahzadəni və qızı dilə tutmaq istədi. Şahzadə və qız bir-birlərindən dönə bilmirdilər və qolların bir-birlərinin boynuna salıb razü niyaz edib və əhd edirdilər ki, daha bir-birlərin unudmasınlar və Əsli ilə Kərəm kimi həmişə öz odlu və yanar eşqlərinə vəfalı qalıb və evlənənə kimi və yanana qədər bir-birləri ilə olsunlar. Daha

qoca qarının ürəgindən gəlmirdi ki, bu iki sevgilini bu cürə bir-birlərindən ayırsın. Vəli daha lazım idi ki, şahzadə oranı tez tərk edib uzaqlaşsın. Buna görə bir də irəli yeriyib, onların qabağında dayanıb belə söylədi:

– Ey könlümün nuri, ey igit və qəhrəman bala, çox darıxma, bu iş bu cürə sürüb gedməz. Daha ümidin olsun ki, bir gün bir-birizə çatarsız. Bu düzdür ki, aşiq öz eşqini asanlıq ilə boynuna almaz və etiraf eləməz, vəli xəlq nə kordur və nə də dəlidir. Yəni hər kəs aşiqi görən kimi bilər ki, o, aşiqdir, bir gizlin eşq oduna yanır. İndi lap yaxşısı budur ki, buradan ged və qızın babası hər gün otlaq işi üçün buraya gələr. Daha bu axşam bu mətləbi atan Heydərə andır. Ta o da Gülzar xanımı sənin üçün babasından istəsin. Bəs bunun üçün darıxıb və usanmaq lazım degil. İndi gəl öz sevgilinin yanaqlarından öp və buralarda çox yubanma.

Şahzadə və qız bir-birlərinin üzünə baxıb ayrılmağa razı olmadıqlarını bir-birlərinə andırırdılar. Vəli qoca qarı yenə də onları dilə tutub qane elədi. Bu idi ki, daha bir də öpüşüb bir-birlərindən ayrıldılar. Vəli şahzadə bir gedib və bir də dalı qayıdıb əlin ona tutub öpürdi və beləliklə, andırırdi ki, ayrıla bilmir və qız da ged-gedə geri dönüb baxırdi və özün saxlatdıra bilməyib, ayrılığın şiddətindən gözlərindən damcı-damcı yaşlar suratlarına axırdı.

Gülzar öz sevgilisi şahzadəyə yadigarlıq üçün bir qızıl daraq vermişdi. Bu idi ki, bir az uzaqlaşandan sonra qızıl darağı qoynundan çıxardıb dodaqlarına qoyub öpdü, sonra qərar qoyulmuş bulağın yanına gəldi. Yoldaşları ondan qabaq oraya gəlib və onu gözləyirdilər. Şahzadə yetişib salam verdi. Onlar da onun salamın alandan sonra özləri vurduqları ahu və ceyranları göstərdilər və şahzadədən də soruşdular:

– Sənin ovun hanı?

Şah İsmayıl əliboş qayıdıb və bir ov ovlamamışdı. Buna görə onların cavabında indi görək nə dedi:

Ay qardaşlar, ay yoldaşlar,
Həm, həm halallaşdım.
Görün ki, nədən ayrıldım,
Ləbi şəkkərdən ayrıldım.

Bir gün şad olub gülərəm,
Fələkin belin bükərəm.
Məgər bu yardan keçərəm,
Gül üzlü yardan ayrıldım.

Şah İsmayıl edər dilək,
Məni həsrət qoyma, fələk!
Sərvi boylu huri, mələk
Mən Gülüzardan ayrıldım.

Sonra yoldaşları bunun bu sözündən heyrətə düşüb öz-özlərinə baxdılar və bir şey başa düşmədilər və şahzadə də bu barədə onlara bir söz demədi. Amma onlara bəlli oldu ki, onun ürəgində bir gizlin dərd var. Çünki rənginin qaçmağından məlum idi. Vəli o dərdin nə olduğun başa düşə bilməyirdilər.

Daha vəqt çatmış idi və gərək idi ki, yola düşsünlər. Buna görə bulağın başından qalxıb və yola rəvan oldular. Sabah səhər oldu və yoldaşları öz aralarında dedilər ki, şahzadədən soruşub görək bu gün hansı tərəfə gedəcəgik.

Bu idi ki, şahzadəyə baş əgib və təzim edəndən sonra mətləbi ona dedilər. Şahzadə onların cavabında sazı bağrına basıb həyalı bir halda görək indi onlara nə söylədi:

İtirdim bu yerdə gözəl maralı,
İndi düşə bilməm ondan aralı,
İsmayilin qəlbi olub yaralı,
Geri dönə bilməm, dayanacağam.

Yadıma düşəndə ala gözləri,
Şərbətdən, şəkərdən şirin sözləri,
Bağrımı yarır eşqin gözləri,
Geri dönə bilmirəm, odlanacağam.

Məndən əl götürün, əziz yoldaşlar,
Axıdmayın üzə gözümdən yaşlar,
Qorxuram arzuma toxunsun daşlar,
Geri dönə bilmərəm, odlanacağam.

Eşqin odu günlərimi qanə döndərib,
Bu yerlərdə daha olmaram qərib,
Məhəbbətin quşu qanadın gərib,
Geri dönə bilmərəm, talanacağam.

Dönə bilməm ondan gözüm yolunda,
Qalıb həsrət ilə sağ və solunda,
Qolbağı olaydım onun qolunda,
Geri dönə bilmərəm, dayanacağam.

Ağlaram, ağlaram atlanar sellər,
Bu odli ahımdan qovzanar yellər,
Mənə gülərsə də bu nadan ellər,
Geri dönə bilmərəm, yubanacağam.

Ürəgimin dərdin biləydi dostlar,
Görəydilər necə yanıb sızıldar,
Ondan ayrılanı gözüm olub zar,
Dalı dönə bilmərəm, daldanacağam.

Şahzadə bu sözləri şeir ilə və saz ilə deyirkən yoldaşlarının gözlərindən damcı-damcı parlaq yaşlar tökülərdi. Hətta çoxları dözə bilməyib ucadan ağlayırdılar. Doğrusu, eşq odi çox yanğılı və əlovlıdır. Bəzi daş ürəkli yoldaşları da taqət gətirə bilməyib qəmli olmuşdular. Bəli, daha şahzadəni sakit eləməgə başladılar. Şahzadə də onlara cavab yerinə şeir oxuyurdu. Amma bir azdan sonra ona ümidvarlıq verdilər ki, eşq oduna düşən aşiq gərək səbr eləsin, yoxsa mümkündür ki, dəli olub və Məcnun kimi çöllərə düşsün və ya Kərəm kimi gözi odlarda yansın.

## GİZLİN BİR DƏRD

Şahzadə güni-gündən saralıb solurdu və Gülzarın xəyali onun fikrindən və zikrindən uzaqlaşmırdı. Bütün ümid və arzusi o idi. Hər gecə öz yataq otağına gedib gizlində oni öz xəyalında gözünün qabağında görürdi və çox vəqt eşqin şiddətindən öz-özünə danışırdı. Məsələn, deyirdi:

– Ey mənim ruhim, ey bütün ümidim və eşqim, aya bir gün olar ki, sənin vüsalivə çatam? Sən mənim əvvəl və axır eşqimsən və sənsiz dünya mənə cəhənnəmdir.

Daha şahzadənin bütün ürəgində olan sözləri hamı bilmirdi və bu məsələ onun ata-anasının qulağına çatıb və onları da narahat etmişdi. Bu idi ki, onlar da gecə və gündüz onun dərdinin çarəsinin dalıca gəzirdilər və bütün həkimlər və dərmançıların dəsturlarına əməl eləmişdilər. Vəli onların heç birindən əsər olmamışdi. Çünki şahzadə aşiq idi və eşq düçar olanın dərmanı öz məşuqəsi əlindədir.

Sultan Heydər və Xanım Sultan hamı yerdən məyus və naümid olub və görürdülər ki, tək bir balaları göz görə-

görə aradan gedirdi. Buna görə çox qəmli və qüssəli idilər.

Vəli bir gün şahzadənin yoldaşlarından biri Sultan Heydərin hüzuruna gəlib və bütün mətləbləri ona söylədi. Yəni dedi ki:

– Sultanım sağ olsun! Şahzadənin bir həkimlig işi yoxdur. Onun dərdinin dərmanı öz məşuqəsinin əlindədir.

Sultan Heydər bu sözləri eşidən kimi çox sevinib və şad oldu. Və sonra əmr elədi ki, gedin şahzadəyə deyin ki, hər kimi sevib desin, ta onu alaq.

Şahzadə atasının yanından gələnlərə dedi:

– Ey ağalar! Mən bu vilayətdə bir kimsənin qızına aşiq degiləm.

Sonra başın aşağı salıb bir söz demədi. Fəqət, dərdi çoxaldıqca yeyib-içmağdan və danışıb-gülməkdən əl götürüb və bir bulaqda səssiz və küysüz otururdi. Babasi Sultan Heydər oğlu şahzadə İsmayılı bu cürə görəndə ürəkdən dərin bir ah çəkirdi və öz-özünə deyirdi ki, mən bir sultan olam və igit balam bu cürə aradan gedib məhv ola?! Və bir çarə edə bilmirəm?! O, aşiq olub və aşiq olmaq çox çətin işdir?! Məgər mən özüm aşiq olmamışam?!

Bəli, aşiq olmaq çətin bəladır və onnan böyük dərd yoxdur!

Sultan Heydər işi yaxşı anlamaq üçün şahzadənin yoldaşlarından birin öz hüzuruna çağırıb ondan bütün işləri əvvəldən axıra kimi soruşdi. O da belə söylədi:

– Sultanım sağ olsun, bizlər şahzadə ilə ova getdiyimiz zaman onun gözünə bir dağ xoş gəldi və şahzadə özü o dağa tək getdi və bizi yanına qoymadı. Bu idi ki, sonra dağdan bizim yanımıza gələn zaman rəngi ağarıb və xəzan gülitək solmuşdi. Daha əlində bir ov da yox idi. Və şahzadə bizim sualımızın qabağında bunu dedi:

– Mən buradan gedəsi degiləm və mənim işimi Al-

lahdan başqa kəs bilməz.

– İndi biz də işin nə cür olduğun cənabızın qulluğunda ərz elədik.

Sultan Heydər bunları eşidən kimi şad olub və fourən əmr elədi:

– Tez bir çapar çıxardın, ta görüm o dağda nə var?

Fourən bir çapar hazır olub və dağa çıxıb gördi ki, dağın ətəgində bir yaylaq var və yaylaqda bir çoxli gög çadırlar düzülüb. Bu idi ki, daha yubanmayıb, üzü şəhərə tərəf dönüb və sultanın yanına gəlib və işi xəbər verdi.

– Mənim anladığıma görə bu dağda olan yaylaqda bir çoxli çadırların içində Dəbir bəgin bir gözəl qızı var və ola bilər ki, şahzadə ona aşiq olub.

Sultan Heydər bu sözə bir az inandı və fikrə düşdi. Amma bu əsnada haman bəgin qonaqçısı təsadüfən icazə alıb və içəri girdi. Və buna görə onun üçün bir qonaqlıq düzənləndi. Sonra qonaqlıq qurtarıb, Sultan Heydər bəgin qonaqçısını yanına çağırıb dedi:

– Sizin bəgin qızı varmı?

Qonaqçı baş əyib və təzim edəndən sonra dedi:

– Sultanım sağ olsun, Gülzar adlı bir gözəl qızı var.

Sultan Heydər soruşdu ki:

– Aya, onun adaxlısı varmı?

Qonaqçı dedi:

– Qurban, hələ bir igit cavan ona layiq tapılmayıb.

Sultan Heydər əmr elədi ki, çalğıçılar çalsın və oynayanlar oynasınlar. Buna görə çalıb-oynamaq başlandı və hamı gülüb-şadlıq eləyirdilər. Vəli onların içində bir yalqız və dərdli kəs nə gülürdi və nə də danışırdı.

Bu yazıq və yalqız kəs şahzadə idi ki, bargahda şadlıq ola-ola qəmli və tutqun idi.

Sultan Heydər və Xanım Sultan şadlıq edirdisələr

də, ancaq gözləri ürəklərinin parçası şahzadəyə düşəndə daha şadlıq yadlarından çıxıb qüssəli olurdular. Hər nə çalışırdılar ki, şahzadəni güldürüb və dilə tutsunlar, olmurdi. Şahzadə daha öz xəyalından və məşuqəsinin fikrindən əl götürmürdi və daim onu fikir edirdi. Bir zaman və şadlıq və çalhaçaldan sonra bütün məclis əhli dağıldı və şahzadə də öz xəlvət yatağına girdi. Sonra bir az fikir edib öz sevgilisin xəyalına gətirib və gözün qabağında duran kimi sazı bağrına basıb və eşq camı ilə məst olub, indi görək xəlvət otaqda nə söyləyir:

Səndən ayrı düşən gündən,
Əllərim üzüşən gündən.
Məni dərdə eşən gündən
Gecəm, gündüzüm qaradır.

Hicran dərdi yaman imiş,
Aşiqin qəlbi qan imiş.
Məşuqə can alan imiş,
Gecəm, gündüzüm qaradır.

Gedməz xəyalın gözümdən,
Vallah, çıxmışam özümdən.
Yenə dönmərəm sözümdən,
Gecəm, gündüzüm qaradır,

Dərdə düşən bilər dərdim,
Bu nə dərddi nə bilərdim!
Yetən aşiqə gülərdim,
Gecəm, gündüzüm qaradır.

Məni dərdə salan dilbər,
Salan canə talan dilbər.

Mən oldum odlanan, dilbər
Gecəm, gündüzüm qaradır.

Bir kimsə halımı bilməz,
Kim belə halımı bilməz?!
Fikrin xatirdən itilməz.
Gecəm, gündüzüm qaradır.

Saralıb-soldum qəmindən,
Ayrı düşdüm həmdəmimdən.
Uzaqlandım görkəmimdən
Gecəm, gündüzüm qaradır.

Ürəgim qəmdən yarıldı,
Qəmdən yarıldı, darıldı.
Eşqin boynuma sarıldı,
Gecəm, gündüzüm qaradır.

Səni gördüm, qəlbim əsdi,
Eşqin qərarımı kəsdi.
Öpərəm, bu son nəfəsdi
Gecəm, gündüzüm qaradır.

Kərəmtək odlara yansam,
Odlara yanıb dayansam,
Qızıl qanıma boyansam,
Gecəm, gündüzüm qaradır.

Yara aşiq olan, könlüm,
Qızıl qana dolan, könlüm,
Ulula odlanan könlüm,
Gecəm, gündüzüm qaradır.

Şahzadə beləliklə, günüzi gecə edirdi. Və bir kəs onun bu gizlin halından xəbər tutmurdi, ancaq gecələr aydın və parlaq Ay ilə və günüzlər aləmə nur saçan Günəş ilə həmdəm olub gün keçirirdi.

## AĞQOYUNLU BƏGİ

Məclis qurtarandan sonra Sultan Heydərə Ağqoyunlu bəginin gəlməgin xəbər verdilər. Sultan Heydər Ağqoyunlu bəgin hüzuruna qəbul edib, yenə də bir yaxşı qonaqlıq tədarüki düzəltdi. Bu dəfə daha onun xatirinə qonaqlıq çox gözəl bir halda başlandi və çalğıçılar və oynayanlar, oxuyanlar yenə də məclisi qızışdırıb şadlıq olundi və Ağqoyunlu bəginə çoxli hörmət olub və məclis qurtarandan sonra Sultan Heydər öz əziz qonağı Ağqoyunlu bəginə dedi:

–Aya, bəg, sənin Gülzar adlı qızın varmı?

Bəg bu sözdən bir az duyub, vəli Sultanın cavabın vermək üçün dedi:

– Sultanım sağ olsun, bəli, varımdır. Yoxsa buyuracağız var idi?

Sultan dedi:

– Bəli, istirdim sənin qızın Gülzarı öz oğlum şahzadə İsmayıla alam. Əlbəttə, bu iş Allahın əmri və Peyğəmbərin buyurduğudur və habelə təbii, bir məsələdir.

Bəg utanan kimi başın aşağı salıb yavaşca belə söylədi:

– Fərman sultanımızın fərmanıdır. Mən qızımı sultanımızdan qızırqanmaram. Allah mübarək eləsin.

Sonra hər iki tərəfdə bir-birlərini alqışlayıb və təbrik dedilər və bu iş şahzadənin qulağına yetişdi və qulluqçulardan biri ona belə söylədi:

– Şahzadə sağ olsun, bəg öz qızı Gülzarı sənə verdi.

Şahzadə İsmayıl bu sözü eşidən kimi müjdə verənə bir ovuc qızıl verdi və yola saldı. Sonra tək olan zamanda həmdəmi olan sızıldayan sazını bağrına basıb, görək nə dedi:

Yarımı bir də göreydim,
Göreydim, sonra öleydim.
Onun gəldigin bileydim,
İnanmıram bu xəbəri.

Xəyali gözümdən gedməz,
Neylim, əlim ona yetməz.
Yuruq bəgi qəbul etməz
İnanmıram bu xəbəri.

Yuruq bəgi qəbul etsə,
Əlim əlinə yetişsə.
Gözəl eşqim başa yetsə,
İnanaram bu xəbəri.

Bu xəbər bütün hər yana yayıldı. Hamı şad olub sevinirdi. Amma doğrusu bu idi ki, heç kim Gülzar kimi ürəkdən sevinib zövq etmirdi. Gülzar az qalırdı ki, özün itirsin. Hətta rəngi qızarıb qızılgülə oxşayırdı. Amma o qədər çəkmədi ki, bu şadlıq və sevinmək aradan geddi və Gülzar xanımı bir çox müddət ayrılıq oduna və eşq alovuna düçar elədi.

Ağqoyunlu bəginin öz qızı Gülzarı şahzadəyə vermək xəbəri qoca qarının qulağına yetişdi və bu xəbərdən çox sevindi. Buna görə müjdəganlıq almaq üçün Gülzarın anasının yanına gəlib sevinə-sevinə belə dedi:

– Şad oluz. Gülzarı Sultan Heydərin oğlu şahzadə

İsmayıla verdilər.

Qızın anası bu xəbəri eşidən kimi az qaldı dəli olsun. Sonra öz-özünə dedi:

– Necə ola bilər ki, biz qızımızı bu asanlıq ilə ona verək. Daha bir az fikir edəndən sonra əmr elədi ki, bütün çadırlar yığılsın. Çadırlar bir az müddətdə tez yığılıb hazırlandı.

Sonra Qafqaz dağlarına tərəf yollandı. Yola düşüb dağ, təpə, dərədən keçib gedirdilər. Bu yandan da Ağqoyunlu iki Sultan Heydərdən icazə alıb öz çadırlarına tərəf yola düşüb gəldi. Bəg qırx gün almışdı ki, bütün işləri hazırlasın və sultan da bu qırx gün möhləti ona vermişdi ki, daha bahanə gətirməsin. Bu idi ki, bəg çox şadlıq ilə çadırlarına gəlib birdə gördü ki, çadırlardan əsər yoxdur. Bəg bu ittifaqdan çox təəccüb edib acıqlandı. Sonra başa düşdü ki, bu iş arvadının işidir. Daha hirsin yeyib sakit qaldı.

Amma şahzadə qırx gün keçəndən sonra toy olmaq xəbərin bütün yar-yoldaşlarına xəbər vermişdi və tapşırmışdı ki, bu qırx gün möhləti dincəlib və yatacaq ki, bir kimsə oni oyatmasın. Sonra bir dərin yuxuya gedib yatdı.

Daha günlər dolanıb qırx gün olmuşdi. Vəli bəgdən bir xəbər yox idi. Hər nə qədər gözləyirdilər bir xəbər olmurdi. Bu idi ki, Sultan Heydər əmr elədi bir raportçi gedib bir xəbər tutsun. Buna görə raportçi gedib və qayıdib dedi:

– Sultanımız sağ olsun, çadırlardan əsər yox idi.

Sultan Heydər bu xəbəri eşidən kimi qəmli olub və hali pozuldi. Sonra əmr elədi ki, vəzir gəlsin. Vəzir gəlib təzim edəndən sonra Sultan ondan soruşdu:

– Bu işə nə tədbir edərsən?

Vəzir belə az fikr edib və özün tapandan sonra dedi:

– Sultanım sağ olsun, bir münasib sözüm var. Əgər icazə buyurursuz, ərz eləyim.

Sultan ona icazə verdi və vəzir dedi:

– Qurban, mənim nəzərimcə əmr eləyüz car çəkilsin ki, Sultan Heydərin oğlu şahzadə İsmayıl bu günlərdə evlənəcəkdir. Nə qədər gəlinlik qızlar varsa, hamsi geyinib və düzənib gələn cümə güni gülşən bağçasına gəlsinlər. Şayəd şahzadə onlardan birini bəgənib alsın.

Sultan Heydər bir az fikr edib və işin yaxşi olduğun anlayandan sonra əmr elədi ki, bütün hər tərəfdə car çəkildi və bu cari yüzlərcə eşidən gözəl və nazli gəlin qızlar gülşən bağçasına doldular. Hamusi gözəl-gözəl al, yaşıl, sarı, qırmızı geyib bir-birinin yanında oturdular ki, şahzadə onları görüb sevsin.

Bu qızların hala-hırnası gülşən bağçasının hər tərəfin doldurmuşdi. Daha o qədər çəkmədi ki, şahzadənin gəlməgin xəbər verdilər. Səs-küy və qil-qal yatdı. Hər kəs çalışırdı ki, şahzadənin gözündə gözəl görünsün. Bir azdan sonra şahzadə bir məxsus yerdə oturdi. Sonra qızlar onun qabağından keçməgə başladılar. Vəli şahzadə onların heç birinə baxmayıb öz sevgilisi Gülzarı yadına salıb sazı bağrına basıb, indi görək gülşən bağçasında onlara nə söylədi:

Bölük-bölük olmuş qızlar,
Heç birisi Gülzarə bənzəməz.

Kimisi bəglərin, vəzirin qızı,
Kimi gül bənöfşə, kimi nərgisi,
Kimisi ağcadır, kimisi zənci,
Kimisinin qoynunda nari turunci
Heç birisi Gülüzarə bənzəməz.

Kimisi bəglərin, vəzirin qızı,
Ağzında dişləri sanırsan inci

Kimi gül bənövşə, kimi nərgisi,
Kimisi ağcadır, kimisi zənci
Ağzında dişləri sanırsan inci
Kiminkin qoynunda nari, turunci
Heç birisi Gülüzarə bənzəməz.

Kimi xatırladır ayı, günəşi,
Kimisi doldurmuş yeni on beşi,
Kiminin dünyada bilinməz işi,
Heç birisi Gülüzarə bənzəməz.

Kiminin dodağı qırmızı qıraz,
Kiminin işidir ki, naz ilə niyaz,
Kiminin dünyada var bir az,
Heç birisi Gülüzarə bənzəməz.

Kimi al geyinmiş, kimi şarabi,
Kiminin yoxudur daha ərbabi,
Kimi parladıqda cəvahir qabı,
Heç birisi Gülüzarə bənzəməz.

Şah İsmayıl dərsin andı tutuşdi,
Qızlar ilə hallallaşdi, görüşdi,
Gülşən bağçasına vəlvələ düşdi,
Heç birisi Gülüzarə bənzəməz.

Qızlar və gülşən bağçasında olanlar şahzadənin bu cür olduğundan və təkcə şeir oxumağından təəccüb edib və bir-birlərinin üzünə baxırdılar. Daha bir azdan sonra şahzadə İsmayıl sazın götürüb yavaşca aradan çıxıb evinə gəldi.

Sultan Heydər öz əziz və igit balası İsmayıl üçün çox çalışırdı və bu yəğvadan da bir nəticə görmədi. Buna görə öz

oğlu İsmayılı yanına çağırıb onu dilə tutmaq üçün dedi:

– Əziz balam, bir bəgin qızı Gülzar üçün bu qədər incik və narahatlıq rəvadırmı? Aya, bu ölkədə və məmləkətdə sənin sevdigin qız tapulmayacaqdır? Qızın babası qızı buradan bir özgə yerə aparmış. Daha indi qəmli olub usanmaqdan nə çıxar? Bu qədər özvi incitmə və əgər mümkündür, onun eşqindən əl götür və unut. Ta mən özüm görüm nə eləməliyəm.

Şahzadə ağasının sözlərinə qulaq verib söz demədi. Vəli elə ki, ağası dedi:

– Sevgilin Gülzarı yaddan çıxarıb, daha dözə bilməyib dedi:

– Dövləti babam, mən daha bu yerlərdə qala bilmərəm. Gülzardan başqa bir qıza da könlüm və gözüm düşməz. Mən söz vermişəm və gərək sözümün üstə duram və göstərəm ki, eşqim yolunda hazıram can verəm. Şahzadə bunları deyəndən sonra babasının əllərin öpüb dalı durdi. Amma rəngi üzündən qaçıb ağarmışdi. Çünki eşq və pak bir əlaqə həmişə ürəkdən üzə vurar. Bu idi ki, şahzadənin rəngi göstərirdi ki, onun eşq və əlaqəsi Gülzar üçün doğru və həqiqidir.

Sultan Heydər oğlunun bu sözlərin və bu halətin görən kimi daha bir söz tapa bilmədi ki, onu qane edib saxlatdırsın. Bu idi ki, fəqət belə dedi:

– Oğlum, mən sənə doğrusun dedim. Çünki mən sənin atanam və razı olmaram ki, güniqara olasan. Amma indi özün bilərsən. Yolun açıq və ixtiyarın çox.

Şahzadə ağasının bu cürə ixtiyar verməgindən çox sevinib və şad oldu. Bu idi ki, yenə də yerindən durub, onun üzündən və əllərindən öpüb və yerində oturdu. Vəli bir az fikr edəndən sonra birdən-birə yerindən tez qalxıb oradan çıxdı.

## QÜRBƏT YOLUNDA

Şahzadə bargahdan tələsik halda eşigə çıxıb və birbaşa xəzinəyə tərəf geddi. Daha xəziniyə girib torbasını qızıl ilə doldurub və yol üçün lazım olan qılınc, mizraq, əmud, kəmənd, qalxan və bütün vuruşma yasaqlarını götürüb, sonra axıra girib Qeysərağ at doğan Qəmər balanı yəhərləyib minməgə hazır oldu. Hələ yollanmamışdı ki, anası bu işdən xəbərdar olub, tez özləri Sultan Heydərin yanına gəldi, yalvardı:

– Sən bir sultan olasan, sənin oğlun İsmayıl bir qız dalıca çöllərə düşə? Daha yandan baxanlar bizə nə deyərlər? Axır mənim oğlum nə etməlidir?

Sonra hönküldüyüb ağlamağa başladı. Sultan Heydər onun bu cürə ağlamağına dözə bilməyib, birdən yerindən qalxıb əmr elədi ki, bütün qaravullar qələlərin, qapuların tutsunlar və şahzadə qapıdan çıxanda onu tutub gətirsinlər. Şahzadə də öz anası Xanım Sultanın yanına gedib ondan halallıq istəyirdi. Ancaq anası oğlunun cavabında belə deyirdi:

– Ey gözümün işığı, ey əziz oğlum, amandır, məni gözü yolda qoyma. Mənim səndən başqa balam yoxdur.

Şahzadə yenə də anasın dilə tutub dedi:

– Anacan, gedirəm, yenə də gələcəyəm. İndi bu son ayrılıqda xahiş edirəm ki, sütünü halal elə.

Anası ağlaya-ağlaya gözlərinin yaşın ovcuna alıb oğluna dedi:

– Oğlum, İsmayıl, aya razı olmursan ki, ananın gözlərinin yaşı sənin ayrılığında özgələr qabağında bu cürə tökülsün? Məgər bu yerlərdə sənin üçün bir qız tapılmaz?

Şahzadə daha bir də icazə istədi. Vəli anası yalvarmağa başladı. Bu idi ki, şahzadə sazı əlinə alıb, indi görək mehriban anasının cavabında nə ərz elədi:

Ana, sütün halal elə, gedirəm,
Gedirsən də səni mən yad edirəm.
Onsuz bu dünyanı daha ne dirəm,
Ana, sütün halal elə, gedirəm.

Hər kim dərdə düşüb, bilər halımı,
Döndərə bilmərəm ana dalımı.
Fələk qara etsə azca falımı,
Ana, sütün halal elə, gedirəm.

Gedirəm, gələrəm yenə yanına,
Qanım qatışıqdır sənin qanına.
Qurban olum sənin əziz canına,
Ana, sütün halal elə gedirəm.

Ürəyim qüvvəti, ey əziz anam,
Razı olma düşüb odlara yanam,
Eliyə bilmərəm eşqimi danam.
Ana, sütün halal elə gedirəm.

Gedər oldum buralardan qürbətə,
İndi qalıb işim mənim qismətə.
Daha məni çox da tutma söhbətə,
Ana, sütün halal elə gedirəm.

Bir dərdə düşmüşəm, kabab oluram,
Hər ləhzə yanıram, xərab oluram.
Qalarsan burda, bitab oluram,
Ana, sütün halal elə gedirəm.

Şahzadə anasının əllərin öpüb, daha yola düşdi. İgit oğlan silahlanıb, çalağan quşu kimi Qəmər atın belinə qondi. Əli ilə anasından xudafiz elədi. Daha ata bir qamçı

vurub özünü qələnin böyük dəmirli qapısına yetirdi. Amma birdən-birə təəccüb ilə dəmir qələm qapısını bağlı gördü. Yenə də dayanmayıb ata bir qamçı vurub o biri qapıya yollandı. Vəli o biri qapu da bağlı idi. Daha o biri qapuya geddi. Onu da bağlı gördi. Hər nə oyan-buyana göz gəzdirdi, bir açıq yol görmədi. Bu idi ki, qəzəbə gəlib əlin əmudə aparıb, onu gögə qovzayıb və başı üstə dolandırıb qapuya elə bir zərbə vurdu ki, qapu titrəyib qırıldı. Dövrədə duran qəravullar bunun bu qəzəbli zərbəsindən heyran qalıb qorxuya düşmüşdülər. Şahzadə əmudi bir də gögdə dolandırıb ikinci zərbəni endirdi. Qapu cırıldayıb şaraq aradan bölündü. Ata bir qamçı çalıb qələdən çıxdı. Bütün qaravulların ağzı təəccübdən açıq qalmışdı.

Şahzadə çölə çıxıb neçə zərbə şallaq ata vurub at götürüldi. At son dərəcədə dağdan, daşdan, dərədən, təpədən aşıb gedirdi. Onlar getdikcə gözdən itirdilər. Fəqət yolun ortasında bir narın toz görünürdü və tozu da yel gögə sovurub dağıdırdı. Daha az gedib, düz gedib, bir çoxlu dərələr, təpələr aşandan sonra at qan-tər içində boğulurdu və şahzadə də nəfəsdən düşüb, buna görə atdan düşüb, oni bir az dolandırıb və tərin soyudub, sonra bir nar ağacının budağına bağlayıb və qabağına yem töküb onun boynundan öpdü və özü də bir bulaq başında oturub duru sudan üzünə vurub dincəlməgə başladı.

Bir moqe bir sona bülbülün gül budağında qonub oxumağın görən kimi eşqə gəlib, sazı əlinə alıb görək sona bülbülə nə söylədi:

Ey mənimtək yanan, ey sona bülbül,
Səni də qərq edib dərdə qızıl gül.
Ağlama, gözlərim yaşlarını sil,
Ey mənimtək yanan, ey sona bülbül.

Eşq oduna düşüb yanarsan da, yan,
Çalış düşmə, daha düşübsən dayan,
Hər yerdə gül varsa, sən də orda yan,
Ey mənimtək yanan, ey sona bülbül.

Səni gül dərdinə, mənim Gülzara,
Gülüzar gətirib məni də zara.
Sızıldama hərdəm, danış, söz ara,
Ey mənim tək yanan, ey sona bülbül.

Neyləyim ki, məni tapmır gözün,
Vəli sənin mənə aydındı sözün,
Aləmə tanıtdın eşq ilə özün,
Ey mənim tək yanan, ey sona bülbül.

Eşq olmuyan yerdə yaşayış olmaz,
Yaşayışsız yerdə bizə iş olmaz,
Aşiq olan ürək verməmiş olmaz,
Ey mənimtək yanan, ey sona bülbül.

Şahzadə orada oturub, öz xəyalında məşuqəsi Gülzarı gözünün qabağında mücəssəm edirdi. Amma birdənbirə xəyalı pozuldu. Çünki sona bülbül uçarkən qanatı ilə onun sazına toxunub sazı səslətdi. Bu idi ki, şahzadə sazın səsinə xəyallardan ayıldı və özünü təkcə gördü. Daha dəli kimi yerindən qalxıb quş kimi atın belinə qonub yollandı. Bir az gedəndən sonra çadırlar qurulan yerə yetişdi. Vəli, çadırlardan xəbər yox idi. Fəqət onların yerində qara yellər əsirdi. Şahzadə bunu belə görən kimi xəyal elədi ki, şayəd gözləri görmür. Vəli bir azdan sonra gördü ki, çox doğrudur ki, ümidi məhv olub və bütün arzuları aradan gedib. Buna görə daha məyus bir halda bir qayanın köl-

gəsində oturub yenə də sazı əlinə alıb indi görək bu xəlvət nə söylədi:

Mənşək yalqız qalan ağlar, ağlamaz?
Ürəgi qan olan ağlar, ağlamaz?
Ümidi talanan ağlar, ağlamaz?
Ey dağlar, dərələr, gördüz yarımı?

Bilməm, Hində gedib, ya ki, Yəmənə,
Bülbül kimi məni salıb çəmənə.
Ürəgi yanmadı bir ləhzə mənə,
Ey dağlar, dərələr gördüz yarımı?

İtirdim burada alagözlünü,
Bir ceyran baxışlı, tuti sözlünü.
Yandırdı özgəni, həm də özünü,
Ey dağlar, dərələr, gördüz yarımı?

Şah İsmayıl bağlanıbdır sözinə,
Od düşübdür ürəginin gözinə.
Düşdim hənuş uşaq ikən izinə,
Dağlar, mənim Gülzarımı gördüzmi?

Qaraldı gözümdə dünyalar mənim,
Yarıldı ürəkdə yaralar mənim,
Rəngim ayrılanı saralar mənim,
Ey dağlar, dərələr, gördüz yarımı?

Gəldim ki, sən ilə bir də görüşəm,
Soruşam dərdinə necə ötüşəm.
Qorxuram ayrılıq oduna düşəm,
Dağlar, mənim Gülzarımı gördüzmi?

Gəldim ki, var idi sənə bir sözüm,
Haçanatək yanıb, dərdinə dözüm?!
İndi səni tapa bilmiyir gözüm,
Ey dağlar, dərələr, gördüz yarımı!

Savalan dağları sıldırım daşdı,
Məni dərdə salan bir qələmqaşdı,
Bilmirəm buradan haraya qaşdı,
Dağlar, mənim Gülzarımı gördüzmü?

Görüm heç aşiqi məntək olmasın,
Məşuqəsi onu çöldə qoymasın,
Ürəgi alışıb, rəngi solmasın,
Ey dağlar, dərələr gördüz yarımı?

Aşiq ki, yarını gəlib görməsə,
Çox aqildir özünü öldürməsə,
Ya bir özgəsinə ürək verməsə,
Unudmaram, dağlar, Gülüzarımı!

Ey mənimtək qəmli, dumanlı dağlar,
Mən burda ölürsəm, mənə kim ağlar?
Ayrılıq odları könlümü dağlar,
Ey dağlar, təpələr, gördüz yarımı?

Şahzadə bir az sakit oturub başını bir saf daşa dayıyıb, dayanıb zahirdə aram oturmuşdu, baxırdı. Vəli batini, yəni içərisi tufan kimi silkələnirdi. Gözləri sakit bir halda baxırdı. Vəli ürəgi vurqunurdu. Nə yuxusi gəlirdi, nə də dayana bilirdi. Bir ləhzə həmişəlik üçün ölüb-getmək istəyirdi. Vəli sonra qanatlanıb göglərdə uçmağ istəyirdi. Ta bəlkə öz məşuqəsi Gülzarı uca göglərdə tapsın.

Amma bunların heç birisi olan degil idi. Çünki qərar ilə birqərarlıq ortasında mütələtüm qalmışdı.

Daha bir azdan sonra yenə də Gülzarın eşqi başına vurdu. Yerindən qalxıb Qəmər atın belinə sıçradı. Ata bir bərk qamçı vurub yollandı. Bir müddət Məcnun kimi öz Leylası üçün çöllərdə avarə dolanırdı. Və Fərhad kimi şirin yolunda öz başını hər bəlayə verdi. Amma bir gün bir qələnin qapusının qabağında dayandı. Qələnin oyan-buyanına göz dolandırıb bir açıq qapı görmədi. Doğrusu, hər tərəfə gedirdi, Kərəm kimi Əsli uğrunda bütün açıq qapuları öz qəmli üzünə, yaşlı gözlərinə bağlı görürdü. Buna görə ürəgi daha da od tutub əlovlanırdı. Amma çox çalışırdı ki, igit gözlərindən yaşlar axmasın. Vəli olmurdi.

Şahzadə bir dünya ümid və arzu ilə öz məşuqəsi Gülzarın çadırları qurulan yerə gəlmişdi ki, onlara ərzu niyaz eləsin və onun gecə-gündüz alovlu eşqində yandığını ona hali eləsin. Vəli o yerdə məşuqə yerinə qorxulu bir sakitlik gördi. Daha onun o dəmki halını fəqət eşq odunda və yar ayrılığında yanıb odlananlar bilər. Yoxsa bu gizlin dərdin qüdrətin və əlovunun gücün hər bixəbərlər bilməz.

Şahzadə bir az oyan-buyana baxandan sonra daha sazı əlinə alıb, indi görək o uca saraya nə söylədi:

Üzümə bağlama qonun,
Gəl məni eylə qonağun,
Nədir bilmirəm adun,
Saray, səndən yol istərəm.

Mən bu yerlərdə qəribəm,
Düşmüşəm dərdə, əsirəm,
Qəribəm, bir də qəribəm,
Saray, səndən yol istərəm.

Dəmirdəndir qapun sənin,
Çox uzundur sapın sənin,
Tarixindir lapun sənin,
Saray, səndən yol istərəm.

Divarın gögə çəkilib,
Dağ kimi qəddin biçilib,
Min il ömründən keçilib,
Saray, səndən yol istərəm.

Məni dərdə salan vardır,
Geniş dünya mənə dardır,
İşim-gücüm ahu zardır,
Saray, səndən yol isətərm.

Gözümdən gedməz xəyali,
Ürəgim qəmdən daralsa,
Canımı bu çöllər ali,
Saray, səndən yol istərəm.

Sarayda əgləşən kimdir?
Bu yerdə tək düşən kimdir?
Saray səndən ötən kimdir?
Saray, səndən yol istərəm.

Qılıncım dağları biçər,
Dost ilə düşməni seçər,
Dəmir qapundan da keçər,
Saray, səndən yol istərəm.

Şahzadə bunların hamusın deyəndən sonra gördi ki, saraydan bir kəs cavab vermədi. Buna görə daha şeir

deməgi buraxıb oyan-buyana baxıb bir əl yeri tapa bilmədi. Daha Qəmər atı sarayın dövrəsinə dolandırıb, əmudi əlinə alıb, başı üstə havada fırlandırıb divara bir zərbə vurdi. Divar titrədi. Yenə də neçə zərbə endirib divar parçalanıb töküldi. Şahzadə Qəmər atdan enib içəri girdi. Oyan-buyana göz dolandırdi ki, bir nərdiban gördi. Nərdiban bir eyvana dayanmışdı. Şahzadə nərdibandan yuxarı çıxıb eyvana baxdı. Sonra eyvanın oyan-buyanına tamaşa edib və öz-özünə dedi:

– Necə ola bilər ki, bu böyükliqdə sarayda bir kimsə olmasın.

Bu cürliğ ilə hər tərəfə göz gəzdirirdi. Vəli gözəl şeylərdən başqa bir zad görmürdi. Daha o cürə durduği halda ki, xəyal içində qərq idi, qulağına bir yanıqlı sızıltı səsi gəldi. Şahzadə bu sızıltı səsindən çox təəccüb edib və onun yiyəsini axtarmağa başladı. Hər tərəfə baxdı. Vəli bir kimsəni görmədi. Sonra qəmli olub başın aşağı salan kimi ipək qaş üstə oturub başın divara dayamış bir ala gözlini gördi. Şahzadə heyrət içində qaldı. Bu ala gözli, incə dişli, gül yanaqlı, qönçə ağızlı ağlayan gözəl kimdir? Daha əlinə sazı alıb görək onun ağlamağından nə soruşdi:

Başına döndüyüm gül üzlü gözəl,
Yanıqlı-yanıqlı fəğan ağlama,
Sızıldayıb məni salma qəmlərə,
Könlümü qan etmə, aman, ağlama.

Qızın adı Pəri idi və ağlayarkən şahzadənin bu cürə dilə tutmağından çox sevinib xoşhal oldu. Sonra onun cavabında aldı, görək nə dedi:

Dolubdur qəlbimə fəğan, ağlaram,
Dərdimi kim bilməz, nihan ağlaram,

Dərdim çoxdur, neçün sənə söyləyim,
Allah eyləmir divan, ağlaram.

İndi şahzadə İsmayıl aldı, görək nə söylədi:

Gözlərin dolubdur qanlı yaş ilə,
Hazıram yolunda can və baş ilə,
Məni də özünə sən yoldaş elə,
Könlümi qan etmə, aman, ağlama!

Aldı Pəri görək nə söylədi:

Ey igit duruşlu, qəhrəman cavan,
Ey ürəgi rəhim, mehriban cavan,
Çoxdandı ürəgim olubdu fəğan,
Allah eyləmirdi divan, ağlaram.

Aldı şahzadə

Dərdin nədir, mənə söylə, gözəlim,
Şayəd ki, dərdinə yetişsin əlim,
Hazıram, mən elə ölümə gəlim,
Könlümi eyləmə fəğan, ağlaram.

Aldı alagöz Pəri görək nə dedi:

Mən bu saray içrə təkcə bir qızam,
Dərdimə yetişən yoxdu, yalqızam,
Qaranlıq gecədə yanan ulduzam,
Allah eyləmir divan, ağlaram.

Şahzadə saz ilə soruşduği kimi söz ilə də Pəridən soruşdi ki, nə üçün yanıqlı-yanıqlı ağlayır. Buna görə Pəri daha öz dərdini bu mehriban şahzadəyə belə dedi:

– Cavan şahzadə, yağı düşmənlər ilə qardaşlarım ortasında olan davada iki igit və rəşid qardaşım ölüb və mən indi onlara ağlayıram. Daha, bəs mən ağlamayım, kim ağlasın?

Şahzadə bu sözdəri eşidən kimi bütün damarları qızışıb hərəkətə gəldi. Sonra qızdan davanın hara olduğun soruşdi. Qız əvvəl demədi. Vəli şahzadənin əl çəkməmağın görüb və oranı nişan verdi. Şahzadə alıcı quş kimi belin bağlayıb və qılıncın asıb, qalxan və kəməndin götürüb, çalağan quş kimi canlı qəmər atın belinə sıçradı. Daha ata bir qamçı çalıb, at yel kimi götürüldi. Bir göz yumum zamanda bir qədər gedəndən sonra şahzadə Qəmər atın üstündən boylanıb qabağa baxdı. Gög üzün toz və topraq tutub, yerdə də hayqırq və səs-küy hər yanı bürümüşdü. Vəli hənuz yaxşi görünmürdi. Fəqət uzaqdan səsləri gəlirdi və qaraltı kimi görünürdülər. Ancaq o vəziyyəti dava görmüş igit bilərdi ki, bu qaraltı nə çoban qaraltısı və nə də ayrı bir şeydir, bəlkə dava-vuruşma qaraltısıdır. Buna görə şahzadə daha anladı ki, qızın qardaşları vuruşan meydan oradır. Bu idi ki, Qəmər ata bir də bir qamçı vurub, qan-tər içində özüni ona yetirdi.

Atların şəhyəsi, igit qəhrəmanların nərəsi, qılıncların günəş işığında parlaması, qalxanların taraqa-turuği toz-toprağın gög üzün bulut kimi tutmasi o meydanı cəhənnəm meydanına döndərmişdi.

Şahzadə əvvəl yetişib bir az baxdı ki, görsün hansı tərəf zəifdir, ta o tərəfə kömək olsun. Daha bir az baxandan sonra qız verən əlamət ilə onun qardaşlarını tanıdı. Sonra çün onları o qədər yağı düşmənlər içində az və zəif gördi, daha yubanmayıb, ürəkdən bir nərə çəkib, misri qılıncın əlinə alıb və gögdə dolandırıb onların içinə yumuldu. Hamudan artıq bir canlı və sinəsi qalxan kimi bir

pəhləvan qılınc vururdi və heç kim onun qabağında dayana bilmirdi. Nərə çəkəndə dağlar, dərələr səslənirdi, havada dolandıranda evzəli və özgəli hamı qaçırdılar. Bu igit pəhləvan onların böyügi idi. Doğrusu, yüz igit pəhləvan qabağında duran idi. Şahzadə dərindən onun bütün hərəkətlərinə və vuruşmağına nəzər salıb, daha öz hərifi oni gördi. Buna görə pəhləvanları aralayıb özünü onun qabağına yetirdi və belə dedi:

– Ey pəhləvanlar! Bir az dayanın və mənim sözümə qulaq verin.

Pəhləvanlar bu qəribə igitin sözünə baxıb dayandılar. Şahzadə sözə gəlib dedi:

– Qardaşlar, əvvəl söyləyüz ki, nə üçün vuruşursuz?

Qızın qardaşları dedilər:

– Ey igit cavan, bizim günahımız yoxdur. Bunlar yağı düşmənlərdirlər ki, hər zaman bütün var-yoxumuzu aparırlar. Vəli biz daha əlbir olub və söz verdik ki, ta bu zalimlərin əllərin öz yurdumuzdan kəsməmimşik və onları buradan qovmamışıq, dinc oturmayaq. Daha budur ki, indi vuruşuruq.

Şahzadə ona əhsən deyib, sonra üzüni yağılara tutub dedi:

– İndi siz, ay qardaşlar, yaxşıdır ki, bunlardan əl götürüb və öz yurduza gedəsiz.

Bu mouqe həman qolugüclü pəhləvan şahzadəyə göz salıb, bir az baxandan sonra uca səs ilə dedi:

– Sən kimsən? Gəl buradan itil, yoxsa bir əmud ilə səni topraqlara sərərəm.

Şahzadə pəhləvanın bu sözündən çox incimədi. Çünki pəhləvan istəmirdi ki, o heykəl və boy-buxun ilə bir cavan şahzadənin qabağında özüni sındırsın. Bu idi ki, şahzadə bir dəfə də onları barışmağa dəvət elədi. Vəli hələ

söz onun ağzından çıxmamışdı ki, pəhləvan qılınca əl atıb və bir nərə çəkib onun üstünə hücum elədi. Şahzadə durduğu yerdən təkan yeməyib dayandı. Pəhləvan meydanı dolanıb, əlində qılınc şahzadənin üstünə yetişib qılıncı endirən kimi şahzadə fourən qırğı quş kimi onun biləgindən möhkəm tutub, bir az fişar verib burdi. Daha fişarın şiddətindən pəhləvanın barmaqlarından qan sıçradı. Vəli bunla belə hələ də qılıncı əlindən buraxmırdi. Amma şahzadə onun barmaqlarını o qədər sıxdı ki, birdən-birə qılınc əlindən yerə tullandı.

Şahzadə fourən qılıncı götürüb onun kəlləsindən elə bir zərbə vurdu ki, pəhləvanın başı neçə qədəm oyanda yerə sıçradı. Dövrə baxanlar təəccübdən heyran qalıb, afərin dedilər. Bu idi ki, daha dava sovuşub qurtardı və hamı bu ittifaqdan sevinib şad oldular və birlikdə gəlib bir bulağın başında əl və üzlərin yuyub, üzlərindən toz-torpağı təmizlədilər. Sonra bir əziz qardaşlar kimi ov ovlayıb nahar üçün kabab düzəldib və ayran qayırıb içməgə və yeməgə başladılar. Daha nahar qurtarandan sonra dövrədə əgləşənlər şahzadə İsmayılın çignində asılan sazı görən kimi onun aşiq olduğun anladılar. Doğrusu, bu igit həm cavan qəhrəmandır və həm də aşiqdir. Daha bunu belə görən hamulıqca şad olub və sonra şahzadədən xahiş etdilər ki, öz gözəl türk dilində onların ürəgin açsın. Buna görə şahzadə İsmayıl sazı bağrına basıb indi görək nə söylədi:

Sizi barışdırdım, şad oldi könlüm,
Qüssədən, möhnətdən duruldu könlüm,
İndi məhəbbətizlə doludu könlüm,
Barışmaq yaxşıdır, vuruşmaq nədir?

Bizim ellər gərək qardaş olalar,
Bütün insanlara yoldaş olalar,

Dünyada hər işə bir baş olalar,
İnsanlıq yaxşıdır, boğuşmaq nədir?!

Dağılsın ellərin qüssəsi, qəmi,
Olsun onlar bir-birinin həmdəmi,
Bir yerə yığılsın onların cəmi,
Qardaşlıq olunsun, dögüşmaq nədir?!

Gəlin gilayəni qoyaq qırağa,
Verəlim dal-dala, bənzəyək dağa,
Baxanda dalıya, sol ilə sağa,
Birləşə bu ellər, ayrışmaq nədir?

Qüssəsi çoxalar eldən düşənin,
Elindən düşənin, dildən düşənin,
Kəsilər nəfəsi seldən düşənin,
Ellər ellər ilə ilişmaq nədir?!

Ərdəbilli nədir, sərablı nədir?!
Urmuli, səlmaslı, şərablı nədir?!
Məracəli nədir, mandabli nədir?!
Bunların içində vuruşmaq nədir?!

Bütün ellərimiz şad olsun gərək,
Zülm ortadan gedib, dad olsun gərək,
Tarixli insanlar yad olsun gərək,
Onları insafsız unuşmaq nədir?!

Gəlin vuruşlayıb sevinək daha,
Bundan sonra edək cümləsiz səfa,
İçimizdən gedsin xan ilə ağa,
Bir-birimiz ilə duruşmaq nədir?!

İçimizdən gedsin xan ilə ağa,
Əgər anlayırsan, bilərsən işi,
Bundan sonra bilək düzgün yerişi,
Düşmənlər sözünə qatışmaq nədir?!

Sən öz işin ilə şad eylə bizi,
Çıxartmaram mən də yadımdan sizi,
Həmişə söyləyib Əli Təbrizi,
Qardaşlıq  olunsun, vuruşmaq nədir?!

Dövrədə oturanlar şahzadəyə afərin dedilər və sonra hamusi ayağa durub bir-birlərinin üz-gözündən öpüb, daha əl verib min məhəbbət ilə bir-birlərindən ayrılıb və şahzadə də istədisə də ancaq onlar şahzadəyə belə dedilər:

– Ey əziz dost, sən bizi ölümdən qurtardın. Doğrusu, sən olmasaydın oğrular bizi öldürüb aradan aparardılar. Bəs indi insaf degil ki, bizim bu quri çayımızı içməyəsən. Buna görə xahiş edirik ki, buyurub bizdə bir qəhvə meyl edüz.

Şahzadə həyalı olduğu halda Pəri xanımın xatirinə görə onlar ilə birlikdə saraya tərəf yollandılar. Bir azdan sonra sarayın qapusına yetişib atlarından düşdülər. Sonra böyük qardaş ki, qabaqda idi, qələnin tökülmüş divarına baxıb təəcüb ilə dedi:

– Vay, vay, baxuz, qardaşlar, sarayın divarını yıxıblar. Yəqin bizdən sonra bacımız Pəriyə bir ittifaq üz verib.

Daha dayanmayıb, tez içəri girib oyan-buyana göz dolandırıb bacılarını eyvanda oturmuş görən kimi çox sevinib şad oldular. Amma kiçik qardaşı qızın yanına gedib dedi:

– Bacıcan, biz yox ikən buraya kim gəldi?

Qız ki şahzadə İsmayılı onların içində gördi, onların dostu olduğun anladı, bu idi ki, şad olub dedi:

– Ey qardaşlarım, sizdən sonra bir yaraqlı və yasaqlı igit buraya gəlib və çox həyalı olaraq buradan geddi.

Bu mouqe orta qardaş hirslənib dedi:

– O cavan hara geddi?

Qız dedi:

– O cavan sizin ortada durub.

Qardaşların ortasında şahzadədən başqa bir kəs yox idi. Buna görə onların məhəbbəti şahzadəyə əgər bir idi, min oldu. Daha əgləşib şadlığa başladılar. Vəli şahzadə ilə alagöz Pəri ortasında olan eşqin vücudundan onların heç birinin xəbəri yox idi. Amma gedə-gedə qızın qardaşları bu mövzudan xəbərdar oldular və öz bacılarını bu igit oğlana verməgi iftixar etdilər. Onlar bu sözü öz aralarında danışıb hamusi razi oldular.

## ŞAH İSMAYIL İLƏ PƏRİ XANIM

Beş qardaş öz gözəl və mehriban bacıları Pəri xanımı şahzadəyə vermək sözüni şahzadəyə bildirdilər. O da bütün başından keçəni və indi Gülzarın dalınca gəzdigin və habelə onla əhdü-peyman elədigin onlara söylədi. Sonra beş qardaş birlikdə belə söylədilər:

– Şahzadə, bizim bacımızı indiyə kimi bir kimsə gördüz, lazımdır ki, bir-biriz ilə adaxlanasız.

Şahzadə dedi:

– Əziz dostlar, mən sizə dedim ki, Gülzarın dalınca gəzirəm.

Qızın qardaşları dedilər:

– Bəs bu halda indi əqd oxunsun və Gülzar xanımı tapandan sonra toya başlayın.

Daha şahzadə İsmayıl buna razı olub, əqd oxundu,

şərbətlər içildi və şadlıqlar oldu.

Şahzadə orada bir müddət qalandan sonra yenə də bir gün Gülzarın eşqi onun ürəginə doldi. Dünya gözünə daraldı. Bir dəqiqə dinc ola bilmədi. Amma çox çalışırdı ki, dərdini bir kimsə bilməsin. Vəli bu iş olan iş degildi. Çünki aşiqin gözlərindən və üzünün saralmağından bəlli olar ki, ürəkdə bir gizlin dərdi var.

Şahzadə İsmayıl gizlin yerlərdə tək olanda sazı bağrına basıb qəmli-qəmli oxuyub sızıldayırdı. Amma bir gün bir xəlvət yerdə belə oxuyurdu:

Ayrılıq oduna yaxıldı canım,
Dərələr, təpələr oldu məkanım,
Gərəkdir Gülzarın eşqinə yanım,
Ayrılıq oduna yaxıldı canım.

Yadıma düşəndə onun cəmali,
Gözümdə bu geniş dünya darali,
Həqiqi aşiqin rəngi sarali,
Ayrılıq oduna yaxıldı canım.

Sazım olmasaydı həmdəmim mənim,
Dünyanı tutardı bu dərdü-qəmim,
Əlimdən gedibdir gedəni mənim,
Ayrılıq oduna yaxıldı canım.

Dağ yeli əsəndə ürək açılar,
Qızıl qönçə guli birdən saçılar,
Ondan götürülən qoşa maçılar,
Ayrılıq oduna yaxıldı canım.

Neyləyim dərdimi Pəri bilməsin,

Pəri bilməyib və biri bilməsin,
Məni bir sevgili əri bilməsin,
Ayrılıq oduna yaxıldı canım.

Alagöz Pəri Şah İsmayılın bu cürə məhzun-məhzun oxuyub qəmli olduğuna baxıb qulaq verirdi. Amma şahzadə şerin öz yerinə (məni bir sevgili əri bəlməsin) yetişən kimi dayana bilməyib birdən-birə onun boynun qucaqladı. Şahzadə o xəlvət yerdə bir nəfərin onun boynun qucaqlamağına güman eləmədiginə görə çox təəcüb edib, dönüb dala baxan kimi öz sevgilisi alagöz Pərini gördi və utandı. Vəli Pəri onun ürəgin ələ gətirdi. Daha qəm və qüssəsi bir az aradan gedib və güldi. Sonra iki sevgili dərdləşmağa başladılar. Şahzadə Pəri xanımı qucaqlayıb hərdəm onun yanaqlarından isti öpüşlər alırdı. Doğrusu, bunlar ilə belə şahzadə Gülzar xanımı unuda bilmirdi. Və xəyalında onun gözəl cəmalı həmişə dayanırdı. Amma Pəri çox mehriban, vəfalı, isti bir gözəl idi. Öz sevgilisi Şah İsmayılın bu cürə qəmli olduğundan darıxıb usandı. Buna görə yalvara-yalvara belə soruşdu:

– Sevgilim İsmayıl, dərdin nədir?

Nə üçün belə dərindən ah çəkib, qüssə edirsən?

Şahzadə daha ürəgində olan dərdi ona söylədi və Pəri dedi:

– Bunun üçün qəm yemək lazım degil. İnşallah, bir gün öz sevgilin Gülzara çatarsan.

Şahzadə öz-özünə xəyallandı və sonra dedi:

– Siz Allah, Gülzar buralardan keçibdir?

Pəri and içdi ki, Vallah, onu görməyib. Vəli şahzadə buna inanmadı. Bu idi ki, söz Pəri xanıma toxundu. Və bu xəbər qızın qardaşlarına yetişdi və onlar da Şah İsmayılın yanına gəldilər. Şahzadəni qəmli və tutqun görən kimi

böyük qardaş soruşdi:

– Şahzadəmiz, nə fikir edirsən? Dərdin nədir? Bizə söylə, ta çarə edək.

Şahzadə İsmayıl öz dərdini dedi, onlar da and içdilər ki, vallah, biz Gülzarı görməmişik. Şahzadə bir az fikr edəndən sonra dedi:

– İnanıram, vəli sizdən ayrılıb Gülzarı tapmağa gedmək istəyirəm.

Pəri bu sözi eşidən kimi çox qəmli olub ağlamağa başladı. Vəli qardaşlarının yanında səs çıxartmadi. Amma şahzadə göz altından onun gözlərindən tökülən yaşları görən kimi az qaldı ki, ürəgi keçsin. Vəli o da özüni saxlatdırıb dayandı. Amma qızın qardaşları bir az fikr edəndən sonra dedilər:

– Şahzadəmiz, biz razı deyilik ki, siz buradan gedəsiz. Vəli çün siz razı degilsiz ki, qalasız, buna görə Allah səlamət eləsin. Bu idi ki, bütün qızın qardaşları şahzadə ilə öpüşüb və vidalaşdılar.

Sonra Pəri şahzadəni bır qırağa çəkib dedi:

– Ey mehriban sevgilim, aya, rəvadır ki, bu tezlikdə öz sevgilin Pərini bu cürə yalnız qoyub gedəsən? Səndən sonra dünyanın nə faydası?!

Pəri bunları söyləyib gözlərindən damcı-damcı parlaq yaşlar tökdü. Şahzadə Pərinin bu cürə dərindən ağlamağın görən kimi onun başını qovzayıb bağrına basdı və sazı əlinə alıb indi görək nə söylədi:

Ayrılıram səndən, ürəgim dönməz,
Ürəgim dönərsə, gözlərim sönməz,
Səni istəməsəm, qəlbim dögünməz,
Ağlama, ağlama, Pərim, ağlama.

Aldı Pəri, görək nə dedi:

Gedirsən, ürəgim dalınca gedər,
Çəkdigim əməklər olubdur hədər,
Gözlərim ağlarsa, ürəgim mələr,
Çarəm ağlamaqdı, ağlayan gərək.

Aldı Şah İsmayıl

Gülzarı taparam, gələrəm yenə,
Dünyanı tutarsa, gözəllər mənə.
Gözüm vardır mənim həmişə sənə,
Ağlama, ağlama, Pərim, ağlama.

Aldı Pəri

Sən gedəndən sora yeriş görünər,
Ürəgim dalınca yerdə sürünər,
Qəlbim parçalanıb, bölük bölünər,
Çarəm ağlamaqdı, ağlayan gərək.

Şahzadə saz ilə dedigi kimi, söz ilə də dedi və daha gedmək zamanı çatmışdı. Buna görə bir də Pərinin yanaqlarından öpüb dedi:

– Allah saxlasın, gedirsəm, ancaq bir də ölməsəm, bura gəlib səni apararam.

Daha Pəri də istər-istəməz ondan ayrılmağa naçar oldi və Şah İsmayıl yaraqlanıb və yasaqlanıb Qəmər atın belinə atıldı və yola düşmək üçün hazır oldu və son vədədə bir də atın üstündən aşağı əgilib qızın üzündən öpüb, ata bir qamçı çalıb, toz kimi oradan uzaqlaşdı.

Alagöz Pəri neçə dəqiqə heyran qalıb və daha ürəkdən sızıldaya-sızıldaya evə qayıtdı və bir dəqiqə aram qala bilməyib ağlamağa başladı.

## ŞAH İSMAYIL İLƏ ƏRƏBZƏNGİ

Şah İsmayıl ki, atın son dərəcə çapdırıb, dağlardan-dərələrdən aşıb, gölgəsi kimi yeyin gedirdi, daha bir qədər çapandan sonra uzaqdan bir qələçə gözünə göründü. Ged-gedə qələçəyə yaxınlaşıb yetişdi və qələçənin dövrəsində çadırlar qurmuşdu və bir də bir saray var idi ki, ətrafın heykəlli qəravullar tutub keşik verirdilər.

Şah İsmayıl bir az bir bucaqda durub güddi, sonra əkilə-əkilə, yavaş alçaq yerlərdən sürünüb qəravulların gözünə görünməmək üçün qədəm-qədəm böyük çadırlara yaxınlaşırdı. Hələ neçə qədəm qalmışdı ki, bir buğli və qolçomaq qəravul birdən-birə çağırdı:

– Dur, kimsən?

Vəli qəravul Şah İsmayılı görmürdi. Bəlkə fəqət səs eşidmişdi.

Şah İsmayıl işi anlayıb öz yerindən sıçrayıb qılıncının yastısı ilə daldan onun boynun tutub bir qədər verdi. Qəravul daha bir balaca əl-ayaq qalıb və bir zərrə çığırtı çıxardıb sonra nəfəsdən düşdü. Şah İsmayıl onun cənazəsin bir yana buraxıb, özü onun paltarların geyib içəri girdi. Bu mouqe iki nəfər atlı ki, məmuriyyətdən gəlirdilər, yoldan yetişib atlarından enib çadıra girdilər və Şah İsmayılın qabağında durub dedilər:

– Cənab rəis, o şəxsi ki, buyurmuşduz, hər nə qədər axtardıq, yox idi.

Şah İsmayıl özünü itirməyib onlara dedi:

– Eybi yoxdur, hələ gedüz istirahət edüz.

Onlar da yola düşüb gedərkən birisi dönüb Şahzadə İsmayılın üzünə diqqət ilə baxdı, elə bil ki, oni qəribə gördi. Vəli o baxanda Şah İsmayıl üzüni dala döndərdi:

Şah İsmayıl qəravul paltarında bir az oyan-buyanda gəzəndən sonra yenə də sarayın qapusına yaxınlaşıb, vəli

qapuda qəravul olduğuna görə dalı qayıdıb bir pəncərə alətlərindən pərdəni dalı çəkib içəri baxdı.

Vəli içəridə bir kəs görünmürdi. Amma ortada bir qıplı qazan qızarmış plov var idi. Şah İsmayıl ac olduğu üçün həman pəncərədən içəri girib və özünü möhkəm edəndən sonra bir az dayanıb oyan-buyana göz gəzdirdi və elə ki, yəqin elədi orada bir kəs yoxdi, gəlib əllərin cırmalayıb plov qazanın başına ötürdi. Amma hənuz yaxşı başına ötürməmişdi ki, birdən-birə bir səs qulağına gəldi:

– Ey igit, o plova qanlı plov deyirlər. Gözlə ki, ona toxunmayasan.

Şah İsmayıl bu səsdən təəccüb edibsədə, ancaq itirməyib və yeməgə başladı. Amma bu dəfə səs çox qorxulu gəldi və belə dedi:

– Ey oğlan, o plovi mən ilə təhan eləmişəm yemə.

Şah İsmayıl daha dönüb geri baxan kimi nə gördü. Bir heykəlli və ucaboy və qoçaq cavan ərəb.

Doğrusi, qorxmalı bir şey. Amma Şah İsmayıl çox təbii və qorxmaz halda öz qonaq olduğun və ona zəhmət vermədigin saz ilə belə dedi:

İgit oğlan, qonaq sevər evində,
İstər matəm ola, istər sevin də,
Qərib olub düşdüm sənin evində,
Bu gecə mən sənə qonağam, ərəb.

Aldı Ərəbzəngi, görək nə söylədi:

Bu yer o yerdi ki, quş qona bilməz,
Bizim ellərimiz yada didilməz,
Hər yetən qəribə qonaq deyilməz,
Gələndən, gedəndən bac alan gərək.

Aldı Şah İsmayıl:

Gedərəm, burada qalan degiləm,
Mən sizi zəhmətə salan degiləm,
Minnəti boynuma alan degiləm,
Bir gecə mən sənə qonağam, ərəb!

Aldı Ərəbzəngi:

Ərəbzəngiyəm, qılınc oynadın,
Tapılmayıb hələ məni aldadan,
Yoxsa doyubsanmı fani dünyadan,
Ürəginə neştər mən soxam gərək.

Şah İsmayıl ərəbin bu cürə düşünməz və qonaqsevməz olduğundan çox təəccüb etdi. Sonra Ərəbzəngi ona bu cürə qorxu gəldikdən daha Şah İsmayıl iti cavab verməgə hazır olub belə dedi:

İndi ki, sevmədin qonaq saxlamaq,
Qərib kəsin ürəgini buxlamaq,
Gözlərinə indi salaram da ağ,
Çox da xəyal etmə uşağam, Ərəb!

Aldı Ərəbzəngi:

Görürsən belimdə iti qılıncı,
Adam öldürməkdən paslanıb uci,
İstər məzlum isən, istər yırtıcı
Səni sərçə kimi mən boğam gərək.

Aldı Şah İsmayıl:

Yaramaz igitə söyləmək yalan,
Mənəm fəqət sənin canuvi alan,
Gərək axıtdıram su yerinə qan,

Yoxsa igitliği danaram, Ərəb!

Aldı Ərəbzəngi:

Mərd igit eyləməz tərif özüni,
Açar əllərini, kəsər sözüni,
Dayan, indi deyim sözün düzüni,
Başıva qılıncı mən çalam gərək.

Aldı Şah İsmayıl:

Bu sən, bu mən, bu meydan, ərəb,
İgit ol, ya igitliği dan, ərəb,
Yoxsa içəcəksən qızıl qan, ərəb,
Hazıram, qalxanla dayanam, ərəb!

Şah İsmayıl və Ərəbzəngi deyib-deyib qızışdılar və Şah İsmayıl saz ilə dedigi kimi söz ilə də Ərəbzəngiyə dedi ki, hazıram qalxan tutub və sənin qılıncıvın altında defa tutam. Bu idi ki, Ərəbzəngi bir neçə rubai oxuyub və medyanda dövr vurub dolandı və bir neçə nərə çəkib və sonra belindəki əgri qılınca əl aparıb qınından çəkib və Şah İsmayıla hücum gətirdi. Şah İsmayıl isə qalxanı başı üstə bərk tutub və dayanmışdı. Ərəbzəngi daha çox məəttəl olmayıb bütün var-gücü ilə qalxanın ortasından bir elə zərbət vurdi ki, Şah İsmayıl ömründə bir belə zərbət görməmişdi.

Ərəbzəngi birinci zərbəni vurub yenə də meydanı dövr vurmağa başladı və yavaşca gözünün altından Şah İsmayıla baxdı. Çünki belə yəqin eləmişdi ki, Şah İsmayıl bu zərbət ilə ayaqdan düşəcək. Amma çox təəccüb ilə baxıb gördi ki, Şah İsmayıl qoç igit kimi ikinci zərbəni gözləyir.

Bu idi ki, daha qəzəbə gəlib ürəkdən uca və qorxulu bir nərə çəkib yenə də meydanı neçə dövrə dolanıb, sonra

var gücü ilə əgri qılıncı qından çıxardıb gögdə fırlandırıb möhkəm endirdi.

Şah İsmayıl igit qəhrəman kimi dayanıb-dursa da, ancaq az qaldı anadan əmdigi süt burnundan gəlsin. Çünki Ərəbzəngi çox gücli və igit bir cavan idi. Daha hər nə idisə də ancaq üçüncü zərbəyə dayandı. Ərəb hər nə gözlədi ki, Şah İsmayıl təslim olsun, bir şey görmədi. Buna görə daha da qəzəbə gəlib və acıqlı olaraq, üçüncü zərbəni vurmağa hazır oldi.

Şah İsmayıl qalxanın altında çox durduğu üçün tər bütün bədənin çulğamışdı və əllərindən tər süzülürdi. Daha Ərəbzəngi bir neçə dövrə vurub və nərə çəkəndən sonra əgri qılıncı belindən çəkib qabağından həmlə gətirdiği zaman Şah İsmayıl çalağan quşu kimi daha məəttəl eləməyib, əlin qalxanın altından tez qırağa çıxardıb ərəbin biləgin hənuz gögdə ikən möhkəm tutub, var qüdrətilə sıxıb və elə fişar verdi ki, barmaqlarından qan sıçradı. Daha qılınc ərəbin əlindən yerə atıldı. Sonra Şah İsmayıl qılıncı yerdən götürüb dizi üstə vurub iki böldi.

Ərəbzəngi bu ittifaqdan çox utanıb və başını yerə dikdi və soyuq tər bütün bədənin götürüb durduğu yerdə qurumuşdu. Şah İsmayıl daha söz deməyib Ərəbzənginin qalxan tutmağına müntəzir olmadı. Çünki bilirdi ki, daha qalxan tutmağa onda taqət qalmayıb. Amma ərəb rahat degildi və hirsindən az qalırdı ki, dodaqların çeynəsin. Bunu belə görən Şah İsmayıl başa düşdü ki, ərəb narahatdır. Buna görə dedi:

– Ey cavan ərəb, əgər fikr eləyirsən ki, qılınc vurmaqda bir iş görə bilmədin, vəli ayrı işlərdə ustadsan, mən hazıram ki, hər cürə mübarizəyə duram.

Ərəb bu sözi eşidən kimi çox sevinib dedi:

– Bəli, o dəfə mənim həvasim yerində olmadı. Buna görə qılıncı əlimdən düşdü.

Şah İsmayıl ərəbin bəhanəsin kəsmağ üçün dedi:

– Çox yaxşı. İndi nə işə hazırsan?

Ərəb dedi:

– Güləşməgə hazıram.

Daha hər ikisi də piyada olub və bir-birinin belindən tutub güləşməgə başladılar.

Ərəb ki, çox hirsli idi, acığından Şah İsmayılı yıxmaq üçün bir neçə nərə çəkib daldalı apardı və sonra bir də nərə çəkib onu qabaq-qabağa gətirdi. Vəli Şah İsmayıl əgər qəflət eləsəydi, dizləri üstə yerə gələrdi, amma çox diqqət edib gözlədi, bir neçə saat hər ikisi də güc vurub, nərələr çəkdilər və meydanda çox dolanıb toz və topraq gög üzün tutdi. Ancaq nə ondan zəfər olurdi və nə bundan zəfər. Vəli Ərəb çox çalışıb tər içində boğulurdi. Şah İsmayıl neçə dəfə onu dal-dalı aparıb və qabaq-qabağa gətirmişdi, vəli ərəb öz işində ustad idi. Amma Şah İsmayıl daha işi qurtarmaq üçün bu dəfə ürəkdən elə bir nərə çəkib və ərəbə hücum etdi ki, daha ərəb yəqin etdi ki, hərif hirslənib. Şah İsmayıl onun iki əllərini əlləri arasına alıb, bir çox fişar verib yavaş-yavaş dalı qaytardı və o qədər gətirdi ki, onun əl və qolları dalıya büküldü. Daha bir də fişar verib daldalı və qabaq-qabağa gətirib və dizləri üstə yerə sövkədi və ərəb hər nə çalışdı ki, özünə nicat versin, bir iş görə bilmədi. Çünki əlləri bərk və möhkəm dala qayıdıb və az fişar verilsəydi, sınardı. Amma Şah İsmayıl onu bu halda görüb fişarı az elədi və sonra onu yerə yıxıb, sinəsi üstə çökdi və sinəsi üstə çökən kimi birdən-birə əli onun sinəsi üstə bir cüt yumşaq şeyə dəydi, buna görə çox təəccüb ilə diqqət edib gördi ki, bir cüt xırda məmə kimidir.

Şah İsmayıl yuxuda görsəydi inanmazdı. Amma indi gözünün qabağında bu igit pəhləvan ərəbin sinəsi üstə inanılmayan bir şeylər gördi. Sonra ərəbin üzünə baxıb

gördi ki, ərəb bir az utanan kimi olub. Buna görə onun sinəsi üstündən durub ona həsrət ilə baxmağa məşğul oldu. Amma ərəb yerindən durub və başından papağın götürüb, qara telləri ağ üzünə tökən kimi özünü Şah İsmayılın yanına verdi və qolların onun boynuna salıb üzündən bir cüt məhəbbətli öpüş götürdi.

Şah İsmayıl heyrət içində idi və öz-özünə xiyal edirdi ki, yuxi görür. Amma bir az gözlərin silib gördi ki, yox, doğrusi budur ki, bir alagöz, ceyran baxışlı, qələm qaşlı, qırmızı yanaqlı, püstə dodaq və bir bəstəboy qız ki, onun qabağında qul kimi durub.

Ərəb Şahzadə İsmayılın bu cürə heyran qalıb və duymağın görən kimi, bildi ki, şahzadəyə gərək əsli mətləbi desin. Buna görə indi görək ona nə söylədi:

Başına dolanıb mərd oğulların,
Bir dola boynuma, igit, qolların.
Qəmdən azad edən ellər qulların,
Tarix iftixarı, can, Şah İsmayıl.

.......................................................
Ömrümdə sən kimi igit görmədim,
Çox igitlər gördüm, kişi bilmədim,
Qəhrəman duruşlu xan Şah İsmayıl.

Dərin-dərin baxıb nə fikr edirsən?
Təəccüb edirsən, nə zikr edərsən?
Yoxsa heyran olub tədbir edirsən?!
Ey mənə baş ilə can, Şah İsmayıl!

Gətirdim xanları, bəgləri cana,
Boyadım daşları, dağları qana,
Sultanlar nəşini düzdüm yan-yana,

Ölkədə qalmadı can, Şah İsmayıl.

Dərələr, təpələr dolardı qana,
Gəlməzdi igitlər ölüsi sana,
Kim gözün tiksəydi Azərbaycana,
Gərək ki, içəydi qan, Şah İsmayıl.

Şahları, xanları qan ağlatmışam,
Ölkədən düşməni uzaqlamışam,
Qanı suya, suyu qana qatmışam,
Vuruşmama yoxdur san, Şah İsmayıl.

Hər zaman dayanıb qızıl ordumuz,
Onilə fəxr edib ana yurdumuz,
Düşmən qabağında igit durdumuz,
Alıbdır gözlərdən qan, Şah İsmayıl.

Saralıb solunca ölüm yaxşıdır,
Düşmən səflərini bölüm, yaxıdır,
Xainin qəsrindən çölüm yaxşıdır,
Hər zaman bizimdir şan, Şah İsmayıl.

Ərəbzəngi şirin-şirin oxuyarkən Şah İsmayıl təəccüb ilə ona baxırdı və hənuz inanmırdı ki, bu zərnigarlıqda və göçəliqda qız ola. Çünki Şah İsmayıl indiyə kimi çoxli qəhrəmanlar və qılınc oynadanlar ilə tutuşub və vuruşmuşdi. Vəli heç bir pəhləvani bu ay parası, gözəl qız kimi ki, öz adını «Ərəb» qoymuşdur, görməmişdi.

Şah İsmayıl hələ fikr içində idi ki, Ərəb sözün kəsib, qolların onun boynuna doladı və bir də bir öpüş sevgili Şah İsmayılın üzəndən götürdi və şahzadə ki, hənuz onun barəsində düşmüşdü, birdən-birə özünə gəlib xəyalından

oyandi. Sonra o da bir isti və qızğın məhəbbət ilə birdən-birə igit qolların alagöz Ərəbzənginin boynuna salıb onun gül yanaqlarında öpməgə məşğul olandan sonra Şah İsmayıl Ərəbdən soruşdu ki, nə üçün qız olduği halda özüni kişi surətinə salıb? Ərəbzəngi yenə də birdən-birə qolların onun boynuna dolayıb belə söylədi:

Hər gələn kişiyə «kişi» deməzlər.
Hər bitən meyvəni dərib yeməzlər.
Hər yetən sevgiyə «can» söyləməzlər.
Təkcə buc degil kişi sifəti.

Dolandım dağları, bütün bağları,
Məğribi, Məşriqi, saş, sağlari,
Gördüm çün yalançi mər oğullari,
Təkcə buc degilmiş kişi sifəti.

Əhd elədim gedəm bir mərd oğlana,
Gördüm hələ oni doğmayıb ana,
Görmədim bir kişi çıxa meydana,
Zərbətimə da vura zərbəti.

Yaraqlı-yasaqlı gəzirdim daha,
Özümü çəkməzdim eldən qırağa,
Aldada bilmədi kim məni vara,
Təkcə var degili insan sifəti.

Səndən başqasına ki, yıxılmamışam,
Kimsənin qoynuna sıxılmamışam,
Bir özgə oğlana vurulmamışam,
Sən imişsən fəqət Ərəb qisməti.
Əhdim idi məni kim yıxa yerə,

Arxamı güc ilə yerə gətirə,
Şəhamətli ola, vəfa göstərə,
Onda mən də olam onun övrəti.

Ərəbzəngi saz ilə söylədigi kimi söz ilə də dedi ki:

– Mən əhd eləməmişəm ki, ta bir igit oğlan mənim arxamı yerə gətirməyib və güci məndən çox olmayıb dünyada bir kimsəyə gedməyim. Buna görə də kişi paltarı geyib, yaraqlanıb, yasaqlanmışam. Hər kim ki, məni atamdan elçiliğ edirdi, nə tək qəbul eləmirdim, bəlkə məni istəyən oğlanı davaya dəvət edirdim ki, əgər məni yıxsa, ona gedəcəgəm və çoxları bu davanı qəbul eləyirdi. Vəli davada onların hamusın məblub edirdim və bir kimsə tapılmamışdı ki, mənə rast gəlib, adaxlılıq üzügün barmağıma taxsın. Daha bilmirəm siz hayandan mənə rast gəldiz ki, indiyə qədər sizin kimi mərd, igit, qəhrəman və mehriban birini görməmişdim. Daha indi əhdimə vəfa edib sizi özümə istəkli bir sevgili seçdim. Ərəb bu sözləri deyə-deyə rəngi qızıl alma kimi qızarıb və həya təri altından gül üzünə axırdı və bu mouqe Şah İsmayıl Ərəbin bu mehriban və ürəgə yatan sözlərin eşidən kimi ürəkdən şad olub və igit qolların açıb və Ərəbi bərk-bərk bağrına basıb və başladı onun gül yanaq və qönçə dodaqlarından öpməgə. O gecə o cürə nazü-niyaz eləmək ilə başa çatdı. Daha yavaş-yavaş gecə səhərə yaxınlaşıb və xorusların səsi ucaldı və ged-gedə hava işıqlanmağa başlayırdı və bu iki sevgili gecə gec yatdıqlarına görə şirin yuxudayıdalar. Vəli çox da dünyadan bixəbər degil idilər.

Şah İsmayıl qapuya tərəf yatmışdı. Hərdəm azaraq xışıltı səsi eşidirdi. Vəli o qədər əhəmiyyət vermirdi. Amma ged-gedə bu xışıltı səsi ucaldı və sonra birdən-birə kəsildi və buna görə Şah İsmayıl daha əhəmiyyət verməyib və yenə də gözlərin yumdu. Amma bir azdan sonra qorxulu

gurultu səsi qulağına gəldi və birdən gözlərin açıb Ərəbzənginin başı üstə bir böyük və canlı pələng gördü və hənuz yerindən durmamışdı ki, pələng nərə çəkə-çəkə onun üstünə sıçradı və altına aldı. Amma Şah İsmayıl bu mouqe özün itirməyib qoluni pələngin ağzından güc ilə çəkib çıxartdı və sonra bu yırtıcı heyvan ilə tutuşmağa başladı. Bu dəm ki, Ərəb pələngin qurultusuna yuxudan hərasan olub, gözlərin açmışdı, o da birdən-birə yerindən sıçrayıb və pələngə tərəf yumuldu. Pələng çox heykəlli və yoğun idi və neçə dəfə istədi ki, Şah İsmayılın qolların iti dişləri ilə dibdən qoparsın, vəli hər dəfə ki, bu fikrə düşürdi, Şah İsmayıl alıcı quş kimi pələngin burnunun üstündən polad yumruğu ilə çalırdı. Daha tər hər ikisinin bədənindən damcı-damcı axırdı və pələngin heyildi səsi hər yana yayılırdı. Ərəb neçə dəfə istədi ki, əlin qılınca atıb heyvanın boynundan vursun, vəli Şah İsmayıl qoymurdi. Çünki istirdi ki, onu o cürə boğub öldürsün. Bir az vurğunandan sonra pələng bir əlin gətirib Şah İsmayılın sinəsinə qoyub və bir əlin də onun kürəginə qoyan kimi Ərəb pələngin niyyətin anladı ki, istir Şah İsmayılın belin sındırsın. Bu di ki, daha birdən pələngin üstünə cumub və onun boğazının dalından sıxmağa başladı. Bir qədər pələngin boğazın sıxıb və burandan sonra pələng Şah İsmayılı buraxdı və bu dəfə Ərəbin üstünə həmlə gətirdi. Buni belə görən Şah İsmayıl sinəsindən axan qana baxmayaraq, yerindən qalxıb və dalıdan pələngin dal qıçın iki əlləri ilə bərk və möhkəm tutdi və sonra Ərəbə çığırdı ki, o da o biri qıçından tutub möhkəm öz tərəfinə çəksin. Daha Ərəb pələngin həmləsini dəf edib və fourən Şah İsmayılın dəsturuna baxaraq o da o biri qıçından tutub və hərəsi bir yana çəkməgə başladılar. Bir az çəkəndən sonra pələngin çığırtısı ucaldı və beləxərə qədər çəkdilər ki, pələng dəvə kimi anqırmağa başladı.

Pələngin səsi bütün ətrafa yayılmışdı. Çoxlu heyvanları yuxudan oyadıb, sonra bütün şir, tülki, pələng, qurd, donquz, ayı, qaban, dəvə, fil və çoxli yırtıcı heyvanlar yuvalarından eşigə tökülüb səs olan tərəfə üz qoymuşdular. Hər tərəfə baxırdın – çöli, dərəni, təpəni qaniçən və yırtıcı heyvanlar doldurulmuşdu. Vəli Ərəb və Şah İsmayıl hələ bu ittifaqdan bixəbər idilər. Onlar pələngi cırmaq və aradan şəqqələmək istəyirdilər və hər dəfə ki, pələngin qışqırığı daha da gögə qalxırdı. Amma bu dəfə hər ikisi də güc verib və birdən-birə elə çəkdilər ki, pələngin qıçları Ərəb ilə Şah İsmayılın əlində qaldı. Pələng daha candan düşüb əl-ayaq çalırdı. Ərəb və Şah İsmayıl yaralanıb və bədənləri qanlı olduqlarına görə evdən eşigə çıxdılar ki, üz və əllərin yusunlar və bir az istirahətlə məşğul olsunlar. Vəli hənuz ayaqlarını qapunın dabanlığından eşigə qoymamışdılar ki, birdən-birə gözləri dərya kimi həmlə gətirən yırtıcı heyvanlara düşdi və fourən anladılar ki, onlar pələngin çığırtısına gəlirlər. Bu idi ki, daha məəttəl olmayıb tez axıra girib və polad bədənli Qəmər atı və ağ atı yəhərləyib çalağan quşları kimi atların belinə atılıb bir-iki qamçı vurub oradan eşigə çıxdılar.

Ərəb və Şah İsmayıl bir də dönüb sel kimi gələn və qan tökən heyvanlara göz saldılar. Daha dayanmaq yeri degil idi və gərək idi ki, tezraq oradan gedsinlər. Buna görə hər ikisi də atları qovmağa başladılar. Onların dalıyca qovzayan toz və topraq bütün heyvanları daha da qızışdırdı və hamılıqca o iki atlının dalıca yumulmağa üz qoydular. Ərəb və Şah İsmayıl ildırım kimi gözdən itirdilər. Vəli heyvanlar da onların dalıyca yel aparan bulut kimi səpələşib cumurdular. Heyvanların nərə və çığırtısı bütün çölləri tutmuşdu və qabağa gələn quş, ördək, toyuq, qaz fourən aradan cırılıb yeyilirdi. Daha onlar ləhləməgə düşmürdülər.

Şah İsmayıl və Ərəb hey qovurdular və heyvanlarda hey həmlə gətirirdilər. Daha bir zaman beləliklə, ikindiyə az qaldı və heyvanlar o qədər qalmamışdılar ki, onlara çatsınlar. Vəli atlar elə gedirdilər ki, fəqət tozları görünürdü. Bu mouq Şah İsmayıl qabaqda bir şeyin parlamasın gördi. Və o qədər çəkmədi ki, onun dərya olduğun anladı. Bura Ənzəli dəryası idi. Ged-gedə dəryaya yaxınlaşırdılar. Bu zaman Ərəbin atının quyruğundan bir heyvan yapışıb aslanmışdı və az qalırdı ki, onu dayandırsın. Bu idi ki, Ərəb atın yavaş-yavaş gedməginə görə dalı baxanda bir böyük şiri gördi və fourən qılıncı çəkib şirin burnundan bir zərbə vurdi və heyvanın başının yarısı yerə sıçradı. Daha bundan sonra heyvanlar yaxınlaşıb və az qalırdı ki, hamusi birdən onların üstünə tökülüb və tikə-tikə eləsinlər. Amma xoşbəxtliğ burada idi ki, atlar dəryaya yetişib, fourən suya təpindilər və heyvanlar hər nə çalışdılar, daha bir iş görə bilmədilər.

## ŞAH İSMAYIL VƏ GÜLZARIN AYRILIQ ODU

Şah İsmayıl və Ərəb çöllərin çəngindən qurtarıb və dəryadana çıxanların bir yerdə bağlayıb və bir çinar ağacının kölgəsində istirahət etməgə məşğul oldular. Ərəb Şah İsmayıl ilə deyib-gülüb danışarsa da, ancaq onun halından bir gizlin dərdi olduğunu başa düşmüşdi. Və neçə dəfə istəmişdi ki, ondan bu gizlin dərdin nə olduğun soruşsun, vəli utanıb bir söz deməmişdi. Vəli bu dəfə şahzadənin halın çox tutqun görüb və dözə bilməyib dərdinin nə olduğun soruşdi və Şah İsmayıl əvvəl demədi. Vəli çün Ərəb əl götürmürdi, buna görə indi görək onun cavabında nə dedi:

Soruşma ürəkdən olan dərdimi,

Məni bu çöllərə salan dərdimi,
İçimdə əlovtək yanan dərdimi,
Qoy qala ürəgdə nihan dərdimi.

Sonra Ərəb Şah İsmayılın bu cürə yanıqlı-yanıqlı söyləməgindən və dərdinin gizlin olduğundan bir az narahat olub daha indi görək ondan nə soruşdu:

Söylə, edim sənin dərman dərdinə,
Ürəkdə gizlənib yanan dərdinə,
Səni kim salıbdır yaman dərdinə,
Yoxsa düşübsənmi canan dərdinə?

Aldı Şah İsmayıl, görək nə dedi:

Yaralı dərdimi nə soruşursan?
Sakit ürəgini mənə qoşursan?
Eşidsən dərdimi, sən də əşursan
Bu ürək dərdimi, bu can dərdimi.

Aldı Ərəb:

Ötüşə bilmərəm, qala bilmərəm,
Səni bu hal ilə qoya bilmərəm,
Dərdini görərkən dana bilmərəm,
Gərəkdir eliyəm dərman dərdinə.

Aldı Şah İsmayıl:

Savalan dağları doli nar oli,
Sevgi sevən aşiq sarali-soli.
İtirər çox zaman geddiyi yoli,
Yandırıb çöllərə boran dərdimi.
Aldı Ərəb:

Başına döndügüm gül üzli yarım,
Bir sənsən dünyada dövlətim, varım,
Bilməsəm dərdini gəlməz qərarım,
Gərəkdir eliyəm dərman dərdinə.

Bu dəfə Şah İsmayıl daha Ərəbi başa salmaq üçün götürüb belə söylədi:

Mən eylə yanar odlara yandım ki, soruşma,
Gültək səpilib yeldə talandım, soruşma.
Axır nə biləydim çoxunun yoxdu vəfası,
Hər yetən ahuya inandım ki, soruşma.

Aldandım əzəldən daha çün keçdi iş işdən,
El köçdi, bu çöllərdə boyandım ki, soruşma.
İllər boyi gizlində əlovlandi vücudim,
Zülm ilə bu yanmaqda dayandım ki, soruşma.

Qorxum budi axır yanasan sən də mənimtək,
Bu barədə vardır sənə andım ki, soruşma.
Gəzdim gecə-gündüz ki, yetim bəlkə muradə,
Məcnun kimi avarə dolandım ki, soruşma.

Hər gün neçə yüz dəfə ölüb, sonra dirildim.
Hərdəm əl-ayaq çaldım, uzandım ki, soruşma.
Gülzarı sevəndən daha heç yoxdu qərarım,
Tüstüm ucalıb göglərə yandım ki, soruşma.

Ərəb sözi başa düşmüşdi və anlamışdı ki, öz sevgilisi şahzadə birinə aşiqdir, vəli buna görə şahzadəni naçar elədi ki, lap aşkar danışsın və indi görək şahzadə son sözündə nə dedi:

Gül üzlü yarımı, Gülüzarımı,
İtirdim bu çöldə hər nə varımı,
Buraxdım atamı, həm diyarımı,
Gülzara aşiqəm, inan dərdimi.

Ərəb Şah İsmayılın bu cürə aydın və gözəlcə öz dərdini söyləməgindən və habelə Gülzar adlı bir gözəl qıza aşiq olduğun dedigindən çox xoşhal olub və bir az dayanandan sonra dedi:

– İstəkli yarım, indi söylə ki, Gülzarı ələ gətirmək üçün nə etməliyik.

Şah İsmayıl Ərəbin bu eşqindən və özünün doğru danışdığından acığı gəlməkdən çox sevinib və daha qəziyyəni əvvəldən axıra kimi, yəni Gülzarı görən zamandan və onu itirdigi və beləxərə indi onun dalıca çölləri gəzdigini və habelə Pəri ilə görüşdügini və indi Ərəbzənginin özünün düşüdügini birbir söylədi və daha bir söz deməyib sakit dayandı.

Ərəb bu sözləri eşidəndən sonra qolların öz sevgilisi Şah İsmayılın boynuna dolayıb və onun üzündən bi cüt dadlı öpüş götürüb və sonra dedi:

– Mehriban sevgilim, bunun üçün qəm yemağ lazım degil. İndi əmr sənin əmrindi. Hər yana buyurursan, buna inan ki, dünyalar qabağında duran və qılınc oynadan Ərəbzəngin var.

Şah İsmayıl Ərəbdən bu məhəbbət və mehribanlığı çox görmüşdi, vəli indiki kimi ki, dedi: «Dünyalar qabağında duran və qılınc oynadan Ərəbzəngin var" ləzzət və ruh verməmişdi. Buna görə məhəbbət və əlaqənin şiddətindən o da Ərəbzəngini bağrına basıb, neçə cüt şirin-şirin öpüşlər götürdi və sonra bir az bu cür qaldılar və yenə də Ərəb sözə gəlib dedi:

– Gözəl sevgilim, şahzadə, gər icazə verirsən, atları yəhərləyib yola rəvan olaq.

Şahzadə bir az fikrə gedib və belə dedi:

– Meyl sizindir. Əgər könlüz var, yollanaq.

Hənuz bu söz onun ağzından çıxmamışdı ki, Ərəb yerindən fourən durub yaraq və yasaqlanmağa hazır oldu və o qədər çəkmədi ki, hər ikisi də silahlanıb, Qəmər at ilə ağ atın belinə atıldılar və yola düşdülər.

Ərəb bir az gedəndən sonra üzün Şah İsmayıla tutub dedi:

– Əziz sevgilim, indi hansı tərəfə gedəcəyik?

Şah İsmayıl bir az fikr edib, dedi:

Mənə xəbər veriblər ki, Gülzar Hindistana tərəf köç eləyib. Vəli mənim öz əqlimə görə gərək ki, Gülzarın anası onu Şirvan şəhrinə aparmış olsun. Buna görə lazım bilirəm ki, indi həman Şirvan şəhrinə tərəf gedməliyik. Bu idi ki, hər ikisi də atlarına neçə qamçı vurub, qırğı quşu kimi götürüldülər.

İndi bunlar burada qalsınlar daha görək Şah İsmayılın atası Sultan Heydər Qafqaz dağlarında minlərcə yağı düşmənlər ortasında nə edir.

## SULTAN HEYDƏR İLƏ SULTAN YAQUB VƏ ŞİRVANŞAH VURUŞMASI

Şah İsmayılın atası Sultan Heydər Şeyx Cüneydin oğlu ki, Ağqoyunlu tayfasının Uzun Həsən adlı şahının qızın almışdı və Şah İsmayıl da o anadan olmuşdi, güni-gündən qüdrət tapıb və güclənirdi. Əlbəttə, onun Həsən bəgin qızın almaq səbəbi bu idi ki, aralarında həmişə dostluq və qardaşlıq yaransın və hələ təkcə Sultan Heydər Həsən bəgin bacısini

almamışdı, bəlkə öz atası Şeyx Cüneyd də Həsən bəgin bacısını almışdi. Buna görə demək olar ki, Həsən bəgin bacısı Sultan Heydərin anası idi. Daha bəlli olur ki, Ağqoyunlu tayfası ilə Səfəvi silsiləsinin ortalarında bir qohumluq yaranmışdi, vəli bu qohumluq özgə düşmənlər və habelə Qaraqoyunluların ara qatışdırması ilə güni-gündən ortadan gedirdi. Belə ki, Həsən bəgin yerində oturan Sultan Yaqub Sultan Heydərin qüdrət və güc tapmağından qorxuya düşmüşdü və buna görə Şirvan şahı ilə rabitə salıb dostluq qatmışdı ki, onun vəsiləsi ilə Sultan Heydəri aradan aparsın.

Sultan Heydərin başına yığışan qoşunun adına da «qızılbaş» deyirdilər. Necə ki, Əmir Teymurun qoşununa «qızıl ordu» deyirdilər. Əlbəttə, qızılbaşların börkləri on iki çatma tikilmişdi və əmmamə kimi, on iki qat görünürdü. Bu cür börklərin qoyulmasının səbəbi belə idi ki, Sultan Heydər bir gün yuxuda gördügi yuxuya görə əmr elədi ki, bütün tərəfdarları və qoşun əhli oniki xətli və qırmızı börk qoysunlar, ta özgələr ilə onların fərqi aydın görünsün. Daha bu idi ki, Səfəvi qoşununun adı «qızılbaş» idi.

İndi görək Sultan Heydər nə edir:

Sultan Heydər Qafqaz və Bakı və bəzi şəhərlərə həmlə aparıb və onların çoxun almışdı. Buna görə Sultan Yaqub Şirvan şahı Fərrux Yasar ilə birləşib, onun qabağına çıxdı. Bu idi ki, cəng və vuruşma qərarı Dərbənd şəhərinin yaxınlıqlarında qoyuldi. Hər iki tərəf öz işlərilə məşğul idilər və bütün cəng silahların hazırlayıb hər tərəfdən cəngə lazım olan şeyləri bir yerə toplayırdılar: qılınclar, şəmşirlər, qəmələr və bütün kəskin silahlar itiləməkdə idi. Pəhləvanlar yaraqlanıb və yasaqlanırdılar. Daha neçə gün idi ki, hər tərəf çalışırdılar ki, cəngidə və bütün vuruşmada düşməni məhv edib aradan aparsın.

Sultan Heydərin bütün tərəfdarları Azərbaycanın hər

tərəfindən Şirvan şəhərinə üz qoyub cəng üçün lazım olan silah və azuqə at, qalxan və qılınc gətirirdilər. Əlbəttə, Ərdəbil və Təbriz şəhərləri hamudan artıq kömək edirdilər. Neçə gün bu cürə keçdi və çox işlər görüldi. Bütün qoşunda olan cavanlar və qocalar öz ana və bacıları ilə görüşüb vidalaşırdılar. Çoxları vəsiyyətlərin edib və bəziləri də öz adaxlıları ilə qol və qərar qoydular ki, inşaallah cəngidən qayıdandan sonra toyların edsinlər. Daha o gün yetişdi ki, səhər tezdən şeypurlar çəkilib və btn qoşun əhli atlarına minib, silahlanıb və dərya kimi yerindən oynadı. Hər iki tərf bir-birinin qabağında sədd çəkib ölüm ilə yaşayış intizarında idilər. Bəlli degil idi ki, kimlərin ömri qurtarıb və kimlər fəth edəcəklər. Daha bir neçə şeypur... ikinci və üçüncü şeypur çəkilən kimi hər iki tərəf dərya mouğu kimi, zəlzələ tufanıtək bir-birinə həmlə aparıb və o qədər çəkmədi ki, çalağan quşları kimi bir-birlərinə qatışıb qan tökdülər.

Günəş tazə-tazə aləmə yayılırdı və hənuz qızışmamışdı. Amma bu cəngi pəhləvanlar və qoçaq ordular şir kimi qızıb bir-birinə balə olmuşdular. Qılıncların gögdə günəş işığında işıldaması, əmudların qalxana dəgib taqatağı, atların şiyhəsi və pəhləvanların nərəsi toz və toprağın gögüzün tutması qardaşı ata və ananı qardaş gözündən itirmişdi. Belə ki, fəqət vurhavur idi. Hər dəqiqədə neçə baş, qol, bədən yağış kimi yerə tökülürdi. Bu dava səhər günəş çıxandan başlanıb və ta hava qaranlıqlaşınca davam tapdı. Amma göründüginə görə Sultan Heydərin qoşunu çox az idi və buna görə çoxli rəşadət və şəhamətlər göstərirsələr də, ancaq fəth etmək üçün ümid az idi. Daha gecə zamanı şeypur çalındı və hər iki tərəf də cəngidən əl götürüb öz yerlərinə qayıtdılar və yaralıları mərizxanələrə apardılar və ölənləri də quyladılar və diri qalanlar da sabah üçün yenə də qılınc, qəmə itilmağa və qalxan düzəltmağa

və kəmənd qayırmağa başladılar. Gecə səhər yaxınlaşırdı. Mərizlərin sızıltısı və yaralanmaların naləsi azaraq qulağa gəlirdi çadırların içində yanan şamlərin dövrəsində yığışıb oturan pəhləvanların danışığı və bir-birindən halallaşmaq səsi vızıldayırdı. Onlar qılıncların və qəmələrin itildə-itildə bir-birlərinə deyirdilər ki, qardaş məni halal elə, şayəd ki, sabah daha bir-birimizi görmüyək.

Gecə bu cırmağ ilə keçib və səhər açıldı və günəş gözəl nurunu aləmə yaydı və bütün hər iki tərəfin qoşuni özlərin cəng meydanına gedməgə hazırladılar və o qədər çəkmədi ki, birinci şeypur ikinci və üçüncü şeypur çalınan kimi hər iki tərəf dərya kimi yerindən oynayıb və sonra ləbə kimi bir-birlərinə hücum gətirdilər.

Bunlar burada vuruşmada qalsınlar, indi görək Ərəb ilə Şah İsmayıl nə edirlər.

Şah İsmayıl və Ərəbzəngi ki, Şirvan şəhərinə Gülzarı tapmaq üçün at çapırdılar, yolda onun atası Sultan Heydər ilə Şirvanşah və Sultan Yaqubun cəng eləməgin ona xəbər verdilər. Bu idi ki, daha dayanmayıb özlərin Dərbəndin yaxınındakı cəng meydanına yetirdilər və o zaman yetirdilər ki, düşmən qoşunu Qızılbaş qoşunun ayaqdan salıb və az qalırdı ki, təslim edsinlər.

Ərəb və Şah İsmayıl bu vəziyyəti görən kimi Ərəb əgri qılıncı və Şah İsmayıl Misri qılıncı bellərindən çəkib ac şirlər kimi düşmən qoşununa həmlə apardılar.

Sultan Heydərin qoşunu ki, ged-gedə dalı gedib və az qalırdılar ki, ayaqdan düşələr. Bu zaman ətraflarına baxıb gördülər ki, düşmən dalı turur. Bir yaxşı baxan kimi iki nəfər igit və rəşid cavanın onların qabağında qılınc və əmud vurmasın və düşmənin dalı oturmasın görən kimi daha bu dəfə cəng çox qanlı bir cəng oldu.

Sultan Heydərin qoşunu böyük rəşadətlər göstərdilər.

Əlbəttə, Ağqoyunlu və Şirvan qoşunu da çox cəngi və vuruşan qoşun idi. Məxsusən Ağqoyunlu qoşunu bütün igit və şüca cavanlardan təşkil olunmuşdu və onların çoxu Əmir Teymur və Çəngiz xanın* Nizami təlimatından bilirdilər. Amma bununla belə Çəngiz xan və Əmir Teymur zamanından çox keçmişdi və bu cavanların yaxşı bir sərdar və başçılı yox idi. Amma bunla belə yenə də Qızılbaş qoşununa ki, sınmaz qoşun idi, güc gəlirdilər. Nəhayət, cəng daha şiddət tapıb və hər iki tərəfdən başlar və qollar idi ki, yerə tökülürdi.

Ərəb və Şah İsmayıl qabağa gələni bir qılınca qurban edirlər və qılınclarının ucundan qan su kimi axırdı. Bütün əl və üzləri qan idi. Ancaq qan töküldükcə onlarda qızışırdılar və dava şiddət tapırdı.

Çöllər, dərələr, təpələr nəş ilə dolmuşdi və çoxları taqət gətirməyib qaçmağa üz qoymuşdular.

Ərəbzənginin əgri qılıncı çox vaxt üç nəfəri birdən bölüdi və Şah İsmayılın Misri qılıncı da neçə nəfəri bir dəfədə biçirdi və hər dəfə də neçə nəfər «ax» deyib dünyadan gedirdi. Amma pəhləvanlar hələ təzə qızışmışdılar və çox çətin inanmaq olurdi ki, bu cəng bu asanlıq ilə qurtarsın. Ağqoyunlu və Sultan Yaqubun qoşununun dalı oturduğunu onlara xəbər verdilər. Bu idi ki, Yaqub və Şirvanşah dəstur verdilər ki, əlli min təzə nəfəs qoşun daha meydana yollandı.

---

* Çəngiz xan və Əmir Teymur türk idilər və dünyada onlar kimi rəşid, qoçaq pəhləvan və sərdar və diplomat və nizami işlərində ustad olan azaraq vardır. Onlar dünyanın çoxun almışdılar və çox yerəri alanda, əgər düşmən qoşunu müqavimət etməsəydi, onlar ilə işi yox idi. Fəqət özlərindən razı olanlara həmlə edərdilər.

Şah İsmayıl və Ərəb və qızılbaşlar və Sultan Heydər ki, qızılbaş və düşmən qoşunun sünbül kimi biçib yonur-

dular, bu zaman uzaqdan çölləri qaralıqdan dərya kimi qoşunu görən kimi öz şikəst yeməklərin daha gözlərinin önünə aldılar və yəqin edirlər ki, düşən qalib olacaq. Amma bunla belə məyus olmayıb daha həmliyə başladılar. Onlranı qabağından salim qalıb qaçanlar özlərin əlli min təzə nəfəs qoşunun böyügi əmr elədi ki, atları qovub və özlərini tezliklə və cəng meydanına yetirsinlər. Bu idi ki, əlli min qoşun Sultan Heydərin qoşunun qarışqa kimi dövrələyib və araya saldılar. Bu zaman Ərəb və Şah İsmayıl bütün güc və qüdrətləri ilə vuruşarkən birdən-birə gözləri Sultan Heydərin nəşinə düşmən kimi Şah İsmayıl ürəkdən ah çəkib və atından yenib, börkün başından götürüb «ey vay, atacan» – dedi.

Şah İsmayılın gözlərindən damcı-damcı əlovli yaşlar töküldi. Ərəb ki, bu zamana qədər qayınatasını görməmişdi, onu son nəfəsində görən kimi o da atdan yenib onun yaralı alnından öpdi.

Sultan Heydər fəqət bir dəfə gözün açıb Şah İsmayılın və Ərəbin üzünə baxdı və sonra dili tutar-tutmaz dedi:

– Oğlum, İsmayıl, çox xoş gəlibsən.

Və Ərəbin də alnından öpdi. Sonra sifariş elədi ki:

– Oğlum və gəlinim, mən ölürəm və bu son vidada sizə tapşırıram ki, məyus olmayın və Azərbaycan millətin qoymayın yağı düşmənlər əlinə düşsünlər. Məxsusən sifariş edirəm ki, milliyyət, dil və ölkəzi yaxşı saxlayız və bir də əgər şahlığa yetişdin böyük Təbriz şəhrini oturaq, yəni paytaxt və öz şirin türk dilini İranın rəsmi dili elə.

Şah İsmayıl atasının əllərindən öpüb və onun sifarişinin cavabında iki əllərin gözləri üstə qoyub və bu cürliğ ilə atasına andırdı ki, onun sifarişlərinin iki gözləri üstə icra edəcəkdir.

Sultan Heydər bu sifarişləri edəndən sonra daha son

dəfə olaraq gözlərin həmişəlığ üçün yumub və bu fani dünyadan əl üzdü.

Bu zaman düşmən qoşunu aman verməyib mürəttəb qabağa gəlirdilər. Bu idi ki, Şah İsmayıl və Ərəb bir də atlarına minib və qılıncların əllərinə alan kimi daha onları dövrələyib tutdular və hər ikisin də zəncir ilə bağlayıb əsir etdilər.

Qızılbaş qoşunu məyusanə vuruşsa da ancaq ümid yolu kəsilmişdi. Və nəhayət, o qədər çəkmədi ki, gecə ortaya gəldi və ölülər yerlərdə qaldı və yaralılar da ölüm halına düşdülər. Bir az salim qalan olursa da, ancaq onlar da dayanmayıb oradan uzaqlaşdılar.

Tarixi 892-ci Hicri-Qəməri ayında Sultan Yaqub əmr elədi ki, Sultan Heydərin xanəvadəsin tutub və İstəxr-farsda zindan etsinlər. Bu idi ki, Sultan Heydərin xanəvadəsin böyük oğlu Sultanəli və İbrahim və İsmayılı və Ərəbi 896-cı ilə kimi zindanda saxladılar.

## SULTAN YAQUBUN ÖLÜMÜ VƏ ŞAH İSMAYILIN ZİNDANDAN AZAD OLMASI

Şah İsmayıl və Ərəb neçə il İstəxr-farsda zindanda qaldılar. Ərəb Şah İsmayılın yanında olursa da, ancaq Şah İsmayıl üçün ata ölümü, zindanda qalmaq və sevgilisi Gülzarın ayrı düşmək dərdi çox çətin idi. Gecə-gündüz bir idi və heç bilmirdi ki, günəş hansı tərəfdən çıxır və hansı tərəfə batır. Ərəb çox çalışırdı ki, sevgilisi şahzadəni aram eləsin, vəli heç vəqt olmadı ki, Şah İsmayıl vətən fikrindən və sevgilisi Gülzar xəyalından asudə olsun. Buna görə ölkə və millət barəsində məsləhət edib və danışanda qardaşları ilə məşvərət edirdi. Vəli Gülzar barəsində fikr edəndə zindanın bir xəlvət guşəsində təkcə olaraq sazı bağrına basıb

və oxuyurdu. Nəhayət, bir gün Ərəb şahzadəni güdüb və onun bir gizlin və qaranlıq bucaqda Gülzar həsrətində qulaq asdı. Və indi görək Şah İsmayıl yaralı-yaralı zindanda nə oxuyur:

Sınıbdır qanadım, qolum, budağım,
Dağılıb başımdan tayfa, tifaqım,
Zindandar bucağı olub yatağım,
Məni bu dərdlərə salan Gülüzar.

Baxıram hər yana sıldırım daşdı,
Gözümdən tökülən bu qanlı yaşdı,
Ürəgim partlayıb, qüssədən daşdı,
Məni bu dərdlərə salan Gülüzar.

Neçə ildir zindan olub məkanım,
Haçanatək daha odlara yanım?!
Qüssədən, möhnətdən qurtardı canım,
Məni bu dərdlərə salan Gülüzar.
Zindanın divarı uca-ucadır,
Qapusi alati çox balacadır,
Burda olanların çoxi qocadır,
Qocalıbdır bütün cavan, Gülüzar.

Sanıram günləri, qurtarmır aylar,
Gözümün yaşından dolubdur çaylar,
Neçə dəfə dönüb baharlar, yaylar,
Mənzilim olanı zindan, Gülüzar.

Yağı düşmənlərə əsir olanı,
Gözüm gecə-gündüz səni dolanı,
Ürəgim sinədə birdən dayanı,
Canıma düşübdür talan, Gülüzar.

Ölümdən qurtarıb ölümə düşdüm,
Təpələrdən dərələrə sürüşdüm,
Yolunda min cürə qəmə tutuşdum,
İndi olub halım yaman, Gülüzar.

Sağalarmı aşiqlərin yarası,
Gülmək ilə olmaz onun arası,
Ey gözümün nuru, ağı, qarası,
Sənsən məni dərdə salan, Gülüzar.

Dəmir pəncərələr dalında qaldım,
Günü-gündən yanıb, odda qaraldım,
Qınaqlar altında qalıb, saraldım,
Olmadı eşqimi qanan, Gülüzar.

Bu zaman Ərəb Şah İsmayılın bu cürə yanıqlı-yanıqlı oxuyub qəmli olduğun görən kimi durduğu gizlin yerdə daha taqət gətirə bilməyib, gözlərindən pür-pür yaşlar axdı və Şah İsmayıl yenə də belə söylədi:

Əldən-ələ düşüb yerim, diyarım,
Talanıb düşmənə dövlətü-varım,
Hamudan alçaqdır indi divarım,
Məkanım olubdur zindan, Gülüzar.

Qaranlıq gecələr sızılar səsim,
Az qalır qurtara sanki nəfəsim,
Yaşamağa daha yoxdur həvəsim,
Az qalır qurtara bu can, Gülüzar.
Əgər olmasaydı dayağım Ərəb,
Düşmən qabağında sayağım Ərəb,

Solum, arxadaşım həm sağım Ərəb,
Qalmazdı indiyə bu can, Gülüzar.

Qapular dalında daldanan canım,
Yarı özgələrə yar olan canım,
Zindanda gizlində odlanan canım,
İşim olub indi fəğan, Gülüzar.

Ərəbzəngi Şah İsmayılın bu cürə qəmli və yanıqlı naləsinə dözə bilməyib, o da sazı bağrına basıb durduğu yerdə indi görək nə söylədi:

Yanıqlı-yanıqlı nə ağlayırsan?
Yanğılı könlümi dərdə salırsan,
Zindan guşəsində daldalanırsan,
Könlümi eylədin qan, Şah İsmayıl.

Şah İsmayıl Ərəbin bu cürə birdən-birə oxuduğun eşidən kimi diskinib təəccüb ilə dalı baxan kimi sevgilisi Ərəbi gördi və bir az utandı. Amma Ərəb daha macal vermədi ki, Şah İsmayıl ondan artıq utansın. Buna görə qolların onun boynuna salıb üzündən bir cüt öpüş götürdi və oni dilə tutub dedi:

– Qəhrəman sevgilim, Şah İsmayıl.

İgitlər düşərsə qara zindana,
Gərəkdir səbr edib dərdə dayana,
Dünya bu cür qalmaz, dönər bir yana,
Könlümü eyləmə qan, Şah İsmayıl.

Qara gecə keçib dönər səhərə,
Bir nicat tapılar bizim ellərə,

Yəqin ki, getməyib Gülüzar ərə,
Könlünü eyləmə qan, Şah İsmayıl.

Ölməyibdir hərə Azər elləri,
Azər ellərinin mərd igitləri,
Əzbər eləyibdir səni dilləri,
Könlünü eyləmə qan, Şah İsmayıl.

Sınmayıb qanatın, budağın qolun,
Azər elləridir sağ ilə solun,
Kəsə bilməz kimsə açılmış yolun,
Könlünü eyləmə qan, Şah İsmayıl.

Ta varam, yolunda ölüncə durram,
Yüz igit olursa, bir qılınc vuram,
Yağı düşmənləri birbəbir qıram,
Könlünü eyləmə qan, Şah İsmayıl.

Şah İsmayıl Ərəbin bu cürə vəfalı və pis gündə onun halına yanmağından və habelə düşmənlər qabağında son nəfəsə kimi dayanmağından gülüb və Ərəbi bağrına basıb üzündən öpdü. Daha günlər aylar-illər dolandı ki, ta bir gün ki, hamılığca nahar yeyirdilər, carçı ucadan səslədi:

– Bu adamları ki, səsləyirəm, qulaq assınlar.

Sultanəli Səfəvi, İbrahim Səfəvi, İsmayıl Səfəvi və xanəvadələri.

Vəqti ki, carçı onların adın səslədi, onlar əvvəl xəyal elədilər ki, şayəd istintaq üçün və ya əzab üçün çağırırlar. Amma bir azdan sonra zindanın rəisinin yanına gedib və işdən bixəbər olandan sonra daha hamılıqca xoşhal olub və şadlıq elədilər. Amma Şah İsmayıl bir yana gülərsə də, bir yana qəmli görünürdü. Bu cürliğ ilə onlar zindandan

azad oldular. Əlbəttə, onların azad olmaqlarının səbəbi bu idi ki, sultan Yəqub öləndən sonra Mirzə Rüstəm adlı bir şəxs ki, Sultan Yəqubun yerində oturanlardan idi və öz işlərin qabağa aparmaq üçün Səfəvi xanəvadəsin zindandan çıxardıb və onun böyük oğlu Sultanəlini özünə sərdar edib, bir qədər ona qoşun verib və öz düşmənləri ilə vuruşmağa yolladı. Sultanəli zahirdə onun üçün, vəli gizlində öz işlərin qabağa aparmaq üçün düşmənlər ilə mübarizə edib vuruşurdu. Daha neçə dəfə fateh olub və düşmənləri basmışdı. Beləxərə bir gün fateh olub və Təbriz şəhərinə geddi vç onun bu fəth eləyib qalib olması Mirzə Rüstəmi qorxuya saldı və buna görə Mirzə Rüstəm Sultanəlini aradan aparmaq üçün nəqşə çəkdi ki, onu öldürsün. Bu idi ki, Sultanəli bu işdən xəbərdar olan kimi öz qardaşları İbrahim və İsmayıl ilə Təbrizdən Ərdəbilə getdi, vəli Mirzə Rüstəmin adamları onları qovub və təqib elədilər və Sultanəlini öldürdülər. Daha bu cərəyanda Səfəvilərin müridləri İbrahim və İsmayılı o mərəkədən nicat verib, Gilan mahalına apardılar və bir müddət orada qaldılar. Amma bu mouqe Şah İsmayılın qardaşı İbrahim məriz olub öldü və bu ölüb İsmayılın ürəgin daha da yandırdı. Çünki dünyada hər nə varı idi, əlindən gedmişdi və indi onların çətin ürəginin parçası, əziz qardaşı İbrahim də əlindən geddi.

Şah İsmayıl bu zaman gizlin gəzirdi və öz tərəfdarlarından başqa bir kəs onu tanımırdı. Altı il tamam öz tərəfdarları ilə gizlində görüşüb gələcək vuruşmalar üçün və Səfəvi silsiləsini yenidən diriltmək üçün bir böyük tərəfdar yaratdı. 606-cı ildə öz müdirləri ilə Ərdəbilə gəlib və Azərbaycanın ən birinci cavanlar və rəşid igitləri ilə birləşib və on min qəhrəman başanı yığıb, öz atası Sultan Heydərin Şirvanşahdan qisasın almaq üçün Şirvana həmlə aparıb Şirvanşaha elani-cəng verdi.

Şah İsmayılın bu elani-cəngi Şirvan şahına çox təəccüb gəldi. Çünki inanmırdı ki, Şah İsmayıl o qədər əsir olub zülmlər çəkəndən sonra daha bir də baş qovzayıb ona qılınc çəksin. Buna görə daha bu elani-cəngi eşidən kimi əmr elədi ki, bütün qoşunu hazirlansin. Bu idi ki, gözəl Bakı şəhərinin yaxınlığında cəng meydanı quruldu və hər iki tərəfdə cəng üçün hazır olub və səhər üçün vuruşmaq amədə oldular. İndi gecə keçib və səhər olan kimi hər iki qoşun əhli tərəfindən şeypurlar çəkildi. Bir iki üçüncü şeypur çəkilən kimi hər iki qoşun qarpa bulutlar kimi və axan sellər təki yerindən daşmağa başladılar və bir-birlərinə toxundular.

Şah İsmayıl misri qılıncı çəkib, cigərindən bir elə nərə çəkdi ki, düşmənin qoşuni vəhşətə düşüb onun qabağından qaçmağa üz qoydular və bu tərəfdən də Ərəb əgri qılıncı çəkib havada dolandırıb bir pəhləvanın təpəsindən elə bir zərbət vurdu ki, pəhləvanın atı ilə özü iki şəqqə olub biri o tərəfə və biri də bu yana düşdi. Sonra qızışıb o da ürəkdən belə fışqırdı ki, atların çoxi ülküb götürüldi. Daha Şah İsmayıl və Ərəb düşmən qoşunun içinə belə bir vəlvələ və qorxu saldılar ki, çoxları atın və qılıncın büraxıb öz canın o mərəkədən qurtarmaq üçün üz qoydular qaçmağa. Səhər tezdən ta günortaya qədər vurhavur idi. Şah İsmayıl hər tərəfə dönürdi başlar və qollar idi ki, qırıb və biçirdi. Bu tərəfdən də qızılbaşlar hey həmlə aparıb, düşmənə aman vermirdilər və yandan da Ərəb bir əli ilə əgri qılıncı və bir əli ilə əmudi düşmənin başına çalırdı. Hər kimə ki, bir zərbət vururdi, elə orda qalırdı. Başlar və qollar idi ki, qırıb əvə biçirdi. Bu tərəfdən də qızıl başlar hey həmlə aparıb, düşmənə aman vermirdilər və bir bu yandan da Ərəb bir əli ilə əgri qılıncı bir əli ilə əmudi düşmənin başına çalırdı. Hər kimə ki, bir zərbət vururdi,

elə orda qalırdı. Şah İsmayıl o başdan Ərəb bu başdan qırırdılar və hərdəm uca səs ilə bir-birlərini səsləyib çağırırdılar ki, bir-birlərinin halından xəbərdar olsunlar. Şah İsmayıl Ərəb deyə-deyə qılınc vururdi, Ərəb də Şah İsmayıl çağıra-çağıra əmud və qılınc çalırdı. Daha hər tərəfdən düşməni cana gətirib və aman vermirdilər. Ged-gedə düşməni ortaya salıb və ov kimi onu tutmaq istəyirdilər. Dahi axşama az qalırdı. Günəş məğribdə qızarıb və son vida etmək üçün hazır olmuşdu. Amma bu pəhləvanlar və igit cavanlar hələ cəngidən əl götürmürdülər. Meydanda fışqırıq və hay-küy və ahü-nalə, nərə və şiyhə səsi gögə qalxırdı. Amma ged-gedə düşmən az qalırdı ki, daha qaçsın. Mühasirə dairəsi daha kiçilirdi və bir həmlə lazım idi ki, düşmən ya təslim olsun və ya birdəfəlik aradan getsin. Buna görə Şah İsmayıl, Ərəb və qızılbaşlar son dəfə olaraq həmləyə başladılar. Cəng meydanı bir vəhşətli meydana döndü. Düşmənin yorulmuş qoşunu ayaqdan düşmürdi. Qılıncların səsi və qalxanların əmudlar ilə toqquşub tarağa-turiği və aradan bölünüb yerə düşənlərin «ax» deməsi və çox atların yiyəsiz qalıb oyan-buyan çapması, çoxlarının atsız qalıb qızılbaşların qabağında çığıra-çığıra dalı qaçması bütün meydanı bir dəmirçi kürəsinə oxşadırdı. Ancaq uzaqdan baxanda fəqət gögə qalxmış toz və torpaq idi səs və fəryaddan başqa bir şey yox idi. Amma toz və torpağın içində vurhavur idi ki, cavan igitlər və qoç pəhləvanlar ölüm ilə əlbəyəğə olub, ta son nəfəsə kimi vuruşurlar. Bu mouqe dərya tərəfindən bir böyük və qorxulu tufan əsməgə başladı. Əvvəl hər yanı toz və torpaq bürüdü. Vəli sonra toz və torpaq aradan geddi və hava saf oldi. Bu zaman Şah İsmayıl və Ərəb bütün qızılbaşlar onların düşmən qoşununa baxıb, onlardan əsər görmədilər. Hər tərəfə baxdılar, fəqət nəş və qanlı başlar

və başsız bədənnər, cansız qol və qıç idi. Və bəzi azaraq ölüm haqqında olan da var idisə, ancaq onlar da daha dünyadan dönmüş görünürdülər. Bu mənzərə Şah İsmayılı Ərəbi və qoşun əhlin az qaldı ağlatsın və buna görə onlar cəngidən və cəngi yaradandan mütənəffir olub və acıları kəsdi. Amma nəsdə bilərdilər. Şah İsmayılın qoşunu çox rəşid və igit cavanlardan və əqilli və düşüncəli qocalardan və habelə anlaqlı iş bilənlərdən təşkil olunmuşdu. Bu mouqe ki, Şirvanşadın qoşunu məhv olub aradan gedmişdi və azaraq qalan olursa da ancaq onlar da naümid olub təslim olmuşdular. Buna görə Şah İsmayıl qoşununa əmr edib Dərbənd və Bakı şəhərinə üz qoydular və sonra Dərbənd və Bakı əhli onların qabağına çıxıb çox hörmət və izzət elədilər. Dərbənd və Bakı alındı və Qızılbaş qoşunu bütün qəza xanları və bəzi nizami yerlərin tutub şəhəri əmniyyət ilə saxlamağa məşğul olurdular. Bu mouqe ki, hər tərəfi qızılbaş qoşunu tutmuşdi, Şirvanşah aradan çıxıb əkilmişdi. Buna görə Şah İsmayıl öz axtarışların (casusların) bütün hər tərəfə yollanmışdı ki, onu diri və ya ölüm tutub gətirsinlər. Buna görə gizlin axtarışlar şəhərin və kəndin, qəsəbələrin hər yanın dolanıb və onu axtarırdılar. Vəli hənuz bir xəbər ələ gətirə bilməmişdilər. Amma o qədər çəkmədi ki, Şirvanşahı bir tüstülü və qaranlıq ocaqdan tapıb və at belinə mindirib və Şah İsmayılın yanına gətirdilər. Şah İsmayıl onu görən kimi onun üzünə gülüb və təsadüf edəndən sonra dedi:

– Çox xoş gəlibsiz. İnşallah ki, dünya sizə pis keçməsin.

Sonra öz atası Sultan Heydərin Şirvanşahın əlində ölməsi yadına düşdü və bu dəfə dedi:

– Bəli, siz mənim atamı çox rəhmsiz və insafsızlıq ilə öldürdüz. İndi, aya, yeri var ki, mən də öz atamın qanın almaq üçün sizdən intiqam alam?!

Şirvanşah bir söz deməyib və o cürə ki, durmuşdu dayandı. Vəli qorxusundan dizləri titrəyirdi və dodaqları quruyub, qadir degil idi ki, bir kəlmə söz danışsın. Buna görə Şah İsmayıl onun bu cürə halın görən kimi daha ürəgi yanıb və bir söz demədi. Amma əmr elədi ki, onu zindana salsınlar. Bu idi ki, onu zindana yolladılar. Bu vəziyyətdən bir neçə gün keçdi və su suyun və yer yerin olmuşdu. Daha bir kəsdən nəfəs çıxmırdı. Amma Şirvanşah eşikdə olan adamlar ilə rabitə salıb Şah İsmayılın ölümünə çalışırdı. Belə ki, neçə nəfər tirvər və adamöldürən hazırlamışdı ki, dalıdan vurub öldürsünlər. Amma bu işi görmək zamanı onların hamısı tutulub və Şah İsmayılın yanına gətirildilər və Şah İsmayıl onlardan bu işin nəqşə çəkənin soruşub bildi ki, Şirvanşah rahat durmur. Buna görə həm o neçə nəfər tirvəri və həm Şirvanşahın özünü cəllad əlinə verdi. Bu neçə nəfər adamöldürən və Şirvanşah öləndən sonra daha bir müxalif görünmürdü və Şah İsmayıl bu dəfə öz sevgilisi Gülzarın fikrinə düşüb və onun dalıca gedmək istəyirdi. Bu mouqə Ərəb Şah İsmayılın bu fikrin düşünən kimi daha dözə bilməyib ondan icazə istədi ki, bir neçə söz ona ərz eləsin. Buna görə Şah İsmayıl icazə verdi ki, sözün desin. Daha Ərəb sözə gəlib dedi:

Tutubdur hər yanı yağı düşmənlər,
Atavı, ölkəvi qarət edənlər,
Düşmənin əlindən gələni eylər,
Dayan, Şah İsmayıl, görək nə olur?!

Dağları, daşları tutubdu düşmən,
Sənin ilə mənim qanımı tökən.
Hər tərəfi tutub yağı, yolkəsən,
Dayan, Şah İsmayıl, görək nə olur?!

Tutubdur dağları dumanlı qarlar,
Solubdur qüssədən çəmənlər, bağlar,
Bu qürbət yerlərdə bizə kim ağlar?
Dayan, Şah İsmayıl, görək nə olur?!

Bakını, Dərbəndi alandan bəri,
Başına yığıbsan bütün elləri,
Olubsan ölkədə dillər əzbəri,
Dayan, Şah İsmayıl, görək nə olur?!

Tutubdur könlünü eşqi yarının,
Səndən uzaq düşən Gülzarının,
Olubsan əsiri intizarının,
Dayan, Şah İsmayıl, görək nə olur?!

Tələsib işləri verərsən bada,
Verərsən ölkəni düşmənə, yada,
Gərəkdir ucala adın dünyada,
Dayan, Şah İsmayıl, görək nə olur?!

Götür bir namə yaz, Gülzarına,
Bütün əhvalatdan nazlı yarına,
Çox çəkməz gələrəm gül diyarına,
Bir azca səbr elə, görək nə olur!

Şah İsmayıl Ərəbin bu cürə nəsihət ögrətməsinə qulaq asıb və sevgilisi Ərəb deyən kimi, namə yazmağa razı oldu və buna görə bir az Ərəbin üzünə baxıb və ondan razı olduğun bir gülmək ilə nişan verdi və sonra bir az fikir edib, daha indi görək mehriban və vəfalı sevgilisi Gülzara nə yazdı:

Axtarma sübh olunca sel kimi hər yanə göz yaşım,
Ürəkdə döndərər fəryadımı tufanə göz yaşım,

Bulutlartək əsər qəlbim fəğanü ahü naləmdən,
Daşar birdən-birə gözdən dönər neysanə göz yaşım.

Məni bundan da çox gözdən, amandır, salma insaf ed,
Sənin hicrində, Gülzarım, dönübdür qanə göz yaşım,
Yerindən titrədir tufantək qorxum budur axır,
Ümidim xanəsin bir gün qoya, viranə göz yaşım,

Sızıldar ney kimi qəlbim, şırıldar çeşmətək daim,
Üzümdə yar salıb sanki axar növdanə göz yaşım,
Yaranda bağrımı dərdin, çığırram ildırımlartək,
Yerindən od çıxar fourən dönər baranə göz yaşım,

Xəyalımdan çəkilməz gün, üzün bir ləhzə, neylim bəs,
Nə səndən bir xəbər var, nə yetir hayanə göz yaşım.
Gecəm ta sübh olunca az qalar ömrüm də qurtarsın,
Olub İsmailim xəlq içrə çün əfsanə göz yaşım.

Şah İsmayıl naməni yazarkən gözlərindən damcı-damcı yaşlar namənin üstünə axırdı və Ərəbin ürəgi bu halı görəndə az qalırdı ki, kabab olsun. Amma Şah İsmayıl da özünü saxlatdırıb, fəqət ürəkdə nalə edirdi və sonra dönüb Ərəbin üzünə baxanda bir az utanan kimi olurdi və demək olar ki, bu cürliğ ilə ona andırdı ki, mənim təqsirim degil ki, bu hala düşmüşəm. Bəlkə eşqin xasiyyəti və qaydəsidir. Buna görə Ərəb daha bir söz deməyib sakit qaldı və Şah İsmayıl naməni yazıb və başın bağlayıb, qızılbaşların birin çağırıb və naməni Gülzara yetirmağı tapşırdı. Qızılbaş baş endirib, təzim edəndən sonra naməni alıb və gözü üstə qoyub, əmr olandan sonra yenə də quş kimi atın belinə qonub və oradan uzaqlaşdı.

Qızılbaş hənuz oradan uzaqlaşmamışdı ki, Əlvənd Mirzə tərəfindən bir qasid Şah İsmayılın hüzuruna gəlmə-

yə icazə istədi  və Şah İsmayıl  o qasidə icazə verdi ki, bargaha daxil olub gətirdigi naməni təqdim eləsin. Əlbəttə, Əlvənd Mirzə Ağqoyunlu tayfasının böyük sərdarı idi ki, başında  otuz min qoşun var idi və Şirvanşah öləndən sonra Şah İsmayılın qüdrət tapıb, Bakı, Dərbənd və bəzi yerləri aldığından qorxuya düşüb və indi ona namə yollayıb. Daha Şah İsmayıl naməni qasidin əlindən alıb oxumağa başladı və namədə belə yazılmışdı:

«İsmayıl Xətai!»*

Düşün və agah ol. Otuz min qoşun ilə səninlə cəng eləmək üçün gəlirəm və indi xəbər verməgimin səbəbi buna görədir ki, əgər razı olsan bir az fikr edəndən sonra cavab yazıb yolla. Amma yaxşısı budur ki, çox nigaran olma, çünki əgər təslim olub, mənim əlimdən öpüb və mənə qulluq eləmədi nəbul edsən, səni özümə bir böyük sərdarlardan eləyib, Cənubi  Azərbaycana hökmdar dərəm.

Yollayan: Əlvənd Mirzə.»

Şah İsmayıl naməni oxuyub, bir az qasidin üzünə baxdı və sonra ucadan gülməgə başladı və daha bir azdan Şah İsmayıl üzünü dövrədə oturanlara və Ərəbə tutub Əlvənd Mirzə göndərən naməni oxudu və namə qurtarandan sonra dedi:

– Əziz əməkdaşlar! Qarı düşmən bizi çox naşı və uşaq hesab edib və yazdığı naməsində əvvəl bizi qorxudub və otuz min qoşunu ilə bizə həmlə gətirdigin elan edib, sonra bizə təslim olub və onun qulluğunda yaşamağımızı tələb edir.

--------------------

* Xətai Şah İsmayılın təxəllüsü idi və çün Şah İsmayıl şair idi, buna görə özünə bu cürə ad qoymuşdu.

Şah İsmayıl bu sözləri deyəndə Ərəbin bütün damarları şişib və belindən əgri qılıncı çəkib və uca səs ilə dedi:

– Biz Azərbaycan millətinə sarala-sarala yaşamaqdan qızara-qızara şərafətli ölmək yaxşıdır.

Onun dalısı dövrədə oturan sərdar, və solar və hamılığca birlikdə ucadan dedilər:

– Əhsən, əhsən Ərəbə və iftixar və alqış Şah İsmayıla və Azərbaycan xalqına.

Sonra bir az sakit olub və qərar qoyuldu ki, namənin cavabı elami-cəngə hazır olmaq olunsun. Buna gbrə dövrədə oturanlar «hura» çəkib: «Yaşasın Şah İsmayıl Xətayi Azərbaycanın qəhrəman oğlu və ölkənin parlaq ulduzu və sağ olsun mehriban və vəfalı sevgilisi Ərəb və iftixar olsun Azərbaycanın rəşid, igit və cavan qızıl başlarına!

Daha naməni yazıb və qasidin əlinə verdilər. Dövrədə oturanlardan biri qasidə belə dedi:

– Ey qasid, ərbabın Əlvənd Mirzəyə söylə ki, biz hazırıq ki, bütün türklər ilə Asiyadan tutub və Orupaya kimi, Türkiyə və Qazaxıstan, Türküstan, Ləzgi, Cənubi və Şimali Azərbaycan, Tatar və Moğolustan ilə birlikdə yaşayaq və qardaş olaq.

Amma biri istəsə ki, bu qardaşlıq yerinə düşmənliğ törətsin və bizi cəngə çağırsın, onda biz də məcburuq ki, son nəfəsə kimi onların qabağında dayanaq və öz qanımıza boyanaq.

Qasid bu sözü eşidən kimi, rəngi saralıb və bozardı daha dayanmayıb öz ağ atının belinə atılıb oradan götürüldü.

Hənuz axşam olmamışdı ki, uzaqdan təbillərin və şeypurların səsi və küyi bütün ətrafı doldurdi və Şah İsmayıl bilirdi ki, Əlvənd Mirzə onun namənin oxuyan kimi cəngə hazır olacax. Amma bu cürə bilmirdi ki, qasid yetişən kimi cəng şeypuru çalıb və Əlvənd Mirzə cəng üçün otuz min qoşun ilə günün bu vaxtı onlara yaxınlaş-

sın. Daha çarə nə idi. Lazım idi ki, Şah İsmayıl da fərman versin və qızılbaşlar cəngi silahları, vuruşma paltarını geyib hazır olsunlar.

Gecə yaxınlaşırdı və təbil, davul və şeypur səsi bütün ətrafa yayılıb, qulaqları kar edib və çoxları qorxuya düşdü. Vəli qoç igitlərin və qəhrəman oğulların bir az da qızışıb cəngə hazır olmağına bais olurdu. Şah İsmayıl belə fikir edirdi ki, Əlvənd Mirzə gecə zamanı həmlə gətiracağ. Vəli gecə yarıdan keçib səhərə yaxınlaşdı. Amma onlardan xəbər olmadı. Buna görə qoşun əhli bir az istirahət etməgə məşğul oldular. Vəli hənuz sübh zamanı o qədər istirahət edməmişdilər ki, birdən-birə şeypurların və təbillərin və düşmənin qoşununun «hura-hura» səsi ged-gedə ucaldı. Daha bunu eşidən qızılbaşlar fourən əl-ayağa düşüb, yerlərindən duran cəngi paltar və silahların geyib və yarpaqlanıb və hər kəs alıcı quş kimi öz atının belinə qonub, düşmənin qabağına həmləyə başladılar. Əlbəttə, Şah İsmayılın qoşunu yeddi min idi. Bununla belə Qızılbaş qoşunu candan keçməgə çox igit vuruşurdular. Düşmən də çalışırdı ki, qızılbaşı qəfildən tutub və ortaya salsın. Vəli qızılbaşlar da qafil olmayıb tezliğca onların qabağına çıxdılar və Nəxcəvan şəhərinin yaxınlığında bir-birlərinin üstünə hücum gətirdilər. Daha hər iki tərəf çox çalışırdılar ki, bir-birlərin təslim edib və ya öldürsünlər. Vəli təəcüb burada idi ki, Əlvənd Mirzənin qoşunu ki, onlar da türk və rəşid igitlər idilər və həm qızılbaşlar ki, rəşadətli və qorxmaz kişilər idilər, səhərin gözündən ta günortaya qədər çalhaçal vuruşurdular. Daha qan su yerinə axırdı. Çox qılınclar ortadan bölünmüşdi və çox börksüz başsız və çox başlar börksüz qalmışdı və çox pəhləvanların bir qolu gedib və o biri qolu ilə qılınc vururdu. Amma bununla belə cəng ged-gedə qızışırdı və qılıncların gögdə oynaması və günəş işığında parıldaması

çoxalırdı. Şah İsmayıl və Ərəb hər yana dönürdülər, düşmən qoşunun sünbül və ot kimi oraqlayıb biçirdilər və yeddi min qızılbaş otuz min düşmən qoşunun cana gətirmişdi. Lakin düşmən də asanlıq ilə əl çəkənə oxşamırdı və hər ləhzə həmlə və hücum şiddət tapırdı. Ərəb üzünə niqab salıb mərd igitləri at qabağında qovalırdı və hər vəqt ki, gözü öz sevgilisi Şah İsmayıla düşürdi, daha qızışıb və həmlə aparırdı və hərdən bu sözü ağzında zümzümə edirdi:

Görürsüz belimdə əgri qılınci,
Adam öldürməgdən paslanıb uci,
İstər məzlum isəz, istər yırtıci,
Gərəkdir sizlərdən intiqam alam.

Sizlərə göstərəm gərəkdir ədəb,
Ta ki, bu ədəbə edəsiz əcəb,
Hələ ölməyibdir qəhrəman Ərəb.
Gərəkdir sizlərdən intiqam alam.

Doldursa aləmi düşmən qoşunu,
Dərəni, təpəni, dağlar dönüşi,
Göglərdə qoymaram qala qoşuni,
Gərəkdir sizlərdən intiqam alam.

Çəkərəm dağları, daşları qana.
Gətirərəm qardaşıma çıxanı cana,
Rəhm etmərəm bəgə, sultana, xana,
Gərəkdir sizlərdən intiqam alam.

Dərələr, təpələr qan ilə dolsun,
Xain düşmənləri gərək boğulsun,
Analar, bacılar saçların yolsun,
Gərəkdir sizlərdən intiqam alam.

Vurun, qoç igidlər, vurun düşmənə,
Baxmayın tülkiyə bənzər ölənə,
Ta ki, ibrət olsun gəlib-gedənə,
Gərəkdir sizlərdən intiqam alam.

Bağrını çatladın qarı düşmənin,
Sizin ölkənizi qarət edənin,
Cavanlar qanını içənin,
Gərəkdir sizlərdən intiqam alam.

Vurun ki, düşmənə aman vermiyək,
Quduz düşmənlərə məkan vermiyək,
Aldanmayaq daha, güman vermiyək,
Gərəkdir sizlərdən intiqam alam.

Bölük-bölük bölün xain olanı,
Yoldaşlıq adına diyən yalanı,
Türklərin içinə nifaq salanı,
Gərəkdir sizlərdən intiqam alam.

Ərəb bu sözləri uca səs ilə deyə-deyə qızışıb, qılınc oynayırdı. Bütün qoşun və qızılbaşlar, sərdarları da bu sözləri eşidən kimi daha da qızışıb düşmənə həmlə aparırdılar. Hər tərəfdən düşmən üçün yol kəsilmişdi və ortaya düşüb məyus bir halda vuruşurdular. Şah İsmayıl da Ərəbi bu cürə qorxmaz və ürəkli görüb, ürəkdən çox şad və xoşhal idi. O da öz növbəsində hərdəm ərəbin yanına gəlib onun ilə əl verib və bir-birlərin əlin sıxırdılar və yenə də cəngə başlayırdılar.

Düşmənin otuz min qoşunu yeddi min qızılbaş qabağında daha aciz görünürdü. Çöllərin hər tərəfi nəş ilə dolub

və torpaqlar qızıl qanlar ilə boyanmışdı. Hənuz cəng qurtarmamışdı və hələ bəzi candan düşüb ölüm halında olanların canı çıxmamışdı ki, yırtıcı heyvanlar və çalağan quşlar onların nəşi üstə qonub, üz və gözlərin dimdikləyirdilər və ölmiyəni də onlar öldürürdülər. Nəhayət, hər nə olursa da, cəngdir və cəngin xisləti və qaydası budur, onlar ki, cəngdən və vuruşmadan xoşları gəlir və bü cürə mənzərələrə ürək verirlər, ya cəngin bu cürə qanlı və cigər kabab eləməsindən xəbərsizdilər və ya bu ki, cəngidən istifadə aparırdılar. Yoxsa hər kəsin bir az vicdanı və şərafəti olsa, hur vəqt razı olmaz ki, onun yanında və ya bir ayrı yerdə bu cürə ürək yandıran insanların naləsi və sızıltısı gögə qalxsın. Şah İsmayıl istəmirdi ki, igit və qoç cavanların ana və bacısının gözü yolda qalıb və özləri də şurəzar çöllərdə vaə uçurum dərələrdə sızıldayıb və yırtıcı heyvanlara didilsinlər. Bəlkə bu bəzi uzaqdan daş atanların hiyləsi və xain düş-mənlərin qurğusu idi ki, Ağqoyunlu və Qaraqoyunlu və Şirvanla və Türkiyəli və Azərbaycanlı xalqının ortasına nifaq və ayrılıq salmışdı. Bir surətdə ki, onların hamusi bir dildə və bir sözdə idilər. Yəni hamusi türk idilər, yaramazdı ki, bu cürə bir-birlərinə qılınc vurub və qanların töksünlər. Daha özgələr və nifaq salanlar onların ortasına bu cürə qırğın salmışdılar və demək olar ki, onlar da çox zaman utuzub və düşməni tanımırdılar. Amma düşüncəli və anlaqlı cavan Şah İsmayıl bu nifaqı və ayrılığı bir az müddət də aradan aparıb və bütün bir dildə olanların ortasına qardaşlıq və mehribanlıq saldı. Nə tək Azərbaycanda, bəlkə bütün İran və Səmərqənd və Buxara və Şirvan və Bakı və Nəxcivan və Bağdad və Qəndəhar və mərv və Kazimeyn və çox böyük və məşhur qədimi şəhər Təbriz əmniyyət və şadlıq içində yanaşmaq ilə bir səadətli vəz ilə keçirdi.

Şah İsmayıl öz doğulduğu ana yurdu Ərdəbil şəhərin daha da abad və sevməli elədi. Onun öz dilinə və xəlqinə məhəbbətinin bir nümunəsi də budur ki, Təbriz şəhərini özünə paytəxt və öz ana dilini dövlətin rəsmi dili elədi.

Ərəb və Şah İsmayıl düşməni yazıq və çarəsiz gördükləri üçün şeypurlara əmr elədilər ki, aralaşma şeypurun çalsın. Bu idi ki, aralaşma şeypuru çalındı və hər iki tərəf cəngdən əl götürdi və sonra hər kəs öz yerinə qayıtdı və bir az istirahət edib yenə də vuruşmağa hazır oldular. Əlbəttə, Şah İsmayılın nəzəri bu idi ki, düşməni bu cürə dilə tutub və qanların tökülməsinə bais olsun. Çünki bilirdi ki, düşmən yorulub, vəli üzə qalıb ki, təslim olsun. Buna görə aralaşma şeypurun çəkdirib və onlara macal verdi ki, daha fikirlərin eləsinlər. Bu idi ki, bir azdan sonra onların yanına qasid yollayıb və öz məqsudin onlara söylədi və onlar da bu işi öz aralarında şuraya qoydular. Çün Şah İsmayılın nöməsi çox məhəbbətli və qardaşlığa dəvət olunan idi, bu idi ki, hamılığla İsmayıla belə bir nalə yazdılar:

– Böyük və əzəmətli Şah İsmayıl Xətai!

Ehtiram ilə mübarək qulluğıza yetiririk, sizin xoşbəxt və səadətli olduğuzi və bütün türk ellərinin bəxtəvər və şad yaşamağın səmimi-qəlbdən arzu edib və sizə öz düzgün və həqiqi arxadaş olduğumuzi bu namənin vəsiləsi ilə elan edirik.

Daha naləni yazıb və qasidin təvəssütü ilə Şah İsmayıla yolladılar və Şah İsmayıl və bütün qızılbaşlar sərdarları ki, namənin intizarında oturmuşdular və çox güman edirdilər ki, onlar bu dəvəti qəbul eləməsinlər və yenə də qan tökülməgə və insanlar qurban olmağa bais olsunlar, qızılbaşları cəng üçün amadə saxlamışdı. Ancaq bu intizar o qədər də tul çəkmədi. Çünki onlar intizarda ikən qasid içəri girib və təzim edəndən sonra naməni Şah İsmayıla təqdim

elədi və Şah İsmayıl naməni hamunın yanında oxuyandan sonra hamulığla şad olub, dəstur verdilər ki, neçə gün şadlıq üçün lazım olan şeylər düzəlsin. Buna görə daha hər iki tərəf şadlıq üçün hazır olub və qonaqlığa hər şeyi düzəltdilər və o gün ki, qərar idi, bir yerə yığılıb və bir-birləri ilə görüşüb öpüşsünlər çatdı və səhər tezdən hamı oraya yığılıb nahar üçün ləzzətli və yeməli xörəklər hazırladılar və günorta olan kimi şeypur çəkilib və hər iki tərəf sədd çəkib bir-birinin qabağında durdular. Doğrudur ki, keçmişdə bu cürə bir-birinin qabağında cəng üçün dururdular və qan tökmək üçün hazır olurdular, vəli indi bu sədd çəkmək Şah İsmayılın tədbir və düşüncəsi ilə qardaşlıq və birlik üçün çəkilmişdi. Bu idi ki, keçmişdəki acıqlı və hirsli qiyafələr indi gülər və çox məhəbbətli görünürdi. Daha ikinci şeypur çəkilib, hamı özünü verilən dəstura görə hazır elədilər. Bu mouqə bütün qanlar cuşa gəlib və hamı bir xas əlaqə ilə bir-birlərinin üzünə baxırdılar. Daha üçüncü şeypur çalınan kimi hər iki tərəf bir-birlərinə yaxınlaşıb və bir-birlərinin üz-gözündən öpməgə başladılar. Daha bir saət tamam öpüşha öpüş idi. Sonra bu görüşüb-öpüşdən qurtarıb hamılığca düzülmüş nahar qablarının dövrəsində oturub nahar yeməgə başladılar. Və elə ki, nahar qurtardı, Şah İsmayıl ayağa durub belə buyurdi:

– Ey arxadaşlar və ölkədaşlar, diqqət buyuruz!

Siz ki, burada bir məğəbbətli və əlaqəli qardaşlar kimi bir-birimizin yanızda oturub və bir-birinizin üzüzdən öpürsüz, gərəkdir ki, gələcəkdə də bu cürə mehriban və qanı isti olasız və mən ümidvaram ki, bütün ölkəmizin əhli və hamı türklər həmişəliğ üçün son dəfə olaraq nifaqı aradan götürüb bu cürə qardaş olsunlar. Şah İsmayıl bu sözləri diyəndən sonra hamı əl çalıb və ucadan dedilər:

– Yaşasın qəhrəman Şah İsmayıl! Yaşasın bizi birli-

gə və qardaşlığa dəvət edən böyük Şah İsmayıl və dünya üzündə həmişə diri olsun türk qardaşlarımız!

Bütün oşun əhli hamı gülüb və şadlıq edirdilər. Bu mouqə daha onları birligə dəvət eləmək üçün və düşmənlər ilə vuruşmaq uğrunda belə dedi:

Ey vətən övladı, bağrın zərb ilə yar düşmənin,
Qoyma qalsın yer üzündə nəsli biar düşmənin!
Rişəsin qaz düşmənin, qoyma qala ondan əsər,
Qalmasın asarı dünyada ziyankar düşmənin.

Pəncəni aslan kimi ac tülkütək xainlərə
Qətl edən sarquş kimi hərkarı azar düşmənin.
Partlasın qoy bağrı, hərdəm qəlbi yansın xainin,
Bağrını çatlat həmişə bu günahkar düşmənin.

Aləmindən ixtiyarın, etibarın, var-yoxun,
Sabit ed öz həqqini, al hər nəsi var düşmənin.
Gavətək alintiqam, yıx, poz Zöhrakın qələsin,
Qoyma qalsın nəsli heç dəm bu sitəmkar düşmənin.

Zərbə zərbə vur bir dəfəlik düşsün daha,
Qismət olsun itlərə bu nəşi murdar düşmənin.
Hazır ol hərdəm ki, həddən aşdi zülmi cövri qəm,
Vurmağa zərbət dağılsın beyni kaftar düşmənin.

Şah İsmayıl bu sözləri deyəndə hamı qızışıb və «hura» çəkirdilər və doğrusi, onlara bir özgə halət əl vermişdi və indiyə kimi öz düşmənlərin tanımırdılar. Daha indi vəlvələ və həlhələ içində Ərəb zövqə gəlib Şah İsmayıldan icazə istədi ki, o da bir az söhbət eləsin və buna görə Şah İsmayıl ona da icazə verdi, ta indi görək Ərəb nə söylədi:

Eşitsin ölkədə ellər, obalar,
Əgər istəyirlər xoşbəxt olalar,
Quduz düşmənləri dibdən yolalar,
Birləşsin ölkədə xan ellərimiz.

Yaşasın bu ellər, yaşasın vətən,
Vətənin uğrunda geyilsin kəfən,
Zülmin binasını kökündən kəsən
Bu xan ellərimiz, can ellərimiz.

Şad olsun bu ellər, şad olsun hamı,
İçilsin eşq ilə məhəbbət camı,
Bu gündür hamıya ellər bayramı,
Yaşasın, qəhrəman xan ellərimiz.

Gedsin ortamızdan qeyzü ədavət,
Ədavət yerinə olsun səxavət,
Türk ellərindəki parlaq nəcabət
Hər zaman pak olan xan ellərimiz.

Çəkilsin ölkədən qara dumanlar,
Qara dumanlarla tökülən qanlar,
Məhv olub ortadan gedə yalanlar,
Bir-birinə desin can ellərimiz.

Bütün çadırların eşigində oturan qoşun əhli Ərəbzənginin bu cürə odlu sözlərinə qulaq asıb və bir kəsdən səs çıxmırdı və hərdəm hamılıqca zövqə gəlib və qanları qoşanda birdən-birə deyirdilər:

– Yaşasın ölkə! Yaşasın Şah İsmayıl. Yaşasın Ərəb!

Və sonra əl vurub «hura» çəkirdilər. Yenə də Ərəb sözə gəlib deyirdi:

Yaramaz dünyada mərd olanlara,
Namərd olanlarla comərd olana,
Xəlqin ürəginə min dərd olana,
Bu sifətdir bizə man, ellərimiz.

Bizim atamızdır qəhrəman Babək,
Ərəblərə qılınc oynadan Babək,
Bizi dünyalara anladan Babək,
Ey xan ellərimiz, can ellərimiz!

Biz daha qoymarıq qocala vətən,
Gərəkdir günbəgün ucala vətən,
Bundan bəri gələ macala vətən,
Qəhrəmanlıq qəmin qan ellərimiz!

Tufanlar, boranlar boğanmaz bizi,
Yaramaz düşmənlər qovanmaz bizi,
Biz diri millətik dananmaz bizi,
Aləmə tanınıb xan ellərimiz.

Dayanıb ölkəmiz uca dağ kimi,
Düşmən qabağında bir qoçaq kimi,
Ürəgimiz safdır saf bulaq kimi,
Göstərib aləmə şan ellərimiz.

Ərəb hər iki qoşun əhlinə bu sözləri deyib qurtarandan sonra hamılıqca ona «afərin» deyib və əl çalıb «hura» çəkdilər və nahardan sonra şərbətlər içildi və çalğıçılar və oxuyanlar bütün qoşunu şadlığa və gülüb-danışmağa məşğul elədilər. Və onlar ki, ləzgi oynamağı bilirdilər, qırğı kimi oynamağa başladılar və onlar da ki, türkcə qarabaği və bayatı oxumaq bilirdilər, oxumağa məşğul oldular:

Gözəllər, gözəllər, ceyran gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər;
Bahar olcaq bağçamızda alma, nar,
Şaftalılar şirələnib sallanar,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Baxdıqca hüsnüzə açılır könül,
Oxuyur bilbüllər, fərəhlənir gül,
Qızıl güllər açır, gögəgir sünbül,
Açılıbdır gövçək reyhan gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Qızlar bu bağçadan alma, nar dərər,
Gözəl qızlar hər gün bu bağa gələr.
Ceyranlar, tərlanlar, quzular mələr,
Olub bağçamızda bağban gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Bahar olcaq gülüstanın gülləri,
Cəh-cəh vurub oxur su bülbülləri.
Yığışar bir yerə ellər dilbəri,
Çalıb-oxuyanlar insan gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Gözəllər, gözəllər, canım gözəllər,
Ey gəlib buranı daim gəzənlər,
Huritək özlərin gözəl bəzərlər,
Yanaqları qırmız, əlvan gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.
Saçları bənzəyir şan-şan olana,
Xərməntək darayıb tökübdür yana,

Aşiqlər gəlibdir eşqindən cana,
Aşiqləri qoyan heyran gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Bir yanda badələr, camlar düzülmüş,
Məst olub gözəllər, gözlər süzülmüş,
Heyif o bəzmidən əlim üzülmüş,
Çatmır əlim sizə qurban gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Çəmənlər, gülşənlər bizim yerdə var,
Gülüstandı Azərbaycan Gülüzar,
Bizim ölkəmizdən dünyalar umar,
Orda tutub məskən canan gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Bax bizim ellərin Gülüzarına,
Hər kəs öz nigarın alıb yanına,
Qızıl almasına, danə narına
Odur ki, orda var taban gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Bulağlar, bulaqlar, sərin bulaqlar,
Ceyranlar otlayıb orda oynalar,
Su doldurar ordan qız-mız yaqaqlar,
Dəstə-dəstə keçər ordan gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Ey sona bülbüllər, ey qızıl güllər,
Ey laləli güllər, ey xoş sünbüllər,
Əli qürbətdədir bu neçə illər,
Çatar bəs sizlərə haçan gözəllər,

Olubdur hüsnüzə heyran, gözəllər.

Qürbətdə söylərəm: ey Vətən, vətən,
Nə dəm qismət mənə olarsanmı sən?
Haçandır arizu eylərəm ki, mən,
Olaydı vətənim rizvan, gözəllər,
Olmuşam hüsnüzə heyran, gözəllər.

Oxuyan oxuyub qurtardı və hamı ona «afərin» deyib əl çaldılar və doğrusu, belə bir şadlıq və xoşhallıq olundu ki, çöl və biyaban olduğu halda uzaqdan bir böyük şəhər kimi görünürdülər. Bir kimsə yox idi ki, şad və sevinməgə məşğul olmasın. Daha hamı öz şadlığında idi və o qədər yeyib və içib və şəfrih eləmişdilər ki, daha məst adamlar kimi görünürdülə. Doğrudu ki, Ərəbzəngi və Şah İsmayıl bu şadlıqda var idilər, vəli Şah İsmayıl bir dəqiqə də öz istəkli və ayrı düşmüş sevgilisi Gülzarın fikrindən əlgötürmürdü və buna görə Ərəbzəngi də ona baxıb qəmli olurdu. Nəhayət, Şah İsmayıl onu bir dalda yerə çəkib utana-utana əlovli ürəginin dərdin ona belə dedi:

Mənim dar günümdə dayanan Ərəb,
Ey mənim oduma odlanan Ərəb,
Sənsən bu çöllərdə mənə can, Ərəb,
Ürəgim olubdur qəmdən qan, Ərəb.

İndi görək sevəməli və cana dəgən Ərəb onun cavabında nə dedi:

Başına döndigim, nədir məramın,
Yandırır ürəgi odli kəlamın.
Alaram düşməndən hər intiqamın,
Sənə qurban edər baş və can Ərəb.

İndi görək Ərəbi özünə məhrəm bilən və dərdin ona söyləyən Şah İsmayıl nə dedi:

Bu paslı qəlimi qəmdən silirsən,
Nə sual edirsən, nə söyləyirsən?
Hamı da bilməsə, sən ki, bilirsən,
Ey mənə istəkli, mehriban Ərəb.
İndi görək Ərəb nə söylədi:

Sevgilim, bir dayan, bir az tut qərar,
Dayansan, qurtarar böyük intizar,
Səni unudmayıb yəqin Gülüzar,
Unudmayıb oni axtaran Ərəb.

Şah İsmayıl Ərəbin bu cürə düşüncəli və tezanlayan olduğun neçə dəfələrlə görüb və bilirdi. Vəli indi ona bu cürə təskin verib və ürəgin ələ gətirməsi daha onu şad edirdi və buna görə birdən-birə qanı cuşa gəlib Ərəbi bağrına basıb və üzündən bir cüt məhəbbətli və dadlı öpüş götürüb və o, qucağında ikən görək nə söylədi:

Ey mənim ürəgim, sözüm, diləgim,
Ey gözümün nuri, qolum, biləgim,
Ey arxamda duran əziz köməgim,
Ey mənə mehriban, qəhrəman Ərəb.

Aldı Ərəb:

Ey mənim sevgilim, can Şah İsmayıl,
Ey ellər atası, xan Şah İsmayıl,
Ey mənim qəlbimə qan, Şah İsmayıl,
Hazırdır uğrunda verə can, Ərəb.

Şah İsmayıl Ərəbin bu cürə mehriban və candan keçən sözlərin və onun dar günlərdə mehriban və dərdə yanan olduğundan və habelə indi baş və can ilə onun uğrunda ölümə və can verməgə iftixar ilə hazır olduğundan daha da eşqə gəlib və onu öz igit və mərd qollarının arasında daha da sıxıb, üzündən və gözündən öpməgə başladı.

Ərəb ki, on dörd gecəlik ay parçası kimi Şah İsmayılın igit sinəsi üstə durmuşdu öz sevgilisinin zülmət kimi tutulmuş ürəginə və qüssəli qəlbinə işıqlıq və şadlıq verirdi, indi bir qədər bu hal ilə əhli kef edib və şadlıq edəndən sonra yorulub yatmışdılar. Fəqət qəravullar və keşikçilər ayıq qalmışdılar. Əlbəttə, gecə yarı olub və çox qaranlıq olursa da, ancaq parlaq ayın süt kimi üzündə parlaması və onun dövrəsində səf çəkib sıralanmış, işıldayan ulduzların göz vurması bütün qaranlıq və zülmətləri məhv edib və aradan aparmışdı. Əgər hamı yer və gög aram görünürsə də və hamı səssiz və yorğun düşmüş isə də, ancaq aşiqlərin və ürək verənlərin qəlbi həmişə təlatümdə və vuruşmada olub, aşiqlər ilə məşuqələr üçün hiç vəqq gecənin zamanı kimi gözəl və ürəgi sınan degil. Çünki bir başağrısı yoxdur. Buna görə aşiq və məşuq eliyə bilirlər ki, illər boyu ürəklərində yanan dərdi və gizlin acını bir-birlərinə söyləsinlər. Belə ki, Şah İsmayıl ilə Ərəbzəngi də o gecənin xəlvət və sakit olmağından istifadə edib, ürəklərində olan dərddi bir-birlərinə söyləyirdilər. Doğrusu, o, gecənin adına gərək «eşq gecəsi» deyək. Çünki Şah İsmayıl ilə Ərəb bütün düşməni özlərinə dost və qardaş edib, özlərini səadətli aşiq və məşuq görürdülər. Nəhayət, gecə səhərə yaxınlaşmışdı. Hər dəm yumşaq və ətirli dan yeli əsəndə Ərəbin qara və şan-şan olan tellərin gögə səpirdi. O, xərmən tökülən tellər Şah İsmayılın üzünü tökülürdü

və çox zaman Ərəbin gül üzünə bulut kimi tuturdu və sonra Şah İsmayıl öz əlləri ilə onun pərişan olan və dağılan tellərin qırağa çəkib belə deyirdi:

Ey tel, tökülmə qəlbimi rövşən edən üzə,
İncitmə könlümi ki, daha gəlməyim sözə.
Ta var bu üz, mənim gərəgim yoxdu gündüzə,
Çoxdan dönüb gözlərimin yaşı qanə, tel.

Saldın məni haçandı yanan gizlin odlara,
Qoydun bu köhnə yaramın üstündə min yara,
Gəl olma razı bundan ola könlüm qara,
Axır gətirmə qəlbimi dərdü fəğanə, tel.

Düşdü gül üz üstə, dönürsən bulutlara,
Axır bu zülmü cövrün əlindən gedim hara?!
Bəsdir nə qədri zalimə məzlum yalvara?
Çox vurma odlu qəlbimə min tazyanə tel.

Ey tel, dağıtma huşumi başımdan ah ilə,
Əl çək, cidal qoyma bulut içrə mah ilə,
Ömrüm talandı başə gələn iştibah ilə,
Sıxmış bütün bu canımı, ah, zamanə tel.

Şah İsmayılın xərmən olan tellərə bu cürə yalvarmağında Ərəbzəngi onun ürəginin dərdini daha da düşünürdi və onun ona şədid əlaqə və qızğın məhəbbətini daha da çoxaldırdi. Buna görə Şah İsmayılın üzündən elə bir öpüş götürdi ki, Şah İsmayıl daha tellər ilə danışmaqdan əl götürüb bu dəfə öz sevgilisi Ərəb ilə razü niyaz eləməgə başladı. Səhər oldu və günəş qəzəl kimi nurini aləmə saldı və bütün yuxuda olanlar yuxudan durdular. Bu iki sevgili də yuxudan durdular. Vəli doğrusu bu idi ki, onlar gecə-

dən indiyə qədər ayıq idilər, yəni yatmamışdılar və beləxərə kim bilirdi ki, onlar gecədən indiyə kimi yatmayıblar. Zahirdə görünürdü ki, onlar da yuxudan durublar. İndi hamı ağız almaların yeyib və istirahət edəndən sonra Ərəbzəngi paltarların və odlu silahların geyib saf çəkən qoşunların qabağına gəldilər və qoşun əhli onlara ehtiram edəndən sonra Şah İsmayıl belə dedi:

Əzəzi qardaşlar və mehriban qızılbaşlar! Diqqət edüz, bu gün biz üçün çox səadətli və iftixarlı gündür və bu cürə günlər hələ bu asanlıq ilə ələ düşməz və gərəkdir ki, bu günün qədrin bilək və arzu edək ki, bütün ellər və obalar və habelə hamı ölkədaşlar birləşib və nifağı aradan götürsünlər. Buna görə mən öz növbəmdə sizin bu cürə qardaş olub mehribanlığımıza təbrik deyib və səadət və xoşbəxt olduğuzi və dünya üzündə alnıaçıq və üzüağ yaşamağımızı arzu edirəm.

Şah İsmayıl bu sözləri deyəndən sonra tədarüklər görüb və daha bütün qoşun atlanıb və yola düşdülər.

## ŞAH İSMAYILIN GÖZƏL PAYTAXTI TƏBRİZ

İllər boyu idi ki, Azərbaycanda ixtilaflar və ara vuruşdurmalar, habelə mehribanlıq yerinə ədavət və kinlər olunurdu. Bu ixtilaflar və inciklikər içəridəki əhali və ya ayrı qorxuya düşən düşmənlər tərəfindən güni-gündən bu ixtilaflar çoxalırdı. Hamı millət və həmdillər düşmənlər ilə vuruşmaq yerinə çox zaman öz-özləri ilə vuruşub və dava edirdilər. Buna görə Azərbaycanda düzgün və xalq arzusu ilə hökumət edən bir dövlət yox idi. Ta bu ki, Azərbaycan xalqı Şah İsmayıl Səfəvinin bu cürə qeyrətli və igit və şərəfli olduğun görən kimi hamı onun başına

yığışıb, özlərinə böyük bir ata və böyük bir sərdar etmək üçün çalışırdılar və bu vəzifə hamıdan artıq Təbriz şəhərinin öhdəsinə düşdi. Təbriz şəhəri bu vəzifəni bir gözəl səliqə ilə yerinə yetirdi. Ərdəbil şəhəri əgər Şah İsmayılı doğub və böyük eləmişdi. Bu dəfə Təbriz şəhəri bu vəzifəni bir gözəl səliqə ilə yerinə yetirdi. Ərdəbil şəhəri əgər Şah İsmayılı doğub və böyük eləmişdi, bu dəfə Təbriz şəhəri onu bir isti məhəbbət və qızğın əlaqə ilə özünə iftixar bilib bağrına basmaq istəyirdi. Daha Şah İsmayılın Bakı və Dərbənd, Naxçıvan, Şirvan, Qafqaz və çoxlu bu cürə yerləri fəth eləmək xəbəri Azərbaycanın hər yanına yayıldı və çün Şah İsmayılın Cənubi Azərbaycana hərəkət eləməsi Təbriz əhlinin qulağına yetişdi. Buna görə Təbriz əhalisi onu pişvaz eləmək üçün hamı yerlər – küçələr, caddələr bəzənib tağ vuruldu və bütün fəqirlərə şam və nahar verdilər. Qərar oldu ki, Şah İsmayılı pişvaz edib və şəhərə gətirsinlər. Bu idi ki, şəhərin böyükləri və bütün qeyrətli və anlaqlı xəlqi tədarük görüb, şəhərdən eşigə çıxıb və səf çəkib və qurbanlar hazır elədilər ki, Şah İsmayıl yetişən kimi əllərindən gələn hörməti onun üçün eləsinlər. Buna görə şəhərin qırağında intizarda dayanıb və Azərbaycanın qəhrəman oğlu və bütün İranın gələcək iftixarı Şah İsmayılı gözləyirdilər. Bir qədər gözləyəndən sonra qasid xəbər gətirdi ki, Şah İsmayıl yaxınlaşıb. Daha bu idi ki, hamı əlaqəli olanlar sevinir və çoxlarının ürəgi şadlıqdan vurmağa düşüb gülmək yerinə az qalırdı ki, ağlasınlar. Amma o qədər çəkmədi ki, uzaqdan toz qovzayıb, ged-gedə dərya kimi ləşgərin başı açıldı. On min qırmızı, gög və sarı və qara və boz bayraqlar gögdə əsirdi. Atların belində canlı və igit pəhləvanlar və buğiburma qoç qəhrəmanlar oturub və nizam ilə qabağa gəlirdilər və onların ortasında bir cüt ağ və Qəmər atlı cavan bellə-

rində misri və əgri qılınc və başlarında dəmir bork və bədənlərində hər cürə əsləhə var idi. On min bayrağın gögdə əsməsi və toz-torpağın gög üzünü tutması və atların ayaq səsi və qoşnun sakit gəlməsi bu mənzərəni görünməyən bir mənzərəyə döndərmişdi və qoşun dərya kimi baxdıqca uzanırdı və ucu-bucağı bəlli degil idi. Bu əzəməti və böyükliği görən Təbriz və ayrı şəhərlər əhalisi daha da eşqə gəlib qabağa yeriyirdilər və bu zaman ki, Şah İsmayıl və Ərəb və qoşun daha yetirib və yaxınlaşmışdı, onların qabağında qurbanlar kəsildi və piyada pişvaza gələnlər boylanıb at üstündə olanlar da at üstündən əzilib bir-biri ilə öpüşüb və görüşdülər və çox şadlıq və mehribanlıqlar oldu və Şah İsmayıl ilə Ərəb qabağda və cəmiyyətdə onların dövrəsində və qoşun da dalında Təbriz şəhərinə üz qoydular və bir qədər gedəndən sonra Təbrizə çatdılar.

Şah İsmayıla məxsus olan yeri ona göstərdilər və Şah İsmayıl ilə Ərəb öz məxsus yerlərində oturub və qoşun əhli də məxsus yerlərində qərar tutdular və Təbriz şəhərində carçı car çəkdi ki, bütün Azərbaycanın hər yanında yeddi gün, yeddi gecə şadlıq və çırağanlıq olacaq və buna görə lazımdır ki, Təbriz əhli hər yanı qırağa eliyib və tağ bəzəsinlər və şadlığa başlasınlar. Bu idi ki, carçının carın eşidən kimi hamı tədarük üçün çalışmağa başladılar və o gündən yeddi gün, yeddi gecə şəhər çırağan olub və şadlıq olundu və bütün hər yanda şadlıqlar məclisi quruldu. Şah İsmayıl və Ərəb və böyük başlar da öz məxsus yerlərində şadlıq üçün hər şey hazır edmişdilər. Şəhərin böyükləri və işbilənləri o məclisdə dəvət olunub və qərar idi ki, şadlıq üçün çoxlu tədarüklər görsünlər ki, şadlıq və çalğı oxumaqdan sonra Şah İsmayılın rəsmi olduğu bütün millətə elan eləsinlər. Buna görə məclisdə oturanlardan biri yerindən durub və məclis əhlinə dedi:

– Möhtərəm məclis əhli və bütün əziz millət! Biz, Təbriz əhli və bütün şəhristanlar əhalisi öz könül və meylimiz ilə millətin qəhrəman oğlu İsmayıl Səfəvini özümüzdə şah edirik və ümid və arzumuz var ki, biz millətin gələcəgi və səadəti dünya millətləri arasında çox görkəmli və xoşbəxtliq ilə olsun. Buna görə millət uğrunda candan keçən və onların şadlığının fikrindən və xoşbəxt olmağından qafil olmuyan rəşid və cavan İsmayıl Səfəvi layiq və şayəstədir ki, şahlığa nail olub və milləti dərin arzulara yetirmək üçün hökumət buyursunlar.

Bütün məclis əhli bu sözləri eşidən kimi hamılıqca səmim-qəlb ilə dedilər:

– Doğrudur, bu cürdür, belədir.

Amma doğurdan da, yaşasın millətin qəhrəmanı Şah İsmayıl Səfəvi!

Sonra hamılıqca əl çalıb «yaşasın» deyə-deyə Şah İsmayılın şah olmaq dəftəri imzalanmağa başlandı və ara sakit olandan sonra Şah İsmayılın başına qoyub və onu şahlıq taxtında oturdub, sonra vəzirlər və vəkillər və qızılbaşlar sərdarları seçildi və elə ki, hamı işlər düzəldi, Şah İsmayıl ayağa durub, indi görək nə söylədi:

– Əziz ölkədaşlar, ey mənim ürəgimin parçaları! Siz ki, məni özüzə şah qərar verdiz və məmləkəti də milləti mənə tapşırdız və yağı düşmənlərin kökün dibdən kəsib və rişəsin yandırmağı mənim öhdəmə qoyduz, mən də öz növbəmdə sizin hüzurunuzda öz şərafətimə və sizin hörmətizə and içirəm ki, o ki, əlimdən gəlir və ta ora kimi ki, canımda bir damcı qan var və son nəfəsim gəlincə sizin səadət və millətin xoşbəxt və ölkənin abad olması uğrunda var gücüm ilə çalışıb və bu yolda can qurban eləməgə hazır oluram.

Şah İsmayıl bu sözləri deyəndə hamı yerindən təkan yeyib və qanları cuşa gəldi və bu cürə şahın indiyə kimi

tapılmamağından qəmli və indi onun tapılmağından çox şad və ürəkdən sevinib və xoşhallıqdan hamısının gözlərində damcı-damcı yaşlar axırdı. Daha hər nə olursa da, məclis həm-həmədən düşmürdü. Ancaq Şah İsmayıl yenə də sözə gəlib dedi:

– İndi keçmiş keçib və siz bilirsiz ki, mənim atamı düşmənlər vətən yolunda ölüdürüb və ölkəmiz çox zaman qatışıb və hərcümərc olub və millətimiz zillətlər və inciklər görüb. Amma bir kimsəyə baş əgməyib və dünyanı alan ərəblər kimi yağı düşmənlər ilə qəhrəman atamız Babək Xürrəmi kimi son nəfəsinə kimi düşmən qabağında qorxmaz dayanıb və dünyanı alan Bağdad Xəlifə Mötəsim Billahın qabağında bu cürə şəhamət və şücaət göstərib və ölümündən keçib və vətən uğrunda şirin və əziz canın hazır olur qurban eləsin. Ürəkdən şərməndə olub və utandığından qızardı. Amma Möhtəsib Billah acıq ilə dedi:

– Aqşin, nə üçün fikrə gedibsən? Yoxsa öz həmşərin Babəgi tutmaqdan utanırsan?

Amma Babək Aqşinin bu cür utanmağını düşünüb ona belə dedi:

– Ey tülküsifət, ey düşmənlərə qul və öz millətinə xain və ey öz ana yurduna dal döndərən, ey baş igirmi iki il dərələrdə, təpələrdə və çöllərdə gecə-gündüz vuruşub və sonra bir nəfər hiyləbaz və düşmənlər qulluq edən «Aqşin» adında sərdar onu düşmənələr satıb və beləxərə bizim iftixarımız Babək Xürrəmi Möhtəsim Billah Bağdad Xəlifəsi ki, özünü «Əmirəlləmöminin» adlandırırdı, Bağdad şəhərində cəllad əlinə verib və o, çox pis vəziyyət ilə öldürülüb.

Şah İsmayıl bu sözləri deyərgən deyirgən hamı havasın başına yığıb və indiyə kimi az eşitdikləri bu sözlərə qulaq verirdilər. Hətta çoxları deyirdi ki, Babək Xürrəmi kimdir? Amma Şah İsmayıl yenə də sözünə başlayıb dedi:

– Əziz qardaşlar! Ey mənim qolum və arxalarım! Heç bilirsiz ki, Bağdadın xəlifəsi Mötəsim Babək Xürrəmə nə dedi?

Mötəsim Billah Babəkə dedi:

– Sən, ey Babək Xürrəm ki, Azərbaycanda igirmi iki il ərəb qoşunu cana gətirmişdin və gecə-gündüz hamını narahət eləmişdin, aya heç nəzərə almırdın ki, dünyanı alan Mötəsim Billah, yəni bütün müsəlmanların xəlifəsi bir gün səni öz əcirlərinin təbəssümü ilə tutar?!

– Daha indi olan olub, keçən keçib. Sənə buyururam ki, gəl bütün fikrindən əl çək və bizə itaət elə və səmimiqəlb ilə mənim ələrimdən öp, tövbə elə, ta səni özümə bir böyük sərdarlar edib və Azərbaycan ilə Qafqaz və Asiya ölkələrinin hökmdarlığın sənə verim.

Amma Bağdad xəlifəsi Mötəsimin cavabında görək bizim ölməz və qeyrətli atamız Babək Xürrəm nə dedi:

Ey qanlar tökdürən, canlar yağdıran,
Ey bizim ölkəni aloflandıran,
Mənəm illər boyu sənlə çaldıran,
İgirmi iki il qılınc-qılınca.

Biz azər eliyik qorxmarıq qandan,
Vətənin uğrunda köçərik candan,
Doğrusu, nəngidir bu iş insandan,
Yazı düşmənlərə ola baxaca.

Sarala-sarala bu yaşamaqdan,
Yaxşıdır üzümü tuta qızıl qan,
Yaşa Azərbaycan, yaşa, ey İran,
Olmayıbdır hələ Babəkin qoca.
Mən ölürsəm, ölüm, vətənim,
Bu qanlı köynəgim ola kəfənim,

Tutduğum bu yolda çoxdu gedənim,
Duracaqdır mənim millətim uca.

Qanım ilə gərək boyansın üzüm,
Sənə sabit ola bu doğru sözüm,
Sənə təslim olsam kor ola gözüm,
Başımı verərəm iti qılınca.

Azərbaycanın qəhrəman oğlu Babək Xürrəm bu sözləri deyib qurtarandan sonra Mötəsim Billah Aqşinə dedi ki;

– Gör sənin bu qəhrəman həm şəhrin nə deyir və onu tərcümə edib mənə söylə.

Aqşin güman edirdi ki, Babək Xürrəmi onun hiyləsi ilə tutulub və Mötəsim Billaha qulluq eləməkdən xoşhal olacaq. Bu idi ki, vəqti ki, gördi Babək igit kişi gün xoş yaşamaqdan ötrü hər cürə alçaqlığa boyun əgən, nə üçün utanırsan? Tfu sənin kimi öz şərafətinə xəyanət edənlərə və hazır vəziyyətə təslim olanlara!

Aqşin bu sözləri eşidib gördi ki, çox pis xəyanət edib və buna görə də daha da başın aşağı salıb və öz qəlbində Azərbaycanın qəhrəman oğlu Babək Xürrəmə ürəkdən «afərin» dedi:

– Əlbəttə, Aqşin iranlı idi. Vəli Azərbaycan tərəfində anadan olmamışdı, bəlkə fars tərəflərindən idi. Daha bu mouqə Mötəsim Billah Əfşinə acıqlandı ki, nə üçün Babək deyən sözləri tərcümə etmir?

Əfşin naçar qalıb Babəkin sözlərin tərcümə elədi. Vəqti ki, Mötəsim Billah Babəkin sözlərin bildi, çox təəccüb elədi. Çünki indiyə kimi görünməmişdi ki, hətta böyük sərdarlar və şahlar onun hüzurunda şəhamət ilə cürət edib və söz danışsın. Buna görə qəzəbə gəlib əmr elədi ki,

cəllad onun qolların qırsın. Daha cəllad Babəkin haqq və halal qanı su kimi axdı. Bir azdan gül rəngi saraldı və Mötəsim Billah gülüb ona dedi:

– Hanı, ey qəhrəman oğlan! Ey mənim hüzurumda qırmızı duran, aya, indi rəngivin saralmağın görürsən? Aya, indi də qırmızı dura bilirsən?

Vəqti ki, Əfşin bu sözü Babəkə tərcümə elədi, Babək kəsilmiş qollarının qarğısın gögə qovzayıb dedi:

– Ey Allah və ey xəlq, siz şahid olursuz ki, mən ölənə kimi xain düşmənə təslim olmadım.

Sonra kəsik qolların saralmış üzünə sürtüb üzüni qızıl qan əlvan elədi və bu cürəliğ ilə Mötəsim Billaha andırdı ki, öldi var, döndi yoxdi və sarala-sarala qalmaqdan qızara-qızara ölmək yaxşıdır.

Şah İsmayıl burada bir az dayanıb yenə də dedi:

– İndi, əziz qardaşlar, gərəkdir ki, öz ata və babalarımızdan qalan yolu gedək.

Şah İsmayıl sözüni bu cürə qurtardı:

– Yaşasın Azərbaycanın dilavər oğlu və ölməz qəhrəman Babək Xürrəm və yaşasın Vətən və yaşasın millət.

Daha məclis qurtardı və Şah İsmayıl tarix 907-ci ildən şahlığa başladı. Paytaxtı da Təbriz şəhəri oldu.

Şah İsmayıl bütün məmləkəti sakit və əmin edib və hər nə qədər baş qovzayan bəglər və xanlar, habelə boynu yoğun yağıları yerində oturdub, xalqın dərdinə yetişib və rəiyyət və işçilərin istədiklərini birəbir verib və hər kəs hər xahiş edib, naümid və məyus olmayıb daha məmləkət abad olmaqda və millət şad yaşamaqda idilər. Şah İsmayıl da öz sevgilisi Ərəb ilə birlikdə yaşayıb şadlıq edirdilər. Amma Şah İsmayıl hər nə edirdi ki, Gülzarın fikrindən bir müddət əl çəkib və rahət qalsın, eliyə bilmirdi. Buna görə yenə də qəmli və qüssəli olurdi və çox zaman tək

olanda öz xəlvət sarayında oturub tarı bağrına basıb oxuyurdi. Əlbəttə, Şah İsmayıl özi şair idi və şairliğ adı (təxəllüsi) də Şah İsmayıl Xətayi idi. Daha bir gün otağın xəlvət edib və oxitmağa başlamışdı və Ərəbzəngi də oni görüb yanıqlı-yanıqlı sözlərinə qulaq asırdı:

Haçandır ayrılıb üzüm-üzündən,
Doymadım bir gün şirin sözündən,
Nə bir xəbər vardı sənin özündən,
Nə səndən bir xəbər gətirən vardır.

Dolandım dağları, daşı, dərəni,
Görmədim bir nəfər səni görəni,
Bu yanmış qəlbimi dərdin dələni,
Nə səndən bir mərhəm yetirən vardır.

Ürəkdən çıxmıyır neyləyim qəmin,
Bilmirəm eşqivin unutmaq cəmin,
Sənsiz deyil mənə bir çəmən əmin,
Nə də bu yarəmi bitirən vardır.

Çoxdandır üzülüb əlim əlindən,
Bais utanmadı bi əməlindən,
Məni diyarımdan, səni elindən,
Bu qərib yerlərdə itirən vardır.

Dalınca yolladım bir odli namə,
Naməni yazanda ağladı xamə,
Xamədən yanıqlı axan kəlamə,
Nə bir cavab verən, nə dinən vardır.

Şah İsmayıl öz sevgilisi Gülzarın ayrılığında gecə-gündüz xəzan görmüş bülbül kimi nalə edirdi və hər nə

göz yola tikirdi.

Amma Şah İsmayıl qızılbaşın bü gətirdigi qəmli xəbərdən çox tutulub və qəmgin oldi və hər nə çalışdı ki, özünü ümidvar eləsin, olmadı. Çünki hər nə qədər özün məşğul edirdi, yenə də Gülzarın gül üzü onun gözünün qabağından gedmirdi. Buna görə həmişə öz vəfalı və mehriban sazına pənah aparıb ürəginin dərdin ona deyirdi. Belə ki, yenə də sazı basıb dedi:

Sallana-sallana çıxdı çadırdan,
Sinəsi məxməriydi, məməsi nardan.
Allah ayırmasın heç yarı yardan,
İtirdim çöllərdə Gülüzarımı.

Görüm, bais, sənin üzün gülməsin,
Bir dərdə düşəsən, bir kim bilməsin.
Dərdivin dərmani heç tapılmasın,
Əlimdən eylədin nazlı yarımı.

Ala gözlər məni saldı çöllərə,
Həsrət qoydi məni yurda, ellərə.
Badi-səba, çox toxinma tellərə,
Pərişan eyləmə Gülüzarımi.

Ah çəkərəm, göz tikərəm yollara,
Panah apararam çöldə kollara.
Gah gedərəm sağa, gahi sollara,
Qadir Allah, yetir mənim yarımı.

Bağçası, gülşəni xar olan canım,
Bu geniş dünyası dar olan canım,
Yarı özgəsinə yar olan canım,
Soldurdu bu fələk gül baharımı.

Məxmər sinəsində bir cüt şamama,
Solmışdı onları ipəkdən dama.
Məlhəmdi dodaği köhnə yarama,
Toxdadır yarəmi, kəsər zarimi.

Boylana-boylana çıxdı obadan,
Oldi bu çöllərdə məni yubadan.
Batdı Qarabağdan, çıxdı Qubadan,
Əlimdən apardı ixtiyarımı.

Şah İsmayıl o qədər oxuyub və saz çaldı ki, daha taqətdən düşüb aram qaldı.

Gülzardan nə bir xəbər gətirən var idi və nə də onun yeri bəlli idi. Ancaq Şah İsmayıl Gülzar üçün namə yazıb yollamışdı. Amma namənin cavabın saətlər və dəqiqələr gözləyirdi. Vəli bir xəbər olmurdi. Buna görə daha çox darıxıb usanırdı. Amma bir gün öz otağında qəmli oturub və qəmli-qəmli oxuyurdu ki, birdən-birə namə aparan qızılbaş atdan enib və təzim edib Şah İsmayılın hüzurunda durdi. Şah İsmayıl onu görən kimi çox sevindi. Sonra xoşhal olaraq qızılbaşın əlindəki naməni aldı və oxudu. Az qaldı ki, dünya başına dolansın. Çünki qızılbaş gətirən kağız həman Şah İsmayıl verən namə idi. Buna görə qızılbaş Şah İsmayılı bu cür görən kimi təzim edib dedi:

– Qurban, Gülzar xanım o yerdən köçüb, özgə diyara gedib.

Şah İsmayıl daha məyus və qüssəli olub bir söz demədi.

## ƏRƏB İLƏ ŞAH İSMAYIL HİNDİSTAN YOLUNDA

Səhər tezdən hənuz xoruzların banlaması təzə başlanmışdı ki, iki cavan silahlanıb alaqaranlıqda atların yəhərləyib və alıcı quş kimi onların belinə qonmuşdular. Hər ikisi də qara geyib və hicab salıb və tanınmaz bir halda 228 şəhərin darvazasından xaric oldular. Yel əsdikə Ərəbin pərişan qara tellərin xərmən kimi gögə sorub çigninə tökürdi və daha ged-gedə hava açıldıqca Şah İsmayılın tutulmuş ürəgi və qaralmış könlü də azaraq açılırdı. Amma lazım idi ki, günəş hər yanı gözəl nuri ilə uzaqlaşsınlar. Buna görə atların yollarına əl çəkib onları çapmağa dəvət elədilər. Çöllərin ortasında azaraq karvan və çoban görünürdi. Amma bu iki atlı bir az gözə görünüb, fourən gözdən itirdilər. Daha bulut kimi gögdə və tufan kimi yerdə dayanmaqları yox idi. Gecə-gündüz qovurdular və çox azaraq ancaq qərar bu idi ki, tezliklə Hindistan vilayətinə yetişdilər. İndi bunlar burada qalsınlar, görək Gülzar nə edir.

Gülzarı Hindistan şəhərində bir xanın oğluna verirdilər. Toyu başlanmışdı və az qalırdı ki, onları gərdək otağına salsınlar. Buna görə Gülzar çox darıxıb və az qalırdı ki, qüssədən ölsün. Bu idi ki, hər gün bir bəhanə gətirib və gərdək gününi yubandırırdı. Bu culuğ ilə istəmirdi ki, öz sevgilisi Şah İsmayıla vəfasız çıxsın. Günlər beləliklə keçirdi və daha bir gün qərar idi ki, Gülzarı gecə zamanı damadın evinə aparsınlar və buna görə o gün bütün şəhərin əhli şadlıqla və gülüb oynamaqla məşğul idilər. Düz bu gün Şah İsmayıl ilə Ərəb şəhərə daxil olub və bu şadlığı görən kimi Şah İsmayılın ürəginə şək damdı. Vəli Ərəb hənuz şəkə düşməmişdi. Səhər tezdən bütün küçələr və bazarlar bəzənib və gəl-get başlanmışdı. Hamı yerdə şadlıq olunurdi və Ərəb ilə Şah İsmayıl da özgə kimsələr kimi dolanırdılar. Daha bir qəhvəxana tapıb

orada oturaq elədilər. Şah İsmayıl hərdəm bu şadlığı görəndə ah çəkib və qüssələnirdi və Ərəb də deyirdi:

– Vallah, billah, bu Gülzarın toyu degil. Sən yersiz qəm edirsən.

Amma Şah İsmayıl deyirdi ki:

– Ürəgimə şək damıb və yəqinim var ki, bu toy sevgilim Gülzarın toyudu.

Amma o qədər çəkmədi ki, cəmiyyət daha da şadlığa başladı. Çünki gəlinin evinə kürəkən tərəfindən xonça gedirdi. Bu mouqə Şah İsmayıl yanında oturan bir cavandan soruşdu ki, gəlini haçan aparacaqlar. Cavan dedi ki, gecə zamanı aparacaqlar. Buna görə Şah İsmayılın ürəgi vurmağa düşdi.

Bu mouqə qəhvəxana doldi və bir cavan aşıq cignində sazı içəri girdi və bütün oturanlar cavan aşıqdan xahiş elədilər ki, onlara bir az türki oxusun. Buna görə aşıq da sazı götürüb görək nə söylədi.

Göz qaldı yollarda, can intizarda,
Gəlmədi canandan tazə bir xəbər.
Mənim taqətim yox qələm tutmağa,
Kim ola ki, yaza yarə bir xəbər?

Nə qədər ki, mən ağlaram dəmadəm,
Əhvalımı bilmir ola o həmdəm.
El bütün yağıdır, yoxdur bir adəm,
Verə məndən Pərinazə bir xəbər.

Gör hesabın mən çəkdigim azarım,
Bu dadü fəryadın, bu ahüzarın,
Badi-səba əgər düşsə güzarım,
Söylə xəlvət o həmrazə bir xəbər.

Bülbüli qönçeyi-xəndan öldürdi,
Pərvanəni şəmi-suzan öldürdi,
Vaqifi* atəşi-hicran öldürdi,
Amma verin o şahbazə bir xəbər.

Bu mouqə bütün oturanlar ona «afərin» dedilər. Amma onun sözləri Şah İsmayılın ürəgini daha da qüssələndirdi və buna görə o da sazı bağrına basıb görək nə söylədi:

Bu necə zülmdür mənə eylərsən,
Adam məgər bir insafa gəlməzmi?
Bir gün görərsən ki, vallah, ölmüşəm,
Bu qədər dərd çəkən artıq ölməzmi?

Gözəllərin çoxu necə zad olur,
Yarın qəmgin qoyub, özü şad olur,
Bir sevgi ki, sevgilindən yad olur,
Məgər onun yaxşılığın bilməzmi?

Dövrədə oturanlar bir də dönüb bir igit cavanın bu cürə oxuyan görən kimi hamusi onun başına yığışıb, ona «afərin» dedilər və daha xahiş elədilər ki, onlar üçün bir az da türki oxusun. Buna görə indi görək nə söylədi:

Bir əndamı nəsrin, dodaği qönçə,
Bir qaməti gül tək yarə aşiqəm,

-----------

* Vaqif türklərin çox böyük və şəxsiyyətli bir şairidir.

Olsa yüz üzi gül, gəlməz eynimə,
Mən ancaq bir Gülüzara aşiqəm.

Gecələr sübhətək eylərəm nalə,
Hərgiz düşməz könlüm özgə xiyalə,
Bir gərdəni mina, ağzi piyalə,
Bir ləhcəsi şirinkarə aşiqəm.

Bir buxağı turunc, sinəsi meydan,
Bir süri cəvahir, mirvari dəndan,
Bir maral baxışli, kirpigi peykan,
Bir qaşları aytək yarə aşiqəm.

Bir güləndə dodağından bal axan,
Bir bəzənib bir xoş tavustək çıxan,
Bir hicab altından giclincə baxan,
Bir əcayıb xoş göftarə aşiqəm.

Dövrədə oturanların hamusının ürəgi yandı və əllərindən gələn hörməti bu cavan aşiqə elədilər. Sonra deyib və gülüb şadlıq edəndən sonra Şah İsmayıl ilə Ərəb bir qarı nənənin evində qonaq oldular. Qoca qarı onlara bir yaxşı otaq verdi və özü də qulluq eləməgə başladi.

Şah İsmayıl sazı götürüb yavaş-yavaş çalmağa məşğul oldi:

Ey qərib ellərdə xar olan canım,
Ey ürəgi daim zar olan canım,
Sevgisi özgəyə yar olan canım,
Bir gün sevgilini yad aparacaq.

Ey düşən çöllərə, yanıb odlanan,
Gecəni-gündüzi çöllərdə qalan,
Bu gün Gülüzarıvi aparacaq xan,
Aman, aparacaq, dad, aparacaq.

Xəbərin yoxundur gəlib sevgilin,
Toyun olmağını bilib sevgilin,
Heç xəbərin yoxdur ölüb sevgilin,
Eşidcəgin səni yad aparacaq.

Qoca qarı bu sözləri eşidən kimi Şah İsmayılın üzünə baxıb dedi:

– Oğlum, olmasın ki, aşiqsən?

Şah İsmayıl dedi:

– Yox, nənəcan.

Amma qoca qarı inanmadi. Buna görə o qədər dedi ki, ta Şah İsmayıl bütün mətləbi qoca qarıya dedi və qoca qarı güldi. Şah İsmayıl dedi, bəs ki, qoca qarı oni məsxərə edir. Buna görə ox qəmli oldi. Amma qoca qarı onu qəmli görən kimi dedi:

– Oğlum, mən sənə gülmədim. Bəlkə buna güldüm ki, bunun bir qüssəsi yoxdur. Hər kimə aşiqsən mənə söylə, ta sənin üçün alım.

Şah İsmayıl dedi:

– Nənəcan, mən fəqət Gülzar xanıma ki, bu gün onun toyudur, aşiqəm.

Qoca qarı bir az fikrə gedib dedi:

– Oğlum, sən oni hardan tanıyırsan? Onun əri var.

Şah İsmayıl bütün mətləbi əvvəldən axıra kimi ona danışdı. Qoca qarı dedi:

– Oğlum, qüssə eləmə. Mən onların evində məşşatəyəm və əgər sözün var, mənə söylə. Çünki günorta çaği mən gərək Gülzari gürüm və gecə zamani oni gərək otağına aparam.

Şah İsmayıl bu sözi eşidən kimi az qaldı ki, ürəkdən qışqırsın. Çünki yuxuda da görsəydi, inanmazdi. Daha

qoca qarıya dedi:

– Nənəcan, Gülzara de ki, sevgilin İsmayıl gəlib.

Amma qoca qarı qəbul eləmədi. Buna görə şah İsmayıl əlini salıb cibindən bir ovuc qızıl çıxardıb ona verən kimi əri güldi və bu dəfə qəbul elədi və sonra Şah İsmayıla dedi ki, aya, bir az nşanə varıdır? Şah İsmayıl bir az fikir edəndən sonra Gülzar verən qızıl darağı çıxardıb qoca qarıya verdi və qarı yola düşüb Gülzarın evinə gəldi.

## ŞAH İSMAYILIN GÜLZARI QAÇIRMASI

Gülzarı bəzəyib və geyindirmişdilər. Bütün qəsrin otaqlarında çalhaçal idi. Oxuyanlar, oynayanlar və habelə aşpəzlər və məşşatələr öz işlərində məşğul idilər. Doğrusi, bu kürəkən Hindistanın ən birinci varli cavanlarından idi. Daha o da qəsrin həyətində dolana-dolana indicə oxuyurdi və şadlıq edirdi.

Amma yazıq Gülzarın yadına düşəndə ki, gecə könlü sevmədigi bir sevginin evinə gedəcək və öz sevgilisi Şah İsmayıla vəfasız çıxacaq, az qalırdı ki, qüssədən ölsün. Daha bir xəlvət otaq tapıb, sazı bağrına basıb, görək indi nə söylədi:

Ərisin dağların qari, ərisin,
Sellər, sular bu dünyanı bürüsin.
Məni yardan edən, canın çürisin,
Vəfalı sevgilim nə gəlməz oldu.

Dərdimi söylərəm dağ ilə daşa,
Ayrılıq atəşi yetişmir başa.
Ürəgim həsrətdən az qalıb daşa,
Vəfalı sevgilim nə gəlməz oldi.

Ey məni yaradan, mehriban tanrı,
Götür ürəgimdən bu ahü zari,
Nəsibim elədin özgə diyari,
Dərdimi bu yerdə kim bilməz oldi.

Baki şəhri hara, Hindistan hara?
Bakidən çıxanı düşmüşəm dara.
Gəzərəm yarimi mən ara-ara,
Haçandır gözümə görünməz oldi.

Sənə qurban olum, ay qadir Allah,
Yandirdi qəlbimi bu həsrətli ah.
Nədir axır mənim etdigim günah,
Dərdimin dərmanı bilinməz oldi.

Ayrıldım ölkədən, eldən, obadan,
Təbrizdən, Bakıdan, gözəl Qubadan.
İndi gərək dilək dəm Buddadan,*
Bu qəmli ürəgim sevinməz oldi.

Gülzar bu cürə yalqız-yalqız oxuyarkən qoca qarı qəsrə girib oni axtarıb tapdı və otağın qapusının dalında duran kimi, gördi ki, Gülzar çox yanıqlı-yanıqlı oxuyur. Buna görə daha içəri girmədi. Fəqət, qulaq asıb, qapının dalında gözlərindən damcı-damcı yaşlar axirdi və hərdən qapunun bacasından içəri baxirdi. Daha Gülzar ged-gedə qızışıb haldan çıxan kimi olurdi. Yenə də belə deyirdi:

--------------------

* Budda – Hindistan məmləkətində bir böyük peyğəmbər kimi şəxsdir. Hindistanın çox əhli ona itaət edirlər.

Yarali könlümi yaralandıran,
Məni sevgilimdən ayrı saldıran,

Cigərim başını alovlandıran,
Görüm arzuların başa gəlməsin.

Kəsib aramızı dumanlı dağlar,
Dərələr, təpələr, qorxulu çaylar,
Nə illər qurtulur, nə uzun aylar,
Bais də mən kimi heç sevinməsin.

Haray, gözüm yandi, talandım, haray,
Haray, bir də oni görmədim, haray,
Başıma kül oldi, vay mənə vay, vay,
Necə fəryad edim bir kəs bilməsin.

Bir namə gəlmədi mən ayrılani,
Fələk məni bu çöllərə salani,
Yazıq canım gizlin qalıb talani,
Heç bir yazıq mən çəkəni çəkməsin.

Atmaram ürəkdən, sevgilim səni,
Şəqqə-şəqqə əgər etsələr məni,
Bu zəhri içirəm, geyəm kəfəni,
Ta mənə özgə əli dəyməsin.

Bu mouqə Gülzar rəfdən bir qara şüşə götürüb onun ağzın açdi və gözlərinin qabağında tutub dedi:

– Pərvərdigara, sən şahid ol ki, mən son nəfəsimə kimi öz sevgilim Şah İsmayıl uğrunda və onun ilə əhdü-peyman yolunda bu zəhəri içirəm. Ta bir özgəsi məni aparmasın.

Gülzar bu sözləri deyə-deyə gözlərindən odli yaşlar tökülürdi və sonra şişəni yuxari aparan kimi qoca qari birdən-birə içəri təpilib şişəni onun əlindən qapdı. Gülzar iltimas eləməgə başdadi və hər nə yalvardi ki, qoca nənə

icazə versin, o zəhəri içsin, vermədi və sonra onun üzündən öpüb, bir xəlvət bucağa çəkib dedi:

– Ey mənim gözəl balam, nə üçün zəhər içirsən? Axır sənin hənuz toyun olmayıb və hələ cavansan.

Gülzar qoca nənənin bu sözlərindən tutulub ağlamağa başladı və qoca qarı ki, bilirdi Gülzar nə üçün ağlayır, bunla belə yenə istirdi ki, onun öz dilindən eşidsin. Bu idi ki, birdə soruşdi:

– Əziz balam, nə üçün belə göz yaşi tökürsən? Yoxsa bir dərdin varmı?

Gülzar əvvəl demirdi. Vəli çün qoca qarı əl çəkmədi, buna görə sazı əlinə alıb, görək nə söylədi:

Qanatın bağlıdır, aça bilmirəm,
Hər nə çalışıram, uça bilmirəm,
Qaranlıq zindandan qaça bilmərəm,
Nə bir ümid yaşı, nə xəbər vardır.

Ayrıldım gülşəndə öz bülbülümdən,
Bir süsən gülümdən, bir sümbülümdən,
Gecəni-gündüzi düşməz dilimdən,
Nə bir xəbər ondan, nə ətər vardır.

Badi-səba, düşsə bizim diyarə,
Yolun, buni söylə o gözəl yarə,
Axır nədir bəs, Gülüzarə çarə,
Nə səndən bir gələn, nə gedən vardır.

Başıma döndügüm, ey hulu dağlar,
Ey meyvəsi doli, ey suli bağlar,
Qərib ölənlərə axır kim ağlar?
Qəribə ağlayan nə gülən vardır.

Ağlaram, ağlaram, ana, ağlaram,
Ürəgim döndükcə qana, ağlaram,
Yox kimsə halıma yana, ağlaram,
Nə ondan bir əsər, nə xəbər vardır.

Bu mouqə qoca qarı dedi:

– İndi, əgər sənin itiriginin yerin desəm, mənə nə verərsən?

Gülzar bu sözi eşidən kimi, əvvəl xəyal elədi ki, qoca qarı oni aldadır. Vəli qoca and içəndən sonra inanıb azaraq qaldi ki, haldan gedsin. Amma yenə də inanmırdı. Daha qoca qarının ürəgi yanıb, Şah İsmayıl verən qızıl darağı ona göstərdi. Gülzar buni görən kimi az qalırdı yerə yıxılsın. Amma özün saxlaşdır və sevdigindən qoca qarının boynun qucaqlayıb, onun büzülmüş üzündən öpməgə başladi. Qocanı o qədər öpdi ki, bir vəqt gördi ki, qoca bihuş düşüb. Doğrusi, qoca yorulmuşdi. Buna görə qocanı ayıldıb, bir ovuc qızıl verən kimi qocanın gözləri birdən-birə açıdi və o da sevindigindən qızı qucaqlayıb dedi:

– İndi qulaq as, gör nə deyirəm. Sənin sevgilin Şah İsmayıl bu gecə səni gərdək otağına bir saat aparmamışdan qabaq qəsrin divarının dalından ip ilə içəri düşüb, səni özi ilə aparacaq.

Gülzar bu sözi əsla inanmırdi. Çünki fikr edirdi ki, Təbriz hara, Hindistan hara və bundan əlavə Şah İsmayıl onun Hindistanda olduğun nə bilir. Amma qoca o qədər and içdi ki, Gülzar inandı. Daha indi hələ gecəyə neçə saat qalırdi. Buna görə qoca qarı öz işlərin yerinə yetirmək üçün Şah İsmayılı hidayət eləmək üçün Gülzardan ayrılıb, birbaşa Şah İsmayılın yanına gəldi. Şah İsmayıl qarını görən kimi ayağa durub, onun üzündən elə bir öpüş götürdi

ki, qoca qarı xəyal elədi ki, Şah İsmayıl ona aşiqdir. Hənuz qoca ağzın açmışdı ki, bir söz desin, Şah İsmayıl və Ərəb ciblərindən neçə ovuc qızıl çıxardıb ona verdilər. Qoca qarı yuxuda da da bu qədər  qızıl və cəvahir görməmişdi. Buna görə sevindigindən az qalırdı göglərə uçsun.

Qoca qarı indi gedməgin nəqşəsin Şah İsmayıla ögrədirdi.

Şah İsamayıl bütün lazım olan şeyləri hazirləməgə başladı. Yəni kəmənd atı, cəngi silahları nəzərdə tutdi. O tərəfdən də Maharatcanın qəsri şadlıq içində qərq idi-gəl-götür, oyna və içhaiç idi. Daha damdivar da oynayırdı. Doğrusi, gözəl bir toy düzəlmişdi. Amma bu toyun ruhi və nəfəsi boş qoymuşdi. O kəs ki, hamudan artıq gərək şad olaydi, hamudan artıq gözi yaşli və ürəgi dərdli idi. Buna görə gecə yaxınlaşdıqca həm ürəgi vururdi və həm sevinirdi. Bu idi ki, özüni məşğul eləmək üçün sazi əlinə alıb indi görək nə söylədi:

Doğrudur, görəsən, gəlib dilbərim,
İllər boyu olan dildə əzbərim,
Sinədən az qalır çıxa cigərim,
Söyünməkdəndir bu, ya qüssədəndir?

Haçandır tutaram onun sorağın,
Öpərəm, üzüni görsəm, ayağın,
Yollayıbdır mənə qızıl darağın,
Söyünməgdəndir bu, ya qüssədəndir.

Sarala-sarala aralanmışam,
Hər bir yetən kəsdən yaralanmışam,
Ölüsi öləntək qaralanmışam,
Həm söyünməkdəndir, həm qüssədəndir.

Göreydim yarımı, öleydim sora,
Gül dodaqlarını mən sora-sora.
İnanmıram mənlə qol-boyun ola,
Utanmaqdandır bu, ya ki, nədəndir?

Daha gecə yaxınlaşırdı və Gülzarın ürəgi şiddət ilə vururdi. Amma bunla belə Şah İsmayılın sözünə inamı var idi. Çünki bilirdi ki, sevgilisi Şah İsmayıl əgər qoul versə, yəqinən ölüm olsa da gələr. Buna görə daha çox da qüssələnmirdi. Vəli bəqoul özi bu narahat olmaq məlum degil idi ki, aya sövünməkdən idi və ya qüssədən. Ancaq hər dəqiqə onun gözündə bir mil uzanırdı. Daha bir saət qalırdı oni gərdək otağına aparsınlar. Bu idi ki, qoca qarı Ərəb və Şah İsmayılı qəsrin və özi içəri girib, Gülzarın yanına gəldi.

Hacı şadlıq edib oynayırdılar və belə şuluq idi ki, kim-kimi tanımırdı. Ancaq qəsrin dövrəsində qəravullar qoyulmuşdi. Buna görə lazım idi ki, həm Şah İsmayıl və həm Gülzar qaçmaq zamanı çox ehtiyat eləsinlər. Qoca qarı ilə Şah İsmayıl əlamət qoymuşdular ki, divarın yanına yetişəndə qarı bir xorus kimi ucadan banlasın və Şah İsmayıl buni eşidən kimi divardan yuxarı gəlib ip ilə Gülzarı yuxarı çəksin. Qoca qarı otağa girib qızı bəzənmiş gördi və ona işarə elədi ki, daha vəqt çatıb. Gülzar buni görən kimi bədəni titrətməgə düşdi. Amma qarı yubanmayıb, oyan-buyana baxıb oranı xəlvət görən kimi Gülzarın paltarlarının üstündən bir uzun qara geydirib və üzünə də bir qaraniqat saldı və fourən özi ilə yavaşca otaqdan eşigə çıxardıb ağacların altından əgilə-əgilə divara yaxınlaşdılar. Bu mouqə qocanın ətəgi bir tikanılı gül ağacına ilişdi. Bir xış-xış səsi ucaldı. Bu mouqə qəravullardan biri bu səsi eşidib, qabağa gəlib dedi:

– Dur! Kimsən? Burada nə edirsən?

Qoca qarı özün itirməyib, qəravulun əlin üzünə sürtüb dedi:

– Ay şeytan, məgər görmürsən ki, mənəm?

Qəravul ya qoca bir kişi idi və qoca nənənin əli onun üzünə dəgən kimi gülüb xoşhal oldi və daha bir söz demədi. Buna görə daha yola başladılar. Amma Gülzarın ürəgi titrədi. Divarın dibinə yetişən kimi qoca qarı xorus kimi banladı. Şah İsmayıl ki, divarın dalında müntəzir durmuşdi, bu səsi eşidən kimi ipi atıb divara dırmandı. Ama qocanın xorus səsin eşidən qəravullar şəkə düşüb o yan-bu yanı axtarmağa başladılar. Şah İsmayıl divarın üstə durarkən qəravullardan biri onun ay işığında kölgəsini yerdə görən kimi fışqa çaldı. Buna görə orada hər nə qəravul var idi, birdən-birə həmlə gətirdilər. Şah İsmayıl gördi ki, əgər yubansa, qəravullar Gülzari tapıb tutacaqlar və buna görə ipi sallayıb, Ərəbi yuxarı çəkdi. Ərəb divarın üstünə qalxıb hər ikisi də divardan aşağı atılıb və hərəsi neçə nəfər qəravulin başına düşüb, iki qəravulu əvvəl tutub boğandan sonra bellərindən çəkib həmlə apardılar. Ancaq bu mouqə Ərəb onların başın qatıb, ta Şah İsmayıl Gülzarın yanına gəlib, onu fourən qucaqlayıb divardan yuxarı qovzayıb, divarın o yanında yerə qoydi və sonra qoca qarını da yuxarı çəkib o yanda Gülzarın yanında yerə qoydi. Sonra qılıncların səsi çoxaldıqca Şah İsmayıl tələsib Ərəbin dadına yetişmək üçün divardan qalxıb oyana düşən kimi gördi ki, Ərəbi dövrələyiblər. Buna görə bir elə həmlə apardı ki, əvvəl qılıncda bir qəravulun başından vuran kimi qəravulun başı alma kimi qopub gögdə fırlana-fırlana gedib və hovuzun suyi qan ilə əlvan idi. Buni belə görən kimsələr qaçıb Maharacaya xəbər verdilər. Amma Ərəb ilə Şah İsmayıl qəravullar ilə bərk vuruşurlar. Bir yerdə Ərəb pilləkanlar-

dan təpəsi üstə aşağı düşdi və qəravullar istədilər onun başi üstə gəlib başın kəssinlər. Amma Şah İsmayıl öz hərifini buraxıb fourən onun başı üstə gəlib dövrədəki qəravullari dağıtdi. Ərəb də tez yerindən durub, bir əlində qılınc və bir əlində də əmud bu dəfə ikisi də birdən həmlə aparıb onlari qovdular.

Şah İsmayıl alıcı quş kimi birdən-birə atılırdi gögə və çəkməsi ilə onların başından və sinəsindən vurub yerə sərirdi və Ərəb də gögə qalxıb daldan onların boynuna minib qıçları ilə az fişar verəndən sonra boğub öldürürdi və hər kəs ki, dönüb qılınc vurmaq istəyirdi, Şah İsmayıl Misri qılıncı onun ürəginə soxub kürəgindən çıxardirdi və Ərəb də əmud ilə onun kəlləsindən vurub yer ilə yeksan edirdi. Daha o qədər çəkmədi ki, onlar qaçmağa üz qoydular. Tamam qəsrin həyəti leş ilə dolu idi. Ərəbin qoş və Şah İsmayılın alni yaralanıb qan axırdi. Bu mouqə Şah İsmayıl onları qaçar görən kimi Ərəb işarə elədi ki, daha yubanmayıb divardan aşıb ata minib yollansınlar. Çünki ola bilər ki, qəravullardan Gülzarı tutmağa gəlsinlər. Buna görə fourən divardan aşıb, yerə enən kimi eşikdən gələn qəravullar onları dövrələyib, Gülzarın əlindən yapışıb aparmaq istəyən kimi Şah İsmayıl az qaldi ki, hirsdən boğulsun. Buna görə bir nərə çəkib qılınc çıxardıb o qəravulun biləgindən bir elə qılınc vurdu ki, qəravulun biləgi yerdə oynamağa başladi. Qəravulun naləsi ucaldı və bir ayrisi qabağa gələn kimi, istədi Gülzarın əlindən tutsun, Ərəb əmud ilə elə bir zərbət onun başından vurdu ki, qəravul ilə atı əzilib yerə yapışdi. Oni belə görən qəravullar daha qorxudan dala durdular. Buna görə Şah İsmayıl asudəliğ ilə illər boyi ayrı düşdügi sevgilisi Gülzarı bağrına basıb ata mindi və Ərəb də qoca qarını tərkinə alıb yollanmağa başlayan kimi bir də görürlər ki, uzaq-

dan sel kimi qoşun gəlir. Bu idi ki, Şah İsmayıl və Ərəb daha qovmağa başladılar. Vəli Şah İsmayılın ürəgi sevgilisinin üzünü görmək istəyirdi və üzi görünmürdi. Şah İsmayıl birdən-birə xallandı ki, nəbada Gülzarın yerinə bir ayrı qız olmuş ola. Buna görə tez niqabı dala çəkən kimi gözi bütün ümid və arzusi olan ay parçası kimi sevgilisi Gülzarın gözəl üzünə düşən kimi, ürəgi yerinə gəldi və Gülzar da oni görən kimi gözlərindən şövq və zövq yaşı axdi. Buna görə Şah İsmayıl istəkli və candan artıq sevdigi cananıni daha da bağrına basıb çapmağa başladı. Ərəb də qoca qarını bərk qucağına basmışdi ki, düşməsin. Çünki qoca qarı at çapdıqca nalə edib deyirdi:

– Ey  vay, ey vay, yavaş, öldüm.

Ax, ax, Ərəbcan, sən Allah, bir az yavaş sür. Ax... vay-vay...

Amma Ərəb düşünürdi ki, qoca qarı düşsə və düşmənlər oni tapsalar, onların yerin biləcəklər. Buna görə qocanı bərk qucaqlayıb çapırdi.

Düşmən az qalırdi ki, yaxınlanıb mühasirə eləsinlər. Vəli onlar da ildırım kimi uçurdular. Amma düşmən qoşunundan biri çox yaxınlaşmışdi. Daha o qədər yaxınlaşdi ki, əlin atdı Şah İsmayılın çigninə. Şah İsmayıl dönüb dalı baxan kimi bir canlı pəhləvan gördi. Bu zaman Ərəbi səslədi. Ərəb buni görən kimi bir əlində qoca qarını saxlayıb və bir əli ilə iti qılıncı çəkib pəhləvanın düz təpəsindən elə bir zərbə vurdu ki, pəhləvanın bir şəqqəsi bu yana və bir şəqqəsi də yolun o yanına düşdi. Daha yenə də çapmağa başladılar. Düşmən qoşunu çaparaq gəlirdi. Ancaq birənbirə o yerə yetişib əcəb bir şey gördülər. Pəhləvanın bir şəqqəsi yolun bu yanında düşmüşdi. Hindi qoşuni bu mənzərini görən kimi çox qorxuya düşdülər. Çünki o pəhləvan çox qəhrəman və igit bir cavan idi. Amma qoşun böyügi

yenə də fərman verdi. Buna görə bu dəfə daha o qədər çapdılar ki, az qaldılar Şah İsmayılgilə yetişsinlər. Yenə də bir qəhrəman rəşadət göstərmək üçün hamıdan qabağa düşüb Ərəbə yaxınlaşmışdi. Bu mouqə əlin atıb Ərəbin qucağındakı qoca qarını onun əlindən almaq istədi. Çünki pəhləvan xəyal eləmişdi ki, Ərəbin qucağındakı Gülzardır. Daha qoca qarını onun əlindən alıb qoşuna tərəf üz qoydu və sevinə-sevinə böyüklərinin yanına gəlib canı yerə qoydu. Hamı sevinib şad oldu və bu mouqə fərman qocanın üzündən niqabı götürən kimi hamısı bir an qəmli oldular. Çünki pəhləvan qardaş Gülzar yerinə qoca qarını gətirmişdi. Pəhləvan özü də utanıb, başın aşağı salıb bir söz demədi.

Amma Şah İsmayıl və Ərəb cavanlıqdan uzaq bildilər qoca qarını bu cürə düşmən əlinə verib gedsinlər. Buna görə özləri bir dərənin tərkinə verib gizləndilər və hind qoşuni çapa-çapa gəlib oradan keçib geddilər. Bu mouqə Şah İsmayıl və Ərəb oradan çıxıb dalı qaydıb bir az gedəndən sonra gördülər ki, pəhləvan qoca qarını tərkinə alıb qəsrə aparır ki, ondan bu işin əslin soruşsun. Buna görə ona yetişib qocanı onun əlindən aldılar və pəhləvan acığa gəlib Ərəbə həmlə gətirib qocanı onun əlindən almaq istədigi zaman Şah İsmayıl qılıncı çəkib pəhləvanın belindən elə bir zərbə vurdu ki, pəhləvanın belindən yuxarısı yolun ortasına düşdi və onun atı onun yarı bədənin aparmağa başladı. Bu zaman Şah İsmayıl və Ərəb yenə də baxıb gördülər ki, hind qoşunu məyus olub dalı qayıdıb. Buna görə həman dərəyə girib gizləndilər. Hind qoşunu gəlib pəhləvanın atının yanına çatdılar, amma hər nə baxırdılar, pəhləvanın beldən yxurasın görmürdülər. Çoxları gözlərini silib diqqət ilə baxırdılar. Vəli pəhləvanın yarısı yox idi.

Amma at onu aparırdı. Hamı təəccüb edib və az qalırdılar ki, vəhşətə düşüb qaçsınlar. Çün deyirdilər, bəs

ki, o çöldə cadu vardır. Amma böyükləri onlara dedi ki, bunun təəccübi yoxdur. Bu axmaq nə fəqət bir qoca qarını saxlaya bilməyib, bəlkə öz bədəninin yarısın da itirib. Buna görə hamı məyus olub, qəsrə tərəf yavaş-yavaş yollandılar və qəsrin sahibi Maharaca ki, Gülzarın əri olacaq idi, bu vəziyyəti görən kimi ikiəlli Fərmandehin təpəsindən vurub dedi:

– Ala, bax, kül başıza, bu qədər qoşun ilə iki caanı tuta bimədiz. Ax ki, sevgilimi türklər əlimdən apardılar.

## QOCA ƏRƏB, GÜLZAR VƏ ŞAH İSMAYIL BULAQ BAŞINDA

Hind qoşunu oradan sovuşub gedən kimi Ərəb ilə Şah İsmayıl dərədən çıxıb yola düşdülər və bir qədər yol gəlib çəmənlikdə düşdülər. Hamısi əl-üzlərin yuyub və təmiz edəndən sonra Ərəb bir şikar üçün ox və kaman götürüb meşəyə tərəf yollandı və qoca qarı da nahar üçün bəzi işlərə məşğul oldi. Amma bu mouqə iki sevgili tək qalıb niyaz eləməgə məşğul oldular.

Gülzarın qırmızı yanaqları qızıl alma kimi yanırdı və gül dodaqları qan kimi qızışmışdı. Çiçək kimi uca duran məmələri Savalan narına bənzəyirdi. Gözləri dan ulduzutək parlayırdı və doğrudur ki, öz sevgilisi Şah İsmayıldan ötri ürəgi vururdi, amma bunla belə yenə də utanırdı və utandığından başını igit yarının sinəsi üstə qoyub yavaş-yavaş dərdləşirdilər və Şah İsmayıl hərdəm onun üzündən öpüb, qolların onun boynuna salıb çəkdigi ayrılıqlar odundan ona danışırdı. Belə ki, daha sazı bağrına basıb indi görən nə söylədi:

Dolanıb dağları yetişdim sənə,
Yalvardım, yaxardım gəlib-gedənə,
Göstərmədi səni bir kimsə mənə,
Çöllərdə sərgərdan olan mən oldum.

Gözlərin mövqi ilə saçın xəyali,
Könlümi eylədi qəmdən yarali.
Düşdüm neçə illər səndən arali,
Ürəgi titrəyib duran mən oldum.

Dərdimi söylədim divara, daşa,
Az qaldı qüssədən ürəgim daşa.
Canım yandi, qəmin gəlmədi başa,
Gizlində odlanıb yanan mən oldum.

Sarala-sarala düşdüm yollara,
Çöllərdə gətirdim pənah kollara,
Gah sağlara getdim, gahi sollara,
Daim sorağını alan mən oldum.

Gülzar ki, çinar ağaclarının kölgəsində və qızılgüllərin kənarında öz sevgilisi Şah İsmayılın qoynunda xumar-xumar baxıb qulaq asırdi, birdən-birə başın onun qucağından götürüb və sazı əlinə alıb sevgilisinə belə söylədi:

Sənə qurban olum qurban gecəsi,
Olaydı, edərdim min can, gecəsi,
Çəkmişəm minlərcə hicran gecəsi,
Yolunda saralıb solan mən oldum.

Gözümün yaşları döndü çaylara,
Tikəndən gözümü uzun yollara

Gecələr baxardım ulduza, aya,
Ömrüm qurtulmağın sanan mən oldum.

Səhərlər gedəndə su doldurmağa,
Gözüm dolanırdı səni tapmağa,
Tapamazdım, düşərdi qəlbim vurmağa,
Hər zaman sorağın tutan mən oldum.

Dolandım çölləri diyarbadiyar,
Çıxdı ürəgimdən səbrü ixtiyar.
Az qaldı çürüdə məni intizar,
Gizlində alışıb yanan mən oldum.
Şəkidən yollanıb gəldim Şirvana,

Bakıdan, Gəncədən Həştərxana.
Təbrizdən Zəncana, Yəzdə, Kirmana,
Hindistanda düşüb qalan mən oldum.

Aldı Şah İsmayıl:

Bir namə yolladım can üzə-üzə,
Gözlərimdən qanlı yaş süzə-süzə,
Namədən bir cavab olmadı bizə,
Yollara göz tikib duran mən oldum.

Qarabağdan düşüb gəldim Bakiyə,
Bakıdan dolanıb gəldim Makiyə,
Daşlıqdan qurtarıb düşdüm xakiyə,
Çöllərdə uzanıb yatan mən oldum.

Başımdan çıxmazdı sənin xəyalın,
Xəyalımdan daha o gün cəmalın,

Tutmuşdu könlümi gərçi məlalın,
Şövq ilə dərdinə yanan mən oldum.

Qadasın aldığım igit sevgilim,
Mən sənin bülbülün, sən mənim gülim,
Başın qoy sinəmə, toxtasın dilim,
Çöllərdə daş üstə yatan mən oldum.

Yandı dərd əlindən ağzımda dilim,
Elə əlovlandıran bilmədi bir kim.
Tapmadım bir kimsə dərdimi deyim,
Boğulub, qüssədən daşan mən oldum.

Mənə can yandıran Ərəbzəngi,
Düşmənlər qarşında eyləyən cəngi,
Məhəbbətdən başqa yoxdu rəngi,
Onu da çöllərə salan mən oldum.

Aldı Gülzar:

Əlimi üzmədim mehrü vəfadan,
Ölsəydim də əgər cövrü cəfadan,
Əlim çıxmış idi gündən, səfadan,
Sənsiz bu dünyanı atan mən oldum.

Sənə qurban olum, məni yaradan,
Sevgimi axtarıb tapım haradan.
Tutardım sorağın burdan, oradan,
Çöllərə göz tikib baxan mən oldum.

İndi keçən keçib, gələndən danış,
Yetişibdir bahar, sovuşubdu qış,

Ürəgim yarası indi toxtamış,
Odlanan sən oldun, yanan mən oldum.

Gülzar sevgilisinin boynunda bu cür oxuyarkən bir gözəl bülbül gəlib qızılgül üstə qondu və sonra o yan bu yana baxandan sonr cəh-cəh vurmağa başladı. Onu belə görən Gülzar və Şah İsmayıl daha da eşqə gəlib və bir-birlərini qucaqladılar və bir az bülbülün qızılgül budağında öz sevgilisi ilə dərdləşməginə tamaşa edib və yenə də öpüşməgə və hədi-peymanı təzələməgə başladılar. Bunlar ki, indi neçə illərdən sonra bir-birlərinə çatmışdılar, şükr edib sevinirdilər. Doğrusu, Allah heç aşiqi öz məşuqəsindən ayrı salmasın. Eşq oduna yanmaq çox çətindir. Amma bunla belə ürəgində eşq olmayan insan dünynın ləzzətin anlamaz. Bu doğrudur ki, eşq əlovi çox kəskin və onun dərdi çox acıdır. Vəli bunla belə eşq odu insanın ürəgin həmişə isti saxlar və hər nə qədər də acı olsa, yenə aşiq üçün baldan şirindir.

Daha Gülzar və Şah İsmayıl o gözəl və ətirli çəməni xəlvət görüb, ürəklərində hər nə dərd və qüssə var idi, bir-birlərinə deyirdilər. Şah İsmayıl Gülzara tapşırdı ki, Ərəbzəngidən çox razı olub və ona hörmət və mehribanlıq eləsin. Çünki Ərəb kimi bir həyalı və mehriban candan keçən qızi, yeri var ki, mənə olan hörməti ona da edin. Sonra Şah İsmayıl Ərəbi Gülzara o qədər tərif elədi ki, Gülzar hələ Ərəb ilə danışmamış, ona ürəkdən məhəbbət salıb və bir isti əlaqə yetirdi. Bunlar bu cürə razü niyazda idilər ki, Ərəbzəngi meşədən bir ceyran vurub, atın belinə bağlayıb gətirdi və oni qoca qarıya verib, qoca qarı da onu kabab edib və bir yaxşı nahar düzəltdi hamulıqca yeyib və içməgə başladılar.

Ərəb Şah İsmayılın bir yanında və Gülzar bir yanın-

da oturmuşdi və onlar naharı yeyəndən sonra Şah İsmayıl Gülzara işarə elədi və Gülzar da ayağa durub Ərəbin üzündən və alnından öpüb və Ərəb də onun üzündən öpüb və iki mehriban bacı kimi bir-birlərinə doğru və düzgün bir əlaqə yapdılar. Sonra Ərəb sazı götürüb, görək nə söylədi:

Bütün aləm dola gözəllər ilə,
Gözəllikdə bizim yarə bənzəməz.
Həyada, hüsndə bütün hurilər
Bizim nazlı bu Gülzara bənzəməz.

Ürəkdən ayrı əgər salmışdı fələk,
Bizi ayrı əgər salmışdı fələk.
Bundan sora gərək şadlıq eyləmək,
Heç namə biz çəkən zarə bənzəməz.

Uca dağlar başı dolub qar ilə,
Bağçamız, bağımız şirin nar ilə.
Savalan dağları külli bar ilə,
Heç şirin nar, bizim narə bənzəməz.

Qadir Allah, bizi ağlatma daha,
Salma bir-birindən bizi uzağa.
Çox saldın bizləri sən intizara,
Heç bir intizar, bu intizarə bənzəməz.

Gülüzar deyibən düşdü çöllərə,
Yalvardı, yaxardı eldən-ellərə.
Şah İsmayıl aşiq olan tellərə,
Şəvədən parlayan qarə bənzəməz.
Ulduza bənziri gözlərin sənin,
Şəkərdən şirindir sözlərin sənin.

Yandırar aşiqi gözlərin sənin,
Heç göz, od səndəki nazə bənzəməz.

«Məhəbbət» dedigin dəryadı, dərya,
«Eşq odu»dedigin qovğadı, qovğa.
Eşq ilə çətindir eyləmək sövda,
Bu sövda pul ilə varə bənzəməz.

Görüm eşq oduna biztək düşəni,
Biztək hər bir zülmə kim ötüşəni.
Olmasın dolanan dağı, meşəni
Biz avarəyə heç avarə bənzəməz.

Gələndən, gedəndən tutduq sorağın,
Çıxmışdı Yəmənə, Hində ayağın.
Şah İsmayıl kimi vardı dayağın,
Heç bir dayaq bu divarə bənzəməz.

Bu mouqə Şah İsmayıl və Gülzar Ərəbzənginin bu cürə mehriban-mehriban oxumağın görən kimi hər ikisi də yerindən durub onun boynun qucaqlayıb, biri bir üzündən və biri də o biri üzündən öpməgə başaladılar. Əlbəttə, Şah İsmayıl vəfalı bir aşiq kimi və Gülzar da bir istəkli bacı kimi ondan öpüş aldılar. Qoca qarı bunların bu cürə bir mehriban olduqların görən kimi «afərin» dedi və ömründə bu cür mehriban və məhəbbətli sevgililər görmədiginə görə çox dərindən baxırdı. Buna görə o da zövqə gəlib Şah İsmayıldan icazə alıb, sazı götürüb Şah İsmayıla dedi:

– Siz oxuyun, Gülzar ilə Ərəb oynasınlar və mən də saz çalım.

Şah İsmayıl, və Ərəb, Gülzar qoca qarının xatirin istədiklərinə görə onun sözün yerə salmayıb, daha indi

oxumağa və çalmağa və oynamağa başladılar. Amma qoca çox gözəl çalırdı. Belə ki, bəlli olurdu ki, cavanlıqda aşiq olub və öz sevgilisindən ayrı düşüb. Ancaq sazın sızıltısı Şah İsmayılı daha zövqə gətirib və onları da oynamağa məşğul elədi.

İndi aldı Şah İsmayıl:

Gün üzli Gülüzar, gün üzli Ərəb,
Məşuqələr sizdən alalar ədəb,
Bəzənsin Nəccivan, bəzənsin Hələb
Bəzənsin aləmi ellər şad olsun,

Şad olsun elləri, şad olsun hamı,
Tutulsun ölkədə millət bayramı,
İçilsin ortada məhəbbət camı,
Varlılar, yoxsullar hamı yad olsun.

Çırağan olunsun Təbriz şəhrini,
Düşmənin gözündən alaq zəhrini,
Onlar ki, görübdür elin qəhrini,
Onlara bu ibrət daha yad olsun.

Ürəklər şad olub, silinsin paslar,
Xəlqimiz geyinsin tazə libaslar,
Birləşin diləklər, türk ilə farslar,
Zülm ortadan gedib ədlü dad olsun.

Həmişə qaynasın bizim əv Araz,
Qəlbimiz eşdən olmasın dayaz.
Bizim naləmizi söyləyir bu saz,
Qoca nənə, sənin qəlbin şad olsun.

Şah İsmayıl oxuyarkən Ərəb və Gülzar oynayırdılar və qoca qarı da sazı naləyə gətirmişdi. Doğrusu, o çəməndə uzaqdan bir toy büsatı gözə vururdu. Daha bir qədər çalıb oxuyandan sonra hamılıqca gülüb şadlığa başaladılar və yenə də qəhvə, şərbət içib, danışmağa məşğul oldular. İndi bunlar burada qalsınlar, görək alagöz Pəri sevgilisi Şah İsmayılın ayrılığında nə edir.

## YALQIZ QALAN ALAGÖZ PƏRİ

Müddətlər idi ki, Pəri xanımın həsrət yaşı ilə dolan gözləri öz əzizi üçün yollarda idi. Pəri o qədər gözünü yollara tikib və intizar çəkmişdi ki, daha çox arıqlayıb candan düşmüşdi. Pərinin ala gözləri çuxura düşüb, gül rəngi sap-sarı olub, qırmızı yanaqları və qönçə dodaqları sönmuşdi. Pəri hər gəlib-gedəndən və yollardan keçən karvanlardan öz sevgilisi Şah İsmayılın sorağın tuturdu. Vəli hamı onun cavabında «yox» deyirdi. Pəri hamı kəsdən və hamı yerdən naümüd olub, çox zaman Şah İsmayıl ilə görüşdügi yerlərə gedib, öz-özünə o yerlərdən sevgilisin soruşurdi. Amma nə divar ona cavab verdi nə də dilsiz yerlər.

Pəri bəzi vəqt yaşlı gözlərin və solmuş üzün öz sevgilisi ayaq qoyan yerlərə qoyub öpürdi və ya dəstə-dəstə çəmənlərə qonan durnalardan onun sorağın tuturdi. Amma nə ayaq yerləri ona cavab verirdi, nə də gözəl-göyçək durnalar. Pəri çox zaman öz-özünə əfsus deyirdi və xəyalından keçirirdi ki, şayəd öz sevgilisi bir yuxu imiş və bir belə işin əsli yox imiş. Amma görürdi ki, yox, cavan şahzadə onun ilə adaxlı olub və ona üzük verib. Buna görə yəqin edirdi ki, İsmayıl Xətayi adında bir şahzadə və şair sevgilisi var.

Buna görə bəzi vəxt fikrə düşüb deyirdi: – Ey vay mənə ki, xəyal edirəm sevgilim bir də buraya gələcək. Hardan bəlli ki, o indi məni yaddan çıxarmayıb və heç buraya gəlməyəcək və qulağı səslərdə qoyacaqdır. Ax, Xudaya, aya ola bilər ki, sevgilimin gül üzün bir də görüm? Bu bivəfa və məni yaddan çıxardan və gözi yollarda qoyan sevgilimi.

Pəri evdə tək olanda hamı şeyi, yəni dam-divar, yer-gög, daş-torpaq və sevgilisi oturdiği döşək onun ilə danışırdı. Vəli heç biri demirdi ki, onun sevgilisi hardadır və ya haçan gələcək.

Pəri gündüzləri çinar ağaclarının kölgəsində oturub işıldayan kimi yanan ulduzlara baxırdı. Doğrusi, Pərinin ürəgi çox saf və məhəbbəti bir gözəl və qızğın məhəbbət idi. Pərinin tək olub oxumağının sızıltısına çox zaman kəndin gözəl və ay parçaları yığışıb qulaq verirdilər və çoxlarını onun oxumağından qəmli olub, onlar da Pəriyə həmdəm olurdular. Daha bir gün Pərinin qardaşları özgə bir kəndə toya gedib və kəndin əhalisinin kişilərinin çoxu da onlar ilə getmişdilər və buna görə Pəri və çoxlu qızlar o gecəni bu cürə xəlvət görüb, bir yerə yığılıb, ay qabağında oturub tar və sazı səsləndirirdilər. Və onların içində bir naləli və cigər yandıran səs belə qulağa gəlirdi:

Dumanlı dağlara bənzər ürəgim,
Alışdı ürəgim, yandı kürəgim,
Ey gecə-gündüzi olan diləgim,
Pərinin cigəri əlovlandı, gəl!

Əlovlandı ürək, əlovlandı can,
Əlovlandı canım, əlovlandı qan,
Düşdi cigərinə qəmindən talan,
Ruhum bu canımdan uzaqlandı, gəl!

Çıxarıbsan məni yoxsa yadından,
Bir xəbər gəlmiri sənin yanından,
Nə səndən bir gələn var, nə bir nişan,
Sənsiz ağca günüm qaralandı, gəl!

Oleydim eşq ilə qurban boyuna,
Məni bundan da çox tutma oyuna.
Ürəgim istiyir gələm toyuna,
Bu qəlbim eşqindən qızıl qandı, gəl!

Canım intizarda, gözüm yollarda,
Qanatım sınıbdır, qalmışam darda.
Gözlərəm yolunu boranda, qarda,
Ürəgim sinədən aralandı, gəl!

Yadıma düşəndə vəfasızlığın,
Mən yalqız qız ilə arasızlığın,
Pərini öldürür səfasızlığın,
Ahəstə sızıltım ucalandı, gəl!

Qaraldı günlərim, saraldı üzüm,
Saraldı dodağım, qaraldı gözüm,
Yaralı ürəkdə çoxaldı sözüm,
Göglərə fəryadım havalandı, gəl!
Sizə qurban olum, ey gözəl qızlar,
Ey qara ölkədə parlaq ulduzlar.
Ürəgim qüssədən alışıb sızlar,
Söyləyin yadıma, Pəri yandı, gəl!

Gecələr uluduza baxıb, ağlaram,
Bu qanlı göz yaşım axıb, ağlaram.

Odlara qəlbimi yaxıb ağlaram,
Sevgilim, dərdü qəm ağırlandı, gəl!

Gələnə-gedənə yalvaran canım,
Gözləri qüssədən qaralan canım,
Yarın gələməyincə daha yan, canım,
Söyləyin yarıma, Pəri yandı, gəl!

Güli budağında xar olan Pəri,
Yarı özgələrə yar olan Pəri,
Bu geniş dünyası dar olan Pəri,
Ürəgimin yaşı paralandı gəl!

Pərinin sınıbdır qolu-qanadı,
Qəlbini yandırıb ayrılıq dağı,
Olubdur mənzili çöllər bucağı,
Söyləyin yarıma: Pəri yandı, gəl!

Nə bir nəma gəlir, nə bir xəbərin,
Yəqin ki, yanmayıb mənə cigərin,
Uzandı gözümdə çətin səfərin,
Səfərin uzanıb çox yubandı, gəl!

Nə səndən bir xəbər gətirən vardır,
Nə köhnə yarəmi bitirən vardır,
Nə bir müjdə mənə yetirən vardır,
Dünənkilər bu gün adaxlandı, gəl!

Qadasın aldığım gözəl dilbərim,
Ey gecə-gündüzi dildə əzbərim,
Söyləmirsən axır nec oldu Pərim,
Pərinin son güni yaxınlandı gəl!

Başıva dolanım, qadavı alım,
Ayrılıq odunda nə qədri qalım?!
Qadavı, dərdivi canıma salım,
Pəri qada alıb, qadalandı, gəl!

Ey məni yandıran, ey Şah İsmail,
Səndən başqasına deyilən mail,
Bir kəsim yoxumdur, ol mənə nail,
Sənsiz ağzım, dilim açılanda, gəl!

Gözümdən bir ləhzə getməz xəyalın,
Dolubdur qəlbimə dərdü məlalın.
İnşallah, xoş ola həmişə halın,
Pərinin ki, halı havalandı, gəl!

Haçandır düşməyib gözüm gözüvə,
Bir doyunca baxam o gül üzüvə,
Həsrətli bir kəlmə şirin sözüvə,
Sevgilim, ələman, əlamandı, gəl!

Sən gedəndə çöllər dolu qaz idi,
Qış keçmişdi, ilin fəsli yaz idi,
Ürəgimdə dərdü möhnət az idi,
İndi boğazıma qəm dayandı, gəl!
Qara qış keçibdir, yetişdi bahar,
Bəzəndi bağçalar, olubdu gülzar,
Başa yetişmədi uzun intizar,
Yetişər bostanda qıralandı, gəl!

Bu zaman dövrədə oturan gözəl və nazlı qızlar Pərinin bu cürə yanıqlı-yanıqlı oxumağın görən kimi daha

onlar da qüssələnib ah çəkirdilər. Amma onların içində bir gözəl əvə nazlı qız hamıdan artıq qəmli görünürdü. Hətta suratında damcı-damcı parlaq yaşlar işıldayırdı. Bu gözəl və ay parçası neçə müddətlər idi ki, aşiq olmuşdu. Amma hənuz öz eşqini sevgilisinə söyləməmişdi. Əvə buna görə gizlində yanıb və gizlində alovlanırdı. Ancaq indi ki, Pəri bu cürə qəmli-qəmli oxuyurdi, o da fürsət ələ salıb ürəgini gizlin qəmdən və çoxli qüssədən boşaldırdı. Qızlar Pəri ilə danışarkən birdən-birə gözləri o gözəl qıza düşdi. Adı Ağca idi.

Buna görə qızlar ona belə dedilər:

– Bəh, bəh, Ağca xanım, bəs sən də aşiq imişsən. Bəh, bəh, çox gözəl.

Bunu deyib sonra hamılıqca güldülər və oni məsxərə elədilər. Amma Ağca bu gülməkdən və şuxluqdan heç narahat olmadı. Çünki bilirdi ki, narahat olsa, daha oni oynadacaqlar. Amma qızlara əl götürməyib oğlu gülməgə qoydular. Vəli Pəri onlara acıqlandı və özi onun ürəgin ələ gətirmək üçün oni dilə tutub soruşdi:

– Xanım Ağca, dərdin nədir? Nə üçün belə qəmli və qüssəli olubsan? Mən sənin bacınam. Məndən utanma. Hər nə dərdin var, mənə söylə, ta bəlkə çarə edim.

Pəri, doğrusi, bu qızın halın görüb öz dərdi yadından çıxdı. Buna görə Ağcanın dərdin bilmək üçün bir xəlvət ağacın dibinə çəkib soruşdu:

– Mənim gözəl bacım! Bir ay işığına bax, bir saf və duru gögdə ulduzların aydın və xoşhal və ümidvardırlar. İndi o parlaq ay və yanar ulduzlar kimi ürəgini saf edib və mənə gizlin dərdivi söylə. Ağca bir az yaşıl gögə, aydın aya və ulduzlara və bütün bağda olan gög ağaclara və yol qabağında əsən güllərə yarpaqlara nəzər salıb dedi:

– Doğrusi, elə bil ki, Pərinin sözü onun ürəgin bir az

aram elədi. Pəri özi Ağcadan artıq eşq dərdinə girifdir və ondan çox tutqun və qüssəli idi. Amma Ağcanın elə qəmli edib məşğul elədi ki, daha fəqət Ağcanın dərdinə çarə axtarmağa düşdü. Ağca bir qız idi, gözəl, qaraqaş, irigöz, gülüzlü, çiçəkdodaq qırmızı yanaq, bəstəboy, ağbədən, xoşəxlaq, həyalı, azdanışan, hər yalan sözə inanmayan. Öz ana və ata və qardaş və bacı və bütün qohumlarına və hamı xalqına mehriban, ürəgi yanan. Amma bunla belə indi bir dərdə düşüb və odda yanırdı ki, bir kimsə onun dərdinə dərman edmirdi. Vəli indi Pərinin mehribanlığı və dərdə yetişmaği və onu bacı səsləmağı ürəgin bir qədər sakit elədi. Daha Pəri hər nə soruşdi, Ağca düzün deмədi və buna görə Pəri şəkə düşüb və öz-özünə xəyallandı. Ey va, olmasın ki, bu qız mənim sevgilim Şah İsmayıla aşiq olmuş ola. Bi şək Pərinin ürəgini az qaldı yesin. Buna görə narahat bir halda tez-tez soruşudi:

– Canım Ağca, gözüm Ağca, dərdin nədir? Kimi sevirsən?

Amma Ağca bir söz demirdi və Pərini daha şəkə salıb, narahat edirdi. Vəli Ağca Pərinin bu cürə əl çəkməmağın görüb daha sözə gəldi:

Sənə qurban olum, ey gözəl Pəri,
Ey elin, obanın dildə əzbəri.

Bu dərdü-möhnətə düşəndən bəri,
Dərdimə tapılmaz çarə, ağlaram.

Cəfalar çəkdigim, qəmə dolduğum,
Baharın görməyib, xəzan olduğum,
Güli qönçəsində yanıb, solduğum,
Düşəndə qəlbimə yarə, ağlaram.

Ağlaram gecəni, ağlaram səhər,
Neyləyim ki, məndən o edər həzər.
Haçanatək daha yana bu cigər,
Olubdur yüz yerə parə, ağlaram.

Qadasın aldığım gül üzlü Həsən,
Ey mənim halımı, səbrimi kəsən.
Yaralı dərdimi bircə biləsən,
Görərsən düşmüşəm darə, ağlaram.

Həsəndir qəlbimi əlovlandıran,
Həsəndir Ağcanı yaxıb yandıran,
Həsənsiz olmasın, görüm, bu cahan,
Günüm onsuz olub qarə, ağlaram.

Yanıbdır ürəgim, olubdur kabab,
Yazarsam dərdimi, olar yüz kitab.
Bu eşq əgər mənə olubsa əzab,
Onu sevirəm min barə, ağlaram.

Onu görməyəndə rəngim saralar,
Saralar dodağım, gözüm qaralar,
Ürəgimə düşən gizlin yaralar,
Tapılmır yarəmə çarə, ağlaram.

Pəri indiyə kimi şək içində çalıb və xəyal edirdi, şayəd Ağca onun sevgilisinə aşiq ola. Amma Ağca «Həsən» adı gətirən kimi bir az rahat olub sevindi və sonra fikrə düşdi ki, «Görəsən, Həsən kimdir?» Amma hər nə fikr elədi, gördi ki, o yerdə neçə nəfər Həsən var ki, bir-ikisi uşaq və bir-ikisi qocadır. Buna görə fəqət bir cavan Həsən vardır ki, o da öz qardaşıdır. Bu idi ki, birdən-birə zövqə gəlib, Ağcanı qucaqlayıb üzündən öpməgə başladı və Ağ-

canı da ondan bu mehribanlığı görən kimi, daha gözlərinin yaşın silib, onun üzündən öpüb qucaqladı. Pəri dedi:

– Ey mənim gözəlim, bunun üçün qüssə yemək lazım degil. Qardaşım özi səni neçə dəfə görüb, o gözəl baxışuva və nazlı gülüşüvə aşiq olub və mənə namə vermişdi ki, sənə verəm, vəli mən xəyal edirdim ki, sənin adaxlın var, buna görə utanırdım.

Ağca bu sözləri eşidən kimi Pərini qucaqlayıb, onun əllərindən və gözlərindən və alnından öpməgə başladı. Doğrusi, az qalırdı ki, Pərini yesin və ya onun başına dolansın. Amma Pəri onu dilə tutub vədə verdi ki, Həsəni bu işdən xəbərdar eləsin. Bu idi ki, Ağca daha da sevinib, şad oldi. Nəhayət, bir az orada danışıb və dərdləşəndən sonra durub qızların yanına gəldilər. Qızlar onları görən kimi pıça-pıça düşdülər və sonra hamısı gülüb danışmağa başladılar. Vəli bir kəs onların sözündən bir şey başa düşmədi. Daha neçə gün bundan keçdi və Ağcanın gözi yolda idi ki, sevgilisindən bir xəbər olsun, vəli hənuz bir xəbər olmurdi. Buna görə Ağca yenə də bir xəlvət yer tapıb, sazı bağrına basıb belə başladı:

Haray, dumanlı dağlar,
Qarlı, boranlı dağlar.
Burda bir qərib ölüb
Gög kişnər, bulut ağlar.
Haray, gözəlim, haray,
Oxumda qalmayıb yay.
Burda yalqız ölənə,
Ürəgimi kim dağlar.

Haray, çəmənli çöllər,
Ördəkli, qazlı göllər,
Cavanlığın çağında

Xəzanə döndü bağlar.

Haray, günahım nədir?
Bir intibahım nədir?
Nə bir təbibim vardır,
Nə də dərdim sağalır.

Gəzirəm yana-yana,
Ürəgim dönüb qana,
Yaralı bu könlümi,
Gizlində odlar, dağlar.

Sarılaydım belinə,
Məni apar elinə.
Nə canda can qalıbdır,
Nə də ürəkdə yağlar.

Sünbülim suda yandı,
Qara yeldə talandı.
Gülüm, qönçəm saraldı,
Məni qəmlər qucaqlar.

Bu dağlar kömürdəndi,
Keçən gün ömürdəndi,
Fələkin bir quşu var,
Dimdigi dəmirdəndi.

Aman, haraya gəlin,
Bizim saraya gəlin.
Burda bir qərib ölüb
Qəbrini qazana gəlin.

Aralandım yarımdan,
Uzun intizarımdan.
Ürəgim titrədikcə
Gözlərimdən qan ağlar.

Ağca daha saz ilə oxumağa qızışmışdı və xəyal edirdi ki, Pəri onu yaddan çıxardıb. Buna görə daha ümidin ondan kəsib ağlamağa pənah gətirmişdi. Amma oxumağın qurtaran kimi bir nəfər dalıdan onun gözlərini əlləri ilə tutub dedi:

– Əgər bildin mən kiməm?

Ağca hər nə qədər fikr elədi, bir kəs nəzərinə gəlmədi. Əvvəl xəyal elədi ki, şayəd Pəri olsun. Əllərin onun əlinə sürtüb gördi ki, bu əllər çox idi və yoğundur. Buna görə hər nə fikir elədi, bir şey başa düşmədi. Amma əlləri o əllərə dəgən kimi bir az ürəgi vuran kimi oldu. Elə bil ki, əlini bərqə vurdi. Nəhayət, şəkə düşübsə də, ancaq inanmırdı ki, bu igit və qəhrəman əllər öz istəklisi Həsənin ola. Amma daha yalvarmağa başladı. Dedi:

– Ey adam, məni Allaha bağışla.

Bu mouqə Həsən əllərin onun gözündən götürüb dedi:

– Gözəlim, mən canımı sənə bağışlayıram.

Sonra onu qucaqladı. Ağca dönüb, dalı baxıb sevgilisi Həsəni görən kimi az qaldı ruhu bədənindən çıxsın və bir də çox utanıb qızardı. Çünki yuxuda görsəydi inana bilməzdi ki, Həsən o mouqə onu aradan tapsın və bu cürə mehribanlıq eləsin. Ağca hənuz bu fikir içində idi ki, Həsən onun üzündən və gözündən öpməgə başlamışdı. Ağca ta özünə gəlincə Həsən onu bir ceyran kimi bağrına basıb tumarlamağa başlamışdı. Doğrusi, Həsənin əli Ağcanın bədəninə dəgəndə az qalırdı ki, ürəgi yerindən oynasın. Çünki illər boyu idi ki, Ağca Həsəni sevirdi. Vəli utanıb

və bir vəsilə tapa bilmirdi ki, öz dərdini ona yetirsin. Buna görə indi ki, fürsət ələ düşmüşdi elə bil ki, dünyanı ona vermişdilər. Ağca doğurdan da ağ günə çıxıb və bəxtiağ görünürdi. Ağca həm utanırdı və həm illər boyu həsrət qaldığı sevgilisi Həsəni bağrına basıb, onu ürəgində saxlamaq istəyirdi.

Doğrusu, bu idi ki, Ağca Pərini görüb və dərdini ona deyəndən sonra Pəri də bu sözü öz qardaşı Həsənə demişdi və Həsən bu sözü eşidən kimi, daha məəttəl olmayıb Ağcanı axtarıb, burada oxuyan gördü. Həsən özü də müddətlər idi ki, bu gözələ aşiq idi. Amma o da utanırdı. Bu ki deyirlər «ürəgdən ürəgə yol var», doğrudur. Amma bunların ürəglərinə gög qoymuşdular. Daha boyu bir-birlərinə həsrət qalan aşiq və məşuq indi bir-birlərinə çatıb və özlərini dünyada ən birinci xoşbəxt və başıuca görürdülər. Doğurdan da bu cürdür. Onlar bir-birlərin o qədər öpübdişlədilər və bir-birləri ilə razü niyaz elədilər ki, daha qızın qardaşlarının vəqti çatdı. Buna görə Həsən Ağcadan ayrılmaq və gözü dönmək istəmirdi. Daha Ağca da onun kimi dönə bilmirdi. Vəli bunla belə gərək idi ki, ayrılsınlar. Buna görə bu dəfə vədə yerin qərar qoyub və bir də öpüşüb-qucaqlaşdılar. Sonra Həsən atına minib yollandı və Ağcanın gözlərin öz dalıca yollarda qoydu. Həsənin atının tozu görününcə Ağca Həsrət ilə ona baxırdı.

## DƏRD İLƏ VURUŞMA

Şah İsmayıl neçə müddət yollarda olduğu üçün daha sevgilisi Gülzar və Ərəb ilə və bir də qoca qarı ilə Təbrizə tərəf yola düşüb gəlirdi. Vəli yolda ona xəbər verdilər ki, bütün İranın hər tərəfindən yağılar baş qovzayıb və bir tərəfdən də Fars və İraqda hökumət edən Murad Mirzə həmlə gətirmək istəyir. Şah İsmayıl bu xəbəri eşidən kimi daha

dayanmayıb, gecə-gündüz yol gəlib, ta beləxərə bir gün gecə zamanı özünü Təbrizə yetirib və öz qəsrinə daxil olub yerində qərar tutdu. Ancaq bir ayrı paltar ilə qəsrə girdi və heç kəs bilmirdi ki, Şah İsmayıl bu müddəti harda idi. Çünki Şah İsmayıl öz yerində bir böyük şəxsi qoymuşdu.

Ancaq sabah olan kimi Şah İsmayıl dəstur verdi ki, məclis qurulsun. Buna görə məclis quruldu və Şah İsmayıl məclisdə hazır olub, bütün yağıların və Murad Mirzənin baş qovzamaqların danışığa qoyub və belə neçə aldılar ki, əvvəl Murad Mirzənin qabağın alsınlar və sonra İrandakı yağıları yerlərində oturtsunlar. Buna görə fərman verilib və bütün qoşun hazır olub, Həmədanın yaxınlıqlarına yollandılar və bu xəbər Murad Mirzəyə yetişib, o da bütün qoşunun bir yerə toplayıb, cəng üçün hazır oldular. Hər iki tərəfin qoşunu cəng üçün lazım olan silahları və azuqə və paltar və gizlin yerləri hazır edirdilər və qərar idi ki, cümə güni səhər tezdən cəng başlansın. Buna görə hamı qoşun əhli qılıncların və qəmələrin itildib, qalxanların bağlayıb, kəməndlərin eşib və atlarının nalına baxıb və beləxərə çoxları öz evlərinə namələr yazıb və vəsiyyətlərin edib, daha cümə güni gəlib çatdı. Qızılbaş qoşunu səhər tezdən cəngə hazır olub dayanmışdılar və düşmənin qoşunun gözləyirdilər. Vəli hər nə gözlədilər, onlardan bir əsər olmadı. Buna görə çoxları xəyal elədilər ki, Murad mirzə qorxub dalı oturub. Amma Şah İsmayıl yaxşı bilirdi ki, onların bu rəftarı cəng hiyləsidir. Bu idi ki, dəstur verdi ki, qoşun neçə qismət olub və hər qismət bir yerdə məmuriyyət tapsın. Yəni bir qismət dərə-təpədə, bir qismət meşədə özlərin gizlətsinlər. Bu idi ki, qoşun fourən neçə qismət olub öz yerlərinə getdilər və səhərdən gecəyə kimi hər nə qədər gözlədilər, düşməndən bir xəbər olmadı və daha çoxları xəyal elədilər ki, Murad Mirzə qaçıb və qoşunu da-

ğılıb. Amma hənuz dan yeli əsməgə təzə başlamışdı hava alaqaranlıq idi ki, birdən-birə Murad Mirzə qoşuna fərman verdi. Amma qoşun yerlərdə sürünə-sürünə gəlirdilər və onlardan bir zərrə də səs çıxmırdı və istirdilər ki, Şah İsmayılın qoşunun qafildən dövrələyib tutsunlar. Vəli Qızılbaş qoşunu da müntəzir halda durmuşdu və yaxınlarda qəravul qoymuşdular ki, əgər bir ittifaq üz versə, tez xəbər versinlər. Qızılbaş qoşunu gizlənmişdilər və Murad Mirzənin qoşunu onları görmürdülər. Vəqti ki, qızılbaşların çadırlarına yaxınlaşdılar, birdən-birə əllərində iti qılınc çadırlara həmlə apardılar. Amma çadırların içinə girən kimi gördülər ki, çadırlarda bir kəs yoxdur. Bu mouqə hənuz çadırlardan eşigə çıxmamışdılar ki, qızılbaş qoşunu onları «hura» çəkə-çəkə dövrələyib, vuruşma başlandı. Amma Murad Mirzənin qoşunu dövrələmişdi və bir iş görə bilmirdilər. Daha gecənin uzmanı, qılıncların taqqa-tağı və əmudların taraqqa-turuğu və atların şiyhəsi çölü doldurmuşdu. Şah İsmayıl hər tərəfə dönürdü, başlar idi ki, yerə tökürdü. Onun qılıncının qabağından qurtaran olmurdu. Düşmən qoşunu qarışqa kimi çöllərə dağılıb, naçar olaraq vuruşurdular. Ancaq qaçmaq istədisələr də, daha qaçmağa da yol yox idi. çünki qəhrəman qızılbaşlar və onların böyük və igit sərdarı Şah İsmayıl düşmənə aman vermirdilər ki, heç olmazsa onların əlindən qurtarıb qaçsınlar. Şah İsmayıl yorulmaz bir halda neçə nəfəri birdən-birə aradan bölürdü. Onlar daha aciz qalıb, hiylə fikrinə düşdülər. Buna görə bir nəfəri məmur elədilər ki, Şah İsmayılı dalıdan şəmşir ilə vurub öldürsün. Bu idi ki,bir nəfər gizlənə-gizlənə bir ağacın dibində durub Şah İsmayılı gözləyirdi. Vəli Şah İsmayıl onu görmürdü. Bu bir nəfər neçə dəfə qılıncın gögə qovzamışdı ki, onu öldürsün, vəli fürsət ələ düşməmişdi. Amma bu mouqə bir nəfər qızılbaş onu

bu cürə görən kimi, fourən işi anladı və o mouqə ki, o bir nəfər qılıncın gögə qovzayıb Şah İsmayılın başına endirən zaman qızılbaş dalından onun təpəsindən elə bir zərbət vurdu ki, bədəni iki bölünüb yerə sərələndi. Bu zərbətin səsinə Şah İsmayıl dönüb dalı baxan kimi işi anladı və qızılbaşın üzündən öpüb, fourən onun adın yazıb saxladı ki, cəngdən sonra onu öz yanına çağırıb ona mehribanlıq eləyib və şanına görə bir məqam versin. Bu xətər rəf olubsa da, ancaq Şah İsmayıl qəmli olub, ah çəkdi. Çünki fikir elədi ki, əgər Ərəb burada olsaydı, nə qədr ona kömək olardı. Vəli əfsus ki, Ərəb burda degil idi. Yəni Şah İsmayıl özü qoymamışdı Ərəb cəng meydanına gəlsin.

Şah İsmayıl yenə də həmləyə başlayıb qılınc vururdu. Doğrusu, daha düşməndən bir kəs yox idi ki, qabaqda dayansın. Buna görə Şah İsmayıl fərman verdi ki, daha bundan artıq qan tökülməsin. Bu idi ki, şeypurçu aralaşma şeypurun çəkib, ara sakit oldu və hər kəs öz çadırına qayıtdı. Amma Murad Mirzə oxunun daşa dəgdigindən çox qəmli olub və fikir içində qərq idi. O bilmirdi nə eləsin. Çünki bütün cənglərdə düşmənləri bu cürliğ ilə və ayrı bir siyasət ilə ortadan apardı. Vəli indi cavan və düşüncəli Şah İsmayılın qabağında aciz qalmışdı. Amma o qədər də məəttəl olmadı. Dəstur verdi ki, yüz min qoşun hazır olsun və fərman bütün Asiya-səgirdən başlayıb, İranın Yəzd, Kerman, Xorasan, Gürgan, Mazandaran və Luristan və Kürdüstan şəhərlərinə də yollandı və bir az müddətdə yüz min silahlı qoşun hazır oldu. Amma bu tərəfdən də Şah İsmayıl bu xəbəri eşidən kimi fərman verdi bütün Azərbaycanın – Təbriz, Bakı, Nəxçəvan, Şirvan, Gəncə, Ərdəbil, Xoy, Səlmas, Urmi, Maki, Mərənd və Zəncan şəhərlərindən qoşun yığıldı, ta özlərini bir böyük və qorxulu cəng üçün hazır elədilər. Vəli cəngin başlanması on gündən

sonraya qərar qoyulmuşdu. Buna istirahət edib və şikara məşğul olurdi və bəzi vəqt öz gözəl və mehriban sevgililəri yadına düşüb, sazı götürüb, meşənin bir xəlvət bucağında, meyvəli ağacların kölgəsində oturub belə oxuyurdu:

Doyunca görmədim qara gözləri,
Bağrımı yarır bu hicran mənim.
Düşəndə yadıma şirin sözləri,
Qəlbimi tuturi qızıl qan mənim

Haçandır çatmayıb əlim Pəriyə,
Az qalır ürəgim yanıb əriyə.
Ərisin dağları, dönsün dəriyə,
Bu canda qalmayıb daha can mənim.

Vətən əlaqəsi, yar əlaqəsi,
Gülüzar qoynunda nar əlaqəsi,
Ərəbə qurtulmaz, var əlaqəsi,
Olub əvvəlindən bu peyman mənim.

Yolum düşdü mənim bütün çöllərə,
Çöllərdən qurtarıb düşdüm sellərə.
Dolandım dalıyca eldən ellərə,
Dərdimə şahiddir Hindistan mənim.
Sevgilim bir şeydir bəlayə bənzər.
Bəlayə bənzəyib, harayə bənzər,
Aşiqin gözündə bir ayə bənzər,
Gözümdə bir aydır o canan mənim.

Pərinin qaşları bənzər kamana,
Ərəbin gözləri gözəl ceyrana,
Gülzarın baxışı dəgər hər yana,

Nə huri gözümdə, nə qılman mənim.

Ayrılıq oduna alışdı Pəri,
Gecə-gündüz dilim əzbəri.
Ondan bu müddət dönəndən bəri,
Sızıltı ucalar yarımdan mənim.

Qurban olum onu doğan anaya,
Onu doğub, məni saldı bəlaya.
Gözləri ulduza, ağ üzü aya,
Çıxıbdır əlimdən o ceyran mənim.

Sevgili uğrunda, səfa yolunda,
Vətənin uğrunda, cəfa yolunda,
Verərəm canımı vəfa yolunda,
Bu nəqd baş mənim, şirin can mənim.

Daha iki gün qalmışdı ki, cəng başlansın, buna görə Şah İsmayıl yüz min qoşunu başına yığıb onlar üçün danışıb və cəngdə düşmən ilə nə cürə vuruşma, habelə dalı oturanda məyus olmamağa görə və bəzi vəqt qabağa gedəndə çox da şadlıqdan özlərin itirməmağ üçün dəsturlar verdi. Daha iki gün bu cürə onlara dəsturlar və təlimat verirdi. İndi gecədi və qərardır ki, səhər tezdən cəng başlansın. Bütün çadırlarda şamlar yanırdı. Qoşun əhli neçə nəfər bir-birinin başına yığışıb söhbət edirdilər. Hətta bəziləri saz ilə çalıb oxuyurdu və uzaqdan belə eşidilirdi:

Aşan çöllər, yaman çöllər,
Başdan-başa yanan çöllər.
Qızıl qana dolan çöllər,
Aman çöllər, yaman çöllər.

Dərələr nəş ilə dolmuş,
Bu bağlar, bağçalar solmuş,
Qızıl güllər xəzan olmuş,
Aman çöllər, yaman çöllər.

Bölük-bölük düşən canlar,
Çeşmə kimi axan qanlar,
Qocalar, igit cavanlar,
Aman, çöllər, yaman çöllər.

Yağış təki düşən başlar,
Gözlərdən axılan yaşlar,
Bizə olub arkadaşlar,
Aman çöllər, yaman çöllər.

Salam olsun el, qardaşa,
Bu ayrılıq yetər başa,
Məkan olubdur savala,
Yanan çöllər, yaman çöllər.

Bulutlartək dolan üzlər,
Həsrətlə dolanan gözlər,
Ürəkdə gizlənən sözlər,
Aman çöllər, yaman çöllər.
Qoşun gedər vuruşmağa,
Bir-birinə quruşmağa,
Dərəni, dağı aşmağa,
Aman çöllər, yaman çöllər.

Qılıncların oynaması
Anaların ağlaması,
Şah İsmayılın qovğası,

Aman çöllər, yaman çöllər.

Şah İsmayıl çağıranda,
Düşməni yıxıb qıranda,
Xain düşüb anqıranda,
Aman çöllər, yaman çöllər.

Qəmələrdən qan damanda,
Qılınclardan can damanda,
Can bu yanda, qan o yanda,
Aman çöllər, yaman çöllər.

Uçurum-uçurum dağlar,
Xəzandan saralmış bağlar.
Cavanlar nəşi can dağlar,
Aman, çöllər, yaman çöllər.

Vətən uğrunda can vermək,
Şərəfdir can, qan vermək.
Düşmənlərə talan vermək,
Aman çöllər, yaman çöllər.

Bu cürliğ ilə keçib səhər açılan kimi hər iki tərəfin qoşunu səf çəkib bir-birlərinin qabağında dayandılar. Bu çölləri iki yüz min qoşun doldurmuşdu. Doğrusu, uzaqdan baxanda dərya kimi görünürdi. Nəhayət, o qədər çəkmədi ki, cəng şeypuru çalınıb, hər iki tərəf «hura» çəkib, həmləyə başladılar. Şah İsmayıl qabaqda idi və misri qılıncı çəkib qabağa gələni xiyar kimi aradan və beldən vurub bölürdü və qızılbaşlar da düşmən ilə tutuşub bərk dögüşürdülər. Günəş təzə çıxmışdı və hava hələ sərin idi. Vəli qılıncların parıldaması və pəhləvanların nərəsi bütün

onların bədənin qızışdırıb acığa salmışdı. Doğrusi, bir-birlərinin yırtmaq istəyirdilər. Hər tərəf çalışırdı ki, hər cürə əsləhədən istifadə edib, düşməni aradan aparsın. Vəli o biri tərəf də çalışmaqda idi. İki yüz min qoşun bir-birinin canına düşüb bu asanlıq ilə aralanan degil idilər. Şah İsmayılın qabağında bir kimsə dayana bilmirdi. Qoç oğlan hər tərəfə dönürdü, düşmənin qoşunu onun qabağından qaçıb ona yol açırdılar. Daha bu xəbər Murad Mirzəyə yetişdi. Murad Mirzə əmr elədi ki, böyük pəhləvanlardan biri onun qabağına gedsin. Buna görə «İldırım» adlı bir qoç pəhləvan dəmirdən paltar geyib, daha meydana yollandı. Şah İsmayıl cəngə qızışmışdı və qabağına gələni bir qılınca qurban edirdi. Vəli bir azdan sonra diqqət ilə baxıb gördü ki, qabağında bir canlı və dəmir geyimli pəhləvan dayanıb. Buna görə işi başa düşüb fourən qalxan tutub dayandı və pəhləvan da tez əl atıb qılınca bir dövr vurub, qılıncı gögə qovzayıb endirən zaman Şah İsmayıl çalağan quşu kimi onun əlin hənuz gögdəkən bərk tutub, biləgin elə sıxdı ki, pəhləvanın barmaqlarından qan sıçradı və qılıncı yerə atıldı. Bu idi ki, Şah İsmayıl daha onun belindən yapışıb, atın üstündən gögə qovzayıb yerə vurdu və pəhləvan özünü onun əlində ölən bilən kimi yerindən qalxıb qaçmağa üz qoydu. Bu xəbər Murad Mirzəyə çatdı. Murad Mirzə yenə də bir ayrı pəhləvan yolladı. Amma fayda vermədi. Çünki Şah İsmayıl onu da o hala saldı. Nəhayət, gecənin yaxınlaşmağına görə, sülh şeypuru çəkildi və hər iki tərəf cəngdən əl götürüb, öz çadırlarına qayıtdılar. Daha yaralananlar üçün dəva və dərman eləməgə başladılar və ölənləri də quyladılar. Sonra sabah üçün cəngə lazım olan şeyləri yenə də hazırlamağa başladılar. Sabah üçün cəngin dəturu verildi. Gecə keçib səhər oldu. Hənuz günəş öz gözəl nurunu alə-

mə yaymamışdı ki, təbli-cəng çalınıb və şeypurlar çəkildi və hər iki tərəf dərya kimi yerindən oynayıb bir-birlərinə hücum elədilər. Əvvəl toqquşanda neçə nəfərin başı bədənindən ayrılıb havada oynadı və neçə nəfərin qarnı cırılıb bütün bağırsaqları və cigəri eşigə töküldi. Ancaq hər iki tərəf də var gücləri ilə vuruşurdular.

Şah İsmayıl da qabaqda qılınc vururdu. Vəli hərdəm Ərəb yadına düşəndə darıxırdı. Çünki çox zaman idi ki, bütün cənglərdə adət eləmişdi ki, Ərəb onun sağ tərəfində olsun. Vəli indi görürdü ki, Ərəb yanında degil, qəmli olurdu. Nahardan qabaq düşmən çox fişar gətirdi. Buna görə qızılbaş qoşunu bir az dalı oturdu. Amma nahardan sonra qızılbaş qoşunu bir balaca fişar gəlib, düşməni dalı apardılar. Ancaq cəng şiddət tapdı. Bu dəfə nəqşə idi ki, düşmən qoşunu Şah İsmayılı dövrələyib tutsunlar. Bu idi ki, onun dövrəsin tutub araya alan kimi qızılbaş qoşunu bunu anlayıb bütün güclərin Şah İsmayılın ətrafında topladılar. Buna görə Şah İsmayılın dövrəsində çox çətin bir vuruşma düşdü. Amma düşmən hər nə çalışdı, bir iş görə bilmədi. Bu idi ki, Şah İsmayıl mühasirədən çıxan kimi yenə də həmləyə başladı. Hər tərəf dərya kimi qoşun idi. Hər tərəf baş və bədən, qol və qıç idi. Doğrusu, yerdə ayaq qoymağa yer yox idi. Hətta dərələrə su yerinə qan axırdı. Ölənlərin leşi yer üzün tutmuşdu. Yaralananların fəryad və naləsi gögə qalxırdı. Vəli kim idi ki, onların sızıltısına baxsın. Cəng daha da şiddət tapırdı. Bəzilərinin qılıncları sınıb və bəzilərinin atları yaralanıb ölmüşdü və bəziləri də candan keçmə vuruşurdu. Daha axşam olduğuna görə hər iki tərəfdən sülh şeypuru çəkildi və hər kəs öz yerinə qayıdıb istirahətə məşğul oldular. Bu vəziyyət dörd il tamam davam tapdı. Yəni gah qızılbaş qoşunu, gah da Murad Mirzənin qoşunu basırdı. Ancaq Şah İsmayıl bu cəngi başa

vermək üçün böyük nəqşə çəkib və çoxlu qoşun şazır elədi. Dörd ildən sonra son dəfə olaraq Murad mirzənin qoşunun birdəfəlik üçün əzib aradan aparmağa başladı. İndi gecədi və qərardır ki, yenə də səhər tezdən cəng başlansın, ta bəlkə Bağdad şəhərinə həmlə aparmaq üçün düşməni aradan aparsınlar. Daha gecə keçib səhər olan kimi şeypurlar çəkildi və hər iki tərəf bir-birlərinin qabağında sədd çəkib dayandılar. Düz dörd ildir ki, bu iki qoşun hər neçə gündən və aydan bir vuruşurdular. Ancaq heç biri nə dalı oturdu və nə də qabağa keçə bilirdi. Daha Şah İsmayılın düşməni təkcə bir Murad Mirzə deyildi, bəlkə İranın çox şəhərlərində başqaldıran yağılar və yolkəsənlər də onlar üçün başağrısı olub hər gün bir oyun çıxardırdılar. Buna görə bu gün daha gərək idi ki, bütün bu işlərin hesabına yetişsinlər. Bu idi ki, qızılbaş qoşunu bütün gücün bir yerə yığıb, daha candan keçmə vuruşmaq üçün hazır olmuşdular. Amma bir məsələ ki, çox gözə vururdu, bu idi ki, bu dəfə Murad Mirzənin qoşunu beş yüz min və Şah İsmayılın qoşunu beş yüz və ya altı yüz min olmuşdu. Əlbəttə, hər iki tərəf öz yanlarında hesab eləmişdilər ki, bu gün gərək bu dörd illik davaya xatimə verib, öz işlərin məlum eləsinlər. Bu idi ki, beş yüz min, altı yüz min qoşun və hamı əsləhə, azuqə, dəmir paltarlar və yedək üçün kəhər atlar, hər cürə lazım olan ehtiyaclar hazır idi. Fəqət bir fərman lazım idi ki, onların hamısın aradan aparıb, məhv edib kül eləsin və cavan igitlərin qanın çöllərin isti qumu üstə axıdıb, son nəfəsləri boğazda boğub və torpaqları əlvan eləsin. Amma o qədər çəkmədi ki, hər tərəfin fərman verəni böyük fərmanı verdilər və bu fərman verilən kimi bir milyon qoşun dərya kimi yerindən oynayıb biyabanı bir qaranlıq cəhənnəmə döndərdi. Daha bir göz yumum zamanda çöllər toz-torpaq ilə dolub və atların çığırtısı və pəhləvanların

nərəsi və yaralıların naləsi gögə çıxdı. Ancaq qoşun əhli bu nalələrə və nərələrə və toz-torpağa və habelə bu yerə tökülən bədənlər və başlara baxmayaraq, qılınc vurduqca qızışıb daha da həmləyə başladılar.

İgit Şah İsmayıl mərdanə vuruşurdu və həmişəki kimi hər tərəfə dönüb, kəsib-biçirdi və onun qabağında bir kəs dura bilmirdi. Doğrusu, bu cəng ayrı bir cəng idi. Hətta demək olar ki, bu cəng gərək məlum edəydi ki, aya Şah İsmayıl qadir ola biləcəkdir ki, bütün İran və İraq və böyük Bağdad şəhərini gələcəkdə fəth eləsin ya yox və çün Şah İsmayıl bu cürə nəqşə çəkmişdi ki, İranı alandan sonra Bağdad və bütün Ərəb İraqın alsın, buna görə canın ovcuna qoyub və qanından keçib var gücü ilə qılınc vururdu. İndi günorta olub və günəş daha da qızıb və qoşun əhlinin bədənindən axan qanı su kimi tərləri ilə qatışıb üz və gözləri toz-torpaqdan qaralıb çoxı tapılmırdı. Buna görə əgər qızılbaşların başlarında əlamət olmasaydı, yəqin ki, bir-birlərin öldürürdülər. Çünki onlar çox qızıb və bərk vuruşurdular. Günorta bir az keçəndən sonra Murad Mirzənin qoşunu bir az dalı oturdu. Buna görə Murad Mirzə fərman verdi ki, təzə nəfəs qoşun qabağa yerisin. Bu idi ki, təzə nəfəs qoşun qabağa yeridi və bir az vuruşandan sonra yenə də təzə nəfəs qoşun yollandı, vəli fayda vermədi. Çünki qızılbaşlar çox mərdanə vuruşub və qabağa gələni bir qılınca qurban edirdilər. Doğrusu, o cürə ki, onlar qırmışdılar, heç qüdrət və dərya kimi qoşun onların qabağında dura bilməzdi. Bu idi ki, Murad Mirzənin yolladığı qoşun davam gətirə bilməyib, dalı otururdu. Amma Murad Mirzə bunların hamısın Şah İsmayıldan görürdü. Yəni fikr edirdi ki, qoşunun içinə qorxu salan və onları bu cürə qırıb-biçən fəqət Şah İsmayıldır. Buna görə neçə nəfəri məmur elədi ki, Şah İsmayılı dalıdan vurub öldürsünlər. Bu idi ki, o neçə

nəfər fourən Şah İsmayılı tapıb kəmin eləsinlər. Amma Şah İsmayıl və qızılbaşlar düşməni ayaqdan salmışdılar və o neçə nəfər daha çoxgec yetişib və bir iş görə bilməyəcək idilər. Amma bunla belə Murad Mirzənin qoşunu dalı otura-otura qılınc vurub defa edirdilər və qızılbaşlar da onları qovalayıb çöllərə səpələmişdilər. Deməek olar ki, onların bir də bir yerə yığışması çox çətin görünərdi. Bu idi ki, qorxulu bir halda qabaqdan  qaçıb çöllərə dağılırdılar. Vəli o neçə nəfər yenə də Şah İsmayılı kəmin edib vurmaq istəyirdilər. Nəhayət, bir fürsət ələ salıb dalıdan Şah İsmayılın kürəgindən bir zərbət vurdular və çün Şah İsmayıl yıxılmadı, buna görə ta yıxılınca vurdular. Şah İsmayıl dönüb dalı baxan kimi o neçə nəfər qaçdılar vəli qızılbaşlar fourən onları dövrələyib tutdular. Şah İsmayıl yaralı olursa da, ancaq qoşuna fərman verdi ki, dayanmasınlar. Bu idi ki, düşməni ta yaxşı ayaqdan salmayınca və onu lap məhv və ya təslim edməyincə buraxmadılar. Ta bu ki, onlar lap aradan gedib və bir az qalanda təslim olub, cəng qurtardı və bütün çöllər və dağlar və daşlar nəş ilə dolub və bütün arxlardan qan su yerinə axırdı. Amma hamıdan pis və çətin bu idi ki, bütün çölləri çalağan quşları tutub və nəşlərin üstünə qonub onların gözlərin çıxardırdılar və ya tikə-tikə eləyib yeyirdilər. Bu yandan da Şah İsmayıl yaralanıb çadırda yatmışdı. Vəli hənuz fəth eləməklərindən lap kamil xəbəri yox idi. Şah İsmayıldan çoxlu qan gedmişdi. Buna görə çox arıqlayıb zəif olmuşdu və neçə dəfə yuxu halında Ərəbi çağırmışdı və deməek olar ki, sərsəm deyirdi. Şah İsmayıl cəngdən qorxmuşdu və ya qorxan bir qəhərman degil idi. Bəlkə onun bədənindən çoxlu qan geddiginə görə həvası zəifləyib sərsəm deyirdi. Şah İsmayıl bu halda yatmışdı. Vəli qızılbaşlar bütün işləri yerinə yetirib və təslim olanları bağışlayıb və günahı çox olanları zindana salmışdılar ki, Şah İsmayıl özü

onların barəsində ədalət eləsin. Əlbəttə, Şah İsmayıl hər cəngdə bütün günahı olanları bağışlardı. Buna görə hətta düşmən də ondan narazı degil idi. Doğrusu, Həmədan və Fars tərəflərində düşmən aradan gedib dağılmışdı və Şah İsmayıl nəqşəsi İraqi-Ərəbə və Bağdad şəhərinə həmlə aparmaq idi. Şah İsmayıl yatmışdı. Vəli bütün işlər görünürdü və Bağdad şəhərinə gedmək işləri yerinə yetirilirdi. İndi neçə nəfər həkim və doktor onun başı üstə idi və hər dəqiqə onun yarasına baxırdılar. Qızılbaşlar bir mehriban ataları kimi onun başı üstə gəlib halından xəbərdar olmaq istəyirdilər. Doğrusu, mehriban insan və adil bir hakim həmişə xalqın gözündə bir böyük ata və istəkli qardaş və vəfalı yoldaş görünər. Buna görə Şah İsmayıl bu cürə adil və mehriban və vəfalı, isti və habelə, xalqın dərdinə yetişdigi onu gözəl bir insan və rəhimli bir adam eləmişdi. Şah İsmayıl öz əsrində böyük bir qəhrəman, qeyrətli bir kişi və mehriban bir insan və bağışlayan bir böyük idi. Buna görə Şah olduğu halda lap kiçik bir sərbaz ilə və lap yoxsul bir kəs ilə bir yerdə nahar yeyərdi. Buna görə idi ki, onun adil və mehriban nəvəsi Şah Abbas kimi həmişə fəqir kimsələr ilə və yoxsul insanlar ilə yaxından tanışlıq edib və onların dərdinə və istədiklərinə yetişərdi.

İndi bizim dastanımızın qəhrəmanı mehriban Şah İsmayıl nə tək qızılbaşların ürəgin dərdə gətirmişdi. Bəlkə əziz oxucuların da halın pozubdur. Doğrusu, hər bir insanın məqamın kənara qoyanda və onun mənsəbin nəzərdən atanda görürük ki, hamı insanların rəhmi, mürvəti, insafı, şərafəti və ədaləti vardır. Vəli bəziləri insanlığı və hörməti habelə insafı yaddan çıxardıb, həmişə öz məqamın xalqın gözünə soxur. Buna görə Şah İsmayıl o məqamda olduğu halda heç zaman öz əlinin altında olanlara və heç bir insana zülm eləmədi. Heç bir kəsi alçaq və

özündən kiçik bilmədi və buna görə nə fəqət öz əsrində, bəlkə neçə qərinələr və neçə yüz illər keçəndən sonra da, igirminci əsrin insanları da onu istir və onu əlaqə saxlayır. Buna görədir ki, bu qeyrətli kişi və bu adil şah bizim tariximizin iftixarı və ölkəmizin qəhrəman oğlu olubdur.

Ədalət və insaf nə fəqət gərək hər bir şahda olsun, bəlkə gərəkdir ki, bütün hər bir insan bu göyçək və gözəl sifəti özünə layiq bilib, hifz eləsin. Daha Şah İsmayıl belə kişi və belə insan idi. İndi Şah İsmayıl bir az yaxşı olmuşdu və rəngi yerinə gəlmişdi. Vəli bunla belə yerə yenə də sərsəm deyirdi və hətta bir gecə Ərəbi çox dilinə gətirdiyi üçün qızılbaşın fərmandehi əmr elədi ki, fourən gedib Təbrizdən Ərəbi gətirsinlər, ta bəlkə Şah İsmayıl bir az aram olsun. Buna görə bir müddətdən sonra Ərəb gəlib Şah İsmayılı bu halda görən kimi ürəgi qüssələnib, onun başı üstə oturub.

Cəllad hazır olub onun boynun vurmaq istədigi zaman vəzirlər vəsaqət düşüb dedilər:

– Qurban, onun boynun vurmayın. Əgər istəyirsiz ki, onu öldürəsiz, əmr eləyüz cəllad onun gözlərini çıxarsın.

– Buna görə Sultan Heydər əmr elədi ki, cəllad onun gözlərin çıxartsın və özünü də bir dərin quyuya salsın. Amma Şah İsmayıl bu mouqə sazı götürüb atasına yalvarmağa başladı:

Məni kor eləyib salma quyuya,
Buyur günahımı nədir, Şah baba.
İxtiyar sənindir, öldürsən məni,
Buyur günahımı nədir, Şah baba.

İxtiyar sənindir, bu can sənindir,
Canımdan dolanan bu qan sənindir,
Demirəm öldürmə, fərman sənindir,

Ancaq günahımı buyur, Şah baba.

Dayan, bir əl saxla, öldürmə məni,
Öldürərsən məni, qınarlar səni.
Məgər öldürərlər dilbər sevəni?
Bundan başqa eybim nədir, Şah baba?

Sənə qurban olar saralsan canım,
Qürbət ölkələrdə daldanan canım,
Yolunda halaldı bu qızıl qalsım,
Sənsən öldürməgə qadir, Şah baba.

Çıxartma, rəhm elə, iki gözümi,
Anama səsləyin, dedim sözümi,
Tanımaz qan tutsa anam üzümi,
Gecə-gündüz fəğan edər, Şah baba.

Yolunda keçərəm can ilə başdan,
Qılıncım işliyər dağ ilə daşdan,
Bir sənsən qəhrəman qövmü qardaşdan,
Sal qəmli halıma nəzər, Şah baba!

Qadasın aldığım, ey böyük ata,
Heyifdir bir ata oğlunu ata,
Minəndə qəhr ilə yolunda ata,
Ölürsə düşmənin nə qədər, Şah baba!

Məni tez öldürmə, azcadır yaşım,
Bəlalar çəkibdir bəlalı başım,
Anamla icazə ver, halallaşım,
Yoxsa, qəlbi olar kədər, Şah baba!

İnamla dalımca bağlansa yalan,
Düşmənlər salıbsa ortaya talan,
Doğrudur, sözlərim, doğrudur, inan,
Qoyma ola qanım hədər, Şah baba!

Gözlərim sənindir, canım sənindir,
Cigərim sənindir, qanım sənindir,
Damarım, sümügüm, şanım sənindir,
Varımdır günahım məgər, Şah baba!

Şah baba, Şah baba, aman, Şah baba!
Sənə etməmişəm yaman, Şah baba!
Çıxartma gözümü, dayan, Şah baba!
Sal qəmli halıma nəzər, Şah baba!

Şah İsmayıl atasının hüzurunda bu cürə yalvarsa da, ancaq atası fərman verdi ki, cəllad onun iki gözlərin çıxardıb və özünü də bir quyuya salsın. Buna görə dövrədə oturan vəzirlər və vəkillər Sultan Heydərə nə qədər yalvarıbsa da, ancaq Sultan Heydər onların sözünə baxmayıb, onun gözlərin çıxartdırıb və özünü də quyuya salmağı əmr elədi. Daha cəllad Şah İsmayılın gözlərin çıxardıb və sonra qucaqlayıb və sonra qucaqlayıb çöldə bir dərini quyuya salmağa apardı. Şah İsmayıl hər nə qədər cəllada yalvardı ki, onu quyuya salmasın, cəllad onun sözünə baxmadı və bir kəs də yox idi ki, bu mouqə onun dərdinə və fəryadına yetişsin. Bu idi ki, Şah İsmayıl yaralı-yaralı ağlamağa başladı. Bunun bu cürə ağlamağın görən cəllad bir az rəhmə gəlib fikr elədi ki, onun barəsində bir nicab yolu tapsın. Bir yol tapa bilmədi. Çünki Sultan Heydərin əmri idi ki, öz oğlu Şah İsmayılı bir dərin quyuya salsın. Buna görə cəllad gözlərin yaşını silib Şah İsmayıla dedi:

– Sultanımın əmrin yerinə sala bilməm və əgər salsam da, yəqinən mənim özümü öldürər.

Bu idi ki, yenə də quyuya tərəf yola düşdü. Daha gəlib quyunun başına çatdı və bir az heyran-heyran fikr elədi. Biri deyirdi Şah İsmayılı quyuya atsın, bir də onun cavanlığına rəhm edib dayanırdı. Amma birdən-birə dal-dan neçə nəfər məmur gəldi ki, görsünlər cəllad onu quyu-ya salıb ya yox. Bu idi ki, cəllad onları görən kimi xəyal elədi ki, Sultan Heydər peşiman olub və dəstur verib ki, daha şahzadəni quyuya salmasınlar və bunu Şah İsmayıla da və Şah İsmayıl da çox sevinib şad oldu. Amma əfsus ki, onlar cəlladın yanına gəlib və Şah İsmayılı quyuya düşmə-miş görən kimi cəllada çığırdılar ki, nə üçün sultanın əmrin icra eləməyib. Buna görə cəllada əmr elədilər ki, tez Şah İsmayılı quyuya salsın. Amma cəllad dayanan kimi mə-murlar şəmşirlərin çəkib ona həmlə apardılar. Daha cəllad və fourən əl atıb belindəki bıçağı çıxarıb qabaqda həmlə gətirən məmurun təpəsindən elə bir zərbət vurdu ki, mə-murun bədəni başdan ayağa kimi iki parça olub, xiyar kimi bölündü. Daha o iri məmur qabağa gəlib cəllad ilə tutuşdu. Vəli cəllad onu da ortadan bölüb yerə saldı. Daha o biri məmurlar birdən-birə hücum gətirib onu dövrələdilər. Bu düzdür ki, cəllad onları canına salmışdı. Amma onlardan biri bu mouqiyyətdən istifadə edib onlar vuruşarkən özünü Şah İsmayıl olan torbanın başına yetirib fourən onu gö-türüb gögə qovzadı və bunu belə görən cəllad hər nə çalışdı ki, özünü onların əlindən qurtarsın, olmadı. Buna görə o məmura yalvarmağa başladı və hər nə çığırdı ki, sən Allah, mən ölüm, onu quyuya salma və cavanlığına rəğm elə, nə-hayət, məmur quyunun başınada torbanı yerdən götürüb şahzadə ağlaya-ağlaya onu birdən-birə quyuya tulladı.

Bu mouqə ki, Ərəb Şah İsmayılın başı üstə oturub

onun alnının tərini silirdi, birdən-birə gördi ki, Şah İsmayıl çığırıb yerindən atıldı və sonra durub oturub və Ərəbi başı üstə görən kimi gözlərin silib diqqət ilə tamaşaya başladı. Amma bu cürə nəzərə gəlirdi ki, Ərəbi tanımır. Buna görə Ərəb bu ittifaqdan çox təəccüb edib heyran qaldı. Çünki Şah İsmayıl yatdığı və məliz olduğu halda birdən-birə çığırıb yerindən atıldı və hələ atılıbsa da Ərəbi tanımamağı daha da təəccüblü idi. Daha beləliklə, olaraq neçə gün bu cərəyandan keçdi və bir müddətdən sonra Şah İsmayıl yavaş-yavaş toxtayıb yumşaldı və buna görə bir cəşn şadlığı quruldu və hamı şadlığa başladı. Ancaq bu şadlıq çox ali və gözəl bir şadlıq oldu. Çünki Şah İsmayıl az qalırdı ki, əldən getsin. Bütün oxuyanlar və habelə oynayanlar bu məclisə yığışıb şadlığa məşğul oldular və neçə gün beləliklə keçib yenə də bir gün Şah İsmayıla xəbər verdilər ki, Xorasan və Kerman və İsfahan tərəfindən yağılar şuluqluq edirlər və xalqı çapıb və qarət edirlər. Buna görə Şah İsmayıl bir ləşkər qoşun hazır edib və öz pəhləvanlarından birin İranın bəzi şəhərlərində olan yağıları yerində oturtmaq üçün yola saldı və özü də Bağdad şəhərinə gedmək üçün qoşun başçılarına əmr elədi ki, bütün tədarükləri görüb və şənbə güni hərəkətə hazır olsunlar. Bu idi ki, bütün qoşuna hərəkət və hazır olmaq fərmanı verildi və daha hərəkət etmək zamanı çatıb və hamı atlarına minib yola düşüblər. Qoşun dərya kimi yerindən oynadı və Şah İsmayıl ilə Ərəb də qabaqdakı gözəl ağ və Qəmər ata minib gedirdilər və Şah İsmayıl hərdən dönüb Ərəbi öz yanında görəndə ürəkdən şad olurdu. Çünki o dəfə cəngdə tək idi və Ərəbin olmadığına görə çox qəmgin və qüssəli olmuşdu. Vəli indi onun olduğundan və məhəbbətindən çox xoşhal olub sevinirdi. Buna görə qoşundan bir az ara açıb qabaqda gedərkən sazı bağrına basıb indi görək Ərəbə nə söylədi:

Ey mənim sevgilim, din və imanım,
Ey mənim istəkli, gözəl cananım.
Sənsən mənim ruhum, bu şirin canım,
Ey mənə dar gündə mehriban Ərəb!

Darıxmaz ürəgim görəndə səni,
Saxlarsan bəladan, xətadan məni.
Ürəgim darıxmaz səni görəndə,
Ey mənə mehriban, qəhrəman Ərəb!

Saralıb-solaram görməsəm səni,
Görüşün sağa dar düşüb öləni,
Ayrılma canımdan, öldürmə məni,
Ey mənə qəhrəman, mehriban Ərəb!

Bu dəfə Ərəb sazı götürüb və bir az Şah İsmayılın üzünə baxıb güləndən sonra görək nə dedi:

Ey mənim sünbülüm, sona bülbülüm,
Ey mənim mehriban, gözəl sevgilim,
Səni unudarsam lal olsun dilim,
Şairlər, şairi ey  gözəl yarım.

Bir canım var, sənə qurban eylərəm,
Min canım olsa da bir can eylərəm,
Qurban bu canımı hər an eylərəm,
Ellərin atası ey mənim yarım.

Bürüsün aləmi adın, bürüsün,
Səni istəmiyən yanıb çürüsün,
Düşmənlər dalınca düşüb sürünsün,

Ey mənim cəlalım,  ey mənim varım.

Bu dəfə aldı Şah İsmayıl görək nə söylədi:

Qaradır qaşların, qaradır gözün,
Şəkərdən, şərbətdən şirindir sözün,
Buna bir söz yoxdur, bilirsən özün,
Sənsən bu qəlbimdə parlayan Ərəb!

Baxanda gözlərin xumardır xumar,
Belə baxışından hər gələn umar,
Daim məhəbbətin qəlbimə cumar,
Ey mənim qəlbimə cuman Ərəb!

Görmədim sən kimi gözəl həyada,
Nə bir gözəllikdə, nə bir səfada,
Nə vuruşda, nə də mehrü vəfada,
Gözəllər gözəli canə, can Ərəb!

Şah İsmayıl və Ərəb qoşunun qabağında bu cürə oxuya-oxuya gedirdilər və qoşun da onların dalıca sallan-bullan axırdı. Bütün meşələrdən, dağlardan, dərələrdən və təpələrdən aşıb, «Bağdad şəhəri» deyibən gedirdilər və yollarda bunları belə görən əhali onların bu cürə vətən uğrunda və millət yolunda candan keçib və indi düşmən ilə vuruşmaq üçün Bağdad şəhərinə getməklərin bilən kimi sevinib və şad oldular. Çoxları qeyrətə gəlib qızılbaş qoşununa daxil olub və onlar ilə Bağdad şəhərinə getməyə hazır olurdular. İndi bizm qızılbaş ordumuz və böyük qəhrəmanımız İranın son sərhədlərinə yetişib və bir saf çöldə dayanıb, əmr olundu ki, fourən çadırlar qurulsun və aşpəzlər də şam üçün gözəl-gözəl xörəklər hazır eləsinlər.

Buna görə bir az zamanda o qədər qızılbaş qoşunu gözdən itdilər. Çünki yorulduqlarına görə fourən atlarını bir yerdə bağlayıb, özləri də soyunub çadırlara girib istirahət Şah İsmayıl ilə Ərəb də öz gözəl çadırlarına girib istirahət üçün oturdular. Gecə yaxınlaşıb yemək zamanı çatdı və bütün qoşun şam yeməgə başladılar və şam yeyəndən sonra hər çadırın qabağında bir qəravul dayanıb və qalan qoşun yatdı. Qoşun əhli yorulduqlarına görə çox bərk yatmışdılar. Vəli Şah İsmayıl yorğun olursa da ancaq bir nəfər sərbaz kimi yatmışdı. Yəni bir nəfər cəngi adam kimi ki, gərək hər zaman ayıq və çabuk olsun. İndi gecə yarıdan keçmişdi və hava çox qaranlıq idi və uzaqdan baxanda çadırlarda yanan şamların işığı gögdə parlayan ulduzlar kimi işıldayırdılar. Amma nə bir səs gəlirdi və nə də bir hərəkət edən var idi. Buna görə əgər bir az diqqət ilə baxılsaydı, nəzərə belə gələrdi ki, bu çöldə bir insan və ya bir heyvan yoxdur. Amma gecə keçən kimi çölün dövrəsin yavaş-yavaş tərpəşən qara şeylər tutdu. Əlbəttə, çox uzaqda olduqlarına görə yaxşı görünmürdülər ki, nədirlər. Amma ged-gedə yaxınlaşırdılar. Vəli bir səs onlardan çıxmırdı. Bu idi ki, çadırların dövrəsinə yetişsələr də ancaq çadırlarda yatan qoşunlardan biri də xətəri düşünmədiər. Onlar o qədər yaxınlaşdılar ki, daha çadırların qabaqlarında duran qəravullar ilə o qədər araları qalmadı. Vəli çün yerə yatıb və üzüqoylu və yavaş-yavaş gəlirdilər, bu idi ki, səsləri gəlmirdi. Amma onlardan bir neçəsi bir neçə çadırın qəravulunun yanına çatıb və çox yavaşca o neçə nəfər qəravulu dalıdan tutub boğdular və bu cüralığ ilə neçə çadırın qəravulun bu cürə boğub öldürdülər. Sonra Şah İsmayılın öz çadırına yaxınlaşdılar. Çünki onun çadırı hamı çadırlardan qiymətli və qarət üçün gözə vuran idi. Daha Şah İsmayıl ki, bir az ayıq qal-

mışdı və təzə yuxuya gedmişdi. Bu zaman çadırın eşigindən bir xışıltı səsi onun qulağına gələn kimi fourən yerindən durub qılıncın qınından çıxardıb çadırın qapısında dayandı və yağılardan biri içəri girən kimi Şah İsmayıl qılıncı onun ürəgindən elə soxdı ki, düz kürəgindən çıxdı. Ancaq yağıdan bir balaca səs çıxdı və dalısı yağı girən kimi onun da ürəgində soxub kürəgindən çıxartdı. Bu cürliğ ilə on nəfər yağını çadırın qapısında və içərisində qana boyadı. Ta bu xəbər yağıların çoxunun qulağına yetişdi. Buna görə həman Şah İsmayıl olan çadıra həmlə gətirib vuruşmağa hazırlandılar. Buna görə Şah İsmayıl fəqət durduğu yerdə dayanıb və havanın qaranlıq olduğuna görə qıraqda olanlar çadırın için görmürdülər. Buna görə Şah İsmayıl çadıra yaxınlaşanı bir qılınca qurban edirdi və yağılardan çoxu ucadan «ax» deyib yerə yıxılırdı və bunların «ax» deməsi əvvəl Ərəbi yuxudan oyatdı və Ərəb gözün açıb işi bu cürə görən kimi daha dayanmayıb əmudə əl aparıb, gələnin təpəsindən elə bir zərbət vururdu ki, ondan nə səs çıxırdı və nə də tərpəşirdi. Ancaq bunların vuruşmasının səsinə yuxudan oyanan qızılbaşlar işi belə görən kimi daha yubanmayıb yağıları bir az müddətdə qırıb və çoxunu tutdular və bir iddəsi də oradan qaçıb aradan çıxdılar. Buna görə qaçanların dalıca bir iddə qızılbaş yollandı. Şah İsmayılın fərmanına görə onları zəncirə bağlayıb bir dərəyə saldılar, ta səhər onların günahına yetişsin. Nəhayət, səhər olub, günəş öz gözəl nurun aləmə saçdı və qızılbaşlar yerlərindən durdular. Ancaq hər çadırın qabağında neçə nəfər yağı ölüsi var idi. Amma Şah İsmayılın çadırının qabağında əlli nəfərdən artıq ölən var idi. Doğrusu, bunu belə görən qızılbaşlar öz qəhrəman böyüklərinə «afərin» dedilər və hamıdan artıq bu idi ki, Şah İsmayıl gecə ayıq qalıb, bu

xətəri aradan aparmışdı. Çünki əgər o olmasaydı, mümkün idi ki, yağılar ta qızılbaşlar ayrılınca onların çoxunun başın kəssinlər. Buna görə hamı onun bu cürə ayıq və öz qoşununun fikrində olmağından şad olub sevinirdilər. Amma bir azdan sonra ki, ölülərə diqqət elədilər, gördülər ki, qızılbaşlardan da çox ölüb. Buna görə çölləri axtarmağa başladılar ki, hər yanda yağı varsa, tutsunlar. Vəli hər nə axtardılar, bir kimsə tapılmadı. Nəhayət, bir azdan sonra gedən qızılbaşlar bir iddə yağını tutub gətirdilər. Hamı yağıları bir yerdə yığıb onların günahına yetişdilər və hər kəsin ki, günahı yox idi, buraxdılar və hər kəsin ki, günahı çox idi, saxladılar. Daha bir neçə gündən sonra qoşun əhli və Şah İsmayıl və Ərəb bu ittifaqdan çox şad olub sevindilər. Çünki bu ittifaq onları çox ayıltdı və onlara anlatdı ki, bundan sonra çox ayıq olmaq lazımdır.

Şah İsmayılın bu ittifaqda neçə təcrübə ələ gətirmişdi. Biri bu ki həmişə qəravulların çox eləsin və onları yatmağa adət versin. İkincisi bu ki, çadırlardan uzaqda qəravullar qoyub, xətəri uzaqdakən xəbər versinlər. Üçüncüsü də ki, qoşun yol gedəndə qabaqda bir iddə güdükci olsun ki, xətər olan kimi xəbər versinlər. Buna görə indiki qoşun Bağdad şəhərinə tərəf yollanmışdı. Qoşundan qabaqda haman güdükçilər gedirdilər. Daha bir qədər yol gedəndən sonra həman güdükçilərdən neçəsi at qova-qova özlərin Şah İsmayıla yetirib belə dedilər:

– Qurban, bu yaxınlıqda saf bir çöldə göz işlədikcə çadırlar qurulub.

Şah İsmayıl bunu eşidən kimi əmr elədi ki, bir iddə böyük başlayandan gedib və bu çadırların sahibi kim olduğun yaxşıca xəbər gətirsinlər. Bu idi ki, neçə nəfər böyük başlardan bu fərmanı alan kimi yola düşüb həman çadırlar qurulan yerə gəldilər.

Göz işlədikcə çadır idi ki, qurulmuşdu. Amma onların dövrəsində nə bir nəfər qəravul var idi və nə də onlardan bir kəs eşigə çıxırdı. Buna görə o neçə nəfər bu işdən çox təəccüb edib və bir az dayanandan sonra daha yaxşı axtarmağa başladılar. Onlar hər yana at çapırdılar, vəli bir kəs görmədilər. Buna görə çox şərməndəli bir halda Şah İsmayılın yanına gəlib dedilər ki:

– Qurban, bir kəs görmədik.

Şah İsmayıl onların sözün düzgün bilməyib dedi:

– Necə ola bilər ki, o qədər çadırların içində bir kəs olmasın?!

Daha Şah İsmayıl əmr elədi ki, qoşun orada düşüb, fourən çadırları qursunlar. Bu idi ki, çadırlar qurulub istirahət eləməgə başladılar. Vəli Şah İsmayıl özü bir neçə nəfər məhrəm adamları ilə çoban paltarı geyib çadırlar qurulan tərəfə yola düşdülər. Uca bir dağın başına çıxıb düz və saf çölə nəzər saldılar və hər nə qədər baxdılar, vəli oralarda bir kəs görmədilər. Buna görə Şah İsmayıl təəccüb edib bi r az dayandı. Amma doğrusu bu idi ki, çadırların adamları yağı idi və Şah İsmayılın qoşunun görüb və indi onları qəfildən tutmaq üçün gizlənmişdilər və Şah İsmayılın gəlməgin anlayıb və indi onu tutmaq üçün neçə nəfər məmur olmuşdu ki, onu tutsunlar. Çöldə qurulan çadırlarda bir kimsə yox idi. Amma bütün çuxurlar dərələrdə yağılar gizlənib və hər yanı görürdülər və gözləyirdilər ki, Şah İsmayılın qoşunun aldadıb tutsunlar. İndi ki, Şah İsmayıl və neçə nəfər məhrəm adamları uca dağın başında durmuşdular, neçə nəfər yağı məmur dağın döşündə bir yer tapıb Şah İsmayılın yolu üstə durmuşdular ki, onlar oradan keçəndə bir dəfə başlarına atılıb tutsunlar. Buna görə indi onun gizlənib qılıncların çəkib dayanmışdılar. Vəli Şah İsmayıl özü bir az oyan-bi yana baxandan sonra

birdən-birə dərələrdə yatan yağılara gözü düşdü və işi anladı. Buna görə fourən ata minib yollandı və aşağı yetən kimi orada duran neçə nəfər yağı birdən-birə onların başına atıldılar. Bunu belə görən Şah İsmayıl Misri qılıncı çəkib öz boynundan aslanın sinəsindən elə soxdu ki, yağı bir dəfə fəqət «ax» deyib yerə düşdü və sonra o birilərin üstünə fəqət cumdu və neçəsin bölüb və yıxıb öldürdü və sonra neçəsin də qucaqlayıb uca dağın başından uçurum dərəyə tullayırdı. Dərənin təkində olan yağılar öz yoldaşlarının nəşin uca dağ başından gələn görən kimi fourən işi anladılar və buna görə dağın başına hücum gətirməgə başladılar. Bunu belə görən Şah İsmayıl dedi:

– Yoldaşlar, dayanmalı yer degil.

Buna görə fourən atların minib öz çadırlarına tərəf yollandılar və dərədən çıxan yağılar onların dalıca düşüb gəlirsələr də ancaq yarı yoldan qayıdıb öz yerlərinə döndülər.

Şah İsmayıl çadırlarına yetişəndən sonra məclisi qurub və belə dedi:

– Möhtərəm vəzirlər və vəkillər! Biz yola düşəndən hər yanda yağılara və çox böyük xətərlərə düçar olub, hər yanda vuruşa-vuruşa qabağa gəlmişik. Buna görə demək olar ki, gərək çox ayıq və hüşyar olaq və həmişə bir ləşkər amadə saxlayaq ki, hər tərəfdən xətər olan kimi fourən həmləyə başlayaq. İndi buna görə bir ləşkər hazır olsun və qoşunu xətərdən hifz eləmək üçün qabaqda gedsin.

Daha məclis əhli bu məsləhətdən çox razı olub və qərarı qəbul elədilər. Sonra həman zaman bir ləşkər seçib, hazır elədilər. Nəhayət, bu iş çox ali bir iş idi. Çünki o ləşkərin vücudi bais olurdi ki, yatan və istirahət edən qoşunlar çox asudə və dinc yatsınlar. İndi hamı istirahət üçün öz çadırlarına gedib və şadlığa məşğul idilər və Şah İsmayıl da sabah üçün yağılar ilə vuruşmaq nəqşəsin çə-

kəndən sonra öz məşuqəsi ilə çadıra girib və şamın dövrəsində onun ilə üz-üzə oturub və bir az razü niyaz edib və bir-biri ilə öpüşüb, qucaqlaşıb eşqə gələndən sonra Şah İsmayıl sazı götürüb, görək nə söylədi:

Canımsanmı, gözümsənmi?
Şirin-şirin sözümsənmi?
Əlovli bir gözümsənmi?
Mələksən, ya ki, insansan?

Maralsan, ya ki, ceyransan?
Di huri, ya ki, qılmansan?
Mələksən, ya ki, insansan,
Nəsən, bu canimə cansan.

Mənəm bir odlu pərvanə,
Sənin tək huri cananə.
Ürək sənsiz dönər qanə,
Bu canə can ilə cansan.

İndi Ərəbzəngi görən nə söylədi:

Olur bu qəlbivə qurban,
Məni mehrin qoyub heyran,
Olurmi sən kimi insan?
Rəiyyət, ya ki, sultansan?

Vəfadan əl götürməzsən,
Vəfa hər yarə verməzsən,
Vəfasızlıq da görməzsən,
Həmişə əhli-peymansan.

Mənim ruhim, mənim canım,
Mənim istəkli cananım,
Yolunda var halal qanım,
Həqiqi bir müsəlmansan.

Şah İsmayıl və Ərəb bu cürə oxuyub və gülürdülər. Bir-birlərin öpüb və qucaqlayırdılar və hərdəm dönüb gögə baxırdılar və Şah İsmayıl gögə baxanda deyirdi:

– Gögün saflığına bax, ulduzların parlamasına nəzər sal, ax! Ey Allah, bütün ürəkləri və qəlbləri də bu cürə saf və parlaq elə və bütün ədavətləri və kinələri yer üzündən yox elə.

Şah İsmayıl bu cürə dua edəndə Ərəb də «amin» deyirdi və bəzi vəqt Ərəb onun bu cürə mehriban ürəgi olduğundan, doğrusi, fərəhlənib az qalırdı uçsun. Çünki Ərəb gözəl qız olduğu halda həmişə arzusi bu idi ki, bütün insanlar bir-biri ilə mehriban qardaş olsunlar. Buna görə Şah İsmayılın bu sifətindən çox şad və xoşhal olurdi. İndi hamı çadırlarında istirahətə məşğul idilər. Vəli birdən-birə qorxulu səslər qulağa gəldi. Uzaqdan hay-küy və toz-torpaq gögi bürüdi və tarappa-turuppi səsi çölləri doldurdu. Bunu belə görən qoşun əhli fourən çadırlarından eşigə çıxıb, silahlanıb və atlarına minib Şah İsmayılın fərmanın gözləməgə durdular. Vəli Şah İsmayıl həmlə üçün fərman vermədi. Çünki həmlə üçün bir ləşkər hazır eləmişdi əvə buna görə dayandı, ta görsün ləşkər nə edir. Amma səs-küy gedgedə çoxalırdı və pəhləvanların nərəsi daha da yaxınlaşırdı və atların şiyəsi ucalaşırdı. Buna görə, demək olar ki, yağılar qızılbaşlara güc gələn görünürdülər. Buna görə çadırların qabağında duran qızılbaşlar niran halda durub və Şah İsmayılın fərmanın gözləyirdilər. Vəli Şah İsmayıl itirdi görsün ki, aya bir ləşkər qadir ola biləcəkdir ki,

yazıları əzib aradan aparsın, yoxsa aciz qalacaqlar. Daha dadü fəryad çoxaldıqca Ərəb qəzəbə gəlib, qabağa yeriyib Şah İsmayıla dedi:

İstəkli sevgilim, nə üçün icazə vermirsən ki, düşmənlərə həmlə olunsun?

– Amma Şah İsmayıl onu dilə tutub sakit edirdi. Amma bu dəfə uzaqdan at qova-qova gələn qızılbaşlar Şah İsmayılı daha da mütəmin elədi ki, ləşkər basılıb və yağılar çoxdurlar. Buna görə müntəzir dayanan qoşuna fərman verdi ki, daha həmlə başlansın. Bu idi ki, qoşun bu fərmanı alan kimi «heyə» çəkib həmləyə başladılar.

Ey əziz və qeyrətli türk!

İndi dastanımızı qurtardıq, pis-yaxşı ondan bir şey anladıq. Bəs, bir mətləbdə, yaxşığa qulaq verin, dastanımızı kamalə verməliyik. «Şah İsmayıl» və ya ayrı kitabları yazmaq təkcə bundan ötəri degil idi ki, bir neçə saət və neçə gün vəqtimizi keçirib on ilə məşğul olub və təfrih edək. Yox, belə degil və belə də ola bilməz. Buna görə indi yaxşı qulaq veriz, ta görək doğrusu nədir?

Mən «Şah İsmayıl» kitabında çox yaxşı, şirin və gözəl, düşüncəli bizi öz hüququmuza yaxın və tanış edən kitablar yaza bilirəm və fikrində də varam. Ancaq bu sən, bu mən, bu bizlərik ki, o cürə kitablara mərhəmət buyurmayıb və bu yolda ömrünü qurtaranları təşviq etmirik.

Bizim bəzi həmşəhrilərimiz də «Şah İsmayıl» və ya onun kimi kitabları sevməyib və ya onları umurlar. Bu ağalarda soruşuz və sual edüz ki, aya əgər bunlardan yaxşı kitablar çap olsa onda arpa qədri qeyrət və əlaqə göstərərsiz. Aya Viktor Hüqodan, Sadiq Hidaytdən, Maksim Qorkidən, Corci Yəzdandan və Türkiyənin irəlilənmiş ədəbiyyatından yaxşı kitablar çevrilib və yazılsa, özgə dillərə göstərdiyimiz əlaqənin ondan birin öz doğma

dilizə göstərəsiz?!

Bəllidir ki, bu soruşuğun qabağında onlar fəqət üzlərin turşadıb məsxərəli bir halda, soyuq qan ilə mücəssimə kimi sakit qalacaqlar.

Hər halda bu ağaları bizlər yaxşı tanırıq və yaxşısı budur ki, bunlardan əl götürək. Çünki onlardan nə fəqət görünməyif və görünmiyəcək. Bəlkə onlar biz üçün yük və biz üçün nəhəng və zəhmət törədən olub və olacaqlar. Onlar bədənin xətərli yaralarına bənzirlər və xətərli yaranı bədəndən kəsib atmasan da bədənin hər yanın işdən salıb ölümə bais olar.

İndi sən, ey şərəfli türk, bundan sonra yaxşi oxumalı aydın fikr etməlisən!

Ey tarix boyu uca yaşayan türk, bundan sonra öz tarixi və namus və şərəfivə vurulan ləkələri və töhmətləri öz qeyrət və pak qanın ilə yumalısan. Ey qəhrəman türk! Bil ki, keçmişdə heç bir qüdrət sənin güc və qürətivin qabağında dura bilməyib əzilərdi. Sənin şəhamət və düşüncəvin qabağında Löhistan burjuaları, Ərəbistan paşaları, Asiya xanları, Çin xaqanları, Şərq Sultanları baş əgib təzim edirdilər. Ey düşüncəli türk, qüdrətin və gücün, izzəti-nəfsin olan günlər Afrikadan tutub Orupaya kimi və dünyanın yarısından çoxu sənin dilivi bilməgi özləri üçün və ədəbiyyatları üçün iftixar və şəən bilirdilər. Çoxun aldığın halda böyük-böyük buğalar, sərdarlar, qəhrəmanlar, xəlifələr, şahlar, xaqanlar, sultanlar, paşalar, burjuvlar, xanlar sənə təslim olduqları halda sən onların hüquqların və millətlərin möhtərəm saydın və onların şairlərinə və yazıçılarına ehtiram qoyub öz evində, öz qanatın altında yer verdin və onların dinlərindən, dillərindən, tarixlərindən, şərəflərindən, ədəb və rüsumlarından himayət qılıb, qardaş kimi yaşadın.

Ey ürəgi pak türk, sən dünyanın yarısından çoxuna tədbirli hökumət qılıb yetişdigin zaman hiç vəqt çalışmadın ki, əlin altında olan millətlərin dilləri üçün, tarixləri üçün böhtanlar və yalanlar düzəltib və onları zəlil və dilsiz göstərəsən. Sən nə fəqət belə çirkin işlər görmədin, bəlkə onlardan müvazib olub qardaşlıq yaratdın.

Ey birlik sevən türk! Sən keçmişdə bugünki kimi tək və yalqız degil idin və özüvi qonşularnan ayrı və qonşular özlərin səndən qıraq tutmazdılar. Sən onda bütün dünya millətləri ilə qardaş kimi keçinsəydin də ancaq bütün tatar, Qırğızıstan, Özbəkistan, Qafqaz, Azərbaycan, Türkiyə, Türkmənistan, Moğolustan, Qazaxıstan, uyğurlar, ləzgilər, türklər ilə bir xanəvadə kimi yaşardın və üzündə sarılıq və ürəgində qəm yerinə qırmızılıq və sevinmək var idi.

Ey qorxmaz türk! Haq söz da danışmaqdan qorxma! Türk olduğun iftixarla dilə gətir! Qorxma, bir kimsə sənə eyb və irad tuta bilməz. çünki hər millət muxtardır ki, öz dilinə və tarixinə xidmət və iftixar etsin və bu məsələ təkcə sənin üçün degil, bəlkə bütün millətlərin hüququn Sazimani-mənşuri-meləli-müttəfiq hifz etməlidir.

Sazimani-mənşuri-meləli-müttəfiq bir yerdir ki, bütün millətlərin nümayəndələri orada olurlar. Məsələn, Amerika kimi böyük birləşmiş millətlər və Rusiyyə kimi qardaşlıq yaratmış millətlər, İngiltərə və Fransa və ayrı dövlət və millətlərin nümayəndələri orada bir yerdə yığışıb və hər millət şikayət eləsə, onun şikayətinə yetişsinlər.

Ey şərəfli türk! Ancaq yaddan çıxartma ki, bütün dünya millətləri ilə qardaş və mehriban olmalısan! Yadan çıxartma ki, qardaşlıq adında başından börkün qapmasınlar. Ayıq ol və bundan artıq yalançı hüsni-niyyət adıyla özüvi aldatma!

Yaddan çıxartma ki, güclənməlisən. Çünki hər nə

qədər zəif də olsan, o qədər də alçaq və zəlil olacaqsan. Çün ədalət gücdədir və ta gücün yoxdur, heç kimdən ədalət gözləmə. Gücün olan kimi yenə də hamı sən ilə qardaş olmağı iftixar edəcəkdir.

Türk dünyasın diriltmək uğrunda və böyük Kamal Atatürk gedən yol uğrunda və alçaqlıqlardan yuxarılıqlara yetişmək yolunda irəli!

Bu kitabı bütün dünya türklərinə təqdim edirəm.

## ŞAH İSMAYIL VƏ ŞAH TƏHMASİB

## ALÇAQ TƏBİƏT

Kəslər təməddün və yalançı şəxsiyyət tapmaq üçün öz ana dillərin gizlədib danırlar. Onlar xəyal edirlər ki, öz dillərin danmaq ilə, özlərin özgələrin qucağına soxmaq ilə böyük olub hörmət tapacaqlar. Amma yazıqlar özlərini itiriblər. Onlar bilmirlər ki, bu pis işləri nə fəqət şəxsiyyət tapmırlar, bəlkə uzaqdan baxan onlara gülür. Doğrusi, qəbahəti var və doğrusi insan qızarıb xəcalət çəkir, vəqti ki, görür bəzi xanəvadələrdə uşaq türki bilmir və ata farsi başa düşmür. Amma bunla belə bəzi özlərin itirən ata və analar öz uşaqların sıxıntıya və fişara qoyurlar ki, hətmən güc ilə farsi danışsınlar. Onlar bu işləri ilə bizim pak nəslimizi güni-gündən aradan aparıb, öz millətlərinə böyük bir xəyanət edirlər.

Hansı bir millət özüni bu cürə ayaqlar altına salır?! Hansı bir insan kimi yazıq olub əsirliğ halında yaşayır?!

Nə dəmil ilə bizim dilimizi aradan aparmaq istəyirlər?

Aya, bu zülm degil? Aya, buna boyun əgmağ qey-

rətsizliğ və şərəfdən uzaq olmaq degil?! Hər bir insanda ki, qeyrət və izzət nəfs olmadı o, nə fəqət bu cürə işlərə, bəlkə bundan da çox çirkin və napak alçaqlığlara boyun əgib qulam olur. Dil əvəz eləməg ilə və paltar dəgişmağ ilə insanlıq əvəz olmaz. Yəqin bilirsiz ki, bəzi özün çox sevənlər özlərini xəlq içində böyük və anlaqlı göstərmək üçün köhnə və xərab fikrlərin əvəz eləmək yerinə hər gün paltarların əvəz edib və gündə bir cürə kravat və fügul vururlar. Amma onlar bilmirlər ki, at və eşşəgin üstünə ipək çali salmaq ilə nə at və nə eşşək düşünən olar və nə də heyvanlıqdan insanlığa tərəqqi edər.

Əziz dostlar! Hər yerdə diribaş olmaq və tərəqqi eləmək gərək şərəf və qeyrət ilə olsun. Tərəqqi eləmək və şəxsiyyət tapmaq əgər dil və millət dəgişmək ilədir, qoyuz bu iftixar haman açaq və qeyrətsiz kimsələrin olsun.

Hansı bir düşünən və vicdanlı insan öz heysiyyətinə və şərafətinə arxa çevirir?!

Fəqət onlar bu alçaq işlərə boyun əgərlər ki, şərafətdən və qeyrətdən onların vücudində əsər yoxdur.

Onlar elə o cürə ki, öz dillərinə və şərafətlərinə xəyanət edirlər, elə o cürə də tazə tutduqları dilə və məsləkə xəyanət edirlər. Əgər onlar etilamlı insan və şərəfli bəşər övlvdı olsaydılar heç vəqt bu cürə özlərin qəhbələr kimi hər gələnin qucağına soxmazdılar.

Yəqin görübsüz ki, bu ağalar çox vaqt ifadə satmaq üçün və özlərin çox böyük və anlaqlı göstərmək üçün farsi bilməyən bir türkə deyirlər: «Oğlan, qufdəm farsu beçu». Və ya, məsələn, farsi ilə türkini ifadə idə deyirlər: «Sən biya inca. İncada mənlə çay bexor». Və ya «ona dedi:

Nəngü nifrət bu cürə özlərin itirənlərə.

Türk ədəbiyyatı ki, əsasən, bütün dünya tarixlərində gözəl və aydın bir yer tutub, bütün hər tərəfə baxılsa,

aydınca gözə vururlar ki, türk millәti nə fəqət dünyanın ən birinci diri və şəhamətli millətidir, bələ lüğət və əlfaz və ədəbiyyat cəhətindən də çoxdillərdən qəni və qabaqdır.

Heç şək yoxdur ki, bütün dünyada olan türklərin əvvəldən rişələri birdir. Vəli zamanın dolanmasının nəticəsində və habelə bir-birləri ilə ayrı yaşadıqlarının nəticəsində indi onların fəqət zahirdə ləfzləri bir az bir-biri ilə fərqlənib, vəli rişə birdir.

Amma türk ədəbiyyatı otuz ildən bu yana çox rəhmsizliğ ilə yırtıcıların hücumları ilə belə bir əzilmağa və xar və zəlil olmağa başlayıb ki, nə fəqət bu dil ilə düşmən olanlar, bəlkə bu dilin əsli varisləri də çox zaman izzətinəfslərin uduzub çox bir nifrətli və həyasızlıq halında oni özlərindən qırağa tulayırlar. Bu otuz ildə türk ədəbiyyatı təkcə İranda beş yüz il dalı düşüb. Çünki indi bizdən nə fəqət bir yazıçı yoxdur, bəlkə olub-qalan asar və kitab və tarix və ayrı bir yazılarımız da olsaydı, çox şərəfsiz bir halda həman bu özlərin özgələrin qucağına soxanlar od vurub və bizim izzət və şərəf və namusumuzu ləkəli ediblər.

Bunlar necə ki, öz dillərinə xəyanət ediblər, elə o cürə də tutduqları tazə məsləkə, yəni tazə ərlərinə üzi qara çıxacaqlar.

Həman bunlardırlar ki, bizi və ədəbiyyatımızı və insanlığımızı bir balaca məqama və özgələrin xoşi gəlmək üçün satıb, utanmazyana xəyanətlərinə fəxr edirlər.

Fransanın böyük filosofu Volterdən soruşdular ki, bir milləti aradan aparmaq üçün nə cürə zülm lazımdır. Volter dedi:

– Bir millətin hər nəsin əlindən alsalar, mümkündür ki, bir zamandan sonra olsun ələ gətirsin. Vəli əgər onun ana dilin əlindən alıb və o dili lap aradan aparsalar o millət nə fəqət daha millət degil, bəlkə onda daha millətin ni-

şanəsi olmaz və buna görə o millәti noxud və lobya kimi hər aşın içində dağıdıb həll etmək asan olur. Bəs, bir millətin dilin aparmaq nəhayət dərəcədə böyük və şədid bir sitəm və qanlı bir zülmdür.

İndi hamıdan artıq bizə düşmən olanlar öz içimizdən hərzə və qəhbəsifət çıxanlardır. Onlardırlar ki, bu qədər xəyanət və bir belə şərəfsizliğ edirlər.

İsgəndər İranı alandan sonra böyük filsufların birindən (Əflatun və ya Ərəstu) soruşdu ki, İranı saxlamaq üçün nə qədər qoşun saxlamalıdır. Ərəstu və ya Əflatun İsgəndərə yazdı ki, ey İsgəndər, İranı saxlamaq üçün nə xərc lazımdır və nə də qoşun. Bəlkə axtar həman o millətin öz içindən bəzi şərəfsiz və məqama, rütbəyə aldanan kimsələrdən tap və o yerin və millətin ixtiyarın onların əlinə tapşır. Ta onlar hər cürə cinayətə və xəyanətə boyun əgib, məqam üçün öz ölkədaşlarının qanın su kimi axıdsınlar.

Yəhudi milləti dünyanın hər tərəfindən Fələstinə yığılıb indi bir milyon neçə yüz mindən artıq degildir. Amma biz səkkiz milyondan artıq olduğumuz halda yenə də bu həyat işə baş qatmırıq. Hələ tazə-tazə məşqə düşmüşiq ki, fars olaq və beləliklə, şəxsiyyət tapıb adam olaq.

Bu kitabı bütün dünya türklərinə. Məxsusən Türkiyənin qəhrəman millətinə təqdim edirəm.

Sizin lap kiçik qardaşınız.

## ŞAH İSMAYIL

Şah İsmayıl fərmanı verən kimi yerindən oynayıb bütün çölləri tutdular. Yağılar ki, güman etmirdilər bu qədər qoşun bir göz yumum zamanda bu cürə hər tərəfi tutub, ildırım kimi vurmağa düşsünlər, öz iştibahların anladılarsa da, ancaq durmaq yeri degil idi. Çünki qızılbaş qoşuni gögdən gələn istəyirdilər. Yağılar üç yerdə səngər

qurmuşdular. Biri çölün saf yerlərində, biri dağların başında və biri də uçurum dərələrdə. Buna görə əvvəl çöldə olan iddə qızılbaşlar ilə üzbəüz oldular. Hər iki tərəf var gücləri ilə vuruşurdular. Yağılar öz iştibah etdiklərinə görə məyus görünürdülər. Vəli qızılbaşlar ki, onlardan acıqlı olmuşdular və indiyə kimi bu cürə  şərəfsiz yağılar əllərindən çoxli inciklər görmüşdülər, buna görə bütün gücləri ilə acıqlı bir halda həmlə edib, yağıları əzib aradan aparmaq istəyirdilər. Bu idi ki, qabağa gələni bir qılınca qurban edib, hey nəşlər idi ki, yerlərə tökürdilər.

Şah İsmayıl özi hənuz vuruşmayırdı və Gülzar və Ərəbzəngi də qırağda baxırdılar. çünki hənuz onların vücudinə ehtiyac yox idi. Amma onlar da bikar durmamışdılar, bəlkə cəng meydanına diqqət ilə nəzər salıb, düşmənin işlərinə baxırdılar. Daha bir azdan sonra saf çöldə olan yağılar qızılbaşların qabağında aciz qalıb, yavaş-yavaş qaçmağa üz qoydular. Buna görə qızılbaşlar onları qovmağa başlayıb çöllərə səpələdilər. Yağıların böyügi buni belə görən kimi dərədə olan iddəyə fərman verdi. Qızılbaşlar ki, şirin həmlədə idilər və işdən xəbərləri yox idi,  bir zaman gördülər ki, dalıdan düşmən qoşuni çöllərə tökülüb onların dalıca həmlə gətirirlər. Amma yağılar dərədən çıxanda Şah İsmayıl onları görüb, fourən Ərəb və bir ləşkər qoşuni yağıların dalıca yolladı. Bu dəfə yağılar xəbərsiz halda qabaqda həmlə edən qızılbaşlara yaxınlaşıb, onların üstünə cuman kimi bir də gördülər ki, dalıdan bir ləşkər tazə-nəfəs qızılbaş onların dövrəsin tutub, amma bunu belə görən yağıların böyügi əmr elədi ki, dağların başında olan iddə də bu sonda gedən qızılbaşların üstünə həmlə edib. Onları ortaya salsınlar. Buna görə dağların başında olan yağılar da qırğı quşları kimi uca dağlardan aşağılarda səpələnib «hura» çəkə-çəkə qızılbaşlara həmlə gətirdilər. Qızılbaşlar və yağılar bir-birinə qatışıb

vuruşurdular. Amma buni belə görən Şah İsmayıl daha öz başında olan qoşuna həmlə üçün fərman verib və özü də belindən qılıncı çəkib, dağlardan aşağı yenən yağıların dalınca düşüb həmləyə başladı. Yağılar və qızılbaşlar hərəsi üç bölünmüş idi və üst-üstə altı iddə qoşun bir-birinin içində vuruşurdular. Amma qabaqda olan qızılbaşlar Şah İsmayılın və Ərəbin həmləsin bilən kimi, yağıların ortaya düşdüklərin düşünən kimi daha həmləni çoxaldıb, əvvəl həmlə edən yağıları öldürüb, ikinci iddəni ortaya saldılar və o qədər çəkmədi ki, Şah İsmayılın qabağından qaçmağa üz qoymuşdular, qabaqlayıb üzlərinə çıxdılar. Yağılar ki, Şah İsmayılın qabağından qaçırdılar, bu dəfə yenə də öz qabaqlarından çıxan qızılbaşları görən kimi özlərin itirib kiridilər. Yağılarn böyügi buni belə görən kimi ortadan çıxıb əkildi. Bu mouqə qızılbaşlardan biri onun qaçmağın görüb dalınca düşdü. Atı qovalayıb oni yetirdi və yağı böyügi dönüb dalı baxan kimi qızılbaş alıcı quş kimi macal verməyib, onun təpəsindən elə bir zərbət vurdu ki, yağının üzü iki bölündi. Sonra onun başın kəsib Şah İsmayılın yanına gətirdi. Şah İsmayıl buni görməkdən çox təəccüb edib və xoşhal olaraq, çəkib qızılbaşın üzündən öpdi. Sonra bütün qızılbaşlar onun bu şücaətinə hura çəkib, olub-qalan yağı olursa da, onları da bir neçə dəqiqədə yıxıb-tökdülər və aradan çıxan yağı olursa da, ancaq demək olar ki, Şah İsmayılın qorxusu onların ürəginə elə düşmüşdi ki, daha bir də yağı olmaq xəyalın yaddan çıxardıb rahat qalmağa arzulu oldular.

Yağılar lur, kürd, İraq, beluğ tayfalarından təşkil olmuşdular və İranda böyük yağılardan idilər. Buna görə demək olar ki, Şah İsmayıl bu yağıları aradan aparıb məhv etməgi üçün qızılbaşlar xoşhal olub, gələcəkləri üçün ümidvar görünürdülər.

Qoşunun bir yerdə yığılmağı üçün şeypur çəkildi və

hamı qızılbaşlar bir yerə toplaşıb, Şah İsmayılın dəsturinə qulaq asmağa başladılar:

– Ey əziz qardaşlar! Əvəl sizə odli salam! Yəqin özüz yaxşi bilirsiz ki, gələcəkdə bu ölkəni azad və abad eləməkdə vəzifəmiz necə böyük və nə qədər ağırdır. Əlbəttə, mən öz növbəmdə indiyətək sizin şərafət ilə və şəhamət ilə öz ana yurd və ana dilizdən defa eləməgizdən çox şad və gələcəkdə bundan artıq vətən yolunda, azadlıq uğrunda candan keçmə və vuruşmağ və xain düşmənləri əzib aradan aparmağa ümidvar oluram.

Qoşun əhli Şah İsmayılın bu cürə odlu və mehriban danışmağına eşq ilə qulaq asıb, ürəkdən şad olurdular. Şah İsmayıl yenə də başladı:

– Əziz qardaşlar, mən ilə sizin ortamızda heç cürə fərq yoxdur, buna görə ölkəmizdə hamı birdir və hamı öz şərafətindən – vətənindən gərəkdir ki, defa eləsin. Hamı birdir və hər kəs öz bacarığına görə, ləyaqətinə görə iş görməli və hüquq almalıdır.

Qoşun əhli bu cürə mehriban və vəfalı sərdarın vucüdüna iftixar edirdilər. Doğurdan da bu sərdar, bu şah çox igit və mehriban kişi idi.

Qoşun əhli Şah İsmayılın sözlərinə qızğın bir əlaqə ilə qulaq verib, yaralı olduqlarını yadlarından çıxartmışdılar. Çünki bu qəhərman kişinin sözləri göstərdi ki, məhəbbət və düzgün sədaqəti onların yaralarına mərhəm kimi yapışırdı və onların ürəgində bu imanı vücuda gətirirdi ki, illər boyi zülmət və qaranlıq içində yaşayan azərbaycanlılar və yağı düşmənlər tərəfindən sədəmə görən İran milləti bundan sonra bu qeyrətli və anlaqlı kişinin hidayəti ilə bir səadətli və aydın dünyaya qədəm qoyub, özgə millətlər ilə qardaşlıq rabitəsi başlayacaqlar.

Daha qoşun əhli Şah İsmayıl verən icazəyə görə isti-

rahətə başlayıb və yenə də çadırlarına girib deyib-gülməgə başladılar. Amma həmişəki adətə görə bir ləşkər çadırlardan qıraqlarda-dərələrdə, təpələrdə keşik çəkib və yağı düşmənləri güdürdülər.

Şah İsmayıl haman gecə məclisi qurub, vəzirlər və vəkillər ilə məşvərət edəndən sonra fourən bütün kənd və şəhərlərə məmurlar yolladılar ki, hər kəs vətən uğrunda və milli şərəf yolunda can qurban eləməgə hazırdır. Qızılbaş qoşununa daxil olsun. Buna görə məmurlar Azərbaycanın bütün kənd və şəhərlərinə yollandı. Əlbəttə, Şah İsmayıl hənuz Bağdad şəhərinə yetişməmiş indiyə kimi yollarda böyük-böyük cənglər eləmişdi. Bu idi ki, Bağdad şəhərinə həmlə edib və oranı almaq üçün böyük qoşunlar lazım idi və gərək idi ki, nəqşə çox böyük və taktik çox düzgün və strateji məsələsi indidən müəyyən və aydın olsun.

Şah İsmayıl qiyam edəndə İranın hər tərəfi şuluq idi. Hər tərəfdən baş qovzayan yağılar bütün millətin canına bəla olmuşdular və bir kənd və şəhər yox idi ki, əmniyyət və sülh içində yaşasın, nigəran bir halda yaşayırdılar. Buna görə qəhrəman igit, bir böyük insan və bir ayıq sərdar lazım idi ki, bu qədər ədavət və kinə və nigəranlıq yerinə qardaşlıq və mehribanlıq, habelə içində inam yaratsın. Amma bu iş çox çətin və müşgül bir iş idi. İndi bundan sonra gərək görmək ki, aya Azərbaycanın qəhrəman oğlu Şah İsmayıl bu ağır vəzifəni eliyə bilir yerinə yetirsin ya yox.

Çadırların içində söhbət edən qızılbaşlar bir-birinə dastan və şer və qəzəl deyirdilər və çoxları ney çalırdı, çoxları da oxuyub oynayırdılar. Ancaq Şah İsmayıl bütün işlərə yetişəndən sonra oxumaq məclisin qurub və Gülzar ilə Ərəbi yanına alıb. Sazı bağrına basıb görək nə söyləyir:

Uca dağlar başı bizə yol oldu,

Dərələr, təpələr nəş ilə doldu.
Bağçalar gögərib yenidən soldu,
Boyandıq çöllərdə qızıl qanə biz.

Bürüsün aləmi gərəkdir şərəf,
Şərəfsiz kəsləri edilsin tələf.
Azər ellərində bircədir hədəf,
Şəmdir ölkəmiz və pərvanə biz.

Ərəbim, Ərəbim, canan Ərəbim,
Gözəllər içində sultan Ərəbim,
Mənim bir xanıma min can Ərəbim,
Olarıq, olmasa bu, divanə biz.

Aldı Ərəb görək nə dedi:

Qəhrəman ellərin böyük rəhbəri,
Ürəklər vurğusu, dillər əzbəri,
Ölkəmizi azad edəndən bəri,
Yetişdik fəxr ilə çoxli şanə biz.

Qılınclar oynadan, əmudlar vuran,
Düşmən qarşısında mərdanə duran,
Mərd olana kömək, namərdi qıran,
Yolunda yox demək şirin canə biz.

Aldı Şah İsmayıl:

Gülüzar, Gülüzar, gözəlGülüzar,
Məni eşqə salan əcəl Gülüzar,
Olmasa, olaram xəzəl Gülüzar,
Ürəkdən aşiqik bu reyhanə biz.

Vəfalı gözəlim, səfalı gülüm,
Həyalı dilbərim, əziz sevgilim,

Gülüzar bənöfşəm, Ərəb sünbülüm,
İçmişik əzəlidən peymanə biz.

İndi şövqə gələn Gülzar aldı görək nə dedi:

Ərəbim, Ərəbim, bacım Ərəbim,
Başımda parlayan tacım Ərəbim,
Ey olan dar gündə nacım* Ərəbim,
Ürəkdən aşiqik bu canana biz.

Ey tökən üzünə qara tellərin,
Ey yığan başına igit ellərin,
Dibindən qurudan düşmən sellərin,
Sənin ilə varaq səmimanə biz.

Qadasın aldığım gözəl dilbərim,
Sənə qurban ola iki gözlərim,
Dərdinin dərmanı dildə əzbərim,
Gedərik sən ilə bu hər yanə biz.

Gülzar bu cürə oxuyarkən Şah İsmayıl və Ərəb ona baxıb fərəhlənirdilər və Gülzar qalan tarın sızıltısı onların ruhun dirildirdi. Gülzar deyəndə ki, «sən ilə biz səmimanə varıq» Şah İsmayıl qah-qah gülüb və xoşhal olaraq çəkib Gülzarın gül yanaqlarından bir cüt öpüş götürdü və sonra Ərəbin boynun qucaqlayıb onun da şəkərdən şirin qönçə dodaqlarından uzanan bir öpüş götürdü. Amma nə Gülzar və nə Ərəb bir-birlərinə cicik etmirdilər. Bəlkə bir-birlərinə bir mehriban bacı kimi baxırdılar. Buna görə onların ortasında olan səmimiyyət və düzgün əlaqə indiyə kimi xanəvadədə görünməmişdi. Buna görə Şah İsmayıl baxdıqca

------------------

* Naci – yəni nicat verən.

şad olub və yenə də tar çalıb və eşq ilə oxuyurdi və gözəl və ay kimi məşuqələri də ona baxıb ürəkdən xoşhal olaraq, gözəl bir səs ilə oxuyurdular. Onların səsi gögdən keçən gözəl durnalara da əsər edirdi. Çadırların dövrəsi otluq və gül və çiçəklər olduğu üçün sürü-sürü durnalar havadan əglənə-əglənə orada sərpələşib dolanırdılar və o yeri ayrı bir mənzərəyə döndərirdilər. Hava yavaş-yavaş qaranlıqlanırdı. Daha bütün çadırların içində böyük şamlar yandırıldı. O gecə Şah İsmayılın dəsturunə görə qərar idi ki, bütün qoşun əhli şadlıq eləsinlər ki, cəngdə çox rəşadət və şücaətlər göstərmişilər, mənsəb və rütbə veriləcək idi. Buna görə əvvəl axşam olan kimi cəm şeypuru çalındı, bütün qızılbaşlar öz çadırlarından eşigə çıxıb meydana yığıldılar və bir azdan bütün onlari ki, cəngdə candan keçmə vuruşmuşdular və mənsəb və mərtəbəyə layiq idilər, bir-bir adları ilə səsləyib və hər kəsin öz məqam və şanına görə dərəcə-rütbə verib və bütün qoşun əhli onlara bu məqamə salam deyib və ehtiram elədilər və həman axşamdan qoşun əhlinin ürəgində bir qeyrət və artıq şəhamət vücuda gəldi. Çünki gördülər ki, Şah İsmayıl onların bütün işlərin nəzərə alıb və yaxşı ilə pisə fərq qoyub və hər kəsi öz məqamına görə hesab edir.

Şah İsmayıl onlara məqam və dərəcə verəndən sonra öz gözəl və qəhrəman sevgilisi Ərəbi ortaya çəkib qoşun əhlinə belə dedi:

– Əziz qardaşlar! Sizə aydındır ki, Ərəbzəngi vətən uğrunda və millət şərəfi yolunda necə candan və qətrə-qətrə qanından əsirgəməyib və nə qədər mənim və millətin dar günündə çalışıb və indi də hənuz mən və siz ilə ta son nəfəsinə kimi bu yolda igit bir qadın kimi durub. Buna görə ona məqam verməgi sizə tapşırıram.

Şah İsmayıl sözün kəsib, daha bir söz demədi. Bu

mouqə qoşunun hər tərəfindən hamı bu cürə dilə gəldilər:

– Yaşasın qeyrətli və şərəfli Ərəb!

– Ölməsin vəfalı və mehriban Ərəb!

Yaşasın və həmişə dünya durduqca diri qalsın Azərbaycanın şəhamətli qadınlarına şücaət və şərəf dərsi verən qəhrəman Ərəb!

Ərəb layiqdir ki, Əmir tuman* olsun. Ərəb layiqdir ki, Şah İsmayılın sağ tərəfində otursun. Yaşasın Ərəb! Ölməsin Ərəb! Hura...Hura...

Daha bir azdan sonra ara sakit olub və Şah İsmayıl sözə keçdi:

– Çox yaxşı. Mən istirdim ki, mənim mehriban Ərəbimə millət özü məqam versin. İndi ki, siz onu sepəhbəd olmaq üçün mənə sifariş edirsiz, mən də sizin meylizə görə onun əmir tuman olmağına alqış söyləyib, ürəkdən zövq edirəm.

Bu zaman qoşun əhli yenə də hura çəkib, «Yaşasın Ərəb!» – dedilər və Gülzar da irəli yeriyib Ərəbin üzündən öpüb ona alqış söylədi. Sonra Şah İsmayıl Gülzarı qoşun əhlinə nişan verdi. Qoşun əhli də: «Yaşasın Gülzar! Ölməsin Gülzar!» – deyəndən sonra dedilər ki, millətin mələkəsi Gülzar xanım ki, indi öz qəhrəman sevgilisi Şah İsmayıl ilə düşmənlər qabağına vuruşmağa gedir və qeyrəti qəbul eləmir ki, vətən qardaşlarını tək buraxsın, yaxşıdır ki, sabah səhərdən cəng fənnin və qılınc vurmaq və at qovmaq və habelə bütün vuruşma işlərin ögrənsin.

Gülzar bu sözi onlardan eşidən kimi uca bir yerə çıxıb dedi:

– Əziz və qəhrəman qardaşlar, sizin buyurduğuz çox düzgün və mənim ürəgim istəyən bir sözdür. Doğrusu alqış

---------------------

* Əmir tuman – yəni məsələn sepəhbəd.

və iftixar siz şahmətli qızılbaşlara. Göz üstə, mən sabahdan cəng və vuruşma məşqin Ərəb bacımdan ögrənərəm.

Buna görə qoşun əhli çox ad olub və hamı sevinərək ona «afərin» dedilər. Daha dağıl şeypuru çəkildi və hamı qızılbaşlar öz çadırlarına girib əgləşdilər. Sonra gecə keçdikdə hamı yatmağa məşğul olurdular. Əvvəl axşam ki, hava qaranlıq kimi idi, gecə keçdikdə parça-parça ağ görünən bulutların içində dolanmağa başlamışdı. Elə bil ki, öz məşuqəsi günəşi axtarma istəyirdi. Bir günəşi axtarmaq istəyirdi. Bir tərəfdən də parıldayan ulduzların gög üzündə göz vurmaları gecənin zülmətin bir qədər aradan aparmışdılar. Hər dəmdə yumuşaq və sərin yel əsirdi; Çadırların yerə mıxlanmış iplərin tərpədirdi. Ancaq hamı yuxlamışdı. Fəqət, çadırların qapularında duran qəravullar ayıq idilər. Çölün hər tərəfi sakit və aram idi. Amma hərdəm uzaqdan bəzi heyvanların səsi qulağa gəlirdi. Çox vəqt çaqqalların uvultusu və bəzi vəqt uzaqdan keçən karvanların dəvələrinin boynundakı zınqırovların darambadurumu eşidilirdi. Gözəl ay da gögə hey qaçırdı. Bulutlar dərya ləpəsi kimi hər tərəfə dağılırdılar. Amma yer üzündə bir tərpəşən və dolanan yox idi. O qədər çadırların içində fəqət bir nəfər ayıq idi. Bu nəfər həman Şah İsmayıl idi.

Şah İsmayıl nə üçün ayıq idi? O bir az yatandan sonra yuxusunda yaddan çıxmış alagöz Pərini görmüşdi. Buna görə hər nə edirdi, yuxusi gəlmirdi. Bu idi ki, yerindən durub və çadırdan eşigə çıxıb, əvvəl gög üzündə süd kimi gözəl aya baxdı və bir az bulutların parça-parça dağılmaqların tamaşa elədi. Sonra sazın götürüb çadırdan uzaqlandı. Bir böyük daşın yanında yerdən çıxan bulağın başında oturub, indi görək o xəlvət gecə də müddətlər ayrı düşdigi alagöz Pərinin ayrılığında nə od yandırdı:

Gecələr uzundur, yata bilmirəm,

Pərini qəlbimdən ata bilmirəm.
Əlim üzülübdür, çata bilmirəm,
Oduna yandığım alagöz Pəri.

Gecələr, gecələr, uzun gecələr,
Dərdinə düşərəm onun gecələr,
Qəmindən taparam cunun gecələr,
Oduna yandığım, alagöz Pəri.

Dərdimi söylədim saz il tara,
Ayrılıq salıbdır qəlbimə yara.
Gəzərəm çölləri mən ara-ara,
Oduna yanaram, alagöz Pəri!

Tutubdur gög üzün qara bulutlar,
Dağları, daşları yırtıcı qurtlar.
Səndən ayrılanda çıxmışdı tutlar,
Oduna yandığım, alagöz Pəri

Yəqin ki, bilirsən məni bivəfa,
Buni yaxşı bilir görünməz xuda.
Səndən ayrılanı çəkirəm cəfa,
Oduna yandığım, alagöz Pəri!

Acışır gözlərim, dolur yaş ilə,
Yananda ürəgim dönür selə.
Qoymuram dərdimi bir kimsə bilə,
Gizlində yandığm, alagöz Pəri!

Səndən ayrılanı qanım qaradır,
Ürəgim qüssədən, qəmdən yaradır.
Yaradır, yaradır, para-paradır,

Oduna yandığım, alagöz Pəri!

Dərdimi söylərəm ulduza, aya,
Üzümü döndərrəm tək bir Xudaya,
Dözərəm yolunda dərdü-bəlaya,
Oduna yanaram, alagöz Pəri.

Gələrəm dalınca, səni atmaram,
Səni unudmaram, yada qatmaram,
Sənsiz sübhə kimi daha yatmaram,
Oduna yandığım, alagöz Pəri!

Badi-səba böylə əsincə daşa,
Yetir salamımı qövmü-qardaşa.
Hicran atəşləri yetişir başa,
Oduna yandığım, alagöz Pəri!

Gög üzi qaranlıq idi. Amma gözəl Ayın işığı bütün hər yanı işıqlandırmışdı. Ulduzlar dəstə-dəstə, ağ-ağ bulutların içinə girib, bir azdan sonra yenə də bulutların cəngindən qurtulurdular.

Şah İsmayıl yanıqlı-yanıqlı oxuyarkən onlara tamaşa edirdi. Ay bulutların əsiri olanda bütün dünyanı qaranlıq bürüyürdü. Bütün ulduzlar da Şah İsmayıldan ayrılıb uzaqlaşırdılar. Onun ürəgi tutulurdu. Vəli bir az keçəndən sonra yenə də gözəl Ay öz cəmalın ona göstərirdi. Buna görə Şah İsmayılın ürəgi açılıb və tutulmuş könlü şad olurdu.

Hərdəm yumuşaq yel əsəndə Şah İsmayılın tellərin pərişan edirdi. Bəzi vəqt uzaqdan heyvanların səsi qulağa gəlirdi. Amma heç biri Şah İsmayıla yaxın degil idilər. Fəqət gahdan bir çaqqal, qurd, dovşan, şir pələng, fil və

cürbəcür heyvanların nərəsi gəlirdi. Vəli Şah İsmayıl eşq aləmində idi və bu dünyanın olduğundan xəbərsiz idi.

Bulağın eşigə suyu axdıqca yavaş-yavaş şırıltı səsi gecənin səssiz olduğun pozurdi. Şah İsmayıl oxuyub bir az dayandı. Ay bulutların altından çıxıb yeyin gedməgə başladı. Bulutlar da onun kimi qaçırdılar. Şah İsmayıl heyrət ilə tamaşa edirdi və başın bir daha dayayıb ay ilə bulutların mübarizəsinə baxırdı. Amma Pərinin xəyalında olduğu halda hərdəm bir kəhildi səsi qulağına gəlirdi. Doğrusi, bu kəhildi səsi çox yaxın idi. Elə bil ki, Şah İsmayılın lap dalında idi. Amma Şah İsmayıl fəqət aya baxırdı və parça-parça bölünmüş bulutlara tamaşa edirdi. Vəli bu mouqə bir şey Şah İsmayılın çigninə dəgdi. Sonra iki əllərin onun hər iki çigninə qoyub kəhildəmağa başladı. Şah İsmayıl min cürə xəyallarda olursa da birdən-birə dönüb dalı baxan kimi nə gördi?

Bir canlı və qara tükli və ağzı qanlı, gözləri qırmızı, dırnaqları uzun, dişləri iti, boyu uca, qorxmalı ayı gördü. Şah İsmayıl özün itirməyib oturduğu yerdən fourən qalxıb heyvanın əllərin çignindən çəkdi. Heyvan çox ağır və yoğun ayı idi. Şah İsmayıl fourən əlin atdı qılınca. Vəli ayı düşünən bir mövcud kimi forən ağzın atıb onun qolun ağzına aldı. Şa İsmayıl gördü ki, əgər bir az yubansa ayı onun qolun qıracaq. Buna görə tez bu biri əlin gətirib belindən iti xəncəri çəkib ayının boğazından elə soxdu ki, qan fəvvarə kimi Şah İsmayılın üzünə sıçradı.

Ayı boğazının acışmasına görə onun qolun ağzından buraxdı. Vəli bir azdan sonra belə bir acıq ilə həmlə gətirdi ki, az qaldı Şah İsmayılı birdəfəlik əzib aradan aparsın. Ayı güdüb fürsət ələ saldı. Bir əlin gətirib Şah İsmayılın sinəsinə qoyub və bir əlin də onun dalından kürəginə qoydu. Şah İsmayıl bunu belə görən kimi anladı ki, ayı istir

ki, onun belini bu iylə ilə sındırsın. Buna görə bir dəfə güc verib öz dövrəsinə fırlandı. Bu cürlic ilə heyvanın əllərindən çıxdı. Amma heyvan daha da acıqlı olub bu dəfə iki əllərin gətirib onun boynundan həlqə saldı və bir az fişar verib onu dizə çökdürdü. Şah İsmayıl taqət gətirə bilməyib yerə yıxıldı. Ayı bunu görən kimi fourən onu altına aldı və bu dəfə yenə də ayının işin anlayıb bir güc verib ayının qarnının altına girib istədi ki, onu gögə götürüb başında dolandırıb yerə vursun. Vəli hər nə güc verdi, onu qovzaya bilmədi. Çünki ayı çox ağır və gücli ayı idi. Buna görə daha məəttəl olmayıb, onun qarnının altından çıxdı. Qara qan ayının boğazından tez-tez axırdı. Şah İsmayılın bütün paltar, üz və əlləri ləxtə qan ilə bulaşmışdı. İki saat olardı ki, ayı ilə tutuşub vuruşirdi. Amma ayı getdikcə qızışıb, ağzından qanlı köpük axırdı. Tutuşduqları yer qan ilə boyanıb, qaranlıq olduğu halda uzaqdan baxanda yer qara görünürdü.

Şah İsmayılın bütün əlləri və üzü və paltarları cırıq və qanlı idi. Ayının dırnaqları onun bədənində saf yer qoymamışdı. Hər ikisi də nəfəsdən düşüb yorulmuşdular. Bunla belə ayı yenə də onu boğmaq istəyirdi. Vəli Şah İsmayıl bu dəfə onu birdəfəlik öldürüb aradan aparmaq üçün bir əlin onun alt ənginə, bir əlin də üst ənginə salıb bir dəfə «ya həq» deyib, fişar verən kimi ayı ucadan anqırıb nəfəsdən düşdü. Daha ayının alt əngi Şah İsmayılın bir əlində və üst əngi də bir əlində qaldı . Sonra çəkilib kənarda durdu. Ayı bir az əl-ayaq çalıb candan düşən kimi Şah İsmayıl onun böyük və canlı nəşini dalına alıb çadıra tərəf üz qoydu.

Şah İsmayıl çadırdan çıxandan sonra Ərəb ilə Gülzar yuxudan ayılıb oturmuşdular və Şah İsmayılın yubandığına görə ikisi də yerlərindən durub və qılıncların bağlayıb eşigə çıxan zaman Şah İsmayıl ayını dalına atıb

içəri gətirdi. Gülzar və Ərəb fourən qılıncların çəkib onun qabağın tutdular. Ərəb dedi:

– Kimsən?

Şah İsmayıl dedi:

– Mən Şah İsmayılam.

Ərəb inanmadı. Çünki Şah İsmayıl əvəz olmuşdu. Qan bütün üz və gözün tutub və paltarları cırıq-cırıq olmuşdu. Buna görə Şah İsmayıl tanınmırdı. Amma onları iştibahdan çıxartmaq üçün ayını dalından yerə qoydu. Ərəb və Gülzar ayıya baxıb çox təəccüb elədilər. Çünki ayı o qədər canlı və yekə idi ki, çadırın bir tərəfin tutdu. Ərəb yenə Şah İsmayılı tanımadığı üçün əkilib onun üzünə baxıb gördi ki, Şah İsmayıl özüdür. Buna görə onun bu şücaət və qorxmaz olduğundan çox şad olub sevindi. Daha Gülzar və Ərəb su qızdırıb Şah İsmayılı soyundurdular, bütün yaraların yuyub dağların otlarından dəva düzəldib yaralarına qoydular və sonra paltarın əvəz edib, yorğan-döşəgə saldılar ki, bir az istirahət etsin.

## AZƏRBAYCANIN QƏHRƏMAN OĞLANLARI

Şah İsmayıl Bağdad şəhəri ilə vuruşmaq üçün Azərbaycanın bütün kənd və şəhərlərinə göndərdigi məmurlar Azərbaycanın hər tərəfində car çəkib hamı millətə deyirdilər:

– Ey millət, ey ölkədaşlar, ey vətən yolunda və şərəf uğrunda candan keçənlər, qulaq asın!

Azərbaycanın qəhrəman və şərəfli atası Şah İsmayıl bütün düşmənlərin kökün dibdən qazmaq üçün və habelə sizi quduz və yırtıcı yağılar cəngindən birdəfəlik asudə etmək üçün vuruşa-vuruşa Bağdad şəhərinə gedmək və düşmənlərlə vuruşmaq istəyir.

Carçılar bu sözləri bütün kəndlərdə, şəhərlərdə və çöllərdə, hamı yerlərdə car çəkib deyəndə xalqın qanı cuşa gəlib hura çəkirdilər:

– Yaşasın Azərbaycanın qeyrətli və qəhrəman oğlu Şah İsmayıl! Yaşasın millət!

Daha kəndlərdən və şəhərlərdən yol azuqəsin götürüb və silah hazır edib, atlarına minib və habelə ana və bacı, qardaş və bütün qövli və qəbilələri ilə vida edib, Şah İsmayılın köməginə və vətənin uğrunda, şərafət yolunda can qurban eləməgə hazır olanlar yola düşüb, Bağdad deyibən götürüldülər.

Ancaq bu car Pəri xanımın kəndində də çəkildi. Pəri yuxlamışdı və yuxusunda gördi ki, Şah İsmayıl onun başı üstə gəlib, uca səs ilə onu səsləyir. Bu mouqə Ağca carın çəkilməsin eşidən kimi sevinə-sevinə Pərinin otağına gəlib gördü ki, Pəri yatıb. Buna görə onu əli ilə oyatmağa başladı. Amma Pəri belə görürdü ki, Şah İsmayıl onun başı üstə onu yuxudan oyadır.

Ağca Pərini silkələyib oyatdı. Pəri gözlərin açıb Şah

İsmayıl yerinə Ağcanı başı üstə gördü. Ağcadan bu mouqə gəldiginin səbəbin soruşdu və Ağca da car çəkilməsin ona göstərdi.

Pəri carçının səsin eşidən kimi anladı ki, yuxuda eşitdigi səs həman carçının səsidir. Buna görə çox qəmli oldu. Vəli bir azdan sonra yaxşı qulaq verib gördi ki, carçı Şah İsmayılın peyğamın millətə car çəkir. Bu idi ki, Şah İsmayıl adın eşidən kimi yerindən durub, birbaşa car çəkənin yanına gəldi.

Pərinin gözləri yaş ilə dolmuşdu. Üzünə baxanda bəlli degil idi ki, Pəri gülür, ya bu ki, ağlayır. Ancaq fəqət gözləri dolub və ürəgi vururdu. Pəri neçə dəfə istədi ki, car çəkənə bir söz desin, boğazın  tutan bücz ona aman vermirdi. Carçı Şah İsmayıl gəlməsin ağzına gətirdikcə Pəri daha çalğınırdı. Amma çalışırdı ki, onun bu halın bir kimsə görməsin.

Carçı carın çəkib, yola düşmək istəyirdi. Bu idi ki, Ağca Pəriyə dedi:

– Nə üçün dayanıbsan?

Pəri dedi:

– Bəs nə edim.

Ağca dedi:

– Sevgilin Şah İsmayıla bir namə yaz.

Pəri bu sözdən artıqca şad olub sevindi. Sonra özünə cürət verib carçını çağırdı.

Carçı mehriban və sədaqətli bir məmur idi. Pəri onu çağıran kimi çox ehtiram və paklıq ilə onun yanına gəlib sözünə qulaq asmağa başladı. Amma Pəri bir az dayandı. Vəli Ağca ona dedi ki;

– Dayanmaq yeri degil. Bu kişi sənin sevgilin Şah İsmayıl tərəfindən gəlib və hər nə dərdin var, ona söylə.

Məmur bu kəlməni eşidən kimi dedi:

– Xanım, siz əzizimiz Şah İsmayılın sevgilisisiz?
Ağca dedi:
– Bəli.
Məmur dedi:
– Bəs, buyuracağız var idi?
Pəri dedi:
– İstirdim sizə bir namə verim ki, onu əzizim İsmayıl Xətaiyə yetirəsiz.
Məmur dedi:
– Göz üstə. Siz naməzi yazın. Sabah səhər tezdən biz buradan Şah İsmayıl olan diyara gedəcəgig, aparaq.
Pəri və Ağca evlərinə qayıdıb və Pəri kağız və qələm götürüb, indi görək illər boyu ayrı düşüdügi sevgilisi, ellər qəhrəmanı Şah İsmayıla nə yazdı:

Vəfasız olduğun, fərar etdigin,
Məni tərk etdigin, diyar etdigin,
İşıq bu aləmi məzar etdigin
Çürütdü canımı, daha bəs degil?!

Ürəkdən çıxmıri xəyalın sənin,
Gözümdən getmiri cəmalın sənin,
Tutubdur aləmi kəmalın sənin,
Çürütdü canımı cəfa, bəs degil?!

Bir namə yazıram can üzə-üzə,
Ayrılıq gətirdi qəlbimi sözə,
Gözümdə fərq yox gecə-gündüzə,
Bu qədər düşmənin cüda, bəs degil?!

Ey məni odlara salan, sevgilim,
Ey mənim sünbülüm, ey qızılgülüm,

Ey güllər içində sona bülbülüm,
Bu qədər uçmağın uca bəs deyil?!

Oxuyub naməni atma qırağa,
Döndərmə ürəkdə odları dağa,
Yazıram gözümdən yaş yağa-yağa,
Cəfalar verdigin daha bəs degil?!

Cavanlıq çağında xəzan olmuşam,
Qanatı kəsilib yazıq olmuşam,
Sənsiz bu dünyadan daha doymuşam,
Bu qədər saxladım vəfa, bəs degil?!

Pəri naməni yaza-yaza gözlərindən damcı-damcı odlu yaşlar namənin üstünə tökülürdü. Amma Ağca ona ürək verib, dilə tutub deyirdi:

– Əzizim Pəri! Ağlama, ağlama Pəri, ağlama.

Sabah səhər olan kimi həman mehriban məmur qapını vurub və Pəri qapuya gələn kimi salam verib naməni istədi. Pəri də naməni verib ondan məmnun olaraq dedi:

– Allaha tapşırdım.

Məmur naməni alıb dedi:

– Allah saxlasın!

Pəri və Ağca dedilər:

– Əziz qardaş, gülə-gülə.

Məmur naməni alıb yollandı və kəndin kənarında bir iddə cavan taya yığırdılar. Biri hərdəm uca səs ilə oxuyurdu və sözünün axırında bu cürə eşidilirdi: «Sevgilim Ağca, öz gülüm Ağca».

Bu oxuyan Ağcanın adaxlısı Həsən idi. Həsən öz işinə məşğul idi. Amma ürəgi kənd malikinin əlindən qan idi. Çünki malik ondan həmişəliq maliyyatdan artıq ma-

liyyat, yəni bəhrə istəmişdi. Carçılar onlar işləyən yerə gedib car çəkən kimi Həsən və onun qardaşları şələni və otları yerə atıb, carçının sözünə qulaq verib «Vətən yolunda və Şah İsmayıl fərmanında cəng» adı eşidən kimi daha dayanmayıb, evlərinə tərəf yollandılar.

Həsən və onun qardaşları əvvəl öz bacıları Pərinin yanına gedib və Şah İsmayılın köməginə gedməklərin ona xəbər verdilər. Pəri onlardan bu məhəbbəti və qeyrəti görən kimi zövqündən gözlərindən yaş axıb, çəkib birbəbir qardaşlarının üzlərindən öpdü. Həsən də öz sevgilisi Ağca ilə ayrılmaq üçün onun evinə tərəf yollandı.

Ağca evdə oturub indidən balaca uşaq paltarı tikirdi və hərdəm tikdigi paltarı öpüb, ona lay-lay deyirdi:

Lay-lay deyəydim sənə,
«Ana» deyəydin mənə,
Və «atacan» Həsənə
Lay-lay çocuğum lay-lay,
Lay-lay balam, a lay-lay,
Lay-lay anam, a lay-lay.

Həsən evin qapısının dalında durub Ağcanın bu cürə oxumağın görən kimi ürəgi vurmağa düşdi. Ancaq çarə nə idi. Gərək indi ki, xudahafiz etmək üçün sevgilisi Ağca ilə görüşsün. Buna görə qapudan içəri girib Ağca ilə öpüşməgə başladı. Ağca o cürə oxumaqdan Həsəndən utandı. Vəli Həsənin tez gəlməgindən çox təəccüb edib dedi:

– Əzizim Həsən! Nə üçün belə tez gəlibsən?

Həsən çəkib yenə də onun qönçə dodaqlarından öpüb dedi:

Gedirəm vətənə xidmət etməgə,
Kəfəni boynumda xələt etməgə,

Gəldim indi sənlə söhbət etməgə,
Ayrılmaq dəmidir, Allah saxlasın!

Aldı Ağca ağlaya-ağlaya görək nə dedi:

Gedirsən, ürəgim yanar dalınca,
Amandır, tez qayıt, bayram olunca,
Çocuğum olunca, boya dolunca,
Vətənin uğrunda gülə-gülə ged.

Aldı Həsən:

Ölürsəm cəngdə, ağlamıyasan,
Mən ölsəm, yaşasın qoy ana vətən.
Balamın adını qoyarsan Həsən,
Ayrılmaq dəmidir, Allah saxlasın.

Ağca hoküldəyə-hoküldəyə aldı görək nə cavab verdi:

Ürəgim dönmüri bu gedməgindən,
Və likən neyləyim, əzizdir vətən,
Gözlərəm yolunu qayıdınca sən,
Vətənin uğrunda gülə-gülə ged.

Aldı Həsən:

Səndən ayrılmağım yamandır, yaman,
Yamandır yarından ayrıla cavan.
Tutubdur gözümü şərəf ilə qan,
Ayrılmaq dəmidir, Allah saxlasın!

Adı Ağca:

Gedirsən, yadından çıxarma məni,
Yadından çıxardıb tez atma məni,
Allah eləməsin, aldatma məni,
Şərafət yolunda gülə-gülə get.

Həsən daha bir dəfə də son ayrılıq üçün sevgilisi Ağcanı qucaqlayıb onun gözlərinin yaşın silib, üzündən öpüb, onu dilə tutub, bağrına basıb deyirdi:

– Əzizim, gözəlim, ağlama. Sən gərək iftixar edəsən ki, sevgilin vətən uğrunda və şərəf yolunda ölümə gedir.

Ağca yaşlı gözlərin onun üzünə tutub dedi:

– Əziz sevgilim! Ged. Ümidvaram ki, vətən yolunda fəth edib, yağı düşmənləri aradan aparıb milləti bu fəlakət və pis günlərdən qurtarasız. Amma... amma məni də unutma. Gözlərimi yolda qoyma...

Ağca bu sözləri deyəndən sonra bir də ağlamağa başladı. Həsən onu bir dəfə də öpüb, atını yəhərləyib, alıcı quş kimi onun belinə atılıb, daha biro də atın üstündən əgilib sevgilisi Ağcanın üzündən bir də ayrılıq öpüşü götürüb, «Allah saxlasın» deyib, ata bir qamçı vuran kimi at tufan yeli kimi götürülüb gözdən itdi.

Ağca bir müddət gözlərinin yaşın tökə-tökə atın ayaqlarının altından qovzanan toz-torpağa baxıb və onlar gözdən itəndən sonra qəmli və gözləri yaşlı bir halda evə qayıtdı.

Həsən və onun qardaşları öz bacıları Pəri ilə də görüşüb və öpüşəndən sonra atlarına minib « Şah İsmayıl» deyibən yollandılar. Çöllər, dağlar, daşlar, dərələr, bağlar, kəndlər, şəhərlər, bütün hamı hər tərəfə baxırdı, atlanıb qılıncın bağlayıb və qövm və qəbiləsi ilə halallaşıb çapan idi.

Amma Şah İsmayıl ki, bir az yaxşılaşıb və hala gəlmişdi, çadırlarında oturduğu zaman qızılbaşlardan ona xəbər verdilər ki, dərələri və təpələri yağı düşmənləri tutub və budur həmlə gətirirlər.

Şah İsmayıl bunu eşidən kimi istədi ki, yerindən durub çadırdan eşigə çıxsın. Vəli Ərəb və Gülzar onu qoymadılar. Buna görə Ərəb və Gülzar özləri çadırdan çıxıb durbin ilə baxıb gördülər ki, qabağa gələn atlılar çöllərə səpələşib çapırlar və yazıya bənzəmirlər. Daha bir az səbr edib dözənnən sonra atlılar yaxınlaşıb, dalbadal atlarından düşüb Şah İsmayılı xəbər alırdılar. Ərəb və Gülzar onlardan soruşdular ki, Şah İsmayıl ilə nə işiz var? Onlar da cavab verdilər ki, onun yolunda və ölkə və şərəf uğrunda can qurban eləməgə gəlmişik.

Ərəb və Gülzar və dövrədə duran qızılbaşlar bu sözləri eşidən kimi ürəkdən şad olub və onları Şah İsmayılın hüzuruna gətirib, işi Şah İsmayıla ərz elədilər. Şah İsmayıl ki, əvvəl xəyal edirdi onlar düşmən olalar, bu dəfə bu sözü eşidən kimi ürəkdən şad olub, yerindən durub onlar ilə əl verib və «xoş gəlibsiz» dedi.

Onlar Şah İsmayıldan bu mehribanlığı və özünü çox kiçik tutmaqdan artıqca sevinib şad oldular. Amma dağlardan və çöllərdən hey cavan və qoca igitlər idi ki, Şah İsmayıl ordusuna yaxınlaşıb və atlarından enib, Şah İsmayıla təzim edib, ona iftixar ilə yardım üçün and içirdilər. Bu iş neçə gün davam tapdı. Hər gün minlərcə davtələb cavanlar və qocalar öz şərəfləri uğrunda fəda eləmək üçün gəlib bir yerə yığışırdılar. Daha bütün çölləri qızılbaş idi ki, tutmuşdu. Amma Şah İsmayıl onların azuqəsinin fikrinə düşüb bu dəfə hər tərəfə məmurlar yolladı ki, hər kəs hər nə qədər kömək edə bilər etsin və bir də çılara tapşırdı ki, bu iş gərək könül ilə olsun. Nəbada güc

ilə millətə təhlil edəsiz.

Daha qoşun çoxalıb və düşmən ilə vuruşmağa imkan yaratmışdı. Ancaq vuruşmaq üçün dəstur lazım idi ki, Bağdad şəhərin almaq olar. Nəhayət, o gün çatdı ki, Şah İsmayıl fərman verdi ki, qoşun hərəkət eləsin. Buna görə şeypurlar çalınıb evə dollular və təbillər vurulub, qoşun dərya-dərya yerindən qövzanıb «Bağdad» deyibən yollandılar.

## ŞAH İSMAYIL ŞİKƏST YEMƏSİ

Bağdad şəhərinin hakimi Şah İsmayılın baş qovzamağın və habelə onun şücaət və şəhamətin eşidmişdi. Amma belə də güman etmirdi ki, Şah İsmayıl cürəti və qorxmamazlığı bu yerə yetirsin ki, bir gün İraq məmləkətinə hücum gətirib və İraqi-Ərəb və habelə Kazimeyn və Bəsrədən tutub, bütün İrağın ətrafında olan şəhərləri fəth eləsin.

Amma bir gün məclisdə oturub və kefə məşğul idi ki, birdən-birə bir nəfər öz sərbazlarından içəri girib, təzim edəndən sonra dedi:

– Qurban, İraq sərhədlərində dərya-dərya qoşun dayanıb və göründügünə görə İraq məmləkətinə hücum gətirmək istəyirlər.

Hakim bir belə xəbəri heç gözləmədigi üçün bu sözü eşidən kimi birdən-birə yerindən sıçradı:

– Kimdə bu cürət və şücaət var ki, İraq məmləkətinə hücum gətirsin!

Daha hirsli və əsabani bir halda qəsrindən eşigə çıxıb, dalıca da bütün böyük vəzirlər və vəkillər yola düşüb, müntəzir bir halda hakimin fərmanın gözləyirdilər. Amma hakim qəzəbli dodaqların çeynirdi. Bir az qədəm vu-

randan sonra çağırdı:

– Mənim atımı gətirüz!

Onun canlı və ağ atın gətirən kimi fourən atın belinə sıçrayıb və əmir tumanlar da atlarına minib yollandılar.

Bağdad şəhərindən İraqın, İranın sərhədlərinə kimi gecə-gündüz çaparaq gəlib qızılbaş qoşununun neçə ağaclığında düşüb, durbin ilə qızılbaş qoşununa baxdı. Gördi ki, çölləri ağ və qara çadırlar tutub göz işlədikcə qoşun, at və dəvədir ki, onlara silah və azuqə çatdırıblar. Ancaq onların hamısının başı qırmızı və bellərində parlaq şəmşirlər var ki, günəş işığında parım-parım parlayırlar. Hakim bu vəziyyəti görüb təəcüb elədi. Çünki qızılbaş qoşunu əndazədən artıq göyə gəlirdi.

Bir az baxandan sonra hakim yanında olan əmir tuman və böyük sərdarlara üzün döndərib dedi:

– Ey sərdarlar! Ey əmir-tumanlar! Güman edərəm ki, Şah İsmayıl və onun təzə təşəkkül tapmış qızılbaş qoşunu çox xam olmuş olalar. Çünki onlar dünyanı olan Bağdad hakimin çox xırda nəzərə alıb və bu cürə çöllərə yayılıblar.

Dövrədə duran sərdarlar onun cavabında fourən qılıncların bellərindən çəkib onun qabağına yeriyib dedilər:

– Əmr buyuruz, icazə verüz bu lüt qılınclar onların qızıl qanları ilə boyanıb əlvan olsunlar.

Hakim onları bu cürə görüb, bir az güləndən sonra dedi:

– Gərəkdir ki, onların başları bizim atlarımızın ayaqları altında top kimi oyan-buyana dığırlansın.

Sərdarlar və əmir tumanlar birdən-birə baş əgib təzim edib dedilər:

– Qurban, əmriz mütaiddir.

Daha hakim həman yerdə əmr elədi ki, çadırlar qu-

rulub, məclis təşkil olub, qərar oldu ki, bütün İraq məmləkətində hər nə qoşun var, silahlanıb, həmlə üçün hazır olsunlar. Bu xəbər fourən qasid və carçıların vasitəsilə hər tərəfə yayılıb bir zamandan sonra Bağdad və ayrı şəhərlərindən dəstə-dəstə fouğ-fouğ qoşşun idi ki, hakim olan yerə yığılıb çölləri doldurdular. İttifaqdan bu xəbər Şah İsmayılın qulağına yetişdi. Şah İsmayıl da cəngə lazım olan əmirləri verib düşmənin nagahan həmləsinin qabağın almaq üçün qoşunu neçə qismət edib bütün dəsturları verdi.

Neçə gün bu cürə sakit və aramlıq ilə keçdi. Hamı nigəran halda yaşayırdı. Hər iki tərəf bir-birlərindən nigəran olduqlarına görə çalışırdılar ki, nəbada düşmənə basılıb rüsva olsunlar. Buna görə var gücləri ilə bütün səngərləri bərkidib və özlərin hazır edirdilər.

Amma bir gün səhər tezdən, hənuz alaqaranlıq idi ki, uzaqdan təbil və duhul səsi çölləri, dağları və uçurum dərələri doldurdu. Hər tərəfdən təbil və hura səsi idi ki, qulağa gəlirdi.

Şah İsmayıl bu vəziyyəti görən kimi fourən əmr elədi ki, birinci və ikinci ləşgər fourən silahlanıb atlarının belinə qondular. Bir qədər öz çadırlarından aralaşıb düşmənin qabağına çıxdılar. Düşmən qoşunundan təbil və dohul səsi gəlirdisə də, ancaq qaranlıq olduğu üçün dağ və dərələrin alçaq-uca olduğuna görə onlar görünmürdülər. Buna görə qızılbaş qoşunu yavaş-yavaş yerişə başlayıb, çox ehtiyat ilə qabağa gedirdilər. Vəli hər nə baxırdılar, düşməndən əsər yox idi. Buna görə təəccüb ilə hər tərəfə baxırdılar.

Vəli bir göz yuman zamanda birdən-birə yaxından at ayaqlarının taraqqa-turuği və hura səsləri onların dövrəsin bürüdü.

Qızılbaş qoşunu dönüb baxan kimi özlərin əli qılınc-

lı və gözləri qızarmış düşmən qabağında görən kimi fourən anladılar ki, düşmən onları təslim edib öz tərəflərinə apardılar.

Şah İsmayıl qoşunu neçə qismət edib və hər qismətə bir neçə sərdar böyük eləmişdi və bu iki ləşgərin böyügidə neçə nəfər əfşar və qacar tayfasından idi. Şah İsmayılın onların şücaətinə çox imanı var idi. Amma vəqti ki, onların düşmən əlinə düşüb və təslim olmaqları Şah İsmayıla yetişdi, çox təəcüb edib fikrə düşdü.

Nəhayət, neçə gündə bu cürə keçdi. Bir gün yenə də gecə yarısı təbil və duhul səsi bütün qulaqları kar edib, yatanları oyadıb narahat elədi. Bu zaman Şah İsmayıl qəzəbli halda yerindən durub üçüncü və dördüncü ləşgərə həmlə fərmanı verdi. Bu iki ləşgər də hənuz min qədəm öz qoşunlarından ara açmamışdılar ki, düşmən onlara hücum edib bir az vuruşandan sonra onları da təslim edib Bağdad şəhərinə yolladılar.

Bu iki sınıq yemək Şah İsmayıl və Gülzar və Ərəbi çox narahat elədi. Çünki onlar indiyə kimi bu cürə aldanmamışdılar və hamudan pis bu idi ki, düşmən qoşunu yaxınlaşmışdı və əgər bir az qəflət olunsaydı, bütün qızılbaş qoşunu düşmən əlinə düşüb məhv olardı. Daha Şah İsmayıl bütün vəkillər və vəzirləri başına yığıb məclis qurub, nəqşə çəkməgə başladılar. Nəqşə belə oldu ki, düşmən qoşunun öz yerlərindən uzaqlaşıb o yeri dövrələsinlər və düşmən qoşunu oraya həmlə gətirən kimi onları dövrələyib tutsunlar. Buna görə gecə zamanı olan kimi qoşun yerindən hərəkət edib, qərar qoyulmuş yerlərə yollandılar. Səhərə yaxın idi ki, düşmən qoşunu yavaş-yavaş, səssiz bir halda qızılbaş qoşununun çadırlarına yaxınlaşıb, qızılbaşlardan bir əsər görmədilər. Fourən anladılar ki, düşmən onları aldadıb. Buna görə onların sərdarı ki, çox tədbirli və

anlaqlı bir pəhləvan idi, fərman verdi ki, qızılbaş qoşunun ayaq yerlərin tutub, onların dalınca həmlə aparsınlar. Buna görə qızıl ordu qəzəbli bir halda qızılbaş qoşununun ayaqlarının nişanı ilə həmləyə başladılar.

Qızılbaş qoşununun dalı qalan ləşgəri ki, qoşundan bir az aralı idi, qızıl ordunun mühasirəsinə düşdü. Bir qədər vuruşandan sonra onlara təslim oldular.

Şah İsmayıl hənuz qoşuna istirahət icazəsi verməmişdi ki, bu xəbər ona yetişdi. Hirsindən az qaldı ki, damarları partlasın. Amma özün saxlaşdırıb aram qaldı. Ərəb və Gülzar Şah İsmayılı bu cürə görməkdən çox qəmli-qüssəli olub, onu dövrələyib ürəgin şad etməgə başladılar. Vəli Şah İsmayıl fikir içində qərq olmuşdu. Çünki göründuğuna görə düşmən çox usta və güclü idi. Hamudan pis bu idi ki, qızılbaş qoşunu bu qədər şikəst yeməkdən bir az qorxuya düşüb narahat olmuşdular.

Qızıl ordu çox cənglər və vuruşmalar görmüşdü. Onlar bütün nizami işlərində ustad idilər. Çəngiz xan zamanından hər yerə ki, həmlə aparmışdılar, fourən o yeri almışdılar. İndi müddətlər idi ki, bütün İraq şəhərin alıb və orada hökumət sürürdülər. İraqın rəsmi dili türki idi və hakimi də Çəngiz xan övladından idi.

Şah İsmayıl bundan bildi ki, bir müddət çöllərdə və dağlarda qalsın, ta bəlkə qoşunu təkmil edib və gələcək cəngində vuruşmaq üçün nəqşələr çəksin. Buna görə bir müddət istirahət halında yaşamağa başladı.

Şah İsmayıl düşən çöllər bütün ağaclıq, bağ və bostan idi. Qoşunun azuqəsi bağlardan, dağlardan ələ gəlirdi. Bir müddət çöllərdə şikara məşğul olub günlərin şad edirdilər.

Şah İsmayılın çadırı bir meyvəli bağın içində qurulmuşdu. Şah İsmayıl və Gülzar və Ərəb hər səhər tezdən

yuxudan durub bağı dolanırdılar. Gözəl meyvələr, qızıl alma, şirəli şaftalılar, qırmızı güllər və ətirli çiçəklər bağın hər tərəfində bitib ürəgi açırdılar. Şah İsmayıl həmişə qəmli görünürdü. Amma Ərəb ilə Gülzar güllərdən və qönçələrdən dərib onun yaxasına taxırdılar. Bəzi vəqtlər Gülzar ağaclardan yetişmiş meyvələrdən dərib sevgilisi Şah İsmayılın ağzına qoyurdu. Vəli bunlar ilə belə Şah İsmayıl düşmən əlindən yedigi şikəstdən çox narahat idi. Gecə-gündüzi bir idi. Çünki Şah İsmayıl bir kişi idi ki, əgər düşməndən intiqam almasaydı, rahat durmazdı. Buna görə öz vicdanının yanında şərməndə idi ki, əgər bundan artıq şikəst yesə və vətəni düşmən əlinə versə, millət qabağında nə cavab verməlidir.

Ərəb və Gülzar Şah İsmayılı bu cürə qəmli və qüssəli görəndə daha çox qəmli olurdular. Vəli bir gün Ərəb ilə Gülzar bir yerdə oturub bir-birlərinə dedilər ki, Şah İsmayılı şad eləmək üçün bir məclis qursunlar. Bu idi ki, məclis qurulub, oynayanlar və saqilər məclisdə hazır olub şadlığa başladılar.

Bu mouqə Ərəb Şah İsmayılı yenə də qəmli gördügi üçün sazı bağrına basıb görən nə söylədi:

Saralıb solmaqdan nə çıxar, gülüm,
Ey mənim istəkli gözəl, sevgilim.
Ey qəfəsə düşən sona bülbülüm,
Düşmən qabağında qorxmamaq gərək.

Çəkərsən belindən misri qılıncı,
Biçərsən düşməni sən qıncı-qıncı,
Düşmənə verməzsən yorulsa dinci,
Vətənin uğrunda vuruşmaq gərək.

Aldı Gülzar görək nə dedi:

Millətin halına yanan dilbərim,
Ey mənim dilbərim, dildə əzbərim,
Sənə qurban ola iki gözlərim,
Çətin günlərdə də dayanmaq gərək.

Darıxma, qara gün çıxar bir yana,
Gətirsə düşməni qılıncın cana.
Dərələr, təpələr boyanar qana.
Səbrü hövsələyə iştiyaq gərək.

Aldı Şah İsmayıl görək iki sevgilisinə nə söylədi:

Düşmən dərya ola, qorxmaz İsmayıl,
İnanuz Tanrıya varuzdi qail,
Ey dar gündə mənə olanlar hail,
Bundan sora daha vuruşmaq gərək.

Daha qalmayıbdır məndə hövsələ,
Gərəkdir düşmənə salam vəlvələ.
Gərəkdir güc ilə fəth Allah gələ,
Millətin uğrunda çalışmaq gərək.

Şah İsmayıl, Gülzar və Ərəb bunları söyləyərkən yeyib və içib şadlıq edirdilər. Ərəb və Gülzar şərab camını əlindən alıb Şah İsmayıla verirdilər. Şah İsmayıl iki sevgilisinin əlindən şərab camı alıb içirsə də, ancaq düşmən qoşunundan şikəst yemək yadına düşəndə az qalırdı ki, bütün damarları yerindən olsun. Buna görə piyan olduğu halda fikir içində qərq idi. Saqi əlində mey camı dolandıqca Şah İsmayıl qızışıb, az qalırdı durub, belindən qılıncı çəkib

həman yerdən özüni düşmən qoşununa yetirsin. Vəli yenə də əqli ona icazə vermirdi.

Ərəb və Gülzar Şah İsmayılı bu halını gördükcə qüssələnib darıxırdısalar da ancaq çarə yox idi. Şah İsmayılı dilə tutub deyirdilər:

– Əzizimiz Xətayi, qüssədən nə çıxar? Bir az şadlıq eləyib, sonra düşmən qoşununa göstəririk ki, biz kimik!

Şah İsmayıl şərab camını dalıdan içib bir az qüssədən ovundu. Bu dəfə əmr elədi ki, ləzginka oynayanlar oynamağa başlasınlar. Buna görə oynayanlar oynamağa başladılar və Şah İsmayıl da onların oynamağından şövqə gəlib, ürəgi qüssəli və tutulmuş, aldı, görək nə söylədi:

Yaralarım yazıq-yazıq sızıldar,
Sızıldar ürəgim, canım qızıldar.
Görəndə düşməni gəlib vızıldar,
Parlayır gözümdə alovlar mənim.

Qılıncımdan mənim dama qan gərək,
Ki, yoxsa qalmıya canda can gərək,
Pozulsun bu aləm, bu dövran gərək,
Parlayır gözümdən alovlar mənim.

Qeyrətim götürmür elim basıla,
Düşmənlər əlində qalıb asıla,
Görəndə xəlqimi qəmi  yasıla,
Parlayır gözümdən alovlar mənim.

Məni ellər gərək bilməsinlər şah,
Bu cürə şahlıqdır böyük bir günah.
Şahlardır aləmi eyləyən təbah,
Parlayır gözümdən alovlar mənim.

Məni rəhbər edən qəhrəman millət,
Fəxrimdir sizlərə eyləmək xidmət,
Tapanda ürəgim qüssədən şiddət,
Parlayır gözümdən alovlar mənim.

And ola həqqizə, and ola sizə,
And o əməgə ki, verilər sizə, bizə
Gərəkdir qan çıxa ayaqdan dizə,
Yoxsa axar gözdən alovlar mənim.

Şah İsmayıl bunları söylədikcə Gülzar və Ərəb onun pak qeyrətinə və mehriban ürəginə afərin deyib yenə də camı mən ilə doldurub ona verdilər.

Ortada oynayan ay parçaları Şah İsmayılın yanına gələndə dedilər:

Keçər bu günlər daha,
Görər xəyalın səfa,
Yaşa İsmayıl paşa,
Nanay, nanay, nanay, nay.

Onun dalısı alagöz və gülcamal, qələmqaş saqi piyaləni gögdə fırlandırıb onun əlinə verdi. Doğrusi, Şah İsmayıl bir az qüssədən azad olmuşdu. Buna görə bir əlin Gülzarın boynuna, bir əlin də Ərəbzənginin boynuna salmışdı. Hərdəm birinin yanağından bir öpüş götürürdü. Amma birdən-birə tutulurdu. Güldügi halda gözü dolurdu. Yumşaq yel əsdikcə ağacların yarpaqları yanmış aşiqlərin qəmli tarları kimi sızıldayırdılar.

Şah İsmayıl bir qədər onlara tamaşa edib özünü məşğul eləyirdi. Bağın hər tərəfi gül və qönçə cürbəcür meyvəli olduğu halda Şah İsmayıla hənuz yaxşı səfa vermirdi. Am-

ma zahirdə bəzi vəqt gülürdü. Nəhayət, bir qədər gülüb-oynayıb və habelə oxuyub qalandan sonra Şah İsmayılın könlünə şikar düşdü. Amma Ərəb razı olmadı ki, o bu hal ilə şikara çıxsın. Buna görə icazə istədi ki, özü şikara gedsin və onun üçün bir ceyran və ya maral ovlasın. Daha Şah İsmayıl əvvəl razı olmayıbdırsa da ancaq Ərəb icazə alıb atın belinə atılıb dağlara sarı yollandı.

Ərəb bir qədər çapandan sonra bir böyük meşəyə çatdı. Gözü birdən-birə bir ala ceyrana düşdü. Ceyran onu görən kimi dərə baş aşağı yumalandı. Ərəb də ata bir qamçı vurub, at götürüldü. Bir qədər ceyran qaçdı, Ərəb qovdu. Ceyran götürüldü, Ərəb çapdı.

Amma dərə çox başaşağı idi. Buna görə atın qabaq əlləri bir böyük daşa toxunan kimi Ərəb ilə at dərə başaşağı tullandılar. Ərəb haldan çıxmışdı, özündən xəbəri yox idi. Ərəb öz ordularından çıxanda onu düşmən qoşunundan bir neçə nəfər məmur güdürdülər. Buna görə o, dərəyə tərəf at qovanda onlar həman böyük daşı onun qabağına buraxdılar.

Ərəb haldan çıxandan sonra fourən onu dövrələyib və əllərin zəncir ilə bağlayıb öz ordularına apardılar.

Ərəb üzünə niqab salıb və kişi paltarı geymişdi.Bu səbəbdən düşmən məmurları bilmirdilər ki, o, qızdır. Nəhayət, Ərəb bir az yaxşı olub dövrəyə baxan kimi çox təəccüb elədi. Çünki oranı çox qəribə görüb öz sevgilisi Şah İsmayıldan və Gülzardan bir əsər görmədi. Əvəzində hər tərəfə göz dolandırdı, fəqət düşmən qoşunu idi. Birdən-birə yadına düşdü ki, dərədən yıxılanda onu düşmən məmurları tutub. Bu idi ki, daha səs çıxartmayıb gözlərin yumdu. Bir az belə qaldı və hər nə fikir elədi, bir çarə yolu tapa bilmədi. Düz bu mouqə beş nəfər sərbaz içəri girib onu ortaya çəkdilər. Sərbazlardan böyügi Ərəbə belə dedi:

– Oğlan, adın nədir və Şah İsmayılın qoşunu nə qədərdir?

Ərəb dedi:

– Mənim adım Xanoğlandır və işim çobanlıq, ovçuluqdur. Şah İsmayılı tanımaram.

Rəis bu sözə inanmayıb dedi:

– Düzgün deməsən, verərəm səni şallaq altında çürüdərlər.

Ərəb yenə də dedi:

– Mənim adım Xanoğlandır və Şah İsmayılı tanımıram.

Sonra rəis dedi:

– Bəs çox yaxşı, düzgün demirsən. İndi sənə göstərərəm ki, Xanoğlan olmaq və Şah İsmayılı tanımamaq nə cürdür.

Ərəb dedi:

– Həzrət rəis, bir nəfər çoban baba hara və bir nəfər padşah hara? Mənim nə günahım var ki, istirsiz mənə şallaq vurasız?!

Rəis dedi:

– Bu işlər burada işə gəlməz!

Yallah, təxti gətirin.

Fourən təxti gətirdilər və Ərəbi güc ilə təxtin üstündə yatırdılar. İki nəfər canlı və boylu sərbazın əlinə simli şallağı verdilər. Rəis fərman verdi ki, ta düzgün demiyincə vursunlar. Buna görə iki nəfər canlı sərbaz simli şallağı əllərinə alıb, «hıx» deyib Ərəbin bədəninə vurmağa başladılar. Əvvəlinci zərbət az qaldı ki, Ərəbin ruhun bədənindən çıxartsın. Daha hər zərbət dəgəndə yerindən qan sıçrayırdı. Bir nəfər də onun başı üstə durub şallaqların sayın yazırdı və hərdəm ağzın Ərəbin qulağına tutub deyirdi:

– Ey yazıq biçarə, Şah İsmayılın yerin və nəqşəsin

söylə, ta səni azad edək.

Amma Ərəb bir söz demirdi. Şallaqların səsi ildırım kimi şaqaşaq edirdi. Amma Ərəb bir zərrə də səs çıxartmırdı. Buna görə rəis və hesab gedən adam onun bu cürə dözümlü olduğundan daha da hirslənib, iki nəfərə də dedilər ki, gəlib şallaq vursunlar. Daha iki nəfər də gəlib şallaq vurmağa başlladılar. Bu dəfə Ərəbin bədəninə dörd şallaq birdən dəgirdi. Buna görə Ərəbin naləsi yavaş-yavaş qulağa gəlirdi. Vəli yalvarmırdı. Hesab yazan kəs bu dəfə Ərəbin qulağına deməgə başlayanda gördü ki, Ərəb yuxlayıb. Buna görə yaxşı baxıb gördü ki, Ərəb ölüb. Bu idi ki, şallaq vuranlara dedi:

– Əl saxlayuz!

Rəis hesaba baxıb gördü ki, dörd min dana şallaq vurublar. Buna görə Ərəbin ölüsün aparıb bir qaranlıq anbara saldılar. Bu dəfə bir ayrı qızılbaşı gətirib, ona dedilər:

– Yəqin gördün ki, o cavan qardaşı nə hala saldıq. Buna görə əgər sənin də könlün ölmək istəyir, buyur təxt üstə uzan.

Qızılbaş bir az durandan sonra gördü ki, çarə yoxdur, buna görə dedi:

– Mən qızılbaş degiləm və əsla bu işlərdən xəbərim yoxdur.

Rəis bu sözü eşidən kimi əmr verdi ki, fourən onu güc ilə yerə yıxıb şallaq vurmağa başladılar. Yazıq qızılbaş əvvəl zərbətdə fəryad eləməgə başladı. Çünki ittifaqdan onun paltarın bədənindən çıxardıb, lüt canına şallaq vururdular. Şallağın yerindən qanlı köpük çıxıb, şallaq vuranların üzünə daşlanırdı. Nəhayət, o qədər çəkmədi ki, qızılbaşın ruhu bədənindən çıxdı.

Vəqti ki, istədilər onu yerdən götürüb anbara salsınlar, gördülər ki, qızılbaş şallaq yeyəndə əllərinin ətin elə

dişləyib ki, dişləri ətinin içində qalıb.

Onu da gətirib anbara saldılar. Bu cürəliğ ilə neçə nəfəri şallaq ilə və ayrı-ayrı əzablar ilə öldürüb anbara saldılar. Amma heç biri bir söz demədi.

İndi bunlar burada qalsın, görək Şah İsmayıl ilə Gülzar Ərəbin yubanmağından nə anladılar.

## ŞAH İSMAYIL ƏRƏBİN SORAĞINDA

Şah İsmayıl və Gülzar və bütün məclisdə olanlar Ərəbin yubanmağından çox nigəran olub və bir ittifaqın üz verməsin yəqin elədiklərinə görə Şah İsmayıl ilə neçə nəfər böyük pəhləvan Ərəb gedən dağlara tərəf yollandılar. Onlar bir qədər atlarını çapandan sonra həmən Ərəb yıxılan dərəyə yetişib, bir az o yan-bu yana baxıb bir şey görmədilər. Buna görə Şah İsmayıl qəmli halda o yan-bu yana diqqətlə baxırdı. Amma birdən-birə gözü dərənin yaxınlığında bir qanlı daşa düşdü. Buna görə dərəyə enib gördülər ki, Ərəbin atı yaralanıb yerə yıxılıb. Amma Ərəbdən əsər yoxdur.

Atı yerindən qovzayıb, yarasına dəva qoyub, onu bir qızılbaşa tapşırdılar ki, onu orduya aparsın. Sonra Şah İsmayıl heyran qalıb, Ərəbi axtarmağa başladı. Hər nə qədər gəzdilər Ərəbi tapa bilmədilər. Vəli birdən-birə Şah İsmayılın əqlinə bir şey yetişdi. Daşın yanından Ərəbin qanı damcı-damcı yerlərə damıb düzülmüşdü. Bu idi ki, Şah İsmayıl qanın nişanın tutub yola başladılar.

Çöldə qumların üstünə damla-damla qırmızı qan axmışdı. Şah İsmayıl və yanında olanlar həman damcı-damcı tökülən qanın nişanı ilə bir az gedib, yaxşı baxan kimi gördülər ki, qanın ucu düşmən qoşununa sarı uzanıb. Buna görə Şah İsmayıl bir az fikr edib dedi:

– Qızılbaş paltarlarını çıxarıb çoban paltarlarını geyinsinlər. Ta düşmən qoşunu əgər onları görüb tutsalar, tanımasınlar. Bu idi ki, fourən hərəsi bir dəst çoban paltarı geyib və yollardan bir az tikan və ot dərib atlarına yüklədilər və yola düşdülər. Bir qədər gedəndən sonra birdən-birə yoğun səs gəldi:

– Durun! Kimsiz?

Şah İsmayıl qabağa yeriyib dedi:

– Cənab qəravul, nə buyurursuz?

Qəravul dedi:

– Siz kimsiz və hara gedirsiz?

Şah İsmayıl dedi:

– Biz çobanıq və yorulduğumuza görə bir daldalanacaq yer gəzirik ki, istirahət edək.

Qəravul bir az onların üzünə baxıb, diqqət salandan sonra dedi:

– Çox yaxşı, buyuruz.

Şah İsmayıl ondan məmnun olduğunu söyləyib yola düşdülər. Bir qədər gedəndən sonra gördülər ki, qan damcıları düşmənin onuncu qarovulxanasına gedib və yenə də dolanıb bir qaranlıq dəxməyə girib.

Şah İsmayıl bunu belə görən kimi az qaldı ki, ürəgi yerindən oynasın. Amma özünü saxlaşdırıb bir söz demədi.

Şah İsmayıl bir qədər fikr edib dedi:

– Çadırı həman qul kimi dəxmənin qabağında qurun.

Bu idi ki, çadırı o yerdə qurub, tikanlardan bir yerə yığıb od yandırdılar.

Əvvəlinci postda olan qəravul ki, Şah İsmayıla icazə verdi yola düşüb gedsin, Şah İsmayılın o cürə ədəb ilə danışmağından və qabana bənzəməsindən şəkə düşüb güdməgə başladı və çadır qurulan yerdə od yanan kimi güləgülə onların yanına gəlib salam verib dedi:

– Bəh,bəh, çox yaxşı yerdə çadır qurduz. Qonaq istəmirsiz?

Şah İsmayıl dedi:

– Buyuruz, buyuruz, xoş gəlib, səfa gətiribsiz.

Qəravul bir az orda oturub, bir fincan qəhvə içəndən sonra «Allah saxlasın!» - deyib onlardan ayrıldı.

Yavaş-yavaş gecə ortaya gəlirdi. Hava qaranlıq olduqca çöldə qorxulu görünürdü. Hamı yer zülmət içində idi. Fəqət uzaqdan düşmən qoşununun çadırlarından şamların işığı parlayırdılar.

Bəzi vəqt uzaqdan qəravulların səsi gəlirdi. Bilinirdi ki, keşikçiləri əvəz olurdu.

İttifaqdan o gecə gög üzündə ay yox idi. Buna görə hamı yer və gög belə qaranlıq idi ki, göz-gözi görmürdi.

Qəravul onlardan ayrılıb gedəndə yolda öz-özünə fikrə düşdi:

– Yaxşıdır ki, onları bir də imtəhan edim. Bu idi ki, məsləhət bunu bildi ki, yoldaşlarından birini onların yanına yollayıb nəçi olduqlarını bilsinlər.

Əlbəttə, Çəngiz xan zamanından qızıl orduda qanun bu cür idi ki, kiçik bir ittifaqı və nigəranlığı fourən təhqiq edib böyük başa raport versinlər. Buna görə qəravul bu barədə çalışırdı.

Daha Şah İsmayıl və yoldaşları çay içib və şam yeyəndən sonra nəqşə çəkməgə başlayan kimi bir nəfər qəravul çadırdan içəri girib salam verdi:

– Əfəndilər, qonaq istəmirsiz?

Şah İsmayılın yoldaşlarından biri dedi:

– Buyuruz, buyuruz! Çox xoş gəlib, səfa gətirdiz.

Qəravul keçib əgləşdi. Amma hər nə gözlədi, bir ayrı söz düşünmədi. Şah İsmayıl da onun o cürə axtarışlı və nigəran baxmağından işi düşünüb dedi:

– Ədə, Həsənxan bir az saz çal ürəgimizin qəmi dağılsın.

Buna görə Həsən xan sazı götürüb görək nə söylədi:

Şaxtalı təpələr, boranlı dağlar,
Ey qanlı dərələr, ey qanlı dağlar,
Damcı-damcı sizdə görəndə qanlar,
Ürək fəğan edib könül qan ağlar.

Ey qumlar üstünə axan damcılar,
Qəmizdən ürəgə neştər sancılar,
Fəğanə salmayın çox da bizləri,
Ürəgi yandırar bu odlu dağlar.

Yolun düşdi dərələrə, dağlara,
İndi degil bəlli gedibsən hara,
Rəva degil dilin yada yalvara,
Həsrətindən gözlər donub qan, ağlar.

Qan ağlar ürəklər, qan ağlar gözlər,
Ürəgin başına daşlanan gözlər,
Sevgi sevgisini ölüncə gözlər,
Yolunda odlara yanıb, can ağlar.

Süzülüb çöllərə qanın, süzülüb,
Elindən, obandan əlin üzülüb,
Bütün ətrafına düşmən düzülüb,
Hər kim əhvalını görə, qan ağlar.

Qəravul Həsən xanın bu cürə oxumağından bir az şəkə düşdi. Vəli bir söz demədi. Ancaq bir azdan sonra gülə-gülə dedi:

– Həsən qardaş, yoxsa aşiqsənmi?

Həsən xan dedi:

– Yox, qardaş, aşiq degiləm. Amma bir itigim vardır.

Qəravul dedi:

– İnşallah, taparsan, qüssə yemə.

Amma qəravul bu sözü deyə-deyə gözünün altı ilə onlara nəzər salıb diqqət ilə baxırdı. Onun o cürə küdük baxmağı onları daha da şəkə saldı. Buna görə Şah İsmayıl öz-özünə fikrə gedib xəyalında dedi:

– Yaxşıdır ki, bu qəravulu həmin bu yerlə boğub, yanımızdakı yer altında olan dəxməyə salaq. Bu idi ki, qəravul bir az gülüb-danışandan sonra durub gedmək istədi. Vəli Şah İsmayıl ona buyur-buyur deyib qoymadı gedsin.

Dövrədə oturan qızılbaşlar ki, çoban paltarında idilər, Şah İsmayılın bu işindən çox təəccüb edib fikrə düşdilər ki, Şah İsmayıl nə üçün qoymadı qəravul gedsin.

Şah İsmayıl bir az qəravulun qabağın tutan kimi qəravul hirslənib dedi:

– Əhməd kişi, deyirəm işim var, itil cəhənnəmə.

Şah İsmayıl onun töhmətinə dözüb yenə də dedi:

– Həzrət rəis, xahiş edirəm bu gecəni bizə qonaq ol.

Qəravul bu rəftarı görməkdən bir az da şəkə düşüb dedi:

– Bəs, əgər istirsiz, mən bu gecə burda qonaq qalam, gərək yüzbaşıya xəbər verəm və sonra gələm.

Şah İsmayıl gördi ki, qəravuli bu cürəliğ ilə dilə tuta bilmiyəcaq, buna görə dedi:

– Həzrət, mən sənə deyirəm qonaq qal, səhər ged. Əgər qəbul eləməsən, güc ilə saxlaram. Qəravul bu sözü eşidən kimi daha yəqin elədi ki, ömrünün son gecəsidir. Amma Şah İsmayılın ağzından bu söz çıxan kimi qəravul fourən əlin qılınca atıb gögə qovzadı. Vəli qılıncı hənuz

gögdə idi ki, Şah İsmayıl çoban paltarının altında gizlətdiyi xəncəri çıxardıb fourən onun qarnına soxdu. Qəravul fəqət bir dəfə «ax» deyib yerə yıxıldı. İndi onun nəşini ki, hənuz canı çıxmışdı, dörd nəfər qucaqlayıb həman dəxməyə tərəf yollandılar.

İndi bunlar burada qalsınlar, görək Ərəb necə oldu.

## QARANLIQ DALANLARDA VURUŞMA

Amma Ərəbi şallaq ilə vurub qaranlıq dəxməyə salanda ölülərin içində bir nəfər qoca kişi diri qalmışdı. Sərbaz Ərəbin ölüsün gətirib ora salanda onun gözü Ərəbə düşüb, yaxşı baxan kimi gördü ki, bu cavan igitin yavaş-yavaş nəfəsi gəlir. Buna görə onun cavanlığına yazığı gəlib, özünü onun başı üstə yetirdi.

Dəxmənin hər yanı qaranlıq idi. Vəli bir bacası var idi ki, fəqət ordan bir az işıq düşürdü. Dəxmə uzun-uzun dalanlar idi. Qədim zamanlardan qalırdı. İndi xərabə qaldığına görə hər nə qədər ölü və ya günahı çox olan var idi, gətirib ora salırdılar. İndi qoca kişi orda diri qalmışdı və Ərəbi diri gördügi üçün onun başı üstə gəlib, alnın ovmağa başladı.

Ərəb çox şallaq yeyib, haldan düşdüğuna görə çox pis halda idi və buna görə hələ-hələ hala gəlmirdi. Qoca çox zəhmət çəkib onun bədənin və alnın bir qədər ovandan sonra Ərəb bir müxtəsər gözlərin açıb o yan-bu yana baxdı. Amma hamı yeri qaranlıq görüb təəccüb ilə öz-özünə dedi:

– Ax İlahi, bura haradır?

Hənuz qoca onu yaxşı hala gətirməmişdi ki, pilləkanlardan neçə nəfərin ayaq səsi ucaldı. Qoca belə görən kimi Ərəbin qulağına dedi:

– Yat, qardaş, səsin çıxmasın.

Sonra özü də bir güşəyə sıxılıb, ölü kimi uzandı.

Neçə nəfər qəravul Ərəbdən sonra vurduqları qızılbaşı ki, ölmüşdü, gətirirdilər. Pilləkanlardan taraqqa-turuq yenib aşağı gəldilər. Bir az oyan-buyana baxıb bir kimsə görmədiklərini yəqin edəndən sonra yazıq qızılbaşı neçə nəfərə gögə qovzayıb leşlərin üstünə tulladılar. Qızılbaşın nəşi yerə düşəndə altında qalan sümüklər və qaburqalar sınıb səsləndi. Bütün hər tərəf qurumuş sümük və kəllə və qaburqa idi.

Məmurlar onu tullayıb, bir azdan sonra geddilər. Qoca onların görmədigindən xatircəm olan kimi yenə də Ərəbin başı üstə gəlib dedi:

– Dur, qardaş, yatmalı yer degil. Əgər bir az artıq yatsan, bu xarabanın qoxusu bizi boğar.

Daha Ərəbi bir az hala gətirib danışdırdı. Ərəbin danışmağından anladı ki, qızılbaşlardandır və çün özü də qızılbaş idi  və sir olub, iqrar vermədigi üçün şallaq yeyib və ölən adına bura salmışdılar. Buna görə Ərəbə çox məhəbbət göstərib, onu dolanmağa məcbur elədi ki, bir az dolanıb halı düzəlsin. Bu idi ki, Ərəbə çox məhəbbət göstərib, onu dolanmağa məcbur elədi ki, bir az dolanıb halı düzəlsin. Bu idi ki, Ərəb və qoca dolanmağa başladılar.

Qoca Ərəb ilə dolanarkən birdən-birə qoca dedi:

– Qardaş, gəl bu cavana baxaq, görək kimdir. Bu idi ki, onun başı üstə gəlib gördülər ki, qızılbaş paltarı əgnindədir. Ərəbin qüssəsi onu görməkdən daha da çoxaldı. Buna görə əgilib onun nəfəsinə baxdılar. Vəli əfsus ki, şallağın zərbəsindən ölmüşdü.

Ərəb bir az baxandan sonra öz-özünə dedi:

– Baxıb görüm, şayəd ana-bacısına vəsiyyət yazmış olsun. Buna görə əgilib onun qoltuğun axtarıb bir namə

çıxartdı. Naməni gətirib bacadan düşən işığın qabağında oxumağa başladı. Namədə yazılmışdı:

– Əziz sevgilim İsmayıl Xətai. İllərdir ki, sənin gözəl camaluva həsrət qalmışam. Mən bilmirdim ki, sən bu qədər mənə vəfasız çıxacaqsan. Amma mən ölənə kimi sənin yoluvu gözləyib fərağında yanacağam.

Naməni gətirən bir nəfər sənin qızılbaşlarındandır və çox qeyrətli və mehriban bir kişidir. Çünki bizim kəndə gəlib car çəkəndə sənin yolunda can qurban eləməgi iftixar ilə xəlqə car çəkirdi. Mən də naməni ona verdim ki, sizə yetirsin. Ümidvaram ki, naməm sizə çatan kimi onun cavabın həman qızılbaşdan mərhəmət buyurasız.

Yaddan çıxan Pəri.

Ərəb bu naməni oxuyan kimi gözlərindən damcı-damcı yaşlar töküldü. Qoca bunu belə görüb soruşdu:

– Əziz qardaş, nə üçün ağlıyırsan?

Ərəb dedi:

– Heç fəqət, bunun cavanlığına ağlıyıram.

Ged-gedə hava qaranlıq olduğu üçün bacadan düşən işıq da yavaş-yavaş kəsilirdi. Ta bu ki, bütün dünyanı zülmət tutub qaraldı. Qoca və Ərəb qərar qoydular ki, gecə yarısı oradan çıxıb qaçsınlar. Buna görə gecə yarı olan kimi Ərəb ilə qoca pillərədən yavaş-yavaş yuxarı çıxırdılar. Düz bu zaman üst pillələrdən Şah İsmayıl ilə neçə nəfər yoldaşı həman qəravulun nəşini ora atmağa aşağı enirdilər. Ərəb və qoca səsi eşitdikləri üçün bir bucağa sıxıldılar. Şah İsmayıl və yoldaşları aşağıda bir yavaş səs eşitdiklərinə görə fourən qılıncların çəkib əllərində saxladılar. Amma bir söz də danışmırdılar. Daha yavaş-yavaş aşağı yenməgə başladılar. Nəşi gətirib dalana atdılar və sonra hamılıqca yuxarı çıxmağa başladılar. Bu mouqə Ərəb duran yerin daşı qopub düşdü. Daş pillələrdən aşağı dığırlandıqca taqataq edib

dalanları səs bürüdü. Bu idi ki, Şah İsmayıl uca səs ilə dedi:

– Kimsən? Dayan vurdum.

Ərəb bir az yaxşı qulaq verib gördü ki, bu səs çox aşina gəlir, hətta Şah İsmayılın səsi olduğunu bir az düşünən kimi oldu.

Şah İsmayıl gördü ki, bir kəs səs vermədi, daha xəyal elədi ki, şayəd daş onların öz ayaqlarına toxunan daşlardan olmuş ola. Amma bir azdan sonra Ərəb duran yer şumlayıb tökülməğa başladı. Daşlar pillələrdən dalıdal aşağı töküldükcə səs bütün dalanları götürüb Şah İsmayılı ehtiyata saldı.

Şah İsmayıl bir də ucadan çığırdı:

– Kimsən? Nə istirsən?

Ərəb yaxşıca qulaq verib gördü ki, bu səs Şah İsmayılın səsidir. Amma təəccüb edirdi ki, Şah İsmayıl burda olsun. Vəli imtahan üçün Ərəb də səsləndi:

– Siz kimsiz? Nə istirsiz?

Şah İsmayıl da bir az qulaq verib gördü ki, bu səs Ərəbin səsinə bənzir. Buna görə bir dəfə də səsləndi ki, görsün səs Ərəbindir, ya nə. Buna görə Ərəb bu dəfə səslənəndə Şah İsmayıl daha yəqin elədi ki, səs Ərəbindir. Bu idi ki, bu dəfə belə səslədi:

– Ərəb?!

Ərəb də bir az dayanıb dedi:

– Şah İsmayıl?!

Şah İsmayıl bunu belə görən kimi az qaldı ki, uca pillələrdən özünü aşağı atsın. Vəli yavaş-yavaş Ərəbi tapmağa başladı. Ancaq fəqət bir-birlərini səsləyə-səsləyə axtarıb dolandılar. Bir az bir-birlərinə yaxınlaşıb Ərəb dedi:

– Əzizim, Xətayi sənsən?

Şah İsmayıl dedi:

– Gözəlim Ərəb bəli, mənəm.

Ancaq bir azdan sonra əllərini divarlara sürtə-sürtə

bir-birlərini tapdılar. həman qaranlıq yerdə Şah İsmayıl onu qucaqlayıb üzündən öpməgə başladı. Vəli dayanmaq yeri degil idi. Buna görə dövrəsində olanlara dedi:

– Haydı, Ərəbi ata mindirib yollansın.

Bu idi ki, Ərəbi pillələrdən yuxarı çıxardıb ata mindirdilər. Amma gecə yoldaşını Şah İsmayılın çadırına yollayan qəravul öz-özünə xəyallandı ki, nəbada yoldaşını öldürsünlər. Buna görə nigəran olub, fourən bir iddə sərbaz ilə çadır qurulan yerə gəlib, çadırdan içəri girib gördülər ki, çadır əhlindən əsər yoxdur. Amma çadırın hər yanı qan ilə boyanıbdır. Bu idi ki, o yan-bu yanı axtarmağa başladılar. Hər yanı gəzdilər, bir kimsə görmədilər. Amma Ərəbi dəxmənin qabağında ata mindirəndə uzaqdan onun qaraltısın gördülər.

Bir saat olardı ki, ay gög üzün və yer üzün işıqlandırmışdı. Buna görə yavaş-yavaş hər yan işıqlaşıb, gəlib-gedən görünürdü. Gög üzün azaraq bulut idi və bəzi vəqt ay bulut altına gedəndə yenə də hər yan zülmət içində qərq olurdu.

Ərəb ata minəndə ay çıxıb onu aydın göstərdi. Bu idi ki, qəravullar onu yaxşı görüb tanıdılar. Qəravul dönüb yoldaşlarına dedi:

– Məgər bu həman qızılbaş degil ki, şallaq altında ölmüşdi?

Yoldaşları dedi:

– Bəli, özüdür ki, var. Amma necə ola bilər ki, dirilib ata minsin?!

Daha bir azdan sonra atlarına bir qamçı vurub, özlərin Ərəb olan yerə yetirdilər. Şah İsmayıl ki, dəxmənin qapusunda dayanıb ətrafı gözləyirdi, bu vəziyyəti görən kimi yoldaşlarına dedi:

– Qılınclarızı çəkin!

Buna görə hamı qılıncların bellərindən çəkib qabaqda

gələn atlılara həmlə elədilər. Bu mouqə qoca da ata minib Ərəbi öz ordularına tərəf aradan çıxartmaq üçün atları qovmağa başladılar. Vəli qəravullardan biri onları qaçan kimi onların dalıyca düşdü. Bir qədər çapandan sonra Ərəb gördü ki, sərbaz onlara yaxınlaşıb bu idi ki, belindən xəncəri çəkib, sərbazın qəlbinə tərəf belə tulladı ki, xəncər onun ürəgin dəlib, qan fışqalayan kimi sərbaz «ax» deyib, atdan düşüb daha dura bilmədi. Sərbazın canı fourən çıxdı. Amma Şah İsmayıl və yoldaşları və qəravullar dəxmənin qapusunda vuruşmağa başladılar.

Şah İsmayıl özünü bir divarın dibinə verib və gözə görünmədigi üçün qabağa gələni biçib tökürdü.

Qızılbaşlar ilə qəravullar pillələrin üstündə vuruşurdular. Gah onlar basırdılar, gah bunlar. Amma birdən-birə Şah İsmayılın ayağının altındakı daş titrəyib büdrəyən kimi Şah İsmayıl pillələrdən aşağı təpəsi üstə fırlandı. Bunu belə görən qəravullar onun üstünə həmlə aparmaq üçün hamılıqca aşağı enib onu axtarmağa başladılar. Vəli içəridə göz-gözü görmürdü. Bu idi ki, Şah İsmayıl onların yanında olduğu halda onlar onu görmürdülər. Nəhayət, Şah İsmayıl yerindən tərpəşən kimi birdən-birə başı bir divara dəgib yerə yıxıldı. Bu yerə yıxılmağı dəxmənin içində səsləndi. Bu idi ki, qəravullar onun üstünə hücum eləməgə başladılar. Qaranlıq dalanlarda qılıncların taraqqa-turuq səsi hər yanı doldurmuşdu. Şah İsmayıl onların ortasında vuruşurdu və ortadan çıxmağa da yol yox idi. Buna görə Şah İsmayıl pillələrə tərəf dalı-dalı gedirdi. Ancaq pillələrə yetişən kimi yavaş-yavaş pillələrin üstünə çıxdı.

Şah İsmayıl onlardan ucada durub qılınc vururdu. Bu idi ki, hər kəsin başından bir zərbət vuran kimi qəravullarda tez-tez yıxılıb dura bilmirdilər. Daha qəravullardan bir neçə nəfərdən artıq qalmamışdı. Buna görə atlanıb yola düşdülər.

Şah İsmayılın vuruşa-vuruşa uzun-uzun dalanlara girmişdilər. Göz gözü görmürdü. Amma hər nə qədər yol gedirdilər, yol idi ki, uzanırdı. Bu mouqə ay gög üzündən yerə nur saçdı. Dəxmənin bağçasından içəriyə bir balaca işıq düşdü. Bunu belə görən qızılbaşlar və Şah İsmayıl qapıya tərəf yollandılar. Amma qəravullardan əsər yox idi. Çünki hamusi yaralanıb ölmüşdülər. Onlar pillələrdən yuxarı çıxan kimi dəxmənin dövrəsin alan qəravular onların üstünə hücum eləməgə başladılar. Şah İsmayılın fourən dəxmənin pillələrdən aşağı qaçmağa üz qoydular. Qəravullar da onların dalıyca həmləyə başladılar.

Qəravullar üç yüzdən artıq idilər. Buna görə dalanlara dolduqca bir-birlərin görmədikləri üçün çox zaman bir-birlərini qılınc ilə vurub öldürürdülər. Amma birdən-birə bacadan yenə də işıq düşdi. Qərəvullar Şah İsmayıl gili görən kimi onların üstünə hücum elədilər. Bu zaman Şah İsmayıl fourən özün bir qaranlıq dalanın ağzına verdi. Qəravullar da ora həmlə gətirdilər. Şah İsmayıl qaranlıq dalanın ağzında durub içəri girənin boynundan bir qılınc vurub kəllələrin yerə tökürdi. Daha kəllə və nəşəsindən tərpəşmağa yer yox idi. Buna görə Şah İsmayıl yenə də qapuya tərəf yollandı. Vəli yuxarı baxan kimi pillələrdən aşağı enən yüzlərcə qəravulları görən kimi dalı qayıdıb yoldaşlarına dedi:

– Yoldaşlar! Hər nə qədər dalı otura bilirsiz, dalı oturun.

Buna görə dalanlar uzandıqca Şah İsmayılgil yola düşdülər. O qədər yol getdilər ki, daha qəravullardan çox aralandılar. Vəli hər nə qədər getdilər, yol qurtarmırdı.

Gecə səhərə kimi yol getdilər. Səhər olan kimi uzaqdan bir balaca işıq gözlərinə dəgdi. Bu idi ki, ürəkləri bir az açıldı. Bir qədər gedib işığa yaxınlaşdılar. Daha düş-

mən qoşunundan əsər yox idi. Görunduğuna görə qayıdıb gedmişdilər. Uzun-uzun qaranlıq dalanlarda cürbəcür qədimdən qalan şeylər var idi. Amma onlara aman yox idi ki, dönüb onlara baxsınlar.

Daha bir azdan sonra qapuya yaxınlaşıb günəşi təzə çıxmış görən kimi sevindilər. Amma bir az oyan-buyana baxıb gördülər ki, uzaqdan çoxlu atlı çaparaq gəlirlər. Buna görə daha dayanmayıb öz çadırlarına tərəf yollandılar. Bir qədər çapandan sonra gəlib öz çadırlarına yetişib atlarından düşüb hər kəs öz çadırına girdi.

Ərəb ilə Gülzar Şah İsmayılı sağ və salamat görən kimi ikisi də şad olub sevindilər.

Amma Ərəb Hənuz yatmamışdı. Çünki bədəninin yaraları hələ toxtamamışdı. Daha Şah İsmayıl onun başın dizi üstə alıb və dilə tutub, könlün ələ gətirib dedi:

– Əzizim, Ərəb! Dedin bəs ki, mən səni yaddan çıxartmışam?!

Daha onun üzündən öpüşlər götürdü. Ərəb neçə dəfə istədi ki, ölən qızılbaşın cibindən çıxartdığı naməni ki, Pəri yollamışdı, Şah İsmayıla versin, məsləhət bilmədi. Çünki qabaqda cəng olduğuna görə istəmədi ki, Şah İsmayılın fikri bu naməni görməkdən narahat olsun. Bu idi ki, naməni göstərməgi bir ayrı vaxta saldı.

Daha bir müddət Ərəbin yaralarının toxtaması çəkdi və bir gün yaxşı olub, toy məclisi kimi bir yəğva düzəltdilər. Şadlıqlar edib, gülüb-oynadılar.

Ərəb yenə də istədi ki, Pərinin naməsin Şah İsmayıla versin, vəli ürəgi razı olmadı ki, sevgilisi Şah İsmayıl illər boyu ayrı düşdüği Pəri xanımdan qüssəsi çoxalsın. Buna görə əlin ki, uzatmışdı naməni verə qaytardı.

## İRAQ VƏ İRANIN VURUŞMASI

Tarixi 914-cü ilin əvvəllərində İraq ilə İranın sərhədlərində qızılbaş qoşunu qızıl ordu bir-birlərinin qabağında səf çəkib özlərin bir böyük və qanlı vuruşma üçün hazır edirdilər. Hər iki tərəf bütün gücləri ilə çalışırdılar ki, düşməni oradan aparıb, bütün İraq ilə İran ölkələrində hökumət eləsinlər. Bu idi ki, hər tərəfdən qoşun və azuqə yığıb, habelə böyük nəqşələr çəkirdilər ki, bu dəfə uzanan cəngə xatimə verib və düşməni məhv etsinlər.

İraq məmləkəti ki, Çəngiz xan və Teymur övladlarının əlində idarə olub və məmləkətin rəsmi dövləti türklərin əlində və rəsmi dili türki idi, uzun zamanlar İraq məmləkətin alıb və orda yaşamağın nəticəsində İrağın çox əhli ilə qarışıb və bir olmuşdular, buna görə Şah İsmayıl ilə vuruşmaq üçün İraqın hər tərəfindən qoşun idi ki, qızıl orduya gəlib daxil olurdular. Amma bu tərəfdən qızılbaş ordusundan gəl-götür, çalışmaq və hər tərəfdən dəstə-dəstə qoşun gətirib qızılbaş libasına daxil eləmək işdə idi. Ancaq qərar idi ki, səhər tezdən cəng başlansın.

Gecə ortaya gəlib, hava qaralınca bütün qoşun əhli səhər cəng üçün qılıncların, xəncər və qəmələrin itildəmağda və qalxanların və kəməndlərin qayırmaqda idilər. Gög üzündə ay dolandıqca parlaq işığı yerdə çölləri bürüyən çadırları səf-səf işıqlandırdı.

Uzaqdan baxanda çöllər şəhərə oxşayırdılar. Çünki minlərcə insan və minlərcə çadırlar çölləri insan yaşayan bir diyara bənzədirdi. Ancaq bu insanları ki, indi bu çöldə və ya söhbət edirdilər, bəlli degil idi ki, sabah bu vəqt hansı diyarda və hansı yerdə torpaqlar üstə düşüb can verəcəklər. Gecə ay işığı idi. Hava çox duru və aydın idi. Hərdəm yumşaq yel əsəndə bütün darıxmış nəfəsləri açırdı. Yel bütün ürəkləri açırdısa da, ancaq çox ürəklər qəmli və qüssəli idi. Çünki onların çoxu da daha ümidvar degil

idilər ki, bir də ana, bacı, qardaş və arvadlarına yetişsinlər. Hətta adaxlı olanlar öz sevgililərinə vida-namə yazıb onlardan son ayrılmağı üçün halallıq istəyirdilər. Daha o qədər çəkmədi ki, xorusların səsi azaraq ucaldı. Hava bir gögdə şaxıb uzanırdılar. Bir o qədər çəkmədi ki, qızılbaş şeypurçusu amadə olmaq şeypurun qızılbaşlar üçün çəkdi. Bu şeypur fəqət qızılbaşları yuxudan oyatmaq üçün idi.

Şeypurun səsin eşidən yerindən durub, fourən paltarın geyib və qeyişin bərkidib və atın yəhərləyib, özünü ikinci şepyurun dəsturuna hazır edirdi.

Yavaş-yavaş hava işıqlanırdı. Dövrədə hər nə qədər kənd və qəsəbə var idi, əhalisi boşalıb və boşalmaqda idilər. İkinci şeypur çəkilən kimi qızılbaş qoşunu bir göz yumum zamanında atlanıb fourən cəng meydanına yollandılar. O tərəfdən də qızıl ordu həman mouqə özlərin cəng meydanına yetirib, səf çəkib, son fərman üçün dayandılar.

Hənuz günəş öz gözəl nurunu aləmə saçmamışdı və hələ hava alaqaranlıq idi ki, birdən-birə böyük təbillərin və şeypurların səsi və gurultusu ucalıb bütün çölləri, dərələri tutdu. Bu şeypurlar və təbillər son fərman əlaməti idi. Buna görə göz yumum zamanda hər iki tərəf dərya kimi ləpə vurmağa düşüb bir-birlərinə həmlə elədilər. Hər iki tərəf bir neçə dəqiqədə bir-birlərinə qatışıb bellərindən qılıncların çəkib və vuruşmağa başladılar.

Şah İsmayıl ilə Ərəb də bu dəfə özləri meydana girib vuruşurdular. Ərəb hər kəsin belindən vururdu, aradan bölüb xiyar kimi biçirdi və hər kimin boynundan vururdu, kəlləsi neçə qədəm o yanda yerdə fırlanırdı. Atı ilə özünə bir qılınc vuranları da ortadan bölüb, iki şəqqə olaraq yerə salırdı. Daha hər tərəfə dönürdü, baş, bədən, qol idi ki, qılıncının dəminə verib, kəsib-tökürdü.

Bəzi vəqt birinə qılınc vurub və o biri gələndə macal

olmadığı üçün qalxanın ortasında olan bir dəmir ilə onun təpəsindən və ya üzündən elə bir zərbət vururdu ki, yazığın beyni burnundan tökülürdü.

Düşmən qoşunu əvvəl onun dövrəsində yığılmışdılar ki, onu tutsunlar. Çünki öz əmirlərinin izninə görə vəzifələri bu idi ki, hamudan qabaq bu cavan Ərəbi tutub aparsınlar. Çünki onun ölülər anbarından qaçmağı böyük sərdara çox təəccüb gəlmişdi. Buna görə istirdi ki, onu yaxından görüb və tanısın. Amma Ərəb onların gözündən elə bir zəhər aldı ki, nə tək onun dövrəsinə gələn bir qılınca qurban oldu, bəlkə bu vəziyyəti elə görənlər də onun dövrəsindən uzaqlaşıb başqa bir yerə həmlə edirdilər. Buna görə Ərəbin ətrafı çox boş idi və bir kimsə cürət etmirdi ki, onun qabağına çıxsın. Vəli bəzi vəqt xəbərsiz olan bir yazığın yolu onun qabağına düşəndə də Ərəbin qılıncı onu o biri dünyaya yollayırdı.

İndi gərək qəhrəman kişi Şah İsmayıl Xətayi nə edir.

Şah İsmayıl hər tərəfə dönüb qılınc vuranda öz qabağında olanlara yaxşı bir nəzər çalıb vəziyyətlərinə yaxşı baxırdı. Əgər qabağında olanlar çox güclü və diribaş olsaydı, bir əlində əmud və bir əlində misri qılınc onlar ilə vuruşurdu, vəli əgər tərəfi yazıq bir sərbaz olsaydı, əvvəl bir az onu qorxudub deyirdi:

– Nə üçün vuruşursan, sizin böyügiz tutulub və qoşunuzun çox təslim olub. Haydı, qılıncı sal yerə, özün də bizim ordumuz çadır quran yerə ged. Ta bir saətə kimi mən özüm ora gəlib sizi özümə qızılbaşlığa qəbul edim.

Çoxları bu nəsihəti qəbul edirdi. Vəli bəziləri qəbul etməyib onun qabağında dayanıb və vuruşurdular.

Şah İsmayıl bir əlində qılınc tutub və bir əlində əmud saxlamışdı. Qılınc ilə hər kəsin ürəgindən vurur, kürəgindən çıxardırdı. Hər kimin kəlləsindən bir əmud çalırdı, tərə-

fin başı qınına girirdi və ya atı ilə özü əzilib yerə səpələnirdi.

Şah İsmayılın iki əlləri daima gögdə oynayırdı. Çox vaxt onu dövrələyəndə Qəmər atının əllərinin gögə qovzayıb neçə nəfəri atının üstündən çəkib öz atının dırnaqları altına salırdı və piyada olanları da atın döşünə salıb yerdə əzirdi.

Günəş təzə-təzə aləmə nur saçırdı. Dağların başı azaraq qızarmışdı. Bağların içində olan ağaclar və güllər qönçələr gecənin qaranlığından qurtulub və indi həsrətində qaldıqları günəşi görən kimi onun üzünə gülürdülər. Günəş də onların bağlarının divarlarından aşıb, yavaş-yavaş onlar ilə görüşüb qucaqlaşmağa başladı.

Bu insanlar ki, hamusi bir təbiətdə və hamusi bir xislətdədirlər. Nə üçün belə bir-birlərinin qanın tökməgə çalışırlar?!

Bir surətdə ki, onların hamısı dərdi, qüssəni, aclığı, yazıqlığı özlərində imtahan edib özgələrin dərd, qüssə, aclıq və yazıqlığından xəbərdar ola bilirlər, yəni onların hamısı bəşərdirlər və hər hansına bir qılınc vursalar, hamusının canı yaralanar və hamusı əzab görər, bəs bu halda və bu cürə bilə-bilə nə üçün ürəkləri qəbul edir ki, öz əlləri ilə bu əzabı və bu işgəncəni bir-birlərinə rəva bilsinlər?!

Buna görə günəş onlara acıqlanıb meydandan çıxmaq istəyirdi, vəli təbiətin qanunu ona icazə vermirdi ki, meydanda onları yalqız qoyub onlardan ayrılsın. Onlar hələ anlamırdılar bir gün düşünərlər.

Cəng ged-gedə qızışırdı. Əmudların qalxanlara toxunub taraq-turuqu, qılıncların qılınclara dəgib şaraq-şuruği və habelə pəhləvanların nərəsi və kəhər atların şivəsi və çox yaralananların nalə və fəryad səsi çölləri tutub, təbiətin bu guşəsində bir əzaxana düzəltmişdi. Çöllər, dərələr, dağlar, bütün düzəngahlar, cavanlar və qocalar nəşləri ilə dolub və

hər tərəfdən qızıl qan su yerinə axırdı. Qılınclar bir-birinə dəgəndə və əmudlar bir-birinə toxunanda neçə nəfərin başı və qolu və sinəsi aradan parçalanıb qan fışqırırdı.

Şah İsmayıl hələ təzə qızışmışdı. Hər tərəfə ki, çönürdü, qabağa gələni bir qılınc və yandan gələni də bir əmud ilə yıxıb və əzirdi.

Ərəb də hər yana dönürdü dövrəsində bir nəfər taqət gətirə bilməyib qaçmağa üz qoyurdular. Düşmən qoşunu indiyə kimi bir belə cəsarət və şücaət görmədiklərinə görə çox təəccüb ilə vuruşurdular. Çünki indiyə qədər görünməmişdi ki, onların qabağında bir belə şəhamətli ordu dayansın. Buna görə öz aciz olduqlarını anladıqları halda yenə də qaçmağa arları gəlirdi.

Günorta yavaş-yavaş ikindiyə yaxınlaşıb və gedgedə hava tutulurdu. Günəş məğribdə dayanıb gög üzün qızıl qan kimi boyamışdı. Hər dəqiqə keçdikcə bizim dünyadan ayrılıb gedməkdə idi. Ancaq o qədər çəkmədi ki, insanların bir-biri ilə bu cürə birəhm olduqlarına görə onlardan acıqlanıb nifrət ilə üzün onlardan döndərdi. Daha dünyanı zülmət döndərdi. Qılıncların parlaması kəsildi. Qardaş və ata və tanış bir-birini tanımırdılar. Ancaq qaranlıq çöllərdə vurhavur səsi və taraqqa-turuq səsi hər yanı bürüyüb, əmudların taqqatağı dərələrdə səslənirdi və pəhləvanların nərəsi dağlara düşüb səslənə-səslənə dalı qayıdıb dağlarda nərə çəkirdilər.

Gecədən bir qədər də keçmişdi. Ulduzlar təbiətin qanuna görə gög üzünə parlamaq istəyirdilər. Vəli bu cürə qanlı mənzərəni görməkdən şərm edib utanırdılar. Çünki onlar aşiqdirlər ki, bizim diyarımızda fəqət səfalı və pak və ürəkaçan yerlərə tamaşa etsinlər. Amma əfsus bu cürə yerlər bizim diyarımızda çox azaraq vardır.

Daha hər kimi təfər yorulduqlarına görə bir azdan

sonra birdən-birə şeypurlar çalındı və hamı cəngdən əl götürüb, öz yerlərinə qayıtdılar. Beləliklə, birinci cəng qurtardı.

Gecə yaralıların yaralarına dəva qoyub, onları ayrı çadırlarda ki, mərizxana çadırları idilər, yatırdıb, sonra ölənləri yerdən götürüb, bəzilərin quyladılar. Amma bunla belə hənuz gecədən iki-üç saat keçməmişdi ki, ölənlərin çoxunun nəşin çöllərdə olan heyvanlar aparıb, çuxur-çuxur dərələrdə və yuvalarda yeməgə başlamışdılar.

## İKİNCİ CƏNG

Gecə keçib, səhər yaxınlaşıb. Hər ki tərəf cəng üçün özlərin hazır edib, günəş çıxmağa bir az qalan kimi meydanda səf çəkib dayandılar. Bu dəfə düşmən qoşunundan bir nəfər pəhləvan yaraqlanıb yasaqlanıb atın meydana sürdü. Hər iki tərəf cəng şeypurun gözləyirdilər. Pəhləvan meydanın ortasına gəlib dedi:

– A hay... kimdir ki, meydana çıxıb Bağdad pəhləvanın cavabın versin?

Bir tərəfdən səs gəlmədi. Buna görə pəhləvan bir də nərə çəkib dedi:

– Mənə Məmun ibn Məmduh deyirlər. Hər kimdə cəsarət var və əgər qorxmur, meydana gəlsin!

Bu mouqə Şah İsmayılın qoşunundan bir nəfər igit pəhləvan ədəb ilə əllərin sinəsinə qoyub Şah İsmayılın qabağına yeriyib dedi:

– Qurban, icazə ver bu özündən razının səsin kəsim.

Şah İsmayıl bir az o cavanın ayaqdan başa heykəlinə baxıb dedi:

– Afərin, atam, ged, görüm nə edərsən!

Pəhləvan Şah İsmayıldan izn nalan kimi silahlanıb

fourən atın meydana sürdü:

– Ay pəhləvan başı! Hərifüvi tanı! Adım Dəmirxandır, işim qoçuluq. İndi qabağa gəl, görüm sözün nədir!

– Aya, mən iləsən?! Sözün nədir? Mən pəhləvan tələb elədim?!

Dəmirxan dedi:

– Ahay, pəhləvanbaşı, yoxsa gözüvə alaca-bulaca gəldim? İndi ağzuvi yum, əlivi aç, ta sənə alaca-bulaca olduğumu göstərim!

Məmun ibn Məmduh bir az diqqət salandan sonra gülüb öz-özünə dedi:

– Əcəb, bəs, türklərin pəhləvanları qurtarıb və buna görə bu uşağı mənim qabağıma yollayıblar.

Məmun ibn Məmduh bir pəhləvan idi ki, bütün İraq ölkəsində məşhur və azaraq pəhləvan onun qabağında davam edərdi. İndi öz hərfi Dəmirxana baxdıqca onun xırda olduğunu görüb gülürdü.

Məmun ibn Məmduh boyu uca, sinəsi qalxan, qolları uzun və canlı, beli nazik, boynu yoğun, əlləri iri, başı yekə, gözləri qırmızı və üzü böyük və qorxmalı nərəsi vəhşətli və habelə cəng işlərində ustad bir pəhləvan idi.

Onun əvəzində Dəmirxan bir alçaq, qısaqol, yaşı az və üzüağ bir yeni cavan idi. Buna görə dövrədən baxanlar təəccüb ilə deyirdilər ki, Dəmirxan Məmduhun hərifi degil. Çünki Məmduh çox böyük və Dəmirxan çox uşaqdır.

Daha Dəmirxan Məmunibn Məmduhun dayanmağın görüb dedi:

– Pəhləvan başı, indi təəccüb eləmək yeri degil. Təəccübi qoy qırağa, əllərivi aç!

Buna görə Məmduh bu sözdən hirslənib dedi:

– Ahay, pəhləvanbaşı, qalxanı çək başuva.

Dəmirxan pulad qalxanın başına çəkib, özünü üs-

tündə bərkidib qalxanın altından Məmduhun rəftarına tamaşaya başladı.

Məmun ibn Məmduh canlı pəhləvan olduğuna görə həmişə növbəti ilə vuruşanda əmud ilə vuruşardı. Bu idi ki, Dəmirxanın kələkin birbaşa kəsmaq üçün əmuda əl aparıb meydanı at ilə qanmağa başladı. Məmduh meydanı neçə dövrə dolanıb Dəmirxana tərəf həmlə gətirdi. Birinci zərbəti «ya Allah» - deyib, Dəmirxanın pulad qalxanının ortasından elə vurdu ki, qalxanın ortasından qor parladı. Vəli çox da irəli olmadı, indi ikinci zərbəni vurmaq üçün bir də meydanı dolanmağa başladı.

Dəmirxan heç inanmırdı ki, bu heykəli pəhləvanın zərbəsinin altında bu cürə davam gətirsin. Buna görə xoşhal olaraq ikinci zərbəti gözlədi.

Məmun ibn Məmduh birinci zərbəti özü məxsusən yavaş vurmuşdu ki, Dəmirxanı aldatsın. Yəni yavaş vurmuşdu ki, Dəmirxan ikinci zərbətdə qalxanın altında boş dursun və xəyal eləsin ki, ikinci zərbət kimi yavaş olacaq.

Dəmirxan şəkə düşmüşdü. Vəli lap da başa düşməmişdi ki, Məmduh ona hiylə vurub xamsıdıb.

Məmduh bu dəfə də əmud ilə Dəmirxanın qalxanına kübsədi. Yenə də zərbət o qədər əsərli degil idi. Amma Dəmirxan öz-özünə şəkə düşdü ki, necə ola bilər bu pəhləvan bu heykəldə ola, vəli zərbəti bu cürə əsərsiz və yüngül ola. Buna görə işi anladı ki, Məmun ibn Məmduh istir onu aldadıb xamsıdandan sonra üçüncü zərbətdə onu bir əmuda qurban eləsin. Bu idi ki, bütün qüdrət və gücün bir yerə yığıb qalxanın altında möhkəm dayanmağa başladı. İndi Məmduh meydanı dolanıb, çox qəzəbli və hirsli bir halda uzaqdan divanə kimi həmlə gətirməgə başladı. Yaxınlaşanda çağırdı. Ahay...ahay... Dayan ki, indi anavı matəmində əgləşdirdim.

Dəmirxan yaxşı başa düşmüşdü ki, Məmduhun hiyləsi nədir. Buna görə özün itirməyib dayandı. Məmun ibn Məmduh yaxınlayıb əmudi gögə qovzayıb nərə çəkə-çəkə pulad qalxanın ortasından elə bir zərbət endirdi ki, Dəmirxanın anadan əmdigi süt burnundan gəldli. Ancaq kişi kimi dayandı. Üzündən və bədənindən axan isti tərə baxmayaraq qalxanı başından götürüb dedi:

– Ahay pəhləvan başı, hiyləvi vurdun. İndi əgər icazə olsa, növbət mənimdir.

Məmun ibn Məmduh Dəmirxanın son zərbətdən salim və bu cürə diribaş çıxmağından az qaldı ki, acığından qılıncı çəkib onu aradan cırsın. Vəli cəngin qanununa görə hirsin yeyib daha bir söz demədi.

Dəmirxanın bütün bədəni tər içində idi. Vəli həman tərli halda dedi:

– Ahay, igit oğlan, qalxanı çək başıva!

Məmun ibn Məmduh qalxanı başına çəkib, xəcalatlı bir halda dayandı. İndi Dəmirxan qılıncı çəkib meydanı dolanmağa başladı. Dövrədə olanlar öz-özlərinə deyirdilər ki, Məmduh o böyükliğdə əmud ilə Dəmirxana bir şey edə bilmədi. İndi necə ola bilər ki, Dəmirxan bu kiçikliğda heykəlli və canlı pəhləvana qılınc ilə nə edə bilər? Amma Məmduh qalxanın altından Dəmirxanı gözləyirdi. Nəhayət, Dəmirxan dolanıb qılınc ilə həmlə gətirəndə istədi ki, qılıncı çəkib onun ürəginə soxsun. Vəli Dəmirxan «Ya həqq»deyib, ona macal vermədi. Ancaq qılınc ilə onun qalxanının ortasından zərbəti endirdi. Məmduhun heç intizarı yox idi ki, bu kiçikliğda pəhləvandan bir belə zərbət yesin. Buna görə qalxanın altında and içdi ki, bu dəfə əgər bu türk Dəmirxanı əzib torpağa salmasa, əsla ərəb degil. Amma bu tərəfdən də dəmirxan Məmun ibn Məmduhun hiyləsin görüb öz-özünə dedi:

– Bu ərəblər necə hiyləli və kələkbaz olurlar. And ol-

sun şərəfimə, bu dəfə əgər istəsə ki, hiylə vursun, nəfəsini bir dəfəliğ kəsəcağam. Daha qılıncı çəkib qəzəbli olaraq meydanı dolanıb, Məmduha tərəf həmlə gətirdi. Ancaq gözünün altı ilə onu güdüb gördü ki, Məmun bir əlin belindəki qılınca tərəf yaxınladıb və bir əli ilə qalxanı saxlayıb.

Məmduh istirdi ki, Dəmirxan ona zərbət vuranda ona macal verməyib, qılıncı onun qarnına soxsun. Dəmirxan onun bu rəftarın uzaqdan görən kimi hirs ilə hücum gətirdi. Bu mouqə Məmduh əlin yuxarı qovzayıb qılıncını ona vurmaq istədigi zaman, əli hənuz qılıncı gögə qovzamamışdı ki, Dəmirxan alıcı quşu kimi qılıncı onun qalxanına vurmaq əvəzinə ürəginin ortasından elə soxdu ki, Məmun ibn Məmduhun sinəsindən qan fəvvarə kimi Dəmirxanın üzünə sıçradı.

Məmun istədi ki, əlin yuxarı qovzayıb son dəmdə qatilini öldürsün, vəli daha vəqt keçmişdi. Buna görə bir az atın üstə dayanıb, sonra qanının azaldığına görə birdən-birə atdan yerə yıxıldı.

Bunu belə görən dövrədəki iki saf ürəkdən Dəmirxana əhsən dedilər. Ancaq Dəmirxan onu öldürəndən sonra börkün alnından yuxarı qovzayıb bir az hərif gözləyəndən sonra hərifin olmadığına görə birbaşa özün Şah İsmayılın hüzuruna yetirib, təzim edib dayandı.

Şah İsmayıl əvvəl inanmadığı üçün indi onu bu cürə şücaətli və şəhamətli gördüği üçün çox təəccüb edib ayaqdan-başa onun igit heykəlinə tamaşa eləməgə başladı.

Dəmirxan Şah İsmayılın hüzurunda dayanıb və şahdan bir söz olmadığına görə öz-özünə təəccüb ilə xəyallandı: «Olmasın ki, acizlik göstərmiş olam». Amma hənuz bu fikirdə idi ki, Şah İsmayıl qabağa gəlib, barmağı ilə onun aşağı əgilmiş canəsin yuxarı qovzayıb, onun üzünə güldü:

– Afərin, afərin, ey bizim ölkənin qəhrəman balası!

Afərin! Yüz afərin!

Dəmirxan bir az ki, qəmli olmuşdu, Şah İsmayılın qızğın məhəbbətin görən kimi ürəkdən sevinib dedi:

– «Vətən əvə şərəf uğrunda can vermək tarix iftixarımızdır» – Şah İsmayıl şüarıdır.

Şah İsmayıl Dəmirxanın bu cürə gözəl vaə qeyrətli danışdığından artıqca fərəhlənib dedi:

–Doğrusu, yeri var ki, Azərbaycan xəlqi sənin kimi şərəfli kişilərin və namuslu insanların vucudinə iftixar edib və bu pak dərsi həmişə rəvan olsunlar.

Dövrədə duranlar Şah İsmayıl və Dəmirxan deyən sözlərə qulaq asıb onları xatirlərinə tapşırırdılar. Ancaq namus və şərəf, ölkə və Azərbaycan kəlməsi təkrar olduqca onların qeyrət damarları hərəkətə gəlib, namus və şərəf uğrunda hər cürə vuruşmağa və can qurban eləməgə iftixar edirdilər.

İndi hər iki tərəf bir-birlərinin müqabilində dayanıb həmlə şeypurun gözləyirdilər. Daha o qədər çəkmədi ki, həmlə şeypuru çalınan kimi hər iki tərəf dərya kimi yerindən oynayıb bir göz yumum zamanda bir-birlərinə qatışdılar.

Şah İsmayıl indiyə kimi neçə böyük cənglərdə vuruşub, ustad olduğuna görə taktik isterateji məsələlərə bir qədər aşina olduğu üçün indi çox kamil bir iman və etimad ilə düşmən qoşununun qabağında vuruşmağa özün hazırlamışdı.

Şah İsmayıl dəsturinə görə qoşun üç bölük olub və qərar idi ki, əgər birinci bölük sına, ikinci və üçüncü bölük öz tapşırıldığı işlərinə başlasınlar.

İndi hər iki tərəf qılıncların və əmudların bellərindən çəkib, ac qurdlar kimi bir-birinin üstünə həmlə gətirməgə başlamışdılar. Meydanı toz-torpaq bürüyüb, günəşin gözəl işığı qılınclara və əmudlara düşdükcə uzaqdan belə nəzərə gəlirdi ki, dəmirçi kürəsi od və tüsti içində şölə

çəkir. Daha vurhavur və qırhaqır, «ax-ux», «ey vay» səsi gögə qalxırdı. Hər tərəf qan ilə qılınc və yaralı canlar idi.

Ərəb və Şah İsmayıl və igit qızılbaşlar var gücləri ilə düşməni Bəsrə şəhərindən çıxardıb Səmavə şəhərinə qovmaq üçün çalışırdılar. Buna görə düşmənə fişar gələn kimi bir az dalı oturdular. Bunu belə görən Şah İsmayıl əmr elədi ki, ikinci bölük fourən atlanıb meyıdana girsin. Buna görə ikinci bölük özün meydana yetirib, düşməni at döşünə saldılar. Daha düşmən dayana bilməyib dalı oturmağa məcbur oldu.

Bəsrə şəhərində olan qoşun da şəhəri buraxıb Səmavə şəhərinə tərəf üz qoydular. Bəsrə şəhəri Şah İsmayılın əlinə keçdi. Şah İsmayıl dəstur verdi ki, Bəsrə şəhərində oturaq eləsinlər. Buna görə bütün nizami qəravulxanaları və evləri tutulub, şəhəri əmniyyət içində saxlamaq üçün Şah İsmayıl hər yana qəravul qoyub bir neçə gün orda qalandan sonra ikinci bölük ilə düşmən qoşunun təqib eləməgə başladı. Ancaq birinci bölük Bəsrə şəhərində qalıb, fəqət və ikinci və üçüncü bölük səhər tezdən yaraqlanıb əvə yasaqlanıb, atlarına minib yola düşdülər.

Çölləri dərya-dərya qoşun idi ki, tutmuşdu. Toz-topraq gög üzün bürüyüb, çox vaxt hava qaranlıq görünürdü. Şah İsmayıl düşəmənin hiylələrinə aşina olduğu üçün bir qədər məmurlar seçib qoşunun qabağıyca yollamışdı ki, əgər bir hiylə və kələk olmuş olsa, onları tapıb və fourən xəbər versinlər.

İndi günəş yavaş-yavaş çıxıb və öz gözəl nurunu aləmə yaxmışdı. Atlar qan-tərin içinə bulaşmışdılar. Bir qədər yol gedəndən sonra günəş günortanın yerinə gəlib daha qızmışdı. Yolların oyan-buyanı meşələr və bağlar ilə tutulub və çox səfalı görünürdülər. Şah İsmayıl bu dəfə Ərəbi Qəsrə şəhərində hakim qoyub Gülzar ilə yola düşmüşdü. Əlbəttə, Gülzar da bütün vuruşma işlərin ögrənib

və qərar idi ki, bu dəfə cəngdə o vuruşsun. Buna görə demək olar ki, Ərəbin yerin tutumuşdu.

Qoşun əhli yorulub və azaldığına görə Şah İsmayıl fərman verdi ki, həman bağlıqlara düşüb çadırları qursunlar. Buna görə bağlarda çadırları qurub istirahətə başladılar. Amma yenə də düşmən həmləsindən qafil olmaq üçün bir ləşkər amadə halda dağların döşlərinə dayanıb keşik vermağa məşğul oldular. İndi çadır lar qurulub, hər kəs öz çadırında itirahət etmək üçün hər cürə yeməli və içməlilər hazır elədilər.

Hər kəs öz işinə məşğul oldu. Ancaq Şah İsmayıl ilə Gülzar da öz ipək çadırların bir güllü bağçanın içində və çinar ağaclarının gölgələrində qurub, sonra havanın isti olduğuna görə hər ikisi də soyunub çadıra girdilər. Şah İsmayıl çadıra girib pərdəni saldı.

Sərin yel əsəndə çinar ağacları və gög yarpaqlar bir-birinə toxunub xışıldayırdılar. Çadırın hər yanı gölgəlik idi. Gözəl meyvəli ağaclar meyvələrinin yetişib və dolu olduğundan budaqlarını yerə əgib sallanmışdılar. Ağacların yanında axan duru və saf sular zina-zina axıb şırıldayırdılar? Hava isti olduğu halda bu yer çox sərin idi.

Şah İsmayıl ilə Gülzar bir-birlərin candan artıq və əziz sevdiglərinə görə hənuz dodaq-dodaqdan götürməmişdilər. Arı şirinə qonan kimi onlar da hələ-hələ qopmaq istəmirdiər. Bu mouqə çadırın dalından bir yavaş səs gəldi. Şah İsmayıl həmişə ayıq düşdügünə görə fourən çadırdan eşigə çıxdı və bir az o yan-bu yana baxdı. Vəli bir şey görmədi. Amma qayıdıb çadıra girən zaman yenə də səs gəldi. Şah İsmayıl hirslənib axtarmağa başladı. Bir az yaxşı baxandan sonra gördü ki, ağacın başından yetişmiş iri-iri narlardır ki, çadırın oyan-buyanına tökülür. Daha narları yığıb çadıra girdi. Narlardan bir yaxşı ye-

tişmişini də sevgilisi Gülzara verdi.

Aşpazlar nahar düzəltmağ üçün çalışırdılar. Nahar pişincə Şah İsmayıl ilə Gülzar eyni surətli məşğul olub və bir az öpüşüb və danışandan sonra Şah İsmayıl bir əli Gülzar qoynunda, bir əli də tarda götürdü görək nə söylədi:

Camalın günəşə, günəş ulduza,
Şirinliğda bala, dadlığda duza,
Bənzərsən hər zaman gözəl bir qıza
Ey mənim sevgilim xanım, Gülüzar.

Aldı Gülzar görək nə söylədi:

Mərdanə sifətin, qılınc vurmağın,
Düşmənlər qarşında igit durmağın,
Zülmi götürməgin, dadı qurmağın
Aşiq edib sənə xəlqi, Xətayi!

Aldı Şah İsmayıl görək nə söylədi:

Cəmalın eşqinə düşəndən bəri,
Gəzərəm zövq ilə bütün çölləri,
Yaşasın qəhrəman bizim elləri,
Ey mənim sevgilim, xanım Gülüzar!

Aldı Gülzar:

Ellərin uğrunda qəhrəmanlığın,
Qəhrəman millətə mehribanlığın,
Özün kiçik bilən bu sultanlığın,
Aşiq edib sənə xəlqi Xətayi!

Aldı Şah İsmayıl:

Fəhərdir, fəxrdir vətən yolunda,
İgitlər dayansın sağ və solunda,
Başında birinin gücü qolunda,
Şərəfdir bu ölüm, canım Gülüzar!

Aldı Gülzar:

Bir dola boynuma igit qolların,
Ey tutan ölkənin sağ və solların,
Xalqın tərəqiyyə açan yolların
Aşiq edib sənə xəlqi, Xətayi!

Aldı Şah İsmayıl:

Gəl bir də verəlim dodaq-dodaqa,
Nəbada düşmüyək birdən qırağa.
Heç yarı düşməsin yardan uzağa,
Mən bülbül, sən mənim gülüm, Gülüzar!

Aldı Gülzar:

Ey bizim ellərin istəkli yarı,
Ey böyük eliyən bizim diyarı.
Olubsan millətin sən iftixarı,
Ümid edib sənə hamı, Xətayi!

Şah İsmayıl Gülzarı bu cürə iftixarlı oxumağından xoşhal olaraq yenə də onun dodaqlarından və qırmızı yanaqlarından öpməgə başladı. Doğrusu, Gülzar da Şah İsmayılı əndazədən artıq sevirdi. Çünki əvvəl cavanlıqda aşiq olduğunda fəqət Şah İsmayıla aşiq olmuşdu. İttifaqən Şah İsmayıl gözəl və cavan olduğu bir yana, igit və qılınc vuran və qolu güclü və huşlu və qorxmaz olduğu hamıdan artıq

Gülzarı əmr etmişdi. Buna görə Gülzar üçün Şah İsmayıl tanınmaz bir ləl və bahalı bir cəvahir idi.

Şah İsmayılın da üç sevgilisi olduğu halda yenə də hamıdan artıq Gülzarın eşqinə əsir idi. Çünki əvvəl sevişdə öz könlünü ona verib və ona aşiq olmuşdu. Amma bunla belə vəfalı və mehriban olduğu üçün heç vaxt Pərini və Ərəbi yaddan çıxartmırdı və onları da həman Gülzarca sevirdi.

Çadır xəlvət olduğu üçün Şah İsmayıl ilə Gülzar razü niyaz etməkdən və öpüşüb və qucaqlaşmaqda idilər. Daha naharı yeyib və içkini içib bir qədər yorğunluqların alandan sonra Şah İsmayıl yenə də düşmən ilə mübarizə etmək üçün çadırdan çıxıb, dərə-dərya çölləri tutan və düşmənin ürəginə vəlvələ salan qızılbaş qoşununa hərəkət üçün fərman verdi. Buna görə bütün qızılbaş qoşunu fourən atlanıb Səmavə şəhərinə tərəf yollandı.

## SƏMAVƏ ŞƏHƏRİNİN ALINMASI

Qızılbaş qoşunu Səmavə şəhərinin qıraqlarında dayanıb və fəqət şeypur çəkilməsin gözləyirdilər ki, həmlə etsinlər. Nəhayət, o qədər çəkmədi ki, hər iki tərəfdən cəng şeypuru çəkilib bir-birlərinə həmlə gətirdilər. O gün bir ayrı vuruşma düşdü. Səhərdən ta axşama kimi vuruşandan sonra düşmən qoşunu qabaqcadan özlərin itirdiklərinə görə Səmavə şəhərin buraxıb birbaşa Nasiriyyə şəhərinə qaçmağa üz qoydular. Nəhayət, Şah İsmayıl Səmavəni alıb, oranı əmniyyət içində saxlamaq üçün ədalətxanalar və divanxanalar qurub, sonra düşməni qovmaqdan ötrü Nasiriyəyə həmlə aparıb və bir qədər orada vuruşandan sonra Nasiriyyə şəhərini alıb, bu dəfə düşmən Divaniyyə şəhərinə qaçıb və orada da dura bilməyib bir zaman vuruşandan sonra böyük bir həmlə üçün

özlərin Bağdad şəhərinə yetirib, şəhərin dərvazələrin bağlayıb və möhkəm edib, gələcək vuruşma üçün hər tərəfdən qoşunlar yığıb müntəzir halda dayandılar. İndi Şah İsmayıl Bəsrə, Səmavə və Nasiriyyə və Divaniyyə və Himə şəhərlərin aldıqca bütün şəhərlərin əhalisi onun ədalət divan ilə hökumətin eşidib və gördüklərinə görə qızılbaş qoşunu şəhərlərə və kəndlərə dolduqca onların qabağına çıxıb, pişvaz edib güllər səpirdilər və şadlıqlar edirdilər. Buna görə Şah İsmayıl və qızılbaşlar artıqca ümidvar olurdular ki, ədalət ilə hökumət eləmək və zülmün binasın kökündən qazmaq və habelə millətlərə ehtiram qoyub onların qulluğunda olmaq nə fəqət şərəfli və vicdanlı bir işdir, bəlkə hər hökumət ki, bu cürə hakimiyyət sürsün, yüzdə yüz ümidvar ola bilər ki, millət onun məşuqəsi və o, millətin həqiqi bir aşiqidir. Buna görə indi demək olar ki, Şah İsmayılın düşüncəli siyasəti və hökumətə layiq olan tədbirləri daha səmərə yetişib, millətin və dövlətin dərin arzularını yerinə yetirməkdə idi.

İndi bütün Bağdada kimi olan şəhərləri alandan sonra Şah İsmayıl var gücü ilə Bağdad şəhərin almaq üçün çalışırdı. Bu idi ki, yenə də Azərbaycanın hər tərəfindən könüllü kimsələr qızılbaş qoşununa girib vətən yolunda vuruşmaq üçün «Bağdad şəhəri» deyibən İraq məmləkətinə yollanmışdılar, və qızılbaş qoşunu hər saət çoxalmaqda idi. Bu idi ki, Bağdadın ətrafında qurulan çadırların dərya kimi uzaqdan gözə vurması həman əndazə ki, qızılbaşları cürətə və şəhamətə gətirirdi, düşmən qoşunun da o qədər qorxuya salırdı.

İndi Şah İsmayıl Bağdad şəhərinin işin biryanlıq eləmək üçün var qüvvəsi ilə nəqşələr çəkib və səngərlər basdırırdı. Amma bunla belə lazım idi ki, böyük və əziz köməgi və qəhrəman arkadaşı Ərəb də bu cəngdə olsun. Buna görə qızılbaşlardan birini çağırıb Ərəbə yazdığı naməni verdi. İndi görək Ərəbə yazdığı namədə nə yazılmışdı:

Salam, ey sevməli sevgilim, salam,
Salam, ey bənövşəm, sünbülüm, salam,
Vəfalı dilbərim, öz gülüm, salam!
Qiyamət dəmidir, yetir özünü!

Öpürəm uzaqdan qara gözlərin,
Dərmandır dərdimə şirin sözlərin.
Çap dağların əgrilərin, düzlərin,
Qiyamət dəmidir, yetir özünü.

Dolubdur nəş ilə dağlar, dərələr,
Düşmən qorxusundan baxıb bərələr,
Sənsiz bu ağ dünya mənə qərələr,
Qiyamət dəmidir, yetir özünü.

Salam alıb, mənə salam yollama,
Dayanma, atlanıb daha düş yola.
Yetiş ver, mən ilə bir də qol-qola,
Qiyamət dəmidir, yetir özünü.

Əzərəm dağları dalımda dursan,
Hər zaman eşq ilə mənim olursan.
Məndən bir soruş ki, neçün solursan?
Yetir ta özünü, deyim düzünü.

Sənsiz daha yoxdur səbrü qərarım,
Sən olan yerdədir mənim diyarım.
Ey mənim sevgilim, istəkli yarım,
Qiyamət dəmidir, yetir özünü!

Səmavə şəhrində ədalət qurub,
Azərbaycan bayrağını İraqə vurub,
Hər işi yerində yaxşı doldurub,
Millətin üstündən  çəkmə gözünü.

Yetiş harayıma, yetiş dadıma,
Yetiş imdadıma, bu fəryadıma,
Tə indi anlama düşdün yadıma,
İstərəm hər zaman görüm üzünü

Uçurdaram sənsiz könül quşunu,
Görərlər sinəmin bir gün boşunu.
Dərdimi anlayan kəslər düşünü,
Qiyamət dəmidir, yetir özünü!

Qızılbaş naməni Səmavə şəhərində Ərəbin əlinə verib, Ərəb naməni görən kimi sevindigindən az qaldı ağlasın. Çünki ürəgi çox istirdi ki, Şah İsmayılı görsün. Buna görə naməni alıb, Şah İsmayılın adın oxuyan kimi gözlərindən zövq yaxşı töküldü. Sonra naməni açıb oxuyub və Şah İsmayıl yazan kimi fourən öz işlərin yerinə yetirib hamının dərdinə çatandan sonra başında olan qoşun ilə iki saatdan sonra atlanıb Bağdad şəhəri deyibən yollandı.

## BAĞDAD ŞƏHƏRİNDƏ QANLI VURUŞMA

Ərəb öz başında olan qoşun ilə gecə-gündüz yol gedib, daha bir gün səhər günəş təzə çıxan zaman özlərin Bağdadın qıraqlarında dərya-dərya qurulmuş çadırların yanına yetirib və Şah İsmayıl da ki, çadırdan çıxıb bütün qızılbaş qoşununun qabağında öz heykəlli atının üstə durub onları gözləyirdi, gözü Ərəbə və Ərəbin gözü Şah İsmayıla düşən kimi hər ikisinin də ürəgi vurmağa düşdü. Amma nəzakət və əxlaqı gözləmək üçün düzgün bilmədilər ki, o qədər qoşunun qabağında bir-birlərin qucaqlayıb öpsünlər. Bu idi ki, fəqət bir-

birlərinə alqış söyləyib görüşürdülər. Nəhayət, hamı istirahət üçün atlarından enib öz çadırlarına girdilər və Şah İsmayıl ilə Gülzar və Ərəb də öz məxsus çadırlarına girib şadlığa başladılar. Bu mouqə Gülzar qabaqdan Şah İsmayıldan şikargaha gedmək üçün icazə istədiginə görə yenə də Şah İsmayıldan və Ərəbdən icazə istədi ki, qərar olduğuna görə öz başında olanlar ilə şikara gedsin. Bu idi ki, Şah İsmayıl onun üzündən və Ərəb də onun alnından öpüb icazə verdilər ki, Gülzar şikara gedsin.

Daha Gülzar ayrı pəhləvanlar kimi öz atına minib şikargaha tərəf yollandı. İndi çadırda Şah İsmayıl ilə Ərəb tək qalıb görək nə razü niyaz edirlər. Ərəb cəngi paltarların çıxardıb, qılıncın və əmudun bir yana qoyub, sonra əgilib Şah İsmayılın yanında oturdu. Ərəbin boy-buxunu, bədəninin şüca və igit duruşu, doğrusu, gözəl bir heykəl idi. Şah İsmayıl onu cəngi paltar içində görəndə çox vaxt onun qız olduğun yadından çıxardırdı...

Ərəbin dodaqları lalə kimi yanırdı. Sədəf kimi dişləri qırmızı dodaqlarının arasında par-par parıldayırdı. Çox vaxt güləndə yanaqları alma kimi qızarıb yumrulanırdı. Amma onun qələm qaşları və piyalə gözləri insanı ovçu kimi ovlayırdı. Doğrusu, elə bil ki, təbiətin və ya Allahın eşqi gələndə bu gözəli yaradıb və gözəl olduğu halda ona igitlig da vermişdi.

Ərəb börkünü götürəndə qara saçları xərmən kimi ətrafına tökülürdü və çox vaxt telləri şan-şan olanda və üzünə töküləndə bütün ağ üzü ay bulut içində olan kimi gizlənapaç oynayırdı.

Şah İsmayıl yanında olan bu nurinin gözəlligindən qafil degil idi. Amma bir az Ərəbin gözəlliginə tamaşa edəndən sonra birdən-birə iki qolların onun boynuna salıb qucaqladı. Ərəb də ürəkdən sevdigi Şah İsmayılı bərk

qucaqlayıb, busə və öpüş bazarı rövnəq tapdı...

İndi bir-birinin yanında oturub, iki nəfər böyük nizami tədbir diplomatı kimi və iki nəfər böyük sərdarlar kimi bir-birləri ilə tədbirləşmağa və nəqşə çəkməğa məşğul oldular. Bu mouqə Gülzar da işgargahdan qayidib, bir gözəl maral ovlayıb, çadırdan içəri girib gülə-gülə maralı ortaya qoydu. Şah İsmayıl və Ərəb qah-qah çəkib gülərək ona afərin dedilər. Maral çox böyük və yağlı bir heyvan idi. Buna görə Şah İsmayıl fourən dəstur verdi ki, onu nahar üçün qızardıb kabab eləsinlər. Nəhayət, hər üçü deyib güləndən sonra yenə də sabah üçün nəqşə çəkmağa başladılar. Çünki qərar idi ki, gələn gün Bağdad şəhərinə həmlə olunub, düşmənin rişəsin birdəfəlik olaraq qazsınlar. Bu idi ki, ta nahara kimi nəqşə çəkirdilər.

Nahar hazır olub, maralı kabab edib yedilər, nahardan sonra bir qədər yatmaq üçün istirahətə başladılar.

Düşmən qoşunu da şəhərin darvazaların tutub, bürclərin başında oxatanlar və tuluqlarda qızmış suları ağacların başına taxanlar öz yerlərində durub, fəqət bir fərmana möhtac idilər ki, qabağa gələn düşməni daşa və oxa basıb, dağ suların altında puşlasınlar.

Şəhərin içində gəl-götür, həmlə üçün yığışhayığış idi. Hər kəs öz yerinə gedib verilən dəsturə əməl etmək üçün çalışırdılar. Amma çoxları Şah İsmayılın adil olduğu üçün və onun qeyrətli kişi olduğunun tərifin eşitdikləri üçün çox da vuruşmaq istəmirdilər. Fəqət istirdilər ki, əgər fürsət olsa fourən təslim olub, Şah İsmayılın tabeyi olsunlar. Daha hava yavaş-yavaş qaranlıqlaşırdı. Şəhərin ətafında Şah İsmayılın qurulan işıqları düşməni qorxuya salırdı. Çünki çöllər göz işlədikcə şam idi ki, yanırdı. Buna görə bu vəziyyəti görən düşmənlər öz-özlərinə deyirdilər:

– Məgər dünya əhli çoxları fürsət ələ salıb qaçmaq

istəyirdilər. Vəli nizami inzibatları bir cür idi ki, hərgiz qoyub qaçmaq olmazdı.

Amma şəhərin darvazələrində duran qəravulların çoxunun əlində olan məşəllər ki, cəng üçün lazım idi ki, uzaqdan görünəndə dərvazələri bir od atın dağlara bənzədirdi. Yavaş-yavaş gecə yarıdan keçib, səhər yaxınlaşdı. Hava alaqaranlıq idi ki, Şah İsmayıl və Ərəb və Gülzar yerlərindən durub, öz dəmir paltarların və polad börklərin qoyub, yaraqlanıb-yasaqlanıb çadırlarının qabağında qədəm vurmağa məşğul oldular. Ancaq xoruzların səsi qurğarıb və hava lap işıqlaşmışdı ki, Şah İsmayıl bütün qoşuna amadə olmaq üçün fərman verən kimi qoşun bir az müddətdə fourən atlanıb səf çəkdilər.

O tərəfdə də düşmən qoşunu səf-səf meydana yeriyib öz yerlərində dayandılar. Hər iki tərəfdən təbil və şeypurlar səsi çölləri tutub və dağları bürümüşdü. Budəfəki cəng ayrı bir cəngə bənzirdi. Çünki hər iki tərəf hesablarını birdəfəlik pak elmək üçün  var gücləri ilə ölüm ilə yaşayış arasında dayanmışdılar. Nəhayət, o qədər çəkmədi ki, bir nəfər Bağdad qoşununun səfindən çıxıb meydana gəldi:

– A hay, kimdir mənim hərifim?

Bir qədər nərə çəkib çox danışandan sonra Şah İsmayılın qoşunundan biri icazə alıb fourən özün meydana yetirib pəhləvanın qabağında dayandı.

– A hay, pəhləvanbaşı! Sənin hərifin mənəm.

Pəhləvan bir az öz hərifinin üzünə baxıb dedi:

– Çox yaxşı! İndi al, gəldi.

Bunu deyib nizəni tulladı. Birinci nizə rədd olub, ikinci nizə tullandı. İkinci nizə də rədd olub, üçüncü nizədən də bir iş ələ gəlmədi.

Buna görə düşmən pəhləvnı hirslənib atının belindəki kəməndi açıb, çin-çin edib, öz hərifinə tərəf tulladı. Kəmənd

gögdə fırlanıb, pəhləvanın başı üstə həlqə vuran kimi pəhləvan fourən qılıncı çəkib kəməndi böldü. Daha hər ikisi də qılıncların çəkib bir-birinə həmləyə başladılar. Bir qədər vuruşub-taqışandan sonra qılınclardan da bir əsər olmadı. Buna görə hər ikisi də atdan düşüb tutuşdular. İki pəhləvan dəmir paltar geydiklərinə görə bir-birlərin dalı-qabaq aparanda paltarların səsi caraq-curunq ilə səslənirdi.

İki pəhləvan hirsli halda qan gözlərin tutub bir-birlərin dalı-dalı aparıb və qabaq-qabağa gətirirdilər. Tər bütün bədənlərindən yağış kimi axırdı. Hər ikisində də divanələr kimi bir-birlərinə üsyani halda həmlə edirdilər. Çünki əgər biri bir az qəflət etsəydi, bu qəflət onun üçün ölümə tamam olardı.

Nəhayət, düşmən pəhləvanı taqətdən düşmüşdü. Buna görə çox vəqt bu biri pəhləvanın qabağından qaçırdı. İndi yenə də qaçmağa üz qoyanda pəhləvan onu dalından tutub dedi:

– Pəhləvan bu sözdən hirslənib, qılıncı belindən çəkib ona həmlə istədigi zaman pəhləvan fourən onun əli gögdəkən bilədindən tutub, bir qədər fişar verib, nəticəsində onun barmaqlarından qan sıçrayıb, qılınc əlindən atıldı. Sonra onun döşündən bir təpik vurub qırağa tulladı. Sonra düşmən qoşunundan bir ayrı pəhləvan gəldi. O da bir iş görə bilməyib, özü aradan getdi. Bu cürliğ ilə hər kimi tərəfdən bir neçə pəhləvan bir-birləri ilə vruşub, neçə nəfər yaralanıb öldü. Ancaq daha ümumi həmlə şeypuru çəkildi. Buna görə hər iki tərəf bir-birlərinə toqquşub, vuruşma başlandı. Bir göz yumum zamanda o qədər müntəzim və saf düzülən səflər bir-birinə qarışdı. İndi bir kəsdən səs çıxmırdı. Ancaq hamı ağzın yumub əlin açmışdı.

Bağdadın dərvazələri qızılbaş qoşunun üzünə bağlı idi. Şəhərdən qıraqda Bağdad qoşunu qızılbaşlar ilə vu-

ruşa-vuruşa qoymurdular ki, düşmən dərvazəyə yaxınlaşsın. Amma Şah İsmayıl bir ləşgər Ərəbin fərmanının altında məmur eləmişdi ki, düşmənin başı qatışan kimi özlərin dərvazələrə yetirib, qapuları sındırıb içəri girsinlər. Buna görə Ərəbin başında olanlar vuruşa-vuruşa dərvazə qapularına tərəf axırdılar. Ancaq bu iş asan degil idi. Çünki düşmən var güci ilə dayanıb, igit vuruşurdu.

Şah İsmayıl və Gülzar da bir yanda vuruşurdular. Onların işi fəqət düşmənin başın qapmaq idi ki, Ərəb və başında olanları fürsətdən istifadə edib, şəhərə girsinlər. Nəhayət, günəş ged-gedə qızırdı və həman əndazədə vuruşma meydanı qızışıb qanlar su yerinə axırdı. Hərdəm qızılbaş qoşunu fişar gətirib dərvazəyə yaxınlaşırdılar. Vəli düşmən qoşunu da vəziyyəti belə görən kimi, verilən fərmana görə, yenə də hücum gətirib onları dalı otururdular. Bu iş günortadan ta ikindiyə kimi davam tapdı. Amma bir nəticə ələ gəlmədi.

Bağdadın içərisində olan yazıq millət işlərindən avara olub, yoxsul kimsələr, məxsusən kəndçilər və işçilər bir tikə çörəyə möhtac qalmışdılar. Çünki cəng başlanan kimi bütün hampalar və böyük malkilər bütün azuqələri yığıb anbarlara doldurmuşdular və bir yanla nə buğda və dügi ələ gəlirdi və nə də yoxsulların əlində o qədər pul var idi ki, heç olmasa azuqə şeylərin baha alıb özlərin ölümdən qurtarsınlar. Təkcə İraq məmləkətində belə degil idi, bəlkə İranda da bütün kəndçilər işçilər əldən-ayaqdan düşürdülər. Vəli Bağdad və bütün İraqın hər tərəfindən aclıq və yoxsulluq İrandan da artıq idi. Çünki onlar mühasirədə olduqları üçün bir yandan azuqə yolu yox idi. Bağdad şəhərində bütün caddələrdə və küçələrdə və evlərdə ac uşaqların naləsi və ürəgi dərd ilə dolu olan qocaların yavaş-yavaş axan göz yaşları və habelə atasın və qardaşın əlin-

dən verənlərin sızıltısı daha Bağdad şəhərin bürümüşdü.

Onlar ki, cəngdən və vuruşmadan dastandan və təfrihdən başqa bir şey düşünməmişdilər və çox vəqt cəngin bəlasın və qəhətliğin eşidəndə də narahat olmazdılar, indi onun mənasın və ürək yandıran, gözlər ağladan mənzərəsin yaxından görürdülər.

Ax ki, cəng və aclıq və əziz ölümü, ölkələr viran olması, uşaqlar ata və anaların vay deməsi ana və qardaşların bacıların vay əzizim deməsi nə yamandır!...

Bağdad şəhərində və bütün cəng olan şəhərlər və kəndlərdə bu mənzərə şədid bir halda qurulmuşdu. Malikanələrin zülmü və bu vəziyyətdən zalimanə istifadə edib ac və çılpaq kəndçiləri zalu kimi sormaqları və şəhərlərdə də ərbabların işçiləri işdən çıxarmağı və ya çox az müzdə əcir eləməgi ahü fəğanı göglərə qovzamşıdı. Bu vəz ilə bəlli idi ki, gündən neçə-neçə məzlum insanlar qıraq-bucaqlarda aclıqdan və yazıqlıqdan düşüb can verirdilər. Hətta varlıqların buğda anbarlarının divarının diblərində onlarca və yüzlərcə saralıb ölənlərin mənzərəsi onların ürəklərin zərrə də rəhmə gətirmirdi.

Küçələrdə o yan-bu yana qaçanlar və çörək dalıyca ağlaya-ağlaya avara dolanan yetim və çıplaq uşaqların naləsi heç bir ərbab və ya malikin ürəginə əsər etmirdi. Bu idi ki, yavaş-yavaş bu inciklər və bu narazılıqlar bütün şəhərlərdə, kəndlərdə tufana dönüb inqilab yaradırdı. İndi cəngin və zalimlərin əlyehinə bütün qeyrətli və şərəfli kişilər qiyam edib, cəngin və zülmün binasın qazmaq istəyirdilər.

Bütün tarix zahirdə, hamı nədə olursa-olsun, fəqət aclar ilə toxların və yoxsullar ilə varlıların və habelə işçilər ilə ərbab və maliklərin vuruşmasıdır.

## DƏCLƏ FƏTH OLDU

Dəclə Bağdad şəhərinin ortasından keçən böyük çayın adıdır. İndi gecə keçib, səhər olan kimi yenə də hər iki tərəf səf çəkib, bir-birlərinin qabağında dayandılar və o qədər çəkmədi ki, həmlə şeypuru çəkilib, hücum başlandı. Hər iki tərəf bir-birinə qatışan kimi qılıncların şaraqqa-şuruqqu və əmudların taraqqa-turuğu, qalxan və nizələrin bir-birinə çaqışıb çaraqqa-çuruğu və pəhləvanların ürəkdən nərə çəkib anqırmaları, atların hihi şiyhə çəkməsi və habelə ürəgindən qılınc və nizə soxulub ax deyib yerə sərilənlərin ahü-naləsi və yaralananların sızıltısı, toz-torpağın gög üzün duman kimi bürüyüb qaranlıq eləməsi o meydanı bir dəmirçi kürəsinə və bir dağın od atma tufanına oxşadırdı.

Hər iki tərəf var gücləri ilə vuruşurdular ki, tərəfi son dəfə olaraq ayaqdan salıb yox eləsinlər. Amma bunlar bu cürə vuruşarkən yoxsulluqdan və zülmdən cana gələn kəndçilər və işçilər də bir yandan qiyama başlamışdılar. Onlar da istirdilər ki, nə fəqət bu biri, bəlkə hər iki tərəf və hər kim ki, bu qan tökməgə və xəlqi bundan artıq qara günlərə salmaq istir, həmişəliğ üçün əkilib aradan gedsin. Cənc ged-gedə qızışırdı. Hər tərəf nəş ilə dolub, qan su yerinə axdığı halda, qoşun əhli onlara baxmayaraq, daha da vuruşurdular. Amma azaraq gözə vururdu ki, yavaş-yavaş dalı oturub, Bağdad şəhərinə tərəf üz döndərirdi. Bu idi ki, Şah İsmayıl qızılbaşlar bu işi belə görən kimi cürətə gəlib, həmləni daha da yeyin edib və qızğın bir halda vuruşmağa başladılar. O qədər çəkmədi ki, düşmən qoşunu şəhərin bağlı darvazələrinə yetişən kimi dərvazəçilər fourən qapuları açıb onları içəri salan kimi yenə də qapular qızılbaşların üzünə bağlandı. Qızıl-

başlar çox çalışırdılar ki, qapular bağlanmamış özlərin dərvazələrə yetirsinlər, vəli daha vəqt keçmişdi.

Qızılbaşlar dərvazələri sındırmaq üçün böyük daşları və kötükləri və ağır-ağır əmudları qapulara vurub, içəri keçmək istəyirdilər. Vəli düşmən qoşunu dərvazələrin divarlarının üstündə durub, yağış kimi ox yağdırıb və daşlar atırdılar və çox vəqt tuluqların içində olan dağ suları onların başına töküb üz, göz və bədənlərin puşlədilər. Daş, kötük və əmudlar qapılara taraqqa-turuq ilə dəgəndə yavaş-yavaş cırıldayıb hərəkət edirdilər. Vəli möhkəm olduqlarına görə bəlli idi ki, bu tezliğda sınan degillər. Amma Şah İsmayıl dəstur verdi ki, fourən yoğun-yoğun ağacları kəsib, hər iki filin arasına bir ağac bağlayıb, filləri dalı-dalı çəkib və qabaq-qabağa gətirib, qapuya vurub sındırsınlar. Bu idi ki, bir az müddətdə ağaclar kəsilib, fillərə bağlanıb, indi filləri dalı-dalı çəkib, ağacların başın dərvazə qapılarına vururdular. Düşmən qoşunu dərvazələrin başında ox atmağa və dağ su tökməgə və daşlar tullamağa məşğul olduqları halda, dərvazələrin dallarında da tazə nəfəs qoşun saxlamışdılar ki, əgər qapular sınsa, yenə də onları içəri qoymayıb dövrələsinlər.

Dərvazələrin üstündən oxlar atılanda aşağı olan qızılbaşlar enli-enli qalxanları başları üstə tutub oxları dəf edirdilər. Elə bil ki, yağış yağanda çətir tutmuşdular. Vəli bunla belə çox böyük daşlar tullananda qızılbaşların bəzisi taqət gətirə bilməyib, daşın altında əzilirdi.

Nəhayət, qapular sınmağa başlayıb və yavaş-yavaş cırıldayırdılar. İndi o qədər çəkmədi ki, qapuların neçəsi şaraq deyib birdən-birə bölündülər. Bu mouqə qızılbaş qoşunu hura çəkib vuruşa-vuruşa içəri girdilər və bu qədər qapuların dallarında olan qoşunlar ilə vuruşandan sonra onları dalı oturdub qabağa basdılar.

Səhərdən günortaya qədər vuruşhavuruş idi. Küçələrdə bir nəfər gözə görünmürdü. Amma evlərdən qorxan uşaqların və qocaların sızıltı səsi azaraq qulağa gəlirdi. Düşmən qoşunu ta dəclə çayının o yanına kimi dalı oturub öz qərargahlarına yenildilər. Qızılbaşlar da verilən dəstura görə bütün əhaliyə ehtiram qoyub, nizami yerlərin tutub, şəhəri əmniyyət ilə saxlamağa vəzifəli oldular. Ancaq əhali üçün təkcə əmniyyət lazım degil idi, bəlkə onların qarınları ac və canları çıplaq idi. Buna görə Şah İsmayıl bu məsələdən agah olan kimi dəstur verdi ki, bütün maliklərin anbarların boşaldıb, xalqın içində paylasınlar. Qızılbaş məmurları hənuz bu işə başlamamış, qiyam edən və bir yerə yığışıb inqilaba başlayan kəndçilər və işçilər bütün anbarları alıb öz aralarında adilanə bir üsul ilə xalqa paylamağa başalamışdılar.

Bu xəbər Şah İsmayıla çatan kimi bir az fikir edib xoşhal oldu. Ərəb ki, onun şad olmağın gördü, xaşhal olmağının cəhətin soruşdu. Şah İsmayıl onun cavabında dedi:

– Əziz sevgilim! Mən üçün fəqət bu cürə millət və bu cürə qeyrətli xəlq lazımdır. Çünki hər millət ki, özü öz həqqinə və təklifinə aşina olub və özgələrə ümid olmasın, həmişə şəhamət ilə yaşayıb və şərəf ilə iqdam edər. Buna görə İraq milləti də bizim rəhmimizə ümid olmayıb özləri özlərinə yanıb və fəqət öz işlərinə ümidvar olublar.

Bu söz Ərəbi zövqə gətirdi. Ürəkdən Şah İsmayıla və onun adil olduğuna afərin dedi:

Bir qanlı vuruşmadan sonra.

**BAĞDAD ŞƏHƏRİNİN FƏTH OLUNMASI**

İndi Dəclə çayının bu yanında qızılbaşlar və o yanında düşmən qoşunu son dava üçün səf çəkib dayanmış-

dılar. O gün qərar idi ki, günortadan sonra həmlə başlansın. Nəhayət, günorta keçib, cəng zamanı yetişdi.

İraq məmləkətindən qızılbaş qoşununa daxil olub və Şah İsmayıla tabe olan çox idi. Hər saat hər kənddən və hər şəhərdən dəstə-dəstə qızılbaş qoşununa daxil olub vuruşmağa hazır olurdular. Çünki Şah İsmayılın adil olduğu və zülmün həddən çıxmağı onları bu yola...

İndi bütün millət şadlığa başladı və Şah İsmayıl bir müxalif görmədiginə görə şadlıq məclisləri qurub, öz məşuqələri ilə işrətə məşğul idi. Amma bir gün Ərəb Pəri yazan naməni ona verdi.

Şah İsmayıl naməni açıb, gözü Pəri yazan naməyə düşən kimi az qaldı ki, təəccübdən çığırsın. Amma bir söz demədi. Vəli ürəgi vurmağa düşdü. Çünki Pəriyə qol vermişdi ki, onu tezliğcə gəlib aparacaq. İndi müddətlər idi ki, Pəridən ayrı düşmüşdü və hətta az qalırdı ki, onun qiyafəsi yadından çıxsın. Şah İsmayıl bütün işləri yerinə yetirib, Pərini görmək istəyirdi. Vəli Ərəbdən və Gülzardan utanırdı. Vəli Ərəb və Gülzar bu halı Şah İsmayılda görən kimi özləri ondan xahiş elədilər ki, Şah İsmayıl özü gedib Pərini də gətirsin. Buna görə Şah İsmayıl bir gün tanılmaz paltarda sevgililərindən ayrılıb birbaşa Pəri olan diyara yollandı. gecə-gündüz at çapıb, yol gedirdi. Dərələri, təpələri aşıb, dağları, daşları ayağının altında qoyub, Pəriyə tərəf yaxınlaşırdı.

Şah İsmayıl İraq şəhərindən çıxıb Azərbaycana tərəf üz qoydu. Yenə gəcə-gündüz çapıb məşuqəsinə tərəf çəkilirdi. O, hər dəqiqə sevgilisi Pəriyə yaxınlaşdıqca az qalırdı ki, ürəgi yerindən oynasın. Çünki çox zaman idi ki, Pərini görməmişdi. Daha Pəri olan diyara yaxınlaşmışdı.

## GÖZÜYAŞLI ALAGÖZ PƏRİ

Şah İsmayıl atını qovub, Pərinin diyarına yaxınlaşıb

ürəgi, vurmağa düşdü. Bir azdan sonra at üstündən boylanıb baxan kimi hətta Pərinin evi uzaqdan görünürdü.

Şah İsmayıl evi uzaqdan görən kimi ürəgi tap-tapa düşüb, bilmirdi ki, o qədər yolu nə cürə gedib tez yetişsin. Daha alaqaranlıq idi ki, Şah İsmayıl özünü o diyara yetirib, Pərinin qapusının qabağında atdan düşüb, yavaş-yavaş içəri girib, diqqət ilə baxıb gördü ki, Pəri hənüz yuxudadır.

Şah İsmayıl ayaqların yavaş-yavaş götürüb onun başı üstə gəlib durdu. Bir az onun başı üstə durub ona həsrət ilə baxmağa başladı. Pərinin ala gözlərindən damcı-damcı yaşlar axıb surətlərində həlqələnmişdi və bəlli idi ki, gecə yatanda və yuxu içində çox böyük bərk ağlayıb. Daha bu mənzərə Şah İsmayılın ürəgin rəhmə gətirdi. Bir qədər ona dərindən baxandan sonra yavaşca əgilib onun qırmızı yanaqlarından öpdü və fourən evdən eşigə çıxdı.

Şah İsmayıl Pərinin evində Pəri bir az tərpəşdi və bir azdan sonra gözlərini açdı. Vəli bu mouqə Şah İsmayıl evdən eşigə...

Nə bir gələn var, nə tutan adından,
Nə doydum üzündən, nə də dadından.
Mən yazıq çıxmışam bəlkə yadından,
Şayət olacaqdır hər an ayrılıq.

Saraldım dərdindən, soldum qəmindən,
Bahar bulutu tək doldum qəmindən,
Uzun saçlarımı yoldum qəmindən,
Başa yetişmədi xəzan, ayrılıq.

Nə gecəm şad olur, nə də gündüzüm,
Nə durar göz yaşım, nə gülər üzüm,
Qəlbimdə yaralar var düzüm-düzüm.

Yarə üstə yarə qoyan, ayrılıq.

Pəri bu cürə yanıqlı-yanıqlı sızıldaya-sızıldaya ala gözlərindən damcı-damcı odlu yaşlar tökürdü. Ürəginin dərdin nə bir kimə deyə bilirdi və nə də eşqin gizli odu onu dinc qoyurdu. Ona görə qanadsız quş kimi qəfəsdə qalmışdı və bir kimsə yox idi ki, onu bu qəfəsdən azad eləsin.

Bu mouqə Şah İsmayıl bir divarın dalından onu görürdü və elə ki, Pəri sözün qurtardı. Şah İsmayıl yavaşca sazı bağrına basıb indi ona görək nə söylədi:

Utanır üzünə baxmağa üzüm,
Yanında yalana dönübdür sözüm.
Səni unutmazdı vallahi gözüm,
Ey məndən inciyən, bağışla məni.

Qurtardım ölümdən, od ilə qandan,
Qurtardım min cürə odun tufandan,
Görüşə gəlmişəm Ərəbistandan,
Ey məndən inciyən, bağışla məni.

Tutubdur İraqi qızaran qanlar,
Dağları, daşları qara dumanlar,
Sevgimi sevgidən ayrı salanlar,
Ey məndən inciyən, bağışla məni.

Bu mouqə ki, Pəri otağa girib heyran halda oturmuşdu. Eşqdən gələn bu nazik səsə qulaq verib Şah İsmayılın səsinə oxşadığına görə təəccüblə yerindən durub, o yan-bu yana axtarmağa başladı. Sonra qapıdan eşigə çıxan kimi heç inanmadığı bir anda gözü birdən-birə müddətlər ayrı düşdüği sevgilisi Şah İsmayıla düşən kimi

sevindigindən huşdan çıxıb astanadan yerə yıxıldı. Bunu belə görən Şah İsmayıl fourən onun başı üstə gəlib, başını dizləri üstə alıb ovudmağa başladı. Bir azdan sonra Pəri ala gözlərini açıb Şah İsmayılın üzünə baxdı...

Şah İsmayıl bir hicran çəkmiş bülbül olurdu və Pəri də müddətlər gözü yolda olan bir gül Pəri də hərdəm dönüb Şah İsmayılın üzünə baxanda belə nəzərə gəlirdi ki, sevgilisi Şah İsmayılın burada olduğun inanmır. Amma Şah İsmayıl onun bu cürə həsrət ilə baxmağın görən kimi yenə də onu qucaqlayıb yanaqlarından və qönçə dodaqlarından öpdi.

Günəş günorta yerinə gəlirdi. Amma onlar aclıq və susuzluq anlamırdılar. Çünki eşq və həqiqi bir məhəbbət badəsi onları doyurmuşdu. Bu cürəliğ ilə bu iki sevgilisi o günü axşamı gecə və gecəni səhər elədilər. Nəhayət, Şah İsmayıl səhər tez durub Pəri yuxudakən onun üzündən öpüb qıdıqlaya-qıdıqlaya onu yuxudan oyatmağa başladı. Pəri birdən-birə yuxudan oyanıb gözünü açan kimi Şah İsmayılı bərk qucaqlayıb öpdi. Bir qədər qol-boyun olandan sonra ağız almaların yeyib və Pəri inəkləri sağıb, yenə də söhbətə başladılar. Şah İsmayıl Pəriyə dedi:

– Bu gün gərəkdir ki, səni buradan aparam. Buna görə hər kim ilə görüşüb halallaşacaqsan, günortaya kimi halallaş.

İndi Pəri bütün qohum-qəbilə ilə və ata və anası ilə xudahafiz edib Şah İsmayılın yanına gəldi. Şah İsmayıl ona at yəhərləyib və Pəriyə bir dəst kişi paltarı geyindirib və hər ikisi ata minib fourən o diyardan yola düşdülər. Gecə-gündüz çapırdılar. Hər yanı ki, qızılbaş qoşunu tutub və almışdı, bütün əmniyyət və aramlıq içində idi. Amma keçmiş zamanlarda yollar, şəhərlər və kəndlər bu cürə aram degil idi. Bəlkə hər yanda qarət olmaq və baş kə-

silmaq işi xəlq üçün böyük bir qorxu və vəhşətli bir xətər idi. Amma Şah İsmayılın şücaət ilə qılığ vurması və bütün tərəfli insanların ədalət qurmaq və insaf ilə hakimiyyət yaratmaq uğrunda candan keçmə çalışması bu aramlığı və bu əmniyyəti vücuda gətirmişdi.

İki sevgili çöllərin dərələr və təpələri gecə-gündüzə salıb at qovurdular. Ancaq bir zaman yollardan çapandan sonra özlərini Bağdad şəhərinə yetirdilər. Vəli Gülzar ilə Ərəbdən başqa bir kəs bu işdən bir şey bilmirdilər. Şah İsmayıl ilə Pəri qəsrin qabağında atlarından düşüb qəsrə girən zaman qəravullar nizələrinin ucların bir-birinə yapışdırıb onların sinələrinə aldılar. Şah İsmayıl fourən öz üzügün qəravullara göstərən kimi qəravullar təzim edib yol verdilər.

Şah İsmayıl və Pəri qəsrə girib istirahətə başladılar. Bir qədərdən sonra Gülzar ilə Ərəb şikardan qayıdıb, qəsrə girib və gözləri Şah İsmayıl ilə Pəriyə düşən kimi hər ikisi də birdən-birə Pərinin... (2 səh. çatmır)

## TARİXİ 916-da XORASANIN ALINMASI

Şah İsmayıl Bağdad şəhərində üç sevgilisi ilə şad yaşamağa məşğul olursa da, ancaq məmləkəti gözəl idarə eləmək üçün və qiyam edən kəndçilər və işçilərin haqq sözlərinə və haqq istədiklərinə yaxşı yetişmək üçün bütün malikləri və hampaları məcbur elədi ki, onların haqqların çox ehtiram ilə versinlər. Buna görə maliklər və bəzi azaraq sərmayədarlar da naçar qalıb şahdan çıxan fərmana itaət edirdilər. Amma mülk və sərmayə xisləti onların yenə də insaf və haqq ilə rəftar eləməkdən mane olurdu və onlar

naçar olduqları halda yenə də zülm və sitəmdən əl götürmürdülər. Buna görə Şah İsmayıl əsla onlar ilə ürəkdən düşmək və vicdani cəhətdən zidd idi. Vəli bunla belə Şah İsmayıl yenə də millətin səadəti uğrunda, bilik və savad ögrəmlə yolunda və maliklərin əzilib zülmdən əl götürmələri üçün var gücü ilə çalışırdı. Bəs demək olar ki, millət bir az xoş günə çıxıb rahat yaşayırdılar. Hər kəs və hər kəndçi ya işçi bir məmurun və ya malik və ya sərmayədarın əlindən Şah İsmayıla şikayət aparırdı, fourən işə yetişib gunahı olan maliki və ya sərmayədarı mücəzat edirdi və xəlqin həqqin özlərinə qaytarırdı. Və bir də əgər malik və ya bir sərmayədar iki və ya üç dəfə günahlı tanılsaydı daha mülki və ya sərmayəsi xəlqin ortasında paylanıb dağılırdı. Amma bu zaman Azərbaycanda Nəbi adında bir qeyrətli kişi var idi və o deyirdi ki,  maliklərin və sərmayədarların zülmündən və sitəmindən qurtulmaq fəqət buna bağlıdır ki, onların ömrünə gərək son qoyulsun. Amma onun sözünə çox adam baxmırdı. Ancaq bir az iddə onun tərəfdarı idi. Vəli zaman dolandıqca və məzlum kəndçilər və yorğun işçilər maliklərdən zülm və sitəm gördükcə və habelə onların yalan vədələrin xilaf görən kimi əfsus edirdilər ki, niyə aldanan zalimə bel bağladılar. Vəli son pəşimanlıq bəhrə bitirmirdi. Məgər bu ki yenə də qeyrətə gəlib qiyam edəydilər.

Nəbinin başı məzlum insanlar ilə dolu idi. Və hər kəs ki, zülm və sitəm əlindən cana gəlirdi. Fourən öz yerindən qaçıb Nəbi olan diyarə yollanrdı. Amma Nəbi hər tərəfdən düşmənlərin ortasına düşüb iddəsinin az olduğuna görə diyarbə-diyar qaçmaq düşürdü. Bu keşməkeş hər tərəfdən ouc verdigi halda yenə də çoxları qabağa gəlmirdilər və bir tərəfdən də görürdülər ki, cavan Şah İsmayıl özü zalimlərilə düşmənə ziddir.

Nəhayət, Şah İsmayıl hələ təzə ədalətə başlamışdı ki,

və təzə-təzə istirdi ki, malikləri və sərmayədarları aradan aparsın ki, Xorasan tərəfində hökumət edən Məhəmməd xan və Yaşibək xan bəzi şəhərləri almaq üçün baş qovzadı. Buna görə lazım idi ki, Şah İsmayıl Məhəmməd xanın qabağın almaq üçün Xorasan diyarına hərəkət eləsin. İndi günü-gündən Məhəmməd xandan gələn şikayətlər və onun yeriş xəbəri Şah İsmayılın qulağına yetişdikcə Şah İsmayıl onu da aradan aparmaq üçün bir gün bütün millətə və qoşuna elan elədi ki, görək təzə düşmən vuruşmaq üçün özlərin hazır eləsinlər. Bu idi ki, cəng üçün tədarüklər görülüb və hamı özünü vətən yolunda və namus uğrunda vuruşmağa hazır edirdilər.

O zaman belə degildi. Əgər bir məzluma və ya bir hökumət bir millətə iki dəfə zülm və sitəm eləsəydi, məzlum və millət bu dəfə zalimin rişəsin birdəfəlik qazmaq üçün qiyam edərdilər. Və bu yolda hər nə qədər zərər və ölüm də görsəydilər, əfsus etməzdilər. Daha o gün oldu ki, Xorasan tərəfinə hərəkət eləməgə başladılar. Yenə də çöllər, dərələr, təpələr və dağlar dərya-dərya qoşun ilə doldu. Uzaqdan baxanda göz işlədikcə qoşun idi ki, görünürdü. Gecə-gündüz yol gedirdilər. Yollarda onlara yapışan çox idi. Buna görə ged-gedə qoşun çoxalırdı. Nəhayət, bir gün xəbər Xorasan hakimi Məhəmməd xana (Şeybəkxan) yetişdi və bu xəbəri eşidən kimi o da əmr elədi və bütün qoşun özlərin vuruşmağa hazır elədilər. Bu cəngin qərarı Tahirabad məhəllində qoyulmuşdu. Səhər tezdən hər iki tərəf özlərin meydana yetirib, səf çəkib bir-birlərinin üzbəüzündə durub cəng şeypurunun müntəziri olduqlarına görə əlləri qılıclarda dayanmışdılar. Nəhayət, o qədər çəkmədi ki, cəng şeypuru çəkildi və hər iki tərəf bir-birinə qatışıb vurhavura başladılar. Bu cəngdə Şah İsmayıl, Ərəb, Gülzar və bütün qoşun vuruşurdular. Çünki istir-

dilər ki, düşməni birdəfəlik üçün əzib aradan aparsınlar. Bu idi ki, cəng çox amansız və şıdırğı bir cəng idi.

Gülzar və Şah İsmayıl və Ərəb bu cəngdə vuruşurdular. Vəli Pəri Bağdad şəhərində çalmışdı. Çünki o hələ bu işlərə daət eləməmişdi. Və vuruşma işlərin bilməməginə görə o da qılınc vurmaq və qalxan tutmaq və at çapdırmaq ögrənirdi.

Cəng ged-gedə qızışırdı. Səhər tezdən ta axşama qədər vuruşandan sonra heç bir tərəfdən zəfər olmadığına görə hər tərəf öz yerinə qayıdıb aralaşdılar. Gələn günün səhəri yenə də cəngə başladılar. Və o gündən heç bir tərəfdən xəbər olmadı. Nəhayət, bir müddət belə vuruşandan sonra bir gün Məhəmməd xanın qoşunu dalı oturub sındılar və buna görə qızılbaş qoşunu onları birdəfəlik aradan aparmaq üçün fişaha salıb qovmağa başladılar. Qızılbaş qoşunu az müddətdə Xorasan qoşunun basıb əzdi. Və bütün hər tərəfi alandan sonra Məhəmməd xanın özün də əsir tutub Şah İsmayılın yanına gətirdilər. Şah İsmayıl əvvəl onun boy-buxununa baxıb və cavanlığına nəzər salıb gördü ki, çox igit bir pəhləvandır. Qolları yoğun və bədəni canlı və sinəsi enli, boyu uca və habelə gözəl bir kişidir. Buna görə könlündən keçdi ki, onu bağışlasın və ya özünə sərdar eləsin. Vəli xəlqin ondan şikayətin eşidən kimi qəzəbə gəlib əmr elədi ki, onun başın cəllad vursun. Cəllad fourən hazır olub döşünə ağ salıb və xəncəri əlinə alıb gözləri qızmış və ağzı köpüklənmiş və habelə qanı qaralmış bir halda onun başını dalı çəkib və iki barmaqların onun burnun bacalarına soxub, dalı qoparıb boğazı tir duran kimi xəncəri elə soxdu ki, qırmızı qan fəvvarə kimi fışqırdı. Bir göz yumum zamanda Məhəmməd xanın başı yerdə fəqət bir kəlmə danışdı ki, ey Şah İsmayıl qorx bu ruzigardan ki...

Sonra Məhəmməd xanın qanlı bədənin dərisin soyub Şah İsmayılın əmrinə görə onun dərisinə saman doldurub osmanlı sultanın yanına yolladılar. Osman padşahı Sultan Səlim bu ittifaqdan çox hirslənib Şah İsmayılın günü-gündən güclənib qüdrət tapmağından qorxuya düşdügi üçün onu əzib aradan aparmaq fikrinə düşdü.

İndi Şah İsmayılın hakimiyyəti altında olan ölkələr görək nə qədərdir:

Qafqazda olan şəhərlər: Məsələn, Şirvan, Nəxçəvan, Gəncə, Bakı, Dərbənd, Ağdaş, Ağstafa, Sərdarabad, İrəvan, Aleksandrapol, Tiflis, Şamaxı, Quba və Qəməri.

Batum, Mərənd, Xoy, Səlmas, Sərab, Maku, Zəncan və bütün Azərbaycanın şəhərləri ki, o zaman Təbriz, Ərdəbil, Qəzvin, Marağa, Ənzəli və Astara böyük idilər. Bu tərəfdən də Fars Lehistan, Sisyan, İsfahan, Xorasan, Gilan, Mazandaran, Kürdüstan, Şiraz, Kermanşahlar, Ərəbistan və çoxlu bu cürə şəhərlər. Ancaq o zaman Tehran bir balaca kənd idi ki, hamı yerdən adsız və itkin idi. İndiki şəhərin aşağılarında Həzrət Əbdüləzim dərvazəsində olan xəndəklərin dövrələrində olardı.

Nəhayət, Şah İsmayıl günü-gündən bu böyüklükdə ölkələrə hökumət edib, gələcək üçün çox güclənirdi.

Ancaq Osmanlı sultanı Şah İsmayılın fikrindən qırağ deyildi. Şah İsmayıl bütün Bağdad və Fars İranın hər tərəfin əmniyyət içində saxlayıb və xanluq şadlıq ilə ömür keçirirdi.

## TƏBRİZ ŞƏHƏRİ

Təbriz şəhəri əsasən, tarixdə böyük bir yer tutur. O

zaman heç bir şəhər, hətta Şirvan, Bağdad, İsfahan, Şiraz və ya Bakı, Gəncə o böyükliqda və gözəllikdə və alverdə Təbriz şəhərinə çata bilməzdilər. Buna görə Şah İsmayıl Səfəvi, Təbriz şəhərin hamudan artıq sevdi.

Təbriz şəhəri məxsusən Əmir Teymur zamanı o əmirin dəsturuna görə böyüyüb əzəmət tapdı və buna görə, demək olar ki, Yaxın Xavər ölkələrindən birinci və gözəl şəhər idi. O zaman Təbriz şəhərinin cəmiyyəti bir milyon səkkiz yüz min idi. İndi Şah İsmayıl yenə də Təbriz şəhərində yaşayır və şadlıq ilə ömür sürürdü.

Günlər, aylar və illər dolanıb, insanları qocaldırdı. Amma Şah İsmayıl günü əziz oxuyanlar Təbriz şəhərinin Əmir Teymur zamanında əzəmətli olan tarixinə əlaqə olsa yaxşıdır ki, dünyanı dolanan Vunez əhli Marqapolvin tarixnaməsinə ki, ağayi-Məhəmmədluyi-Abbasi farscaya çevirib, oxuyuruq.

Gündən cavanlanıb bütün qəm və qüssənin dədəsin yandırırdı.

Nəhayət, günlərdən bir gün şadlıq məclisi qurub və şadlığa başladılar. Məclis çox böyük və gözəl bir məclis idi. Cavan-cavan saqilər əllərində şərab piyalələri məclisi dolanıb, qonaqlara şərab verirdilər. Alagöz, qaraqaş, incəbel və xərmən telli gözəllər də oxumağa və çalıb-oynamağa məşğul idilər. Qah-qah gülmək səsi və oynayanarın ayaq döyməsi və oxuyanların bülbül kimi cəh-cəh vurması, xumar gözlərin süzməsi məclisi behişt bağına döndərmişdi. Məclis qızışdıqca, badə badə dalıyca içilib gözlər qançanağı kimi qızışırdılar. Bu mouqə bir gözəl qız Şah İsmayılın qabağında təzim edib, icazə alan kimi sazı götürüb görək nə söylədi:

Yaşasın dünyada bizim elləri,
Ögrənsin bülbüllər bizim dilləri,
Bu gözəl ölkənin qızıl gülləri,

Xoş keçsin ayları, uzun illəri.

Bizim ellərdir ki, verib əl-ələ,
Düşmənlər canına salıb vəlvələ,
Qardaşlıq dəmidir bu çağdan belə,
Ucalsın ucaya bizim elləri.

Qurulsun hər zaman belə şadlıqlar,
Olsun dostluqlar, gedsin yadlıqlar,
Olsun azadlıqlar, həm abadlıqlar,
Yetişsin hər vara bizim elləri.

Eşq olsun hər zaman xəlqin içində,
Böyük fabriklərdə, bolluq biçində,
Ərəbdə, İranda, Moğalda, Çində,
Şad olsun onlarla bizim elləri.

Ortadan gedilsin kin və ədavət,
Ədavət yerinə olsun sədaqət,
Düzgün bir məhəbbət, doğru ədalət,
Ortasına ala bizim elləri.

Ayrılmasın ellər biri-birindən,
Ayrılarsa, əzər onları düşmən.
Ey mənim dərdimi dərindən bilən,
Birlikdə unutma bizim elləri.

Bu gözəl qız oxuduqca bütün məclis əhli həvəsə gəlib şadlıqlar edirdilər. Məclis, doğrusu, bir gözəl və ürəkaçan yer olmuşdu. Kimisi oynayırdı kim isə oxuyurdu. Ancaq heç kim nəzakətdən və ədəbdən qıraq olmurdu.

Şah İsmayıl öz gözəl sevgililəri ilə bir yerdə oturub,

gülüb-danışarsa da, hərdəm halı pozulan kimi olurdu. Vəli zahirdə bir söz demirdi. Daha bir qədər gülüb və şadlıq edəndən sonra Şah İsmayıl yenə də qəmli və qüssəli görünürdü. Amma bir kəsə bir söz demirdi. Onun qəmli və qüssəli olmağının əsl səbəbi bu idi ki, şadlıq edəndə həmişə yadına salırdı ki, aya onun milləti və ölkəsi də belə bir şadlıqdadır? Ya bu ki, fəqət odur ki, saymazyana özünü şadlığa aldadıb, buna görə bu cürə fikirlərə düşəndə ürəkdən qəmli olub və saralan kimi olurdu.

Şah İsmayıl çox qeyrətli və şərəfli bir kişi idi. İndiyə kimi onun tək xalqın halına yanan və özünü çox da yuxarı çəkib cah və məqama bel bağlamayan şah çox azaraq gözə vurur. O, şahlıq işlərindən qabaq və habelə cəlal və şövkətə əlaqə göstərmədən qabaq xalqın düzgün yola çəkilməsinin yolunda və onların birlikdə səadətə və səmimiyyətə çatmaqlarının uğrunda çalışırdı. Doğrusu, çox böyük məsələdir ki, bir insan şah olduğu halda şahlığa çox da bel bağlamayıb, bəlkə özünü xəlqin səadəti və birligi uğrunda çətin və zəhmətlər salsın.

Şah İsmayıl bir belə igit və bir belə şah və bir belə düşünən insan idi. Toxun acdan, varlının yoxsuldan və habelə şadın qəmlidən və paltarlının çılpaqdan xəbəri çox çətin olar. Yəni tox acın halındlan o cürə ki, ac qala bilər, bilməz.

Amma Şah İsmayıl bu məsələlərin hamusın bilirdi və şah olmağı təkcə quru-quru fərman vermək yalançı iftixar satmaq, zülm və sitəm ilə hökumət sürmək bilmirdi. Bəlkə şahlığı buna görə qəbul eləmişdi ki, xalqa ata və ölkəyə bir bağban və habelə məzlumların dadına yetən olsun və əlhəq ki, öz əsrinə görə bu yolda qeyrət və şərafət ilə irəli gedirdi. Daha məclis yavaş-yavaş qurtarırdı. Şah İsmayıl ilə sevgililəri də yorulduqlarına görə öz məxsus

yerlərinə gedib, istirahət etmək istəyirdilər. Amma Şah İsmayıl heç vəqt doyunca istirahət etmirdi, heç bir şadlıqda doyunca şadlıq eləmirdi. Çünki yazıq insanların məzlumluqlarının fikri və yağı düşmənlərin ölkəyə hücum gətirmə xəyalı və maliklərin kəndçilərə və işçilərə zülm və sitəm eləməkləri onu cavan halında qocaldırdı.

## TƏHMASİB MİRZƏ

Günlər, aylar, illər dolanıb, beləxərə tarix 920-ci ilə yetişdi. Şah İsmayıl bu günlər çox uşaq arzusu edirdi. Çünki indiyə qədər ömrünü fəqət cəng və vuruşmalarda keçirdib, uşaq fikrində olmamışdı. Vəli indi ürəkdən arzu edirdi ki, bir gözəl oğlu olaydı. Bu zaman Şah İsmayılın düz igirmi səkkiz yaşı var idi. Vəli bu igirmi səkkiz ili heç bir gün üzü və şadlıq dövranı görməmişdi. Çünki atası düşmən əlində ölüb və özü neçə müddət zindanda və qorxulu cənglərdə olmuşdu. Nəhayət, günlərdən bir gün Şah İsmayıl uşaq arzusunda qəmli oturduğu zaman qəsirdə olan arvadlardan biri nəfəs vura-vura özün onun otağına yetirib, təzim edəndən sonra dili tutar-tutmaz Şah İsmayıla dedi:

– Şah və millət sağ olsun! Sizə Allah bir oğlan uşağı mərhəmət buyurub.

Arvad bu sözləri sevinə-sevinə deyib, şahın əlin öpdü.

Şah İsmayıl bu xəbəri eşidən kimi az qaldı ki, arvadın ağzından öpsün. Vəli özünü saxlaşdırıb, əlin cibinə salıb ona bir böyük kisə qızıl verdi və arvadı yola saldı. Bir azdan sonra Şah İsmayıl arzusunda olduğu uşağın başı üstə gəlib onun üzündən öpdü və Gülzarın halın soruşdu.

Şah İsmayılın qüssəsi bir az azaldı və intizarı ələ gəldi. Buna görə millətin və məmləkətin işlərinə və abad ol-

mağına yaxşı yetişməgə başladı. Daha demək olar ki, Şah İsmayılın şadlıq zamanı idi. Neçə gündən sonra uşağa ad qoymaq günü çatdı və Şah İsmayılın əmrinə görə bütün şəhərləri və kəndləri bəzəyib, millət şadlığa başladı və bu yandan da Şah İsmayıl öz qonaqlıq məclisin qurub, kefə başladılar.

Məclis qurulub, saqilər yenə də şərab camların oxuya-oxuya əllərinə alıb, qonaqların qabağında dolanmağa və şərab paylamağa başladılar. Şah İsmayıl ilə sevgililəri – Gülzar, Ərəb, Pəri yuxarı başda oturub və Ərəb ilə Pəri uşağı növbət ilə qucaqlarında saxlayıb, məhəbbət ilə onun üzündən öpürdülər.

İndi badələr içilib kəllələr qızıb və könüllər şad olub, oynayırdılar, oxuyanlar isə işlərinə başladılar. Dəstə-dəstə ləhgi oynayanları qəsrin böyük otağında ayaqlarını şıdırğı yerə dögməgə başladılar. Məclis əhli qızışıb dəstə cəmi oxuyaraq hamılıqca əl vurmağa başladılar. Şur və vəlvələ məclisi götürmüşdü. Şadlığın həddi yox idi. Nəhayət, bir az bu cürə şuluq olandan sonra yenə də bir gözəl oxuyan ortaya gəlib və Şah İsmayılın ortaya gəlib və Şah İsmayılın hüzuruna təzim edib icazə alan kimi sazı götürüb, indi görək nə oxudu.

Əlbəttə, oxuyan qız Şah İsmayılın tapşırdığına görə şerin əvvəlində Təhmasib adın dilə gətirir:

Xoş gəlibsən bu dünyaya Təhmasib!
Sənin dövranında xoş olsun kasib.
Görüm, Allah sənə verməsin asib,
İnşallah, olmağın mübarək olsun!
Mübarək olmağın olsun amadan,
Saxlasın bu millət səni bəladan.
Saxlasın milləti səni yaradan,

İnşallah, olmağın mübarək olsun!

Qədəmin xoş olsun, üzün solmasın,
Cavanlıq bağuva xəzan dolmasın.
Xoşluq ortamızdan uzaq olmasın,
İnşallah, olmağın mübarək olsun!

Böyüyüb olasan millətin yarı,
Atavın yolunu tutasan barı.
Gedəsən hər zaman bu xəlqə sarı,
İnşallah, olmağın mübarək olsun!

Şad olsun atavı, şad olsun anan,
Şad olsun milləti canla saxlayan,
Görüm ki, olasan ədalət quran,
İnşallah, olmağın mübarək olsun!

O oxuduqca hamı şad olub, qah-qah gülürdülər və Şah İsmayıl da əndazədən artıq şad olub, hərdən uşağın üzündən öpüb, yenə də Pəriyə və ya Ərəbə verirdi. Bir azdan sonra uşağı əldən-ələ alıb və hamı onun üzündən öpüb, adqoyma başladı.

Hər kəs bir ad dedi. Biri dedi Əhməd, biri Xanoğlan, biri Adıgözəl, biri Çəngizxan, biri Həsən, Əli, Qorxmaz və habelə bu cürə adlar dedilər. Vəli Şah İsmayıl onların heç birin bəyənməyib, birdən-birə dedi:

– Onun adı Təhmasib Mirzə olsun.

Daha məclis əhli bu ada razı olub, hamı yenə də şadlığa başladılar. Amma hənuz şadlıq məclisi başa çatmamışdı ki, qəravullardan biri birbaşa Şah İsmayılın hüzuruna gəlib, baş əgəndən sonra onun qulağına dedi:

– Qurban, bir nəfər səfir Osmanlı məmləkətindən gəlib və siz ilə bir sözü var.

Şah İsmayıl bunu eşidən kimi tez yerindən qalxıb, məclisin pozulmağın əmr elədi və elə ki, məclis boşaldı, şahın dəsturuna görə səfir içəri girib, Şah İsmayıla fəqət bir az ehtiram elədi.

Şah İsmayıl ehtiram sevən və ya çox da özünü yuxarı tutan bir şah degil idi. Amma bu səfirin cəsarətli və igit olduğu onun təccübünə bais oldu.

Səfir türk idi. Türkiyədən Sultan Səlimdən namə gətirmişdi. Şah İsmayıl naməni onun əlindən alıb, bir az onun boy-buxununa tamaşa edəndən sonra naməni oxumağa başladı. Namədə yazılmışdı: «İsmayıl Xətayi! Mən – Sultan Səlim, böyük Osmanlı imperatoru ki, həmişə çalışmışam biz türklərin ortasında birlik və qardaşlıq olsun, indi görürəm ki, siz birlik və qardaşlıq yerinə özgələrin qurqusuna baxıb, həmişə ədavət edirsiz. İndi lazım göründü ki, Osmanlı imperatorunun qüdrət və gücün görəsiz və biləsiz ki, ədavət və kin yaxşı səmərə verməz».

Şah İsmayıl bilirdi ki, Osmanlı imperatoru dünyada birinci güclü və qüdrətli dövlət idi və habelə indiyə kimi nə qədər yerlər və məmləkətlər alıb və hətta İran eliyə bilməyib bir az müddət onların qabağında dayana bilə.

Şah İsmayıl bunları bilirdi və yəqini var idi ki, Osmanlı dövləti ilə bacara bilməyəcək. Bunla belə daha dayanmaq yeri degil idi. Çünki Sultan Səlim namədə yazmışdı ki, Azərbaycana həmlə edəcək. Sultan Səlim fəqət bu məsələdən acıqlı olmuşdu ki, Şah İsmayıl Məhəmməd xanın dərisinə saman doldurub, onun yanına yollamışdı və Şah İsmayılın bu rəftarı pis idi. Çünki indiyə kimi heç bir düşmən ilə belə bir rəftar eləməmişdi. Buna görə görünürdü ki, onun bu işi də özgələrin qurğusu idi. Yəni onlar ki, qorxurdular türklər birləşib dünyanı alsınlar.

Şah İsmayıl yaxşı bilirdi ki, Osmanlı imperatoru ilə

vuruşmaq və tərəf olmaq düz buna bənzər ki, bir ahu bir şir ilə tərəf ola. Çünki Osmanlı imperatoru o zaman böyük və qüdrətli bir dövlət idi və hər yanı istəsəydilər, fourən alardılar. Doğrusu, bu idi ki, türk əsgəri dünyada məşhur və adlı bir əsgər idi.

Bunları bilə-bilə çox çətin inanmaq olur ki, Şah İsmayıl Məhəmməd xanın dərisinə saman doldurub və Sultan Səlimə yollayıb. Onları cəngə və vuruşmağa dəvət edib, ta öz dalı oturmağına və ölkənin aclıq və viranəliq içində yaşamağına razı ola. Bəs demək olar ki, Şah İsmayılın dərbasında və ətrafında xain kimsələr də var imiş və çalışırmışlar ki, Azərbaycan ilə Türkiyə milləti həmişə bir-biri ilə ayrı düşsünlər.

Şah İsmayıl özü də qorxmaz və igit olduğu üçün, namənin cavabından yazdı ki, hər cür ki, sultanın meylidir, rəftar olunsun. Yəni, demək olar ki, Şah İsmayıl cəngə hazır oldu. Çünki Sultan Səlimin meyli indi bu idi ki, cəng olunsun.

Səfir namənin cavabın alıb, qəsrdən çıxıb, atına minib, fourən Türkiyə ölkəsinə sarı yollandı.

Şah İsmayıl fikir içində qərq idi ki, indi bu güclü və qüdrətli imperator ilə bu cürə gərək vuruşsun. Doğrusu, ömrünün əvvəlindən indiyə kimi cəng və vuruşma idi. İndi də qüdrətli bir dövlət ilə cəng eləməgə məcbur idi.

## ÇALDIRAN VURUŞMASI

Tarix 920-ci ilin sonları idi ki, Xoy şəhərinin yaxınlıqlarında Çaldıran məhəllində iki ordu bütün düzəngahları tutub, gög üzün bulutlar tutan kimi, onlar da yer üzündə çadırlar qurub, hər yanı bürümüşdülər. Hər iki tərəf çalışmaqda idi. Çünki qərar idi ki, gələn günün dan yelində cəngə hazır olsunlar.

Bu cəng Şah İsmayılın son cəngi idi. Çünki bu cəngdən sonra ömrü ona macal vermədi ki, bir də cəng eləsin.

Osmanlı qoşunu hər cürə yaraq və yasaq və habelə odlu silahlar meydana gətirmişdi. Düzdür ki, indiyə kimi Quran ilə vuruşanda bu cürə əsləhə və odyağdıran silahlar meydana gətirməmişdilər, vəli bu dəfə iranlıların touhininin qabağında qüdrət göstərib və onları əzmək üçün var gücləri ilə meydana gəlmişdilər.

Yavaş-yavaş gecə olurdu. Hava əvvəl qaranlıq idi. Vəli bir azdan sonra ay parlaya-parlaya qara bulutların içindən çıxıb parlamağa başladı. Bu gecə bu çöllərdə yatanlar bəlli degil idi ki, sabah bu zaman hansı yanda yatacaqlar. Gecə yarıdan keçib səhərə yaxınlaşırdı. Ged-gedə dan ulduzları çıxıb və sonra batırdılar. Hərdəm dan yeli əsib, tutulan ürəkləri açırsa da, ancaq ana-bacısının gözü yolda qalanların yenə də qəlbi tutqun və özü nigəran idi. Daha səhər olub hənuz günəş uca dağların başın qızartmışdı ki, hər iki tərəf dərya-dərya çadırlarından çıxıb və fourən atlarına minib özlərin meydana yetirdilər.

Şeypurlar çəkilib və təbillər dögülüb, qalxanlar qınlarından çıxıb, əllərdə müntəzir halda saxlanılmışdı. Fəqət bir fərman lazım idi. Bu böyük və heykəlli karxana işə düşüb, səadət, xoşbəxtliq yerinə fəlakət, yazıqlıq və göz yaşı törətsin. Bir o qədər çəkmədi ki, son şeypur çalı-

nıb, səsi hər yanı bürüyən kimi iti və lüt qılınclar və ağır əmudlar gögdə oynamağa başladılar. Bir göz yumum zamanda iki qoşun hirsli və acıqlı halda bir-birlərinə qatışıb vuruşmağa can basırdılar.

Çaldıran çölləri uzaqdan tufan edən dərya və od yağdıran tufanlara dönmüşdü. Hər tərəf baxırdın insan insan qanına susamışdı. Hər bir dəqiqədə cavan-cavan canlar və başlar idi ki, yağış kimi yerə tökülürdü. Quru qumlar və illər boyu su üzü görmüyən şurazarlar indi qızıl və pak qanlar ilə suvarılırdı. Ancaq bu iş ixtiyari degil idi, bəlkə icbari idi və bütün bu cənglərin illətin gərəkdir o zamanın iqtisadi yaşayışında axtarmaq. Hər halda iki tərəf insanlıq xasiyyətin buraxıb, yırıtıcı heyvanlar kimi qızmışdılar.

Şah İsmayıl, Ərəb, Gülzar, Pəri və bütün qızılbaşlar və hamı vətən yolunda candan keçənlər var gücləri ilə vuruşurdular. Vəli zahirdə göründügünə görə qızılbaş qoşunundan tələf olan çox idi. Çünki türklərin silahları və cəng görmüş qoşunu qızılbaş qoşununa güc gəlirdilər. Buna görə qızılbaş qoşunu hər nə inanmadısa da, ancaq görürdülər ki, türk qoşunu Bağdad Ərəb və ayrı qoşuna bənzəməz və onların fəth eləməgi daha doğrudur. Ancaq yenə də ruhiyyələrin utuzmayıb vətən və şərəf uğrunda vuruşurdular.

Şah İsmayıl türk qoşununun güclü və habelə odlu silahların fourən görüb və öz zəif olduqların fourən başa düşdü. Buna görə onlardan sınmamaq üçün fourən dəstur verdi ki, Ərəb bir ləşgər tazə nəfəs qoşun ilə düşmənin dal tərəfindən həmlə gətirib, onların başın qatsın. Bu idi ki, Ərəb fourən bir ləşkər qoşun ilə özün ağların dalına verib, birdən-birə həmləyə başladı. Amma onlar hənuz Türkiyə qoşununa yaxşı yaxınlaşmamışdılar ki, türk qoşunundan bir ayrı ləşkər odlu silahlar ilə onların üstünə hücum gətirib vuruşmağa başladılar.

Ərəb Şah İsmayıldan fərman alıb bir ləşkər ilə onlara həmlə eləmək xəyalında olan kimi türklərin böyügi bu işi fourən başa düşüb, tez dəstur verdi ki, tazə nəfəs qoşun ki, bu cürə mouqədən ötrü amadə dayanmışdılar ki, Ərəbin başında olan qoşunu ortaya salsınlar. İndi bu idi ki, o qoşun Ərəbin başında olan qoşunu ortaya salıb, təslim olana qədər vuruşmağa başlamışdılar.

Şah İsmayıl işi bu cürə görən kimi başa düşdü ki, türklərin nəqşəsi çox böyükdür və bu asanlıq ilə onlar ilə tərəf olmaq olmaz. İndi günəş günortadan keçib yavaş-yavaş ikindiyə yaxınlaşmışdı. Hər tərəf qanlı nəşlər ilə dolu idi və hər tərəfdən qan su yerinə axırdı. Nəhayət, türklərin böyük sərdarı bir qədər rəhmli və düşünən sərdar idi. O, indiyə qədər çox cənglər görmüşdü və bilirdi ki, düşməni nə cürə təslim edərlər. Buna görə bir az fişar gətirib qızılbaşları incidəndən sonra çox da qan tökülməmək üçün birdən-birə əmr elədi ki, aralaşma şeypuru çalınsın. Buna görə aralaşma şeypuru çalınan kimi hər iki tərəf cəngdən əl götürüb öz yerlərinə qayıtdılar. Şah İsmayıl bu işdən çox təəccüb elədi. Çünki türk sərdarı öz könlü ilə aralaşma şeypuru çəkdirib, qoşunu öz yerlərinə qaytardı. Amma o qədər çəkmədi ki, türk sərdarının tərəfindən bir namə gəldi. Namədə yazılmışdı ki: «Şah İsmayıl Xətai! Sizi cəngdən əl götürməgə dəvət edib və biz ilə qardaş olmağı sizdən təvəqqe edirik. Yoxsa sizi əzib aradan aparmaq türk imperatoru üçün asan bir şeydir».

Şah İsmayıl naməni oxuyub, bir az fikir elədi ki, bu, doğrudur ki, qızılbaş qoşunu türk qoşunu ilə hərif degil və hətta ondan odlu silah sahibi və cəng görmüş və qədimi qoşundurlar. Amma bu tərəfdən də təslim olmaq onun üçün ölümdən pis idi. Buna görə nigəran bir halda xəyalət edirdi.

Şah İsmayıl bir qədər fikir edəndən sonra öz-özünə dedi:

– Yaxşıdır ki, onlar ilə qərar bağlayıb, bir müddət cəng olmasın, ta bəlkə özlərin bərkidəndən sonra onlar ilə vuruşsunlar. Amma bu fikri öz vəzirlərinə deyən kimi onlar dedilər ki, yaxşıdır ki, axıra kimi vuruşsunlar. Bu idi ki, namənin cavabın öz könlünün xilafına olaraq belə yazdı: «Ölənə kimi hazırıq əlizdən gələni əsirgəməyüz!»

Bu namə türk sərdarının əlinə yetişib, oxuyan kimi əmr elədi ki, qoşun fourən amadə olsun. Buna görə qoşun bir göz ymum zamanda özün meydana yetrib, cəng şeypurun çalmağa başladılar. Bu işdən Şah İsmayıl təəccüb edib və qoşun əhli də bir az qorxuya düşdülər. Çünki birinci cəngdə düşmənin gücün görüb yəqin tapmışdılar ki, türklərin hərifi ola bilməyəcəklər. Nəhayət, Şah İsmayıl fourən fərman verib, qoşun özün cəng meydanında düşmənin qabağına yetirib dayandılar. Daha o qədər çəkmədi ki, yenə də vurhavur işə düşdü. Bu dəfə Şah İsmayıl və bütün qızılbaş qoşunu candankeçmə və bərk vuruşurdular. Çünki bu cəng onların fəth və ya təslim olmaqlarına bais olurdu.

Nəhayət, cəng ged-gedə şiddət tapırdı. Hər iki tərəf isti və lüt qılınclar ilə bir-birlərinin canına düşüb, kəsib-biçirdilər. Ərəbin başında olan qoşun dünən düşmənin mühasirəsində az qalmışdı ki, məhv olub aradan gedsin. Vəli şeypur çəkilib, aramlıq olan kimi mühasirədən qurtulub özlərinə gəlmişdilər. İndi vəzifələri bu idi ki, özlərin Təbriz şəhərinə yetirib, bütün şəhərləri və kəndləri bərkidib, düşmən qabağında dayanmağa təşviq eləsinlər. Nəhayət, səhər tezdən ta günortaya qədər vuruşma və qantökmə habelə insan insan qanı içməkdən başqa bir şey yox idi.

Qılınclar gögdə oynayıb və əmudlar qalxanlara dəgib taraqqa-turuq edəndə bəzi vəqt türk qoşunun tərəfindən odlu top gülləri gögdə şölə çəkə-çəkə qızılbaşla-

rın arasına düşən kimi, atlar ülküb, üstlərində olanları yerə vururdular.

Qızılbaş qoşunu indiyə kimi bu cürə odlu silah görməmişdilər. Çünki bu cürə silahlar təzə-təzə qayrılıb və fəqət Orupa ölkələrində var idi və çün Türkiyə dövləti orupalı bir dövlət hesab olurdu. Buna görə Orupada olan silahlar orada da var idi.

Qızılbaş qoşunu ged-gedə dalı oturub və meydanı düşmənə buraxırdılar. Amma dalı otura-otura vuruşurdular və bu iş Şah İsmayılın nəqşəsi ilə idi ki, qoşun dalı oturduğu halda heç özün itirmirdilər. Bir azdan sonra çaldıran meydanından uzaqlaşdıran meydanından uzaqlaşdılar və buna görə düşmən qoşunu onları qovmağa başladı.

Şah İsmayıl qeyrətli və şərəfli kişi idi və indiyə kimi düşmənə dal döndərməmişdi. Buna görə bu dalı oturmaqdan əndazədən artıq qəmli və qüssəsinin çoxluğundan üzündə damcı-damcı soyuq tərlər mıncıqlanmışdı. Şah İsmayıl yalı otura-otura Gülzara və Pəriyə dedi, otura-otura özlərin fourən Ərəbə yetirib, şəhərin qırağında qoşunu müntəzir halda saxlasınlar. Buna görə Gülzar və Pəri fourən qoşundan ayrılıb, Təbrizə tərəf yollandılar. Bunlar yollananda türk qoşunundan bir neçə nəfər fourən onların dalıca at qovmağa başladılar.

Şah İsmayıl vuruşa-vuruşa dalı otururdu. Amma birdən-birə gözü o neçə nəfərin Gülzar ilə Pərinin dalıca düşməginə düşən kimi özün onlara yetirib qabaqların kəsdi. Onların biri Şah İsmayılın başın qatmaq üçün əlində olan nizəni ona tullayan kimi Şah İsmayıl qalxanı qabağa verib, nizə qalxana dəgib dalı sıçradı. Sonra həman şəxs ta özünə gəlincə Şah İsmayıl qılınc ilə onun ürəgindən soxub kürəgindən çıxartdı. O birilər buna belə görən kimi hamusı Şah İsmayılın üstünə yumulan kimi Gülzar və Pəri də qılınc-

ların çəkib həmləyə başladılar. Şah İsmayıl bir əlində əmud və bir əlində qılınc əvvəl dəfədə birinin başından bir əmud vurub və o birinin ürəgindən qılıncı soxub, «ax» deyib atlarından yerə saldı və Gülzar ilə Pəri də o birilərin üstünə cumub vuruşmağa başlamışdılar. Şah İsmayıl onları belə görən kimi fourən özün yetirib, birinin başından və birinin də sinəsindən vurub yerə salan kimi onlara dedi:

– Haydı, dayanmayın!

Onlar götürülüb yollandılar və Şah İsmayıl bir qədər güdüb və gördü ki, daha onların dallarıca gedən yoxdur, buna görə yenə də özün qoşuna yetirib vuruşmağa başladı. Daha bir qədər vuruşandan sonra düşməndən uzaqlanıb Təbrizə sarı yollandılar. Vəli Şah İsmayıl zahirdə özün utuzmasa da, içərisi əlov çəkirdi.

## ANA XATUNDA VURUŞMA

Düşmən qoşunu günü-gündən yerin edib Xoyu, Qırxgiləni, Mərəndi, Sufiyanı və o tərəfdən Urmunu, Makini və habelə Miyandabı, Marağanı aldıqca Təbriz şəhərinə yaxınlaşıb, Təbrizin qırağında Ana-xatun qəsəbəsi ki, o zaman bir böyük və gözəl qəsəbə idi və Azərbaycan ilə Rusiyyənin ticarəti orada çox olub və gələn malların çoxu orada açılardı, onların əlinə düşmüşdü.

İndi Şah İsmayıl və bütün hər yandan gələn və bir yerə yığışan qızılbaşlar Təbrizin Anaxatun qəsəbəsinin yaxınlığında düşmən qoşununun qabağında dayanıb, son dəfə olaraq vuruşmağa hazır olmuşdular. Neçə gün idi ki, İran və İraq və habelə Urdustan və Kürdüstan və Sistan və Xuzistan və Mazandaran və Gilan və Azərbaycan şəhərlərindən və kəndlərindən vətən yolunda Şah İsmayılın

fərmanına görə Təbriz şəhərinə tərəf yollanıb qızılbaş qoşununa daxil olanlar Ana xatun meydanına toplanmışdılar. Nəhayət, qərar idi ki, süt günü, yəni iki gündən sonra cəng başlansın. Bu idi ki, Şah İsmayıl öz xənavadəsin başın yığıb vəsiyyət üçün onlara deyirdi:

– Ey mənim əzizlərim! Əgər bu dəfə düşmən bizi basıb və şəhərimiz düşmən əlinə düşsə, özüzi itirməyin və şayəd mən ölsəm də siz nigəran olmayım. Həmişə çalışın ki, yenə də gələcək üçün ümidvar olub, ölkəyə və millətə nicat verəsiz.

Şah İsmayıl bu sözləri deyəndə Ərəb, Gülzar və Pəri gözlərin yaş ilə doldurub, gizlincə ağlamağa başlamışdılar. Vəli Şah İsmayıl onlara deyirdi ki, ağlamaq fayda verməz, bəlkə ümidvar olmaq və çalışmaq lazımdır.

Şah İsmayıl qəmli olduğu halda özün pozmurdu və Təhmasib Mirzəni qucağına alıb üzündən öpüb deyirdi:

– Oğlum, əgər atan ölsə, ölkəni düşməndən al və millətə nicat ver.

Şah İsmayıl daha vuruşmaq üçün hər cürə lazım olan şeyləri hazır edirdi və demək olar ki, bir az qüdrət tapıb güclənmişdi. Amma türk qoşunu qızılbaş qoşununun gözün qorxudub və ruhiyyələrin bir az öldürmüşdü.

Nəhayət, cəng günü yetişib, hər iki tərəf Anaxatun çöllərində bir-birinin qabağında səf çəkib dayanmışdılar. Ancaq o qədər çəkmədi ki, cəng şeypuru çəkilən kimi hər iki tərəf Anaxatun çöllərində bir-birinin qabağında səf çəkib dayanmışdılar. Ancaq o qədər çəkmədi ki, cəng şeypuru çəkilən kimi hər iki tərəf bir-birlərinə qatışıb vuruşmağa başladılar. Hər iki tərəf yenə də bir-birinə qatışıb, vurhavur işə düşdü. Doğrusu, türk qoşunu çox güclü və qüdrətli idi. Çünki qızılbaş qoşunu o qədər hər tərəfdən qoşun yığıb çoxaldıqları halda yenə də görünürdü ki, türklər basacaqlar. Nəhayət, Anaxatun çölləri bu canlı səhnələrə şahid olub və

insanların su yerinə axan qanına həsrət ilə tamaşa edirdi.

Qoşun vuruşa-vuruşa yenə də dalı oturdu. Ta bu ki, Təbrizin aşağı məhəllələri türklərin əlinə düşdü. Bu mouqə Şah İsmayıl Ərəbə, Gülzara və Pəriyə dedi, onlar dayanmayıb Təbrizdən çıxmaq tədarükün görsünlər. Bu idi ki, onlar fourən özlərin qəsrə yetirib, şəhərdən çıxmaq tədarükün görüb hazır oldular.

Qızılbaşlar ilə türklərin qoşunu vuruşa-vuruşa şəhərin hər yanına girib və beləxərə şəhərin hər tərəfi türklərin əlinə düşdü. Bu həman şəhər idi ki, Şah İsmayıl çox böyük ehtiram və artıq izzət ilə oraya və çox gözəl bir səmimiyyət ilə pişvaz olmuşdu. Amma indi tarixə və zəmanəyə bax ki, onu güc ilə şəhərdən qovub eşigə salırdılar.

O qədər çəkmədi ki, Şah İsmayılın qoşunundan bir qədəri təslim olub və bir qədəri ölüb və bir qədəri də onun başında şəhərdən çıxmağa hazır oldular. Beləliklə, Təbriz şəhəri və Azərbaycanın çox şəhərləri türklərin əlinə düşdü.

## SULTAN SƏLİM

Təbriz və ayrı şəhərlər türklərin əlinə düşən kimi Türkiyənin hakimi Sultan Səlim bütün məmurlara fərman verdi ki, hər nə qədər bacarırlar, Azərbaycan xalqı ilə ki, onlar da türkdürlər, yaxşı rəftar edib, bir qardaşlıq üsul ilə onları özlərinə vəfalı və mehriban eləsinlər. Buna görə Türkiyə qoşunu dünyanın çox yerin alıb və özgə millətlər ilə elədikləri rəftarın əksinə Azərbaycan xalqı ilə çox mehriban və məhəbbətli rəftar edirdi. Çünki türklər özlərinin türk olduqlarına çox iftixar edib və bütün dünya türklərin bir nijaddan bilib və onlara gözəl məhəbbət göstərirdilər və indi ki, Azərbaycan türkləri ilə bir yerdə yaşamağa məşğul

olmuşdular, çox yaxşı bir üsul ilə onlar rəftar edirdilər.

Türkiyə hakimi Sultan Səlim həmişə çalışırdı ki, nə fəqət Azərbaycan və bütün İranda olan türkləri ilə birləşib və bir xanəvadə kimi bir-birlərinə mehriban qardaşlar kimi olsunlar, bəlkə çalışırdı ki, bütün Asiyadan və yaxın Xavərdən tutub Moğolstan, Türküstan, Qəzağıstan, Özbəkistan, Tatar, Ləzgi, Türkmənistan, Qırğızıstan və ayrı türk millətləri və tayfaları ilə birlik salıb, onlar ilə dünya üzündə bir böyük türk milləti yaratsın. Vəli bu iş özgə düşmənlər tərəfindən və habelə türklərin birləşməgindən qorxuya düşənlərin uzaqdan daş atmalarının nəticəsində baş tutmurdu.

Əslən dünyada nə qədər türk var, hamusının rişəsi tarixin əvvəllərindən birdir. Vəli zaman keçdikcə və tarix uzandıqca onlar bir-birlərindən ayrılıb və çox zamanlar bir-birlərindən ayrı yaşamağın nəticəsində tayfa-tayfa və ya bölük-bölük millət təşkil verirlər.

İndi bu məsələni Türkiyə milləti hamudan artıq düşünüb və türk tayfaların və bölük-bölük olmuş millətlərin birləşdirib əvvəlkitək bir xanəvadə kimi bir yerə toplamaq mümkün olmayıbsa da, ancaq onları bir-birlərinə yaxın və qardaş eləmək istirdi.

Dünyada çox az millət var ki, türklərin sayı qədər sayları olsun. Yəni türk milləti hamı millətlərdən çoxdur. Çünki əgər bütün dünyada olan türklərin ki hamusının rişəsi birdir, bir yerə yığıb cəm vuralar, görünər ki, türk milləti Çin ölkələrindən tutub, Rusiyyə, Asiya, Xavər və Şərq, habelə İran və başqa ölkələrdən çıxır. Buna görə türk milləti əgər birləşsə, qurtulmaz və böyük bir millət olar.

Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Türküstan, Monqolustan, Tatar, Ləzgi, Azərbaycan, Qafqaz, Türkiyə millətlərinin rişəsi tarixdə birdir, amma bu ki, indi bir-birlərindən ayrıdırlar, bir mövzudur ki, fəqət, gərək

zamana baxmaqgərəkdir. Yəni gərək görmək ki, zaman dolandıqca onlar bir-birlərindən ayrı düşüb nəticəsi bu olub ki, indi onların ləhcələrində bir az fərq olsun.

Sultan Səlim bu cürə fikir edirdi və ondan sonra gələnlər də o cürə xəyal ediblər.

Türkiyə millətinin tarixi müxtəsər olaraq bu cürdür: Türk milləti əsasən dünyanın birinci böyük və qədimi millətlərindəndir və türklərin çoxunun rişəsi çox-çox qədim zamanlardan birdir. Bunların lap əvvəl köç elədikləri yerlər qədim Çin, yəni Moğolustan və Tatarıstan yerləridir. Əlbəttə türklərin çox olduqlarına görə bütün dünyanın hər tərəfinə dağılıb və hər tayfa bir böyük yerlərdə oturaq ediblər.

Qazaxlar, qırğızlar, özbəklər, tatarlar, ləzgilər, türklər, moğollar, türkiyəlilər, qafqazlılar, azərbaycanlılar, türkmənlər və çoxlu bu cür tayfalar ki, indi hərəsi özü üçün millət təşkil verib, əvvəldə bir tayfadan ayrılıb və onların hamusının dili türk olmuş qədim tarixləri birdir. Amma türkiyəlilərin rişələri haman moğal və qıpçaq və uyğur tayfasındandır ki, Çindən dolana-dolana gəlib, bütün Asiyanı və Orupanı tutub və sonralar çoxlu fəthlər edib şücaətlər göstərəndən sonra Anadolunu və Trabzonu və çoxlu bu cürə yerləri orada oturaq edirlər.

Milad tarixinin 14-cü əsirdə moğal Asiyayi-səcirə həmlə edib və oranı on yerə bölüb və bölünən yerlərin adın ora hakim olan şəxsin adın qoyurdular. Bu zaman türklərin Ərdoğrul adında rəisləri öləndən sonra onun övladlarından biri Osman adında indiki Türkiyə toprağına hakim olub və bu yerin adın Osmaniyyə və sonralar Osmanlı toprağı qoyur. Vəli son zamanlarda Kamal Atatürk cümhuriyyət yaradandan sonra «Osmanlı» adın götürüb, o gözəl diyarın adın bütün türklərin adın diriltmək üçün Türkiyə torpağı qoyub.

## GECƏ-GÜNDÜZ VƏTƏN FİKRİNDƏ

Şah İsmayıl bir gün öz oğlu Təhmasib Mirzəni bir gözəl bağda güllərin qırağında qucağına alıb, üzündən öpə-öpə yavaşca deyirdi:

– Oğlum, Təhmasib, indi qəzadı, əgər ömür mənə macal verməsə, əgər mənə qismət olmasa ki, vətəni və milləti səadətə xoş günə çıxardam, sənə vəsiyyət edirəm ki, bu vəzifəni heç yaddan çıxartmayasan. Sən fəqət buna görə şah olacaqsan ki, millətə qulluq və ölkəyə keşikçi olasan. Yoxsa sən ilə özgə bir kəsin millət yanında vicdan hüzurunda bir fərq olmaz.

Şah İsmayıl bir kişi idi ki, heç vaxt ağlamağı və sızıldayıb məyus olmağı sevməzdi. Vəli bunla belə indi oğlu Təhmasib Mirzəni qucağına basıb, onun üzündən öpə-öpə gözlərindən damcı-damcı odlu yaşlar Təhmasib Mirzənin üzünə axıb həlqələnirdi.

Xəzan fəsli yetişmişdi. Ağacların gög yapraqları daha ged-gedə saralıb qocalmağa üz qoymuşdular. Hər yana baxırdın pozğunluq, saralıb və solmaqdan başqa bir mənzərə görünmürdü.

Təhmasib Mirzə bu mouqə dörd yaşına girmişdi. Hərdəm atasının yaşlı gözlərinə və dodaqlarına gözü düşəndə dodaqların büzmək ürgələnirdi. Balaca Təhmasib Mirzə dörd yaşında olduğu halda yenə də atası ilə həmdərd olmağı və habelə atasına ürəgi yandığını dodaqlarını büzmək ilə nişan verirdi. Şah İsmayıl gecə-gündüz çalışırdı ki, bəlkə yenə də Təbriz şəhərin və ayrı şəhərləri ələ gətirsin. Vəli tərəfin çox güclü və qüdrətli olduğu onun bu arzusunu boğurdu. Nəhayət, çarəsiz bir halda səbr edib dözməkdən başqa bir şey degil idi. Vəli bunla belə yenə də məyus olmayıb, ümid edirdi ki, şayəd bir gün bir iş görə bilsin.

Şah İsmayıl xırda oğlu Təhmasib Mirzəni bağrına basıb, o xəlvət və xəzan olmuş bağda bir az sakit qalandan sonra sazı götürüb, indi görək bu qəmli və qüssəli günlərdə nə söylədi:

Günüm gündən qaralandı,
Vətən məndən aralandı,
Qəlbim yanıb paralandı,
Düşünürsənmi, Təhmasib?!

Bağladım xanlar yolunu,
Xanlarla bəglər qolunu,
Hər yanın sağ və solunu,
Düşünürsənmi, Təhmasib?!

Çalışdım ölkə ucalsın,
Türk milləti qanad çalsın,
Ucalsın türki, ucalsın,
Düşünürsənmi, Təhmasib?!

Türkmənistan, Özbəkistan,
Qırğızıstan, Qazaxıstan,
Tatarıstan, Moğolustan,
Düşünürsənmi, Təhmasib?!

Azərbaycan, Azərbaycan,
Aralanmış bu iki can.
Ləzgi, Qafqaz, Hacıtərxan,
Düşünürsənmi, Təhmasib?!

Ömrüm daha cavan olmaz,
Mənim kimi solan olmaz,

Bu yanandan yaman olmaz,
Düşünürsənmi, Təhmasib?!

Otuz iki yaşım vardı,
Buğum-saqqalım ağardı.
Geniş dünya mənə dardı,
Düşünürsənmi, Təhmasib.

Doğulmuşam Ərdəbildə,
Bunu əzbər elə dildə,
Sülh idi mən olan ildə,
Şad idi hamı, Təhmasib!

Çalış vətənin yolunda,
Dayan sağında, solunda,
Hər nə gücün var qolunda,
Al intiqamı, Təhmasib!

Azərüstan, Azərüstan,
Bizə həmişə gülüstan.
Qırğızıstan, Özbəkistan
Birdir hamısı, Təhmasib!

Şadlığa çox da fəxr etmə,
Fəxri insanlıqda eylə.
Çalış səndən kinə gedə,
Tut gözəl məramı, Təhmasib!

Üzünü daya üzümə,
Qulağını ver sözümə,
Bir diqqətlə bax gözümə,
Düşünürsənmi, Təhmasib?!

Şah İsmayıl xırdaca oğlu Təhmasibi qucaqlayıb bu cürə yanıqlı oxuyurdu və Təhmasib Mirzə də azaraq atasının sözlərin başa düşürdüsə də, ancaq dodaqlarnı büzüb ürəklənmədən başqa bir iş edə bilmirdi. Nəhayət, bir qədər busuymuş və yapraqları tökülmüş bağda oturandan sonra oradan qalxıb, qəsrə gələn zaman qaravaşlardan neçəsi uzaqdan qaça-qaça gəlib, özlərin Şah İsmayıla yetirib tövşəyə-tövşəyə dedilər:

– Millət və şah sağ olsun! Mərhəmət buyurun!

Şah İsmayıl nigəran bir ahlda  tələsə-tələsə soruşdu:

– Nə olub? Tez söyləyin, görüm!

Qaravaşlar hamısı birdən-birə dedilər:

– Xanım Ərəb ilə xanım Pəri hərəsi bir oğlan doğdular.

Şah İsmayıl bu sözü eşidən kimi bütün qəm və qüssəsin yadından çıxardıb sevindigindən qaravaşları qucaqlayıb öpəndən sonra əlin salıb qurşağından neçə kisə qızıl çıxardıb onlara tərəf tulladı. Sonra hamılıqca qəsrə tərəf yola düşüb, bir azdan sonra özlərin qəsrə yetirib içəri girdilər.

Şah İsmayıl bir öpüş uşağın və bir də öpüş də o biri uşağın üzündən götürüb ürəkdən bir ah çəkdi. Pəri və Ərəb onun bu ah çəkməgindən çox narahat olub, soruşdular ki, nə üçün ah çəkdin.

Şah İsmayıl onların cavabında bir söz deməyib oradan eşigə çıxdı. Amma Gülzar ki, Şah İsmayılı bu cürə ah çəkən gördü, az qaldı ki, qüssəsindən ürəgi yerindən oynasın. Çünki Şah İsmayıl Gülzarın lap artıq və əziz istəklisi idi və heç vəqt razı olmazdı ki, bu cavan yaşında qocalan Şah İsmayıl və bu xalqın mehriban və rəhim atası bu cürə qəmli və qüssəli olsun.

Şah İsmayıl ömrünü və gününü bütün şərəf uğrunda və millətin səadəti yolunda və habelə türklərin və bütün

məzlumların birligi uğrunda keçirdib. İndi otuz iki yaşı olduğu halda başının və üzünün qara tükləri ağarmışdı.

Gülzar əvvəl istirdi ki, Şah İsmayıldan qəmli olduğunun illətin soruşsun, vəli bir az fikir edəndən sonra gördü ki, bu işin soruşmağı yoxdur. Çünki bəllidir ki, Şah İsmayıl nə üçün qəmli və nə üçün bu cürə bahar bulutu kimi dolubdur. Amma Gülzarın ürəgi dözə bilmirdi ki, Şah İsmayılı tək qoysun və onu bu qəmli günlərdə təkcə qəm dəryasında buraxsın. Buna görə bir qədər fikir edəndən sonra başmaqların əlinə alıb, mələkə olmaq ifadəsin qırağa qoyub birbaşa Şah İsmayılın dalıyca qaçmağa üz qoydu.

Gülzar hövlündən elə qaçırdı ki, az qalırdı yerə dəgib min parça olsun və uzaqdan baxan qaravaşlar təəccüb ilə deyirdilər:

– Ey vay, məgər nə olub ki, xanımımız bu cür qaçır?

Vəli Gülzar bu sözlərə baxmayaraq əziz sevgilisi Şah İsmayılı tapmaq istəyirdi. Vəli o qədər çəkmədi ki, daldan özün Şah İsmayıla yetirdi. Şah İsmayıl ki, qəmli bir halda fikir eləyə-eləyə çölə tərəf gedirdi. Birdən-birə görüd ki, daldan bir nəfər onun boynun qucaqladı. Dönüb dalı baxan kimi gördü ki, sevgilisi Gülzardı.

Gülzar tövşəyə-tövşəyə pozulmuş başını onun sinəsinə sövkəyib ağlamağa başladı. Şah İsmayıl əlin onun dağılmış saçlarına çəkib və tumarlaya-tumarlaya dedi:

– Əzizim, Gülzar nə olub ki, belə narahat oluban üstümə gəldin?

Amma Gülzar cavab əvəzinə hönkürdəyib qara gözlərindən damcı-damcı yaşlar tökürdü. Şah İsmayıl iki əllərin gətirib onun üzündən tutub başını sinəsi üstən götürüb üzünə baxan kimi gördü ki, Gülzarın rəngi elə saralıb və gözləri baharın bulutları kimi elə dolub ki, məhaldır bu halda ona cavab versin. Çünki cavab verməgə aramlıq la-

zımdır. Şah İsmayıl cavab üçün möhtac deyil idi. Çünki bilirdi ki, onun əziz və mehriban sevgilisi Gülzar fəqət özünün bu cürə qəmli olduğuna görə tutulub, Gülzar yaş ilə dolan gözlərin Şah İsmayılın üzünə tutub həsrət ilə ona baxırdı və beləliklə, ona andırırdı ki, ta son nəfəsə kimi vəfadan əl götürməyəcək. Alım ağruvi belə arvad, Şah İsmayılın dörd oğlu – Təhmasib Mirzə, Əlqas Mirzə, Sam Mirzə, Bəhram Mirzə.

Günlər, aylar, illər dolanıb keçdi, yenə də bir adqoyma yəğvası quruldu. Bu adqoymada üç uşağın adqoyma məclisi idi. Ərəb və Pəri doğandan bir ay sonra Gülzar yenə də bir oğlan doğdu və qərar oldu ki, bu üç oğlana bir məclisdə ad qoysunlar. İndi bu idi ki, üç uşağa bir yerdə adqoyma yəqvası qurulmuşdu. Məclis qurulub bütün dəvət olunan qonaqlar da hazır olub və bir az yeyib-içəndən sonra yenə də çalıb-oxumaq başlandı. Bu dəfə bir qız sazı bağrına basıb, görək o məclisdə nə söylədi:

Başına döndügüm bura gələnlər,
Ürəkdən qüssəni, qəmi silənlər,
Bizə bu şad günü alqış deyənlər,
Ürəgiz şad olsun, canız var olsun!

Bu qara günlərin ağ günü də var,
Həmişə aydınlıq zülməti qırar,
Həqq oradan getməz, bir gün doğular,
Gərək bizdə buna etibar olsun!

Çalın kamançanı, çalın qarmonı,
Gətirək qeyrətə soyumuş qanı,
Şadlıqla dolduraq yeri, havanı,
Ürəgiz şad olsun, canız var olsun!

Doldurub kef ilə içək şərabı,
Məzəsi olunsun ceyran kababı,
Kim ana dilində yaza kitabı,
Ona hörmət olsun, iftixar olsun!

Doldurun camları, dolduqca içək,
Bu qara günləri buraxıb keçək.
Tikanlıq dünyanı olunsun çiçək,
İnsanlıq aləmi gülüzar olsun!

Gülüzar olunsun bütün aləmi,
Gedsin ürəklərdən matəmi, qəmi.
Hamı bir-birinin olsun həmdəmi,
Uçurum obalar bir diyar olsun!

Hamı mənzillərdə belə toy olsun,
Belə şadlıqları daim qoy olsun,
Xaini içizdə qoyun huy olsun,
Matəm sevənləri gərək xar olsun!

Bu gözəl qız oxuduqca məclisdə, qəmli və qıssəli olanlar daha yavaş-yavaş qəmlərin və qüssələrin unudub şadlığa başladılar. Üç uşağı əldən-ələ alıb öpürdülər. Hər kəs bir ad deyirdi. Vəli bunların heç birin Şah İsmayıl və onun sevgililəri bəyənməyib, bir qədər fikir edəndən sonra Şah İsmayıl dedi:

– Onların adı belə olsun: Pərinin oğlu – Sam Mirzə, Gülzarın oğlu – Bəhram Mirzə, Ərəbin oğlu – Əlqas Mirzə.

Bu cürəliğ ilə Şah İsmayılın dörd oğlu oldu və bu cəhətdən qəmi və qüssəni azaldı. Daha məclis əhli ad qoyulandan sonra yenə də şadlığa başlayıb və bu dəfə Şah İsmayıl özü sazı götürüb, indi görək dörd oğlu – Bəhram Mirzə, Əlqas Mirzə, Təhmasib Mirzə eşqində nə oxudu:

Ey gözümün işıqları,
Ölkəmizin uşaqları,
Sulu, dalını, sağları,
Tutun bu xəlqi, saxlayın!

Vətəni abad eləyin,
Ürəkləri şad eləyin,
Əsiri azad eləyin,
Ey gözümün işıqları!

Unudmayız vətənizi,
Daim geyin kəfənizi,
Bilin xidmət edənizi,
Ey gözümün işıqları.

Böyüdügizi görəydim,
Görəydim, sonra öləydim,
Gələcəgizi biləydim,
Ey gözümün işıqları!

Ürəgim dumanlı dağa,
Bənzər bulut yağa-yağa,
Məndən düşməyin uzağa,
Ey gözümün işıqları!

Hamını bir gözlə görün,
Hər işizi düzlə görün,
Vilayəti sözlə görün,
Ey gözümün işıqları!

Xəlqin olun arxadaşı,
Pis gündə yaxşı yoldaşı,

Çoban edin qızılbaşı,
Xəlqə, gözüm işıqları!

Qorxmayın tufandan, yeldən,
Gözləyin qabaqdan, seldən,
Ayrı düşməyiniz eldən,
Ey gözümün işıqları!

Hamuza anadır Gülzar,
Pəri, Ərəb sizə dildar.
Saxlar, mən olmasam bunlar,
Sizi, gözüm işıqları!

Ürəkdən istərəm sizi,
Ölüncə bəslərəm sizi,
Pis gündə səslərəm sizi,
Ey gözümün işıqları!

Yadızdan çıxmasın millət,
Yoxsa sizi tutar zillət.
Verin bu xəlqə hüriyyət,
Ey gözümün işıqları!

Şah İsmayıl oxuya-oxuya oğlunu qızğın bir əlaqə ilə və atalıq məhəbbəti ilə bağrına basıb öpürdü. Dövrədə oturanlar Şah İsmayılın bu cürə gözəl oxumağından və milləti heç zaman yaddan çıxartmamağından və habelə uşaqları hənuz böyüməmiş onlara bu cürə sifariş eləməkdən məclisdə olanlar ürəkdən sevinib və şad olurdular. Çünki Şah İsmayıl dedigi kimi əməl də edirdi və bəzi şahlar kimi yalan-palan söyləmirdi.

Şah İsmayıl bütün məclisdə olanlara öz uşaqlarını

tapşıra-tapşıra öz südəmər uşaqlarına da tapşırırdı ki, milləti yaddan çıxartmasınlar və onlar ilə qardaş və arxadaş kimi yaşasınlar. Beləliklə, bir qədər şadlıq və xoşhallıq olub, yeyib və içəndən sonra məclis əhli yavaş-yavaş icazə alıb məclisdən çıxırdılar. Nəhayət, məclis dağıldı və hamı aradan şad çıxıb yollandı. Vəli bu məclis Şah İsmayılın sonki məclisi və axırıncı şadlığı idi.

## CAVAN TƏHMASİB

Günlər, aylar, illər dolanıb, qışlar, yaylar dönüb, yenə də bir gün bahar fəsli olmuşdu. Bu zaman tarixi 929-cu il idi ki, Təhmasib Mirzənin on yaşı olmuşdu.

Təhmasib Mirzə günü-gündən böyüyüb qılınc və qalxan, əmud və bütün cəngi işlərdə məşq edib ustadlaşırdı. Bunları eliyə-eliyə gecə-gündüz öz dərslərin də əzbər edib günü-gündən bilik və təzə elm ögrənirdi. İndi on yaşında olduğu halda zahirdə baxanda on beş yaşında gözə gəlirdi.

Təhmasib Mirzənin əxlaqı pak və gözəl, boy-buxunu münasib və gözləri parlaq, qaşları qılıncı, alnı açıq, bütün igidlik və cavanlıqda təkmil idi. Təhmasib Mirzə hər cəhətdən öz igit və cavan atası Şah İsmayıla bənzəyirdi. Doğrusu, elə bil ki, Şah İsmayılın uşaqlıq zamanı idi.

Təhmasib Mirzə öz məxsus bağında xırda qardaşların da öz başına yığıb, indidən onlara dərs və tərbiyət verirdi və çox zaman vəhşi heyvanların balaların onların yanına gətirib, oynayırdı ki, onlar indidən bu cürə yırtıcı və qorxulu heyvanlar ilə xoy tapıb qorxudan çıxsınlar. Nəhayət, bu məsum uşaqların ömrü və günü xoş keçib və şadlıq və sevinmək ilə yaşayırdılar. Vəli Təhmasib Mirzə

atasının pozulmuş halını görəndə ürəkdən tutulub birdən-birə özün onun üstünə yıxıb, iki əllərin atasının boynuna həlqə vurub deyirdi:

– Ağacan, nə üçün belə qəmli və qüssəli olubsan? Yoxsa bir yanın ağrıdır?

Şah İsmayıl oğlu Təhmasibin cavabında deyirdi:

– Oğlum, Təhmasib, nə bir yanım ağrıdır və nə də bir gizlin dərdim var. Fəqət qüssəli olmağın buna görədir ki, hənuz düşmənləri aradan apara bilməmişəm və ölkəmiz özgələr əlindədir. Və mən o cürə ki, arzu eləmişdim ki, millətə və vətənə xidmət edəm, hənuz eliyə bilməmişəm. Çünki millət bir iddə müft yeyən və zülm edən maliklər və hampalar əlində əsirdir. Hənuz mənim vədəmə inanıb həqlərinə yetişməgi gözləyirlər.

Şah İsmayıl bu sözləri deyəndə Təhmasib Mirzə atasının qəmli üzünə baxıb bu odlu sözləri onun ağzından eşidəndə çox qüssələnib, ürəgi sıxılırdı. Amma hələ bir söz demirdi. Çünki ağası danışdıqca onun sözlərinə qulaq verirdi.

Şah İsmayıl oğlu Təhmasib Mirzəyə neçə dəfə tapşırmışdı ki, o öləndən sonra millətə verdigi vədələri icraya qoyub türk və ayrı millətləri şad yaşamaqda qabağa aparıb və həmişə çalışsın, ta zülmün və sitəmin binası kökündən qazılsın. İndi yenə də ona tapşırdı ki, əgər ölüm ona macal verməsə ki, öz əhdinə vəfa eləsin. Oğlu Təhmasib Mirzə bu işi gözəlcə yerinə yetirsin. Buna görə Təhmasib Mirzə atasının sözünün müqabilində təzim edib baş endirdi və bu cürəliğ ilə atasına andırdı ki, ta ölüncə onun buyurduqlarına əməl edəcəkdir. Təhmasib Mirzə hərdəm atasının üzünə baxanda onun üzündə ağarmış tükləri görəndə çox qüssələnib və ürəkdən sıxılırdı. Çünki Şah İsmayılın 38-dən artıq yaşı yox idi. Amma indidən üzü solub, gözləri çuxura düşüb, buğ və saqqalı da ağarmışdı. Doğrusu, bu idi ki, Şah İsma-

yıl, ayrı əyyaş və kef çəkən şahların, qeyrətli və şərəfli bir kişi idi və heç vaxt rəiyyət və millət fikrindən və onların səadəti uğrunda çalışmağından əl götürmürdü. Şah İsmayıl 38 yaşında olduğu halda 50 yaşında görünürdü və bu məsələ çox-çox düşünən və anlaqlı insanları qüssələndirmişdi. Şah İsmayıl hənuz ölməmiş bütün sifarişlərin millət və vətən barəsində öz böyük oğlu Təhmasib Mirzəyə ki, 10 yaşı var idi, eləmişdi və Təhmasib Mirzə də çox huşlu və anlaqlı olduğu üçün o sifarişlərin hamısın saxlayırdı.

Şah İsmayıl neçə yol çalışdı ki, çadırların cəngində sınmağını təlafi edib, aşağı olan başını bir də ucalandırsın. Yəni düşməni dalın basıb, ona nişan versin ki, qadirdir ona qalib olub, bir də fəth eləsin. Vəli bu arzusuna yetişmədi və Şah İsmayıla macal olmadı ki, bu arzunu yerinə yetirsin. Şah İsmayıl son günlərin öz əziz və istəkli sevgililəri ilə keçirib, müxtəsər şad yaşayırdı və daha cəngdən və vuruşmadan o qədər xəbər yox idi.

## ŞAH İSMAYILIN ÖLMƏSİ (930-cu il)

Günlər keçib, aylar dolanıb, illər dönüb, uşaqlar böyüyüb cavanlaşdıqca qocalar da daha yorulub son günlərin sürürdülər. Doğrusu, bu məsələ təkcə gün, ay, il, cavan, qoca barəsində degil, bəlkə dünyada hər nə var cavanlanmaqda, böyüməkdə, özündən övlad vücuda gətirməkdə və sonra qocalıb aradan getməkdədir. Amma bu yəqindir ki, heç şey nə öz-özünə dünyaya gəlir və nə də özündən sonra birdəfəlik yox olub gedir. Bəlkə hər şey vücuda gəlməmişdən qabaq var imiş. Vəli ayrı bir şəkildə imiş və əlbəttə, öləndən sonra da bir ayrı şəklə düşür.

Məsələn, bir tikə kağızı yandırıb kül eləmək zahirdə

onu öldürməkdir. Vəli, aya, bu kağız kül olandan sonra vücudu dünya üzündən yol olub gedir? Bu sualın cavabı çox aydındır. Yəni demək olar ki, kağız yanandan sonra bir qədər hərarət olub gögə uçar, bir qədər su ondan buxar olub qalxır və sonra bir qədər kül olub yerdə qalır. Buna görə hər mövcud ki, dünyada var, bu cürə yaşayır və bu cürə zahirdə ölür.

İndi təbiətin dəgişilməz qanununa görə bizim cavan Şah İsmayıl günü-gündən qocalıb arıqlayırdı. Belə ki, neçə vəqt haldan çıxıb, öz mehriban xanəvadəsin qəmə batırmışdı. Vəli hənuz nəfəsi gəlirdi və türklərin beli bükülməmişdi.

Şah İsmayıl naxoşluq yorğan-döşəgində uzanıb, ömrünün son saatların keçirirdi. Hərdəm dönüb dövrəsinə baxanda və öz xanəvadəsini qəmli və gözü yaşlı görəndə pozulmuş halını şad göstərmək üçün yavaşcadan gülüb deyirdi:

– Ey mənim əzizlərim! Məgər nə olubdur ki, belə qəmli və qüssəli olubsuz? Məndən nigəran olmayın. Belə xərə inşallah, yaxşı olub millətin və özümüzün bütün, dərin arzularımıza yetişərik. Qüssə eləməyüz və narahat olmayuz!

Gülzar bir yanda oturub qəm yeyirdi. Ərəbi bir yanda tutulub qüssədən saralmışdı və Pəri gözlərindən damcı-damcı yaşlar tökürdü. Vəli heç biri zahirdə Şah İsmayıla andırmırdılar ki, bu cürə pozulub qəmli olublar. Çünki Şah İsmayılın bu cürə adətlər ilə arası yox idi və bundan əlavə naxoşun başı üstə qəmli oturub göz yaşı tökmək düzgün degil və bir naxoşun halını bu cürə qəmli və tutqun olmaq ilə pozmaq yaxşı da degil. Buna görə xanəvadə əhli qəmli olduqları halda yenə də Şah İsmayıl yorğan-döşək içində bütün arzuların gözünün qabağından keçirirdi. Məsələn, gördü ki, bütün tayfaları və bütün millətləri, insanları bir-

biri ilə qardaş edib və öz gözəl diyarı Azərbaycan daha da abad və onun igit və qeyrətli xalqın azad edib və beləxərə bütün xalqlar içində ədalət və insaf yaradıb.

Şah İsmayıl xəyal içində görürdü ki, bütün kəndçilər və işçilər bir yerə toplaşıb ərbabları və malkiləri aradan aparıb, zülmün və sitəmin binasın kökündən kəsiblər. Şah İsmayıl xəyal aləmində bunları gördükcə birdən-birə qah-qah çəkib ucadan gülürdü və bunu belə görən xanəvadəsi bu xəyala ki, Şah İsmayıl daha inşallah yaxşı olub və sağalıb xoşhal olurdular və onlar da şadlıqdan qah-qah çəkib gülürdülər. Vəli bir azdan sonra Şah İsmayıl xəyaldan ayılanda və gördüklərinin xəyal oldğunu anlayan kimi az qalırdı ki, qüssədən ağlasın. Amma yenə də özün saxlatdırıb, qəmli hal göstəmirdi.

Şah İsmayıl çox qeyrətli və şərəfli bir kişi idi. O, ölüm halında da razı degil idi kimsə, hətta öz xanəvadəsi onun halından narahat olub qəmli olsunlar. Təhmasib Mirzə ki, hamı uşaqlardan böyük idi, yəni on yaşında idi, atası Şah İsmayılı bu cürə qəmli və tutqun görəndə ürəkdən darıxıb, fourən özünü atasının başı üstə yetirib, əvvəl onun üzündən öpüb, sonra deyirdi:

– Atacan, sənə qurban olum. Atacan nəyindir? Atacan, mənə buyur ki, sənə nə olub? Sənə qurban olum, atacan.

Şah İsmayıl oğlunun bu cürə yalvarmağına və onun mehriban olduğuna qabaqlardan vaqif idi. Vəli indi bu halda onun bu cürə isti əlaqə və qızğın məhəbbət göstərməgindən ürəkdən sevinib şad olurdu və sonra onu qucaqlayıb üzündən-gözündən öpürdü.

Təhmasib Mirzə atasının yanında oturub başını onun sinəsinə sövkəyib, hərdəm onu qucaqlayıb, nigəran halda deyirdi:

– Atacan, sənə qurban olum! Atacan, qadavı alım, atacan!

Təhmasib Mirzə hərdəm atasının üzündən öpüb, qolların onun boynuna dolayırdı. Bu mouqə Şah İsmayıl bir az haldan gedən kimi olub uzandı. Bunu belə görən Əlqas Mirzə, Sam Mirzə, Bəhram Mirzə ki, Təhmasib Mirzədən kiçik idilər, hərasan halda özlərin atalarının başı üstə yetirib, həsrət ilə ona baxmağa başladılar.

Hava tutulub, bulutlar gög üzün bürüyüb, yavaş-yavaş qara yellər əsməgə başladı. Daha o qədər çəkmədi ki, gögün üzü qara və dolu bulutlar ilə tutulub, bir azdan sonra yağış tökməgə başladı. İldırım çaldıqca bulutlar şaraqqa-şaraq bir-birinə toxunub nərə çəkə-çəkə gög üzündə oyan-buyana qaçmağa üz qoydular. Doğrusu, bir dəqiqənin içində yer-gög tufan içində qərq oldu. Qara yellər əsdikcə uca-uca ağacların budaqları bir-birinə çaqqışa-çaqqışa birdən-birə sınıb, şaraq yerə düşürdü. Yağış ged-gedə çoxaldı. İldırımlar şaxanda şaraq-şuruq səsi bütün dağlara düşüb dünyanı vəhşət bürüyürdü. Ancaq o qədər çəkmədi ki, böyük-böyük dolu dalbadal tökməgə başladı. Bir göz yumum zamanda hər yandan sellər atlandı. Yekə-yekə ağacları dibindən qazıb özü ilə aparmağa başladı. Tufan anqıra-anqıra düleylara toxunduqca düleyları bütün qapı və divara və camlara vuranda az qalırdı ki, camlar sınsınlar.

Hava tutqun, üzlər tutqun, bulutlar yaşlı, gözlər yaşlı, ildırımlar odlu, ürəklər odlu, dünya qorxuda, evlər qorxuda. Daha demək olar ki, şayəd əziz oxuyanlar da təsir altında olsunlar.

Şah İsmayıl bir azdan sonra çuxura düşmüş gözlərin açıb öz xırda balaların öz başı üstə görən kimi ürəkdən xoşhallandı. Sonra çəkib onların üzündən birbəbir öpüb və bir az onların üzünə həsrət ilə baxandan sonra son

dəmdə sazı götürüb, görək nə söylədi:

Qurban olum sizə, quzu balalar,
Qaldı ürəgimdə odlu yaralar.
İndi əcəl məni sizdən aralar,
Aralar, aralar, yaman aralar.

Tökməyin gözüzdən alovlu yaşlar,
Mən ölsəm də vardı qövmu qardaşlar.
Bu qovmu qardaşlar, bu qızılbaşlar,
Bu ellər, obalar, canan obalar.

Bir yerə toplayın eli, obanı,
Ellərin içində qurun divanı.
Ortadan aparın xain olanı,
Qoymayın onlardan qalan olalar!

Dayayın özüzi solan üzümə,
Qulağızı verin bu son sözümə.
Pis gündə dayanın səbrü dözümə,
Ey əziz balalar, quzu balalar.

Ürəgizin sözün deməyüz yada,
Yaşamaq istərsiz əgər dünyada,
Qorxuram düşmənlər sizi aldada,
Qovalar, qovalar, qaçan qovalar.

İşəlik adıyla qurun ədalət,
Ədalətə olun, qılın sədaqət,
Hansı ürəkdə ki, ola ədavət,
Çabalar, çabalar, yaman çabalar.

Mən ölsəm də, mənə fəğan etməyin,
Millətin halını yaman etməyin,
Maliyyat adıyla talan etməyin,
Qoymayın millətə talan olalar.

Əgilin, bu dəmdə öpüm gözüzdən,
Ayrılıq istirəm solan üzüzdən,
Aman ki, duymadım şirin sözüzdən,
Sizə qurban olum, cavan balalar.

Şah İsmayıl öz sazı ilə dedigi kimi, söz ilə də dedi ki, mən ölsəm də əbədən mən üçün ağlamayuz və milləti pərişan etməyüz. Bəlkə çalışın ki, mənim ordularımı yerinə yetirəsiz. Daha son dəfə olaraq uşaqların üzündən bir-bəbir öpüb birdən-birə dedi:

– Ey mənim əzizlərim! Allah sizi saxlasın!

Şah İsmayıl bu sözü deyib, daha bu fani dünyadan göz örtüb rahat qaldı. Bunu belə görən ev əhli və uşaqlar xəzan fəsli kimi saralıb soldular. Bu xanəvadədə igit və kişilik sifəti olduğu üçün bir dünya qəmə batdıqları halda özlərin əbədən qəmli və qüssəli göstərmirdilər. Çünki Şah İsmayılın vəsiyyətinə görə ağlamaq əvəzinə, onun tapşırdıqlarına əməl eləmək onlar üçün hamudan vacib idi. Vəli bunla belə yenə də bir dəqiqənin içində onların gül üzləri solub və parlaq gözləri yaş ilə dolub və şad ürəkləri vurmağa düşmüşdü. Doğrusu, çətin idi. Çünki bütün ölkə xəlqi hələ təzə xoş günə çıxmışdı və təzə-təzə xəlq öz hüququna tanış olurdu. Hələ təzə-təzə özü üçün bir belə mehriban və məhəbbətli ata tapmışdı ki, birdən-birə o da bu cürə pis gündə onlardan ayrılıb dönməz səfərə geddi.

Bu xəbər bütün kəndlərə və şəhərlərə yayılan kimi fourən xəlq qəm dəryasına batdı. Hər tərəfə qara çəkildi.

Bütün millәti gözü yaşlı elәdi. Heç ev yox idi ki, bu müsibәtә şәrik olmasın. Doğrusu, hәr tәrәfә baxırdın, matәm vә müsibәt idi. Çünki bir qeyrәtli vә namuslu kişi onları o halda buraxıb bir namәlum diyara gedmişdi.

Nәhayәt, sabah olan kimi bizm 38 yaşında igit qәhrәmanımız bir gözәl ehtiram ilә dövrәlәyib yerә sәrәlәnmiş cәnazәsi üstә qızıl güllәr vә әtirli qönçәlәr sәpirdilәr. Amma bu cavan ölәn qәhrәman keçmişdәki kimi durub onların qızğın ehtiramlarının qabağında mәhәbbәt göstәrmişdi.

Yerdә yatan cavan 38 yaşında idi. Bu, haman Şah İsmayıl idi ki, cәng meydanında hәr qılıncda neçә nәfәri әzib, aradan aparırdı. Vәli indi bir zәrrә hәrәkәtә qadir degil idi.

Bütün hәr yana, hәtta evlәrә dә qara çәkilmişdi. Millәt, atası ölәn uşaq kimi, göz yaşı tökürdü.

Bu xәbәr bütün İranın hәr yanına yayıldı. Әrbablar vә maliklәr bu xәbәri eşidәn kimi ürәkdәn şad olub sevindilәr. Çünki Şah İsmayıl onların qabağında sәdd olub, zülmün vә sitәmin qabağın alırdı. Buna görә hәman әndazә ki, kәndçilәr vә fәhlәlәr qәmli vә qüssәli idilәr, o әndazәdә әrbablar vә maliklәr şad vә xoşhal idilәr.

Daha cavan Şah İsmayılın cәnazәsi mehriban kәndçi vә işçilәrin çignindә son mәnzilә tәrәf yollandı. Qara geymiş xәlq tabutun dalıyca düşüb, gözlәrindәn damcı-damcı yaş tökә-tökә öz ataların son dәfә olaraq yola salmaq istәyirdilәr. Belәliklә, düşmәnlәrin ürәginә qorxu salan vә kәndçilәrin vә habelә bütün zәhmәtkeş tәbәqәsinin arxasında duran Şah İsmayıl Sәfәvi xalqından ayrılıb, son dәfә olaraq bu dünyadan göz örtdü.

## ŞAH TƏHMASİB İLƏ CEYRAN

Bu zaman ki, tarix 935-ci il idi, Cavan Şah Təhmasib günü-gündən böyüyüb qoç igit olmuşdu. Bu cavan igit öz rəhmətlik atası Şah İsmayıl kimi eşqli və pak ürəkli bir insan idi. Onun boyu və buxunu əndazəsində və üzü ağ, alnı açıq, gözləri iri, qaşları qılıncı, qolları güclü, əlləri yekə, sinəsi uca, beli incə, sözdə ağır və tərpəşəcəkdə ədəbli və həyalı bir cavan idi.

Bir gün daha şikara çıxıb, çölləri bir az dolanandan sonra bir ov tapmadığı üçün məyus bir halda qayıdanda birdən-birə gözü bir gözəl ceyrana düşdü. Ceyran bu ovucunu görən kimi qaçmağa üz qoydu. Buna görə Şah Təhmasib də atı onun dalıyca qovmağa saldı. Ceyran qaçdı, Şah Təhmasib qovdu. Ceyran qaçdı. Ancaq bu qovub-qaçmadan bir səmər ələ gəlmədi. Ceyran dağlardan aşıb dərələrdən çıxdı, dərələrdən çıxıb, dağlardan aşdı. Vəli Şah Təhmasib onu tuta bilmədi. Nəhayət, ceyran bir düzəngahlığa çatan kimi Şah Təhmasib oxu kaman qoyub ceyrana vurmaq istədi. Amma qabaqda bir böyük çay var idi və ceyran özünü fourən çaya soxub və Şah Təhmasib ona ox atanda suyun içinə girdi və ox ona bir əsər edə bilmədi. Nəhayət, bir qədər sualtı üzəndən sonra o başdan sudan çıxıb qaçmağa üz qoydu. Şah Təhmasib hirsli halda özünü suya yetirib, sudan keçəndə su qırağında bir yaralı maral gördü.

Bu maral bir gözəl, qaraqaş, alagöz, qönçədodaq, incəbel, qırmızıyanaq, gülüz, qaratelli, nazlı bir qız idi ki, paltarların soyunub, bir ağacdan asıb, lüt olub, suda yuyunurdu.

Şah Təhmasib bunu görən kimi qovduğu ceyran yadından çıxıb və bu dəfə bu gözəl maralı ovlamaq fikrinə

düşdü. Doğrusu, bu maralın vücudu bais oldu ki, balalarının gözü yerdə qalan ceyran bugünkü bəladan qurtarıb, sağlıq ilə öz əzizlərinin yanına qayıtsın.

Şah Təhmasib bir az dayanandan sonra qız sudan çıxıb bir atlı cavanı orada görən kimi utanıb yenə də suya batdı. Şah Təhmasib qızı bu cürə görən kimi başa düşdü ki, qız ondan utanıb suya batdı. Buna görə üzün dalı döndərib ona icazə verdi ki, sudan çıxıb geyinsin. Bu mouqə qız tələsik halda sudan çıxıb yavaşca paltarların götürüb fourən bir böyük ağacın kölgəsində geyinib barmaqlarının üstə qaçmağa üz qoydu.

Şah Təhmasib bir az sakit qalandan sonra gördü ki, qızdan səs-küy yoxdur, buna görə dönüb dalı baxan kimi gördü ki, qız qaçıb. Buna görə qızın dalıca qaçıb, onu yetirmaq istədisə də, ancaq bilmədi ki, hayana gedib. Amma bir az diqqət ilə baxandan sonra onun ayaqlarının yeri qumlar üstə göründü və Şah Təhmasib o gedən yol ilə gedməgə başladı. Bir qədər çapandan sonra özün qıza yetirib, dalıdan onu qucaqlayıb, atın tərkinə aldı.

Qız bir az narahat oldu. Vəli dönüb Şah Təhmasibə baxan kimi özündən gözəl bir cavanı gördü və fourən bir könüldən min könülə aşiq oldu. Nəhayət, qız Şah Təhmasibə dedi:

– Məni bu cürə aparma! Çünki ata və anam məndən nigəran olub çöllərə düşərlər və yaxşısı budur ki, qərar qoyaq, sabah bu mouqə buraya gəl və görüşək. Şah Təhmasib könülsüz olursa da, ancaq buna razı olub, qızdan ayrıldı.

## İKİ SEVGİLİ

Bahar fəsli idi. Bütün dünya qəm və qüssədən, tutqunluqdan və qaranlıqlardan və habelə qara yellərdən, qorxulu tufanlardan təzə qurtarmışdı. Dünya əhli və bütün insanlar, heyvanlar, ağaclar, hətta dağlar, dərələr, çöllər, təpələr şadlıq içində və sevinməkdə idilər.

Şah Təhmasib ilə sevgilisi Sona qərar qoymuşdular ki, bir gözəl bağda görüşüb, razü-niyaz eləməgə məşğul olsunlar. Buna görə Sona səhər tezdən, yəni onda ki, dan yeli təzə-təzə əsməgə açırdı, Sona da yerindən qalxıb və fourən əl-üzün yuyub, tələsə-tələsə özün bağa yetirib bir qızılgül butasının yanında sevgilisi Təhmasibi gözləməgə başladı.

Bağın hər yanı yaşıl yapraqlar və otlar və zənbəqlər və habelə qızıl, sarı, gög, narıncı güllər və əlvan-əlvan çiçəklər ilə bürünmüşdü. Meyvəli ağacların başında və nazik budaqlarında qonan quşların cəhcəhi və qış fəsli ətirli ayrılıq odunda yanan bülbüllərin şaxələr üstə qonub nalə eləməsi bütün bağı eşqə gətirmişdi.

Hər mövcud öz məşuqəsin yanına alıb on ilə ayrılıq fəslində çəkdigi həsrətləri söyləşirdilər.

Amma Sona tək qalmışdı və hənuz sevgilindən bir xəbər yox idi. Ged-gedə hava aydınlaşıb və yavaş-yavaş günəş gözəl nurunu aləmə səpib rəhmsiz qaranlıqları aradan aparıb yox edirdi. Çiçəklərin və şəbnəmli qızıl, lalə, süsən, yasəmən, bənövşə və sarı, jalə və yas güllərinin ətirli iyləri bütün ölmüşlərin ruhun dirildib hamıya can bağışlayırdılar.

Sona bağı dolana-dolana hər budaqdan bir gül dərib və hər zanbaqdan bir yaşıl yapraq qopardıb öz sevgilisi cavan Təhmasib üçün bir qucaq gül tutmuşdu. Səhər yeli narın əsdikcə və bir qucaq gülləri ana öz balasının tel-

lərin tumarlayan kimi tumarladıqca Sona öz gözəl üzün güllərə sürtüb dərindən ah çəkə-çəkə deyirdi:

Ey yasəmən güllər, bənövşə güllər,
Ətirli çiçəklər, sona bülbüllər,
Ey tazə qovzayan yaşıl sünbüllər,
Mənə rəhm eləyin, yarım gəlmədi.

Uca dağlar başı çox səfalıdır,
Aşiq məşuq il oyanmalıdır,
Yanıqlı ürəgim çox yaralıdır,
Mənə rəhm eləyin, yarım gəlmədi.

Gəlmədi dilbərim, gəlmədi yarım,
Qaraldı  gözümdə bu intizarım.
Kəsildi taqətim, geddi qərarım,
Mənə rəhm eləyin, yarım gəlmədi.

Gözlərəm yolunu gecə olunca,
Qaranlıq  aləmə gəlib dolunca,
Payızın fəslində güllər solunca,
Söylərəm, dövlətim, varım gəlmədi.

Şah İsmayıl oğlu, Təhmasib Mirzə,
Atan eləmişdi bu xəlqi riza,
Nədən rəhm etmədin bu mən yalqıza,
Sənsiz soldu gülüm, yarım gəlmədi.

Dolanım başına pərvanə kimi,
Məni qıldı eşqin divanə kimi,
Gələrəm dalınca hər yanə kimi,
Görsəm ki, sən kimi yarım gəlmədi.

Pərişan olduğum səndəndir, səndən,
Sorağın tutaram gəlib-gedəndən.
Məgər pislik görüb incidin məndən,
Eşqində heç başa razım gəlmədi.

Eşqində solaram, səndən olmaram,
Toxtamaz, gəlməsən, vurduğun yaram,
Ağlaram, ağlaram, sənsiz ağlaram,
Söylərəm aləmə yarım gəlmədi.

Sona oxuya-oxuya dərdigi güllərə üz sürtüb həsrət ilə bağın qapısına gözün tikmişdi. Vəli Təhmasib Mirzədən xəbər yox idi. Sona avara bir məşuq kimi bağı dövr dolanıb bir duru bulağın başında oturub, suyun zina-zina axmağına tamaşa edirdi. Bu mouqə Təhmasib Mirzə qəsrindən çıxıb ağ atına bir qamçı vurub, alıcı quşu kimi götürüldü. Bir qədər çapandan sonra özünü bağın qapusına yetirib yavaşca atdan düşüb bir qədər oyan-buyana baxıb Sonanı görmədigi üçün xəyal etdi ki, Sona verdigi vədəni unudub və bağa gəlməyib. Buna görə bir az qüssəli oldu. Amma bir qədər oyan-buyana baxandan sonra birdənbirə gözü Sonaya düşdü ki, bulaq başında oturub suyun axmağına baxır.

Təhmasib Mirzə barmaqlarının ucu üstə yavaş-yavaş özünü bulağın başına yetirib, Sonanın dalında başı üstə durdu. Sona ki, fikir içində qərq idi və öz xəyalında Təhmasib Mirzə ilə həmdəm idi, bir az sonra diqqət ilə baxıb Təhmasib Mirzənin əksini suda görən kimi zövqə gəldi. Təhmasib Mirzə Sonanın dalında duranda əksi suya düşüb görünürdü. Vəli Sona öz xəyalında belə fikr elədi ki, suda olan əks onun xəyalından keçir. Buna görə fəqət suda olan əksə tamaşa eələməgə başladı.

Sona bir az baxandan sonra yavaş-yavaş başa düşdü ki, suda olan əks xəyal degil. Çünki su titrəyəndə əks də titrəyir. Buna görə birdən-birə şəkə düşüb, dönüb dalı baxan öz sevgilisi Təhmasib Mirzəni görən kimi birdən-birə ixtiyarsız halda özünü onun ayaqlarına salıb, zövqün və eşqin şiddətindən gözlərindən damcı-damcı məhəbbət yaşı damdı.

Təhmasib Mirzə onu belə görən kimi o da zövqündən Sonanı qucaqlayıb bağrına basdı. Sonra hər ikisi də öpüşməgə başladılar.

Sona səhər bağda idi və ruh dirildən yelin əsməgin başa düşmürdü. İndi bütün bağ yel, ağaclar və təbiət ona xoş gəlib və bütün aləm səfalı olmuşdu. Çünki mehriban və gözəl sevgilisi Şah Təhmasib onu min məhəbbət və min əlaqə ilə qucaqlayıb dodaqlarından öpürdü. Bu iki sevgili bir-birləri ilə elə qucaqlaşıb və öpüşməgə məşğul olmuşdular ki, əsla dünyadan və insandan və heyvandan xəbərləri yox idi. Vəli, eşqin xasiyyəti məhəbbət və əlaqənin üsulu budur və bütün dünyada insanlar və heyvanlar öz dünyalarına görə fəqət bir eşq və arzu, məhəbbət üçün diridirlər və eşq və ümid və arzu olmuyan insan əbədən yaşayışdan bir şey düşünə bilməz. Buna görə bu iki sevgili də təbiətin və insanların və yaşayış qanununa görə indi bir-birlərindən feyz aparmağa məşğul idilər. Ancaq bir az öpüşəndən sonra Təhmasib Mirzə ilə Sona birlikdə görək nə oxumağa başladılar:

Yaşasın aləmdə eşq və arzu,
Bütün insanların gərəgidir bu.
Yoxsa ki, yaşayış görünər quru,
Gəlmişik dünyaya şad olmaq üçün.

Dünyadan silinsin yas ilə qəmlər,
Gərəkdir ortadan gedə sitəmlər.
Bürüsün aləmi gözəl sənəmlər,
Yaşayışda yaxşı dad almaq üçün.

Eşq ilə aləmi başa yetirək,
Bahalı bu ömrü gözəl bitirək,
Ürəkdən qüssəni, dərdi itirək,
Gəlmişik dünyaya şad olmaq üçün.

Qoyun şad olsunlar aşiq olanlar,
Məhəbbət camilə eşqə dolanlar,
Şad olsunlar daha saçın yolanlar,
Onlar da şadlığda yad olmaq üçün.

Pozulsun bu xarab, bu köhnə dünya,
Yenidən qurulsun aləmi uca.
Bu tezliqda insan olmasın qoca,
Yalançı ömr ilə ad olmaq üçün.

Təhmasib Mirzə və Sona xanım bir-birlərin şirin can kimi qucaqlayıb bu cürə oxuduqca hərdəm qızğın bir məhəbbət ilə və odlu bir eşq ilə bir-birlərinin yanar dodaqlarından və qızıl yanaqlarından öpürdülər. Təhmasib Mirzə öz sevgilisi Sonanı qucaqlayıb və üzün gögə tutub deyirdi:

– Əzizim Sona, bir gögə bax, gör nə saf və aydındır. Ey kaş insanların da ürəkləri bu cürə saf və pak olaydı.

– Bir güllərə və çiçəklərə nəzər sal, gör nə gözəl və ətirli bir-birlərinə mehriban və əlaqəlidir. Ey kaş, insanlarda bu cürə bir-birlərinə mehriban və əlaqəli olalar.

– Bir quşlara və durnalara bax, gör nə bir-birləri ilə birlikdə yaşayıb və bir-birlərinin yanından ayrılmayıb,

bir-birlərinə həmdəm olurlar. Ey kaş insanlar da bu cürə olaydılar. Ədavət, kinə, acıq və hirs və düşmənliğ yerinə qardaşlıq, hörmət, məhəbbət, mehribanlıq və qızğın eşq və səmimi istək göstərəydilər.

Bu iki sevgili gözəl və ətirli güllərin ortasında eşq ilə razüü niyaza məşğul olduqları halda yenə də insanları yaddan çıxartmayırdılar. Onlar deyib-gülməkdə idilər ki, bağın divarlarının dalından bir nəfər atlının oxumaq səsi ged-gedə ucalırdı. Buna görə Təhmasib Mirzə bir ağacın üstünə çıxıb divardan eşigə baxan kimi bir igid atlını eşq ilə oxuyan görən kimi başa düşdü ki, bu igit aşiqdir. Bu idi ki, ağacdan enib qızın yanına gəlib dedi:

– Bu oxuyan bir cavan aşiqdir. Amma qızın rəngi qaçıb qorxuya düşmüşdü. Vəli çün bu aşiqin oxumağı ürəgə sınan idi, buna görə Təhmasib Mirzə eşq ilə onun oxumağına qulaq verdi:

Aman, aman, dad aman,
Dağları tutub duman.
Nə özündən xəbər var,
Nə səndən verən nişan.

Dağların başı yansın,
Ərisin, daşı yansın.
Məni bu dərdə salan,
Ürəgin başı yansın.

Dərya dolu nil ilə,
Yarım oynar gil ilə.
Hamıya can bağışlar,
Məni saxlar dil ilə.

Dəryada dəryalıqlar,
Suda oynar balıqlar.
Genə yadıma düşdü,
Əvvəlki aşnalıqlar.

Aman amanə dönüb,
Qaşlar kamanə dönüb,
Sən ki, belə degildin,
Bəlkə zəmanə dönüb?!

Qaşın qaralar məni,
Eldən aralar məni.
Sənsiz yerə girmərəm,
Döşək yaralar məni.

Dağlar daldasız olmaz,
Gözəl sevdasız olmaz.
Yarı xoşgil olanın
Başı qovğasız olmaz.

Ucadı boyu onun,
Nə xoşdu xoyu onun,
Çox da gözəl degili,
Şirindi suyu onun.

Endim bulaq başına,
Yazı yazdım daşına.
Gələn-gedən oxusun,
Nələr gəldi başıma.

Bu dağlar kömürdəndir,
Keçən gün ömürdəndir.

Fələgin bir quşu var,
Dimdigi dəmirdəndir.

Bu dağlar, ulu dağlar,
Bulaqlı, sulu dağlar.
Burda bir qərib ölüb,
Qəbrini qazan ağlar.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Xəzan oldum, töküldüm,
Solunan bağlar kimi.

Dişlərin inci-inci,
Zərgər yonar birinci.
Dedim gəl sevgi olaq,
Demədim məndən inci.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Sevişdik ayrı düşdük,
Gəzək bir zaman ayrı.

Azərbaycan maralı,
Düşmə məndən aralı.
Sənsiz dözə bilmərəm,
Bu gül rəngim saralı.

Dağlar başı toz olu,
Sıra-sıra qız olu.
Hər nə desən qıza de,
Gəlin kələkbaz olu.

Bulaq başında duran,
Əlin belinə vuran,
Döndər baxım üzünə,
Naz etmə, səni Quran.

Bu cavan aşiq oxuduqca Təhmasib Mirzə qah-qah çəkib gülürdü. Onun oxuduqları elə xoşuna gəlirdi ki, sevindigindən az qalırdı bülbül kimi qanadlanıb uçsun. Amma Sona sevinmək yerinə qorxuya düşüb Təhmasib Mirzədən gedmək üçün icazə istədi. Təhmasib Mirzə Sonanın bu tələsmağından təəccüb edib, onun solan üzünə baxıb saralmağın görən kimi soruşdu:

– Nə üçün bu hala düşüb? Şahzadə Təhmasibin bu sözündən Sona onun cavabında dedi:

– Bu oxuyan gərəkdir ki, məni görməsin. Buna görə mənə icazə verüz gedim.

Təhmasib Mirzə qızın bu hala düşüb və bu cürə narahat olmağından şəkə düşüb öz xəyalında dedi:

– Olmasın ki, bu oxuyan aşiq Sonanın aşiqidir. Bu xəyal Təhmasib Mirzəni narahat edib sakit elədi.

Sona Təhmasib Mirzənin bu cürə pozulduğun görüb təəcüb ilə soruşdu:

– Əzizim Təhmasib, nə üçün bü cürə pozuldun?

Təhmasib Mirzə bir azdan sonra sazı götürüb, görək nə söylədi:

Sözü və saz bilmədim, baxıb inandım,
Bu inanmağımda əcəb yubandım,
Əcəb bica yerə eşqinə yandım,
Var imiş adaxlın demə, bilmədim.

Var imiş bilmədim nişanlın sənin,
Öpülüb qabaqdan bu alnın sənin,
İki yar tutmağın, yalanın sənin,
Var imiş adaxlın demə, bilmədim.

Bilmədim, bilmədim yalanmış sözün,
Neyləyim eşqinə and içdin özün,
Yaş tökdü üzü və sel kimi gözün,
Var imiş adaxlın demə, bilmədim.

Yaramaz gələnə vəfalı demək,
Vəfasız olana gözəl söyləmək,
Heyf yolundakı qoyduğum əmək,
Var imiş adaxlın demə, bilmədim.

Sözü bir degilmiş gözəl olanın,
Aşiq inanmasın onun yalanın,
Qəmindən var imiş ayrı salanın,
Var imiş adaxlın demə, bilmədim.

Təhmasib Mirzə bü cürə yanıqlı-yanıqlı oxuduqca Sona ki, əvvəl başa düşmürdü onun mənzuri nədir və indi yavaş-yavaş başa düşən kimi ki, Təhmasib Mirzə o cavan aşiqin oxumağından və habelə Sonanın və bu cürə qorxuya düşməgindən şəkə düşüb qah-qah çəkib gülə-gülə qolların Təhmasib Mirzənin boynuna salıb dedi:

– Vallah, billah yanılıbsan. Ayrı cürə başa düşübsən. Amma Təhmasib Mirzə onun sözünə qulaq vermirdi. Buna görə Sona çoxlu yalvarıb iltimas edirdi və hər nə qədər deyirdi ki, «oxuyan mənim qardaşımdır». Təhmasib Mirzə inanmırdı. Bu idi ki, Təhmasib Mirzə küsülü halda bir ayağı gələr, bir ayağı gəlməz atın belinə atılıb

dinməz-söyləməz aradan uzaqlaşdı. Sona onun dalıyca hər nə qədər yalvardı, sıçradı, and içdi və dalıyca qaçdı, Təhmasib Mirzə zərrə də dönüb dalı baxmadı. Nəhayət, göz işlədikcə Təhmasib Mirzənin dalıyca qaraltısına göz tikdi. Daha o qədər çəkmədi ki, onun qaraltısı atın ayaqlarının çöldə səpələnən tozlarının içində yox oldu. Sonanın bütün ümidi və arzusu daşa toxundu. Gözlərindən damcı-damcı axan yaşlar tozlu yanaqlarına töküldükcə hövküldəyib çox yavaş səs ilə ürəkdən sızıldayırdı.

Bu mouqə günəş batan tərəfə yollanırdı. Axşama az qalırdı. Ged-gedə hava qaranlaşdıqca çöllərdən qayıdan sürü-sürü qoyun-quzuların başı açılırdı. Çobanların dərdli və yanıqlı qara neylərinin sızıltı səsi yavaş-yavaş qulağa gəlirdi. Günbatan tərəfdə gögün üzü qırmızı qan kimi qızarıb günəşin bizim dünyamızdan gedməgin xəbər verirdi. O cürə gözəl və behişt kimi bağlar, ətirli güllər, sevməli çiçəklər, yaşıl yapraqlar, uca-uca şimşad ağaclar və duru axan bulaqlar, sərin hava, sona bülbüllərin cəh-cəh vurması, çöldən gələnlərin və bağbanların nəğmə oxumaqları genə də Sonanı güldürə bilməyib, onun tutulmuş ürəgin açmırdı.

Sona yorğun-arğın pərişan-pərişan ayaqları gələr-gəlməz bağdan çıxıb tutqun və pozulmuş bir gül kimi öz evlərinə tərəf yola düşdü.

Sona Təhmasib Mirzəyə elə vurulub aşiq olmuşdu ki, bağın qapısından çıxanda gözü Təhmasib Mirzənin qumlar üstə ayağının yerinə düşən kimi qurumuş dodaqların onun ayaqlarının yerinə qoyub öpməgə başladı. Hava daha qaranlıqlandı. Dünyanın yarısın zülmət bürüdü. Nəhayət, gün keçib gecə də səhər oldu. Amma Allah və aşıq olanlar bilər ki, o gecə Sona üçün necə və nə cürə bir gecə idi.

## TƏHMASİB MİRZƏNİN ADAXLANMASI

Carçılar car çəkirdilər və milləti Təhmasib Mirzənin adaxlanma cəşninə dəvət edirdilər. Carçılar car çəkdikcə millət carçının başına yığışıb şadlıq edirdilər və hər kim cəşn üçün özün hazır edirdi. Carçılardan Sona olan tərəfə də yollanıb, o yerdə də car çəkib deyirdilər:

– Ay camaat, bilin və agah olun! Təhmasib Mirzənin adaxlanmasıdır və buna görə özüzi cəşn üçün hazır edüz.

Bu car səsi o qədər çəkmədi ki, Sonanın qulağına yetişdi. Sona Təhmasib Mirzənin adaxlanmasın eşidən kimi az qaldı ki, haldan çıxıb ürəgi keçsin. Dünya gözündə qaraldı. Öz bəxtinə lənət yolladı. Qanı qızdı, vəli bir azdan sonra bədənindən soyuq tər axdı. Sona bilmirdi nə eləsin. Bir istirdi gedib carçıya yalvarıb ona desin ki, «Sən Allah, car çəkmə və Təhmasib Mirzəni rəhmə gətir». Bir də istirdi ki, carçını tutub boğsun.

Nəhayət, səhər tezdən camaat böyük bir meydana yığılıb, Təhmasib Mirzənin adaxlanmasın gözləyirdilər. Hər tərəf camaat ilə dolmuşdu. İgnə salmağa yer yox idi. Həmhəmə səs-küy hər yanı götürmüşdü.

Bu zaman Sona evdə tək oturub, qəm dəryasında qərq idi. Hamı tamaşaya gedib, hətta evlərində də bir kim yox idi. Buna görə Sona evi boş görən kimi ürəgi istədigi qədər ağlamağa başladı. Dünya başına dolanırdı. Ürəgi yerindən oynayırdı. Bədəni gah soyuyub, gah qızırdı. Nəhayət, hər nə qədər ağlayıb sızıldayırdı, ürəgi sakit olub ağlamadan doymurdu. Çünki tək bir pənahı sazı idi hər nə vəqt yar-yoldaşı olmuyanda təkcə bu vəfalı həmdəminə pənah aparırdı, indi daha ondan başqa bir vəfalı həmdəmi olmadığına görə onu qızğın məhəbbət ilə bağrına basıb, tellərindən neçə öpüş götürəndən sonra aldı, görək

dərdini ona necə söylədi:

Dərdimi söyləyim kimə, pənahım,
Ey mənim pənahım, nədir günahım?!
Yandırdı qəlbimi bu odlu ahım,
Vəfalı bildigim vəfasız oldu.

Məni gözdən salıb saldı odlara,
Cəfa mənə qıldı, vəfa yadlara.
Baxmadı çəkdigim bu fəryadlara,
Səfalı bildigim səfasız oldu.

Bir kimə demədi günahım nədir,
Mənim ondan sonra pənahım nədir,
Ürəkdə bilmədi bu ahım nədir,
Vəfalı bildigim vəfasız oldu.

Baxmadı sözümə, tez düşdü yola,
Nə baxdı sağına, nə baxdı sola.
İstədi Sonası dərdindən sola,
Vəfalı bildigim vəfasız oldu.

Sona bir qədər tək oxuyub göz yaşı tökəndən sonra daha dözə bilməyib bir az fikir edəndən sonra durub evdən çıxıb birbaşa cəşn olan meydana sarı yollandı.

Camaat elə bir həlhələ salıb hay-küy edirdilər, çalıb oynayırdılar ki, doğrusu, qəmli olan insan da eşqə gəlirdi. Sona bir qədər yol gəlib, özün o yığıntıya yetirib, o da bir tamaşaçı kimi bir bucaqda durdu.

Sonanın ürəgi quş ürəgi kimi vururdu. Tez-tez bir uca yerə çıxıb boylanırdı ki, Təhmasib Mirzənin adaxlısın görsün. Vəli hər nə baxırdı, bir şey görmürdü. Buna görə

bir az çalışıb, cəmiyyəti dalı vurub, qabağa gedmək istədisə də, ancaq bir kim ona yol verməyib, bir az da dalı saldılar. Sonanın hər yerdən ümidi qət oldu. Buna görə yavaş-yavaş ah çəkib sızıldamaqdan başqa bir çarə görmədiginə görə daha bir guşədə dayanıb, həsrət ilə baxmağa başladı.

– Aya, sizin adaxlız var?

Cavan aşiq dedi:

– Bəli, qardaş, var. Vəli çün onun atası varlı bir adamdır, buna görə onu mənə vermirlər. Cavan «adaxlım var» deyən kimi Təhmasib Mirzə bir az narahat olub tez soruşdu:

– Əfəndim, sizin bacız da varmı?

Cavan aşiq bir az bu sualdan narahat oldu. Vəli Təhmasib Mirzə ondan üzr istəyib dedi:

– Qardaş, məni bağışlayuz.

Çünki...

Cavan aşiq Təhmasib Mirzəni bu cürə utancaq görən kimi başa düşdü ki, pis adam degil. Buna görə dedi:

– Bəli, qardaş, bacım vardır.

Təhmasib Mirzə ondan məmnun olub bir də dedi:

– Bağışlayuz, qardaş, onun adı nədir?

Cavan aşiq bir az fikir edib sonra dedi:

– Onun adı Sonadır.

Cəmiyyət içinə girib bir az o yan-bu yanı axtarandan sonra birdən-birə gözü Sonaya düşdü. Bu mouqə Sona boylanıb qəsrə tərəf baxırdı və çün camaat macal vermirdi ki, o qabağa gedsin, buna görə bir guşədə ağlamağa başlamışdı.

Təhmasib Mirzə onun başı üstə yetişib, dalında durub yavaş-yavaş ağlamağın görən kimi elə bir məhəbbət ürəginə doldu ki, az qaldı həman camaatın içində Sonanın yanaqlarından öpsün.

Vəli bir az fikir edib, üzünə niqab salıb, Sonanın qabağına keçib dedi:

– Xanım, icazə verüz sizi qəsrə tərəf aparım.

Sona bir az şəkə düşdü. Vəli çünki könlü istirdi ki, Təhmasib Mirzənin adaxlısın görsün və bir də cavanın pak danışdığından xatircəm olandan sonra razı oldu və niqablı Təhmasib onu ta qəsrin içinə kimi aparıb öz anasının yanında saxladı. Sona bu işdən təəccüb edib, bir az diqqət salandan sonra gördü ki, öz qardaşı öz adaxlısı isə o məclisdədir. Buna görə lap heyran qalıb bilmirdi ki, nə eləsin.

Təhmasib Mirzə Sonanın qardaşın qəsrə dəvət edəndən sonra onun adaxlısının atasın görüb razı edəndən sonra onları da qəsrə dəvət eləmişdi. Bu idi ki, indi onlar da məclisdə idilər.

Təhmasib Mirzə öz anası Gülzarın əlindən tutub utanaraq sevgilisi Sonanı ona tanış elədi. Təhmasib Mirzə Sonanı tanış edəndə üzündən niqabı götürüb üzünü Sonaya göstərən kimi Sona təəcübdən haldan düşüb yerə düşən zaman Təhmasib Mirzə onun qollarınnan tutub xəlvət bir otağa apardı. Sona gözlərin açıb Təhmasib Mirzəni başın üstə görən kimi utancaq bir halda gözlərindən yaş tökə-tökə qolların açıb sevgilisi Təhmasib Mirzəni qucaqlayıb, sevindigindən daha bir söz danışa bilmədi.

## SON MƏCLİS

Qəsrin bütün otaqları toya dəvət olunanlar ilə dolub, böyük bir cəşn üçün hər cürə şeylər hazırlaşıb və dəvət olunanlar da özlrini şadlığa hazır edirdilər. Yuxarı başda Şah İsmayılın ən yaxın tanışları oturmuşdular. Vəli Təhmasib Mirzə hənuz məclisdə degil idi.

Gülzar, Pəri, Ərəb, üçü bir yanda oturub gəlib-gedənə «xoş gəldiz, səfa gətirdiz» deyirdilər.

Bu cəşn altı adaxlının nişanlanma cəşni idi. Yəni biri Təhmasib ilə Sona, biri Sonanın qardaşı və onun adaxlısı, biri də Təhmasib Mirzənin məktəb yoldaşlarından biri.

Daha o qədər çəkmədi ki, çalhaçal başlanıb, vurhavur işə düşüb, gözəl oynayanlar ortaya gəlib oynamağa başladılar. Məclis gözəl bir məclisə döndü. Çalanların ürəgə yatan çalğıları, oxuyanların ürək dirildən oxumaqları, şərbət verənlərin və habelə saqilərin şivəsi bu məclisi behiştə döndərib, orada olanları daha da eşqə gətirirdi. Çalanlardan və oynayanlardan hər kim yorulurdusa bir ayrısı onun yerinə gəlirdi. Belə ki, məclis hərarətdən düşmürdü. Bir qədər çalıb oynayandan sonra bir gözəl oxuyan, sazı götürüb, görək nə söylədi:

Bizim bu məclisə dərdü qəmə dolan gəlsin,
Bütün qəmin unudub gülmən axtaran gəlsin,
Nəzakət əhlinə qurban bilir bunu hamı kəs,
Bu yer o yerdi ki, insanlıq qanan gəlsin,
Yubanma, saqi, amandır, piyalə ver ki, bizə
Tərəhhüm eylə daha, söyləmə dayan gəlsin.
Yorulmasın qolun, ey çalğıçı, üzün gülsün,
Bu qəmli üzləri güldür, bizə qadan gəlsin,
Bizi unutma ki, çoxdandır yoldadı gözümüz,
Haçandı gözləyirik eşq ilə çalan gəlsin,
Sən ey xəzan günü həsrət qalan gülə bülbül,
Elə fəğan elə ki, rəhmə bağiban gəlsin,
Sızılda ney kimi, amma fəğanə solma bizi,
Könüllər açmağa eşq ilə oynayan gəlsin,
Dur oyna, oynamalı gündü, şur ilə oyna,
Sən oyna, sonra dalın növbətə qalan gəlsin,

Görüm bu xəlqimizi şad ola hər evdə bu cürə,
Gəlin xoş olsun və damad şadiman gəlsin.
Vəfalı yar ilə ruhun qidası musiqidir,
Çalın ki, musiqidən canə tazə can gəlsin.
Əgərçi görmədi Təbrizi belə bir fürsət,
Duası var sizə, bu fürsət hər zaman gəlsin.

Daha çalhaçal, vurhavur, oxuhaoxu idi. Amma bir azdan sonra üç gəlin, üç oğlan içəri girib əllərində şam duran kimi qonaqlar əl çalıb daha da ucadan oxumağa və oynamağa başladılar. Sonra bir dəstə də bu cürə oxuyurdular:

Qurban türkün bayrağına!
Düşməz düşmən ayağına.
Bu can soluna, sağına,
Qurban türkün bayrağına!

Türkün bayrağına qurban!
Qurban, qurban bu şirin can!
Yaşa-yaşa Azərbaycan!
Qurban türkün bayrağına!

İndi, beləliklə, bizim dastanımız qurtardı.

# ŞƏRHLƏR VƏ İZAHLAR

## ŞAH İSMAYIL

Dastanın bir variantı 1937-ci ildə «Dastanlar və nağıllar» kitabında, başqa bir variantı isə «Azərbaycan xalq dastanları» kitabında nəşr edilmişdir.

Bu kitabda verilən variant Zəyəmdə yaşayan Aşaq Alıdan toplanmışdır.

1. Bu qoşmanın Lerikli Aşıq Qurbanalıdan toplanmış aşağıdakı variantı öz şəklinə çox maraqlıdır.

Aldı Şah İsmayıl:

Bir ceyranı qova-qova gətirdim,
Nənə, ceyran mənimdi.
Gətiribən bu diyarda itirdim,
Nənə, ceyran mənimdi.

Aldı qarı:

Mən ceyranı saxlaram,
Oğul, ceyran mənimdi.
Gündə üç yol yoxlaram,
Oğul, ceyran mənimdi.

Aldı Şah İsmayıl:

Şah İsmayılam, işim yox bicinən,
Nənə, ceyran mənimdi.
Verməsən də alacağam gücünən,
Nənə, ceyran mənimdi.

2. Bu qoşma bir sıra variantlarda Şah İsmayılla Gülzar arasında deyişmə şəklində gedir. Misal üçün, Laçından toplanmış bir variantda deyişmənin 5 bəndi belədir:

Aldı Şah İsmayıl:

Qaçırtdım ceyranı, çata bilmədim,
Nagah yerdə gördüm nuri-didarı.
Qərq eylədi məni qəm dəryasına,
Ürəyimə saldı atəşi, narı.

Aldı Gülzar xanım:

Neçə min atlıynan gəzirsən çölü,
Fərə kəklik kimi səg indi, yeri!
Niyə qərq olubsan qəm dəryasına?
Hər zaman həngnən gəl indi yeri!

Aldı Şah İsmayıl:

Ali-əlvan gördüm gülgəz yanağı,
Tər, həna əlləri, sədəf dırnağı,
Cənnət cəvahiri köksüvün bağı,
Qoy açılsın görüm sədri-mərməri.

Aldı Gülzar xanım:

Sayalandı kəhlik, sındı qəfəsi,
Şeyda bülbülünə oxşatdım səsi.
Canda bəsləmişəm uruh, nəfəsi,
Hər yandan bir busə al indi, yeri!

Aldı Şah İsmayıl:

Aşiq olan gərək qürbətdə qala,
Məhbubunu daim yadına sala.
Xudam, qismət eylə Şah İsmayıla,
O görsün bir də sən gözəl Gülzarı.

3. Laçın variantında bu şe'r belədir:

Aradım, bulmam qapısı,
Saray, səndən yol istərəm.
Lə'lü gövhərdən yapısı,
Saray, səndən yol istərəm.

Üzü bəri baxan dağdı,
Çar tərəfi güllü bağdı.
Yarəb, Gülzarım sağdı,
Saray, səndən yol istərəm.

Əvvəlində dedim - bəli!
Dərdindən olmuşam dəli,
Ağlatma Şah İsmayılı,
Saray, səndən yol istərəm.

4. Laçın variantında bu deyişmənin 5 bəndi belədir:

Aldı Ərəb Zəngi:

Bu gün də bir kəklik düşüb toruma,
İtirib yolların, quş verib gedər.
Qorxusundan çatlayıb dodaqları,
Ağzın dərya təki cuş verib gedər.

Aldı Şah İsmayıl:

Qəndəhardan gəldim murad almağa,
Ərəb, yol ver, yol ver, incitmə məni!
Mən cahılam, gəldim kəndi başıma,
Ərəb, yol ver, yol ver, incitmə məni!

Aldı Ərəb Zəngi:

Minnət etmə cahal, baxmam sözünə,
Nə tez şikəst verdin özün özüvə.
Qara sular endirmişəm gözüvə,
Hər gələn burada baş verib gedər.

Aldı Şah İsmayıl:

Çox danışma, mən də duymuşam cana,
Dava istəyirsən, girək meydana!
Misri qılınc bulaşar al qana,
Ərəb, yol ver, yol ver, incitmə məni!

Aldı Ərəb Zəngi:

Oğlan, dəlimisən, bəgənə bəngi,
Qorxudan qaçıbdı üzüvün rəngi.
Məgər eşitməmisən Ərəb Zəngi?
Hər gələn burada baş verib gedər.

5. Laçın variantında bu qoşma belədir:

Genə duman oldu hindi çölləri,
Oyan, İsmayılım, gör nələr oldu!
Qanlara buladım baş-bədənləri,
Oyan, İsmayılım, gör nələr oldu!

Xəbərimiz indi getdi Türkmana,
Suyunu səpmişəm bir qətrə qana,
Min tülkü neyləsin bir ac aslana,
Oyan, İsmayılım, gör nələr oldu!

Hamıdan sonra gəldi firəngi,
Bunlar mənim ilə etdilər cəngi.
Sana qurban olsun Ərəbi Zəngi,
Oyan, İsmayılım, gör nələr oldu!

6. Laçın variantında bu qoşma belədir:

Əvvəl, ata, sənin oğlun yox idi,
Amandı, şah baba, öldürmə məni!
Dərd-düyün canında sənin çox idi,
Amandı, şah baba, öldürmə məni!

Kəsmə bu dünyadan e'tibarımı,
Ərşə qaldırmagil ahu zarımı,
İstərisən verim Gülzarımı,
Amandı, şah baba, öldürmə məni!

İsmayıl deyər ki, amandı bacı,
Əfəndim, soltanım, başımın tacı,
Adam kəsməz öz əkdiyi ağacı,
Amandı, şah baba, öldürmə məni!

**MÜNDƏRİCAT**

Şah İsmayıl...............................................................3

Şah İsmayıl  (Əli Təbrizi variantı)..........................48

**Azərbaycan folkloru külliyyatı,**
**XXII cild, Dastanlar (XII kitab),**
Bakı, "Nurlan" nəşriyyatı, 2011

*Nəşriyyat direktoru:*
***Nadir Məmmədli***

Kompüterdə yığdı:
***Səadət Əliyeva***

**Korrektoru:**
***Güllər Qələndərli***

Kompüter tərtibçisi və
texniki redaktoru:
***Ramin Abdullayev***

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 23,25 ç/v
Tirajı: 385
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.